*VASİF SALMAN OĞLU QULİYEV*
*Hüquq elmləri üzrə fəlsəfə doktoru*

# NARKOMANLIĞA, NARKOTİK VASİTƏLƏRİN VƏ PSİXOTROP MADDƏLƏRİN QANUNSUZ DÖVRİYYƏSİNƏ QARŞI MÜBARİZƏ: KOMPARATİV - TƏHLİL

*(Dünya ölkələrinin və beynəlxalq təşkilatlarların narkomanlıqla bağlı mübarizə tədbirləri: mövcud vəziyyət, səciyyəvi meyillər, milli səviyyədə narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinin qarşısının alınması)*

*Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzinin Elmi Şurasının 22 dekabr 2025-ci il tarixli 3-16-16/3-005/2025 saylı qərarı ilə təsdiq edilmişdir.*

**Bakı – Ecoprint – 2026**

**Kitab Azərbaycan Respublikası Narkomanlığa və Narkorik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupunun dəstəyi ilə çap olunmuşdur.**

**Elmi redaktor:** **Şəhla Tofiq qızı Səmədova**
BDU-nin Cinayət hüququ və kriminologiya kafedrasının müdiri, Hüquq elmləri doktoru, professor

**Rəyçilər:** **Habil Surxay oğlu Qurbanov**
AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun
Fəlsəfə - Hüquqi təlimlər və suverenlik, şöbəsinin müdiri
Hüquq elmləri doktoru, professor

**Həzi Arif oğlu Aslanov**
Daxili İşlər Nazirliyinin genral-mayoru
Hüquq elmləri üzrə fəlsəfə doktoru

**Nərminə Elmir qızı Sadıqova**
Ədliyyə Nazirliyi Məhkəmə Ekspertizası Mərkəzinin narkotik vasitələr və psixotrop maddələrin ekspertizalar şöbəsinin rəisi

**Quliyev V.S. Narkomanlığa, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə: komparativ-təhlil.** Monoqrafiya-Bakı: Ecoprint-2026, 312 s.

*Monoqrafiyada dünyanın bir sıra ölkələrində (Almaniya, ABŞ, Fransa, Türkiyə, Kanada, İspaniya və s.) narkomanlığın və narkocinayətkarlığın müasir vəziyyəti, səciyyəvi meyilləri təhlil edilmiş, beynəlxalq və milli səviyyədə narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinin qarşısının alınması, o cümlədən narkomanlığın profilaktikasının əsas istiqamətləri nəzərdən keçirilmiş və təcrübələri öyrənilmişdir. Bununla yanaşı, narkotik vasitələrdən və psixotrop maddələrdən istifadə tarixi öyrənilmiş, həmçinin narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə mübarizəyə istiqamətlənmiş BMT-nin Konvensiyalarının əsas müddəalarının mahiyyət və məzmunu açılmış, bu sahə üzrə ixtisaslaşan beynəlxalq və regional orqanların əsas fəaliyyət istiqamətləri araşdırılmışdır.*

*ISBN: 978-9952-29-074-2*

**© Vasif Salman oğlu Quliyev**

# MÜNDƏRİCAT

GİRİŞ......................................................................................4
**FƏSİL** 1. NARKOTİK VASİTƏLƏRDƏN VƏ PSİXOTROP MADDƏLƏRDƏN İSTİFADƏ TARİXİ..........................................8
**FƏSİL** 2. ƏN ÇOX İSTİFADƏ EDİLƏN PSİXOAKTİV MADDƏLƏRİN XÜSUSİYYƏTLƏRİ VƏ ONLARIN SAĞLAMLIĞA ZƏRƏRLİ TƏSİRİ..............................................37
**FƏSİL** 3. QLOBALLAŞMA DÖVRÜNDƏ NARKOMANLIQ VƏ NARKOBİZNES (NARKOTİK VASİTƏLƏRİN VƏ PSİXOTROP MADDƏLƏRİN QANUNSUZ DÖVRİYYƏSİ): MÖVCUD VƏZİYYƏT VƏ MÜASİR  MEYİLLƏR......................................45
**FƏSİL** 4. NARKOTİK VASİTƏLƏRİN VƏ PSİXOTROP MADDƏLƏRİN QANUNSUZ DÖVRİYYƏSİ İLƏ MÜBARİZƏ HAQQINDA KONVENSİYALAR ..............................................105
**FƏSİL** 5. NARKOTİK VASİTƏLƏRİN VƏ PSİXOTROP MADDƏLƏRİN QANUNSUZ DÖVRİYYƏSİNƏ QARŞI MÜBARİZƏNİ HƏYATA KEÇİRƏN BEYNƏLXALQ VƏ REGİONAL ORQANLAR..............................................................149
**FƏSİL** 6. DÜNYANIN BİR SIRA ÖLKƏLƏRİNDƏ NARKOTİK VASİTƏLƏRİN VƏ PSİXOTROP MADDƏLƏRİN QANUNSUZ DÖVRİYYƏSİNƏ GÖRƏ MƏSULİYYƏT NƏZƏRDƏ TUTAN CİNAYƏT QANUNVERİCİLİYİ: MÜQAYİSƏLİ-HÜQUQİ TƏHLİL ..............................................185
**FƏSİL** 7. XARİCİ ÖLKƏLƏRDƏ NARKOTİK VASİTƏLƏRİN VƏ PSİXOTROP MADDƏLƏRİN QANUNSUZ DÖVRİYYƏSİNİN QARŞISININALINMASI, NARKOMANLIĞIN PROFİLAKTİKASI ...................................214
ƏDƏBİYYAT .........................................................................234
ƏLAVƏ 1 ..............................................................................255
ƏLAVƏ 2 ..............................................................................266
ƏLAVƏ 3 ..............................................................................269

# GİRİŞ

XX əsrin sonundan başlayaraq qloballaşan dünyada sürətlə yayılan neqativ sosial-hüquqi hadisələr sırasında millətin sağlamlığı üçün olduqca təhlükəli olan, ictimai şüuru deformasiyaya uğradan, son illərdə təhlükəli miqyaslar alan, ölkələrin iqtisadiyyatına ciddi zərər vuran, cəmiyyətin mənəvi-əxlaqi durumuna mənfi təsir edən, milli təhlükəsizliyi sarsıdan narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi, narkomanlıq xüsusi olaraq qeyd edilməlidir.

Ulu öndər Heydər Əliyev hələ 1997-ci ildə Birləşmiş Millətlər Təşkilatının Yaxın və Orta Şərqdə Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Nəzarət üzrə Yardımçı Komissiyasının 32-ci Sessiyasının açılışında çıxış edərək demişdir: «Biz dünyada ümumbəşəri problemlərin tezliklə həll olunmasının tərəfdarıyıq və bundan sonra da bütün insanlar üçün böyük təhlükə olan narkomaniya və narkobizneslə mübarizənin ön sıralarında olacağıq». Ümummilli Lider, «narkomaniya və narkobiznes ilə mübarizənin hər bir ölkənin, xalqın, millətin fiziki və şüuri sağlamlığı uğrunda aparılan mübarizə olduğunu» qeyd etmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə məsələlərinə həsr olunmuş beynəlxalq tədbirlərdə çıxış edərkən bildirmişdir: «Coğrafi mövqeyindən, ictimai-siyasi quruluşundan, inkişaf səviyyəsindən, mədəni və tarixi əlaqələrindən asılı olmayaraq, elə bir ölkə yoxdur ki, dövrümüzün qlobal problemlərindən biri olan narkotiklərin qanunsuz dövriyyəsi ilə qarşılaşmasın».

Ölkə Prezidenti XXI əsrin  ən təhlükəli çağırışlarından biri hesab edilən narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinin, narkomanlığın bəşəriyyətin gələcəyi üçün böyük təhlükə yaratdığını qeyd etmiş, məhz buna görə də

son illərdə dünya dövlətlərinin narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizə üsullarını və narkomanlığın müalicəsi metodlarını təkmilləşdirmək istiqamətində ciddi səylər göstərdiklərini xüsusi olaraq vurğulamışdır.

H.e.d. Ş.T.Səmədova düzgün olaraq göstərir ki, «Narkotik maddələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinin yayılma miqyası bəşəriyyətin qlobal problemlərindən biridir. Belə ki, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz ticarətindən əldə olunan illik qazanc həcmi, məsələn, neft ticarətini üstələyərək qanuni silah ticarətindən sonra ikinci yerdədir. Dövlətlərin bu əmələ qarşı birgə mübarizə zərurəti, heç bir ölkənin hüquq-mühafizə orqanlarının güclərini birləşdirmədən beynəlxalq xarakterli bu cinayətlərə qarşı mübarizədə müvəffəq olacağına ümid bəsləməməsi ilə əlaqədardır. Bu cinayətin beynəlxalq təhlükəliliyi həm də ondan ibarətdir ki, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi beynəlxalq xarakterli digər cinayətlərlə-beynəlxalq terrorçuluq, insan alveri, cinayət yolu ilə əldə edilmiş pul və ya digər əmlakın leqallaşdırılması və s. ilə sıx bağlıdır» [1].

H.e.d. B.S.Zahidov, narkotik vasitələrin və psioxtrop maddələrin qanunsuz dövriyyəsinin böyük sosial təhlükə kəsb etdiyini qeyd edərək yazır: «Müasir mərhələdə narkotizmin və narkobiznesin ictimai təhlükəliliyi onda təzahür edir ki, o artıq uzun illərdən bəri ayrıca götürülmüş bir məkanın, yaxud müəyyən bir əhali qrupunun sosial-hüquqi faciəsi olmaq hüdudlarını aşmışdır. Son dərəcə təhlükəli olan bu kriminal hadisə öz böyük ictimai təhlükəliliyi ilə yaşadığımız planeti bürüyərək, bütün insan-

---

[1] Səmədova Ş.T. Azərbaycan Respublikasının cinayət hüququnda narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə görə məsuliyyətin problem məsələləri//Bakı universitetinin xəbərləri. Sosial-siyasi elmlər seriyası. 2021. №1, s.7

lığın ümumbəşəri qlobal probleminə çevrilmişdir»[2].Transmilli mütəşəkkil cinayətkarlığın, onun ən müxtəlif forma və növlərinin tüğyan etdiyi müasir şəraitdə narkotiklərin qanunsuz dövriyyəsinin dünya miqyasında geniş yayılması narkomanlığı bəşəriyyətin ən qlobal problemlərindən birinə çevirmişdir.

AMEA-nın vitse-prezidenti, akademik İ.Hüseynovanın qeyd etdiyi kimi, «narkomaniya, narkotik tərkibli maddələrdən sui-istifadə, onların istehsalı, ticarəti, törətdiyi fəlakətlər yüz illər boyunca olduğu kimi, 21-ci əsrdə də bəşəriyyətin varlığını və inkişafını təhdid edən ən təhlükəli qlobal problemlərdən biri olmaqda davam edir» [3].

F.Şahverdiyev qeyd edir ki, «müasir dövrün ən ciddi qlobal çağırışlarından biri olan narkotik vasitələrin qanunsuz dövriyyəsi və narkomanlıq problemi artıq milli sərhədləri aşaraq bəşəriyyətin bu günü və gələcəyi üçün real təhlükə mənbəyinə çevrilmişdir»[4]. Bu mənfi tendensiyanın doğura biləcəyi sosial, iqtisadi və mənəvi fəsadların qarşısının alınması məqsədilə dünya dövlətləri narkomanlığa qarşı mübarizə mexanizmlərini və müalicə metodlarını daim təkmilləşdirir, eyni zamanda beynəlxalq əməkdaşlıq çərçivəsində birgə fəaliyyət imkanlarını genişləndirirlər.

Təsadüfi deyildir ki, 8 sentyabr 2000-ci il tarixdə qəbul edilmiş BMT-nin minilliyin Bəyannaməsində iştirakçı-dövlətlər transmilli cinayətkarlıq və beynəlxalq terrorizmlə mübarizənin gücləndirilməsi ilə yanaşı, bütün istiqamətlərdə narkotiklərlə bağlı dünyəvi problemlərə birgə səylərlə qarşıdurma öhdəliyini öz üzərlərinə götürmüşlər.

---

[2] Zahidov B.S. Azərbaycanda narkotizmlə və narkobizneslə mübarizənin aktual problemləri. Bakı: Təknur, 2007, s.124

[3] Hüseynova İ. Narkomaniya müasir dövrün qlobal problemidir//www.nmdk.gov.az

4 Şahverdiyev F. Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirləri səmərəli və uğurla həyata keçirilir. https://nmdk.gov.az

Məhz qeyd olunan bu amillər, narkomanlığın və narkocinayətkarlığın qloballaşma dövründə dünyada, onun əksər ölkələrində daha təhlükəli miqyaslar və meyillər alması nəzərə alınmaqla, monoqrafiyada qloballaşma dövründə dünyanın ayrı-ayrı ölkələrində narkomanlığın və narkocinayətkarlığın müasir vəziyyəti, səciyyəvi meyilləri təhlil edilmiş, beynəlxalq və milli səviyyədə narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinin qarşısının alınması və narkomanlığın profilaktikasının əsas istiqamətləri nəzərdən keçirilmişdir. Eyni zamanda narkotik vasitələrdən və psixotrop maddələrdən istifadə tarixi öyrənilmiş, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə mübarizəyə istiqamətlənmiş BMT Konvensiyalarının əsas müddəalarının mahiyyət və məzmunu açılmış, bu sahə üzrə ixtisaslaşan bir sıra beynəlxalq və regional orqanların əsas fəaliyyət istiqamətləri öyrənilmişdir.

# FƏSİL 1. NARKOTİK VASİTƏLƏRDƏN VƏ PSİXOTROP MADDƏLƏRDƏN İSTİFADƏ TARİXİ

Məlum olduğu kimi, narkomaniya (narkomaniya yunan sözüdür, bihuşluq-maniya) etiologiyası və insan həyatına daxil olması tarixinə nəzər salsaq, eramızdan əvvələ gedib çıxarıq[4]. Xüsusi ədəbiyyatda narkotik təsirə malik maddə və vasitələrin qədim dövrlərdən başlayaraq istifadə edildiyi göstərilir[5]. Q.H.Əliyev narkotiklərin bəşəriyyətə qədimlərdən məlum olduğunu, onlardan istifadə tarixinin min illərlə ölçüldüyünü, onlardan ilk istifadə hallarının isə tərkibində narkotik maddələr olan bitkilərin bitdiyi ərazilərdə yaşayan insanların məişəti və dini etiqadları, ənənələri ilə bağlı olduğunu qeyd edərək yazır ki, «2000 il əvvəl Andlarda yaşayan hinduların müqəddəs saydıqları koka bitkisindən, bundan da xeyli əvvəl Ərəb Şərqinin əhalisinin tiryəkdən istifadə etmələri məlumdur. Məhz bu regionların əhalisi ilk narkotik istehlakçıları olmuş, regionların özləri isə narkotik tərkibli bitkilərin yayıldığı ilk regionlar sayılır. Belə regionlar sırasında Cənub-Şərqi Asiyanı (tiryək xaş-xaşı), Cənubi Amerikanı (koka-kolu),Yaxın Şərq, Orta Asiya, Pakistan, Əfqanıstan, Hindistan (kannabis) və s. göstərmək olar»[6].

Narkotik vasitələrin və psixotrop maddələrin, sintetik narkotiklərin və psixostimulyatorların əsas və ən geniş yayılmış növləri olan tiryək və kannabis məhsullarının (morfin, heroin, marixuana, həşiş və s.), kokain, habelə LSD, amfetamin və sair kimi sintetik narkotiklərdən və psixostimulyatorlardan, hallüsinogenlərdən tibbi və qeyri tibbi məqsədlərlə istifadə hallarının yaranması tarixinə nəzər salınması, qədimlərdən onlardan isti-

---

4 Məmmədov M.S., Abdullayev A.Q. Narkomaniya, alkoqolizm və ... Bakı: 1995, s.203.
5 Abdullayev Y., Cavadov F. Narkomaniya və narkotizm (Dünya ölkələrinin və beynəlxalq təşkilatların narkotiklərlin qanunsuz dövriyyəsi ilə mübarizə təcrübəsi). Bakı: 2004, s.19
6 Əliyev Q.H. Narkomaniya və narkotizmlə mübarizə problemləri. Bakı: 1999, s.12-13.

fadə məqsədləri, yayılması ilə bağlı məsələlərin araşdırılması narkomanlıq və narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı hazırda mövcud olan problemlərin idrakı, narkomanlığın profilaktikası, narkobizneslə mübarizənin əsas istiqamətlərinin müəyyən olunması nöqteyi-nəzərindən mühüm əhəmiyyət kəsb edir[7].

**1)Tiryək xaş-xaşı məhsullarından (morfin və heroin və s.) istifadə tarixi**

Narkotik xassəli bitkilər ailəsinə daxil olan və insanlar tərəfindən istifadə edilən tərkibində narkotik olan ən qədim bitki Şərqi və Orta Asiyada, bəzi Avropa ölkələrində geniş yayılmış tiryək xaş-xaşıdır. Qədim xalqların mifologiyasında xaş-xaş ağrı və əzəblardan qurtulmaq simvolu sayılmış, onun qozasından alınan şirə, yəni tiryək tibbi məqsədlərə xidmət etmişdir. Xaş-xaş qutucuğu bir çox qədim yunan miflərində ağrı və iztirablara son qoyan simvol kimi təsvir olunmuşdur.

Təbabətdə tiryəkdən istifadə olunması haqqında ilk məlumatlara eramızdan əvvəl yaşayıb-yaratmış yunan, roma, ərəb alim və həkimlərinin əsərlərində rast gəlmək mümkündür. A.Kəngərli tiryəkin vətəninin Kiçik Asiya hesab olunduğunu qeyd edir[8]. Eramızdan 5000 il əvvəl Şumer kitabələrində tiryək haqqında yazılmış və bu narkotik vasitə Şumer dilindən tərcümədə tiryək «sevinc» mənasını verir. İnklər və asteklərdən danışan tarixçilər də tiryəkin narkotiklərin bu sivilizasiyalara məlum olduğunu göstərirlər[9]. Q.Əliyev, narkotik tərkibli bitkilərdən biri sayılan xaş-xaşın eramızdan 5 min il əvvəl dərman bitkisi sayıldığını, insanlar tərəfindən tiryəkin qədimlərdən becərildiyini, təbiblərin bu bitkinin köməyi ilə xəstələri yatırmaq,

---

[7] Abdullayev Y., Cavadov F. Narkomaniya və narkotizm (Dünya ölkələrinin və beynəlxalq təşkilatların narkotiklərlin qanunsuz dövriyyəsi ilə mübarizə təcrübəsi). Bakı: 2004, s.19-20

[8] Kəngərli A. Narkotik maddə-ailəvi qırğın «silahı». Bakı: 2017, s.24

[9] Наркотики: история беды. Информационный буклет. Кулебаки, 2019, с.2

böyük işgəncə və əzabları qismən azaltmaq, ağrı kəsici vasitə kimi, bəzi xəstəliklərin müalicəsində və s. istifadə edilməsi haqqında tarixi faktların mövcudluğunu qeyd edir[10]. Ş.Hüseynov yazır ki, «Mesopatamiyada Ninkur şəhərində tapılan taxta parçası üzərində yazılarda (e.ə. 3000 il) səhər sübhdən tiryək şirəsinin yığılması və ondan tiryəkin hazırlanması prosesi əks etdirilmişdir»[11].

Britaniya misirşünası R.Tompson 1924-cü ildə nəşr etdiyi əsərində e.ə. 7-ci əsrin qədim Misir əlyazmalarında xaş-xaşın yığılmasından və alınan tiyəkdən tibbi məqsədlərlə istifadəsi faktlarından yazır[12]. Ş.Hüseynov göstərir ki, e.ə. 1300-cü ildə Misirdə yetişdirilən tiryək xaş-xaşı Aralıq dənizi ölkələrində satılırdı. E.ə. 1100-cü ildə Kiprdə də onun yetişdirilməsinə başlanmışdı. Güman edilir ki, yunan təbabətində b.e. əvvəl 5-ci əsrdə, Çin təbabətində isə e.ə. 8-ci əsrdə tiryəkdən istifadə edilməyə başlanmışdı[13]. İ.V.Odnolko Homerin yaşayıb-yaratdığı dövrdən (eramızdan əvvəl 12-7-ci əsrlər) tiryəkin tibbi praktikada bir sıra xəstəliklərdən irəli gələn ağrıların götürülməsində istifadə edildiyini göstərir[14]. Ulyankina T.İ. yazır ki, arxeoloji qazıntılar zamanı xaş-xaş toxumlarının və qutucuqlarının Şimali Avropanın Bodensk gölünün yaxınlığında aşkar edilməsi tarixçilərə bu ərazidə xaş-xaş plantasiyalarının erkən Tunc dövründə mövcud olmasına əsas verdi. Müasir İsveçrə ərazisində də xaş-xaşın qədim izləri tapılmışdır. Bu bitkinin təsviri e.ə. 5-ci əsrə aid olan

---

10 Əliyev Q. Narkomaniya və narkotizmlə mübarizə problemləri. Bakı: 1999, s.11

11 Hüseynov Ş. Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə: elmi-nəzəri, hüquqi-təcrübi məsələləri və problemlərinin həlli yolları. Dərs vəsaiti. Bakı: 2016, s.22

12 Ульянкина Т.И. История опиумных препаратов и проблема возникновения наркомании//rmc.ru/articles/anesteziologiya/

13 Hüseynov Ş. Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə: elmi-nəzəri, hüquqi-təcrübi məsələləri və problemlərinin həlli yolları. Dərs vəsaiti. Bakı: 2016, s.22

14 Однолько И.В. Исторические и современные аспекты противодействия незаконному обороту наркотиков среди несовершеннолетних//Проблемы правоохранительной деятельности. 2011. №1, с.67.

şumer cədvəllərində də vardır. Herodot (e.ə. 5-ci əsr) massagetlər (Xəzər dənizinin şimal sahilləri) tayfasının (skiflərə aid olan tayfadır) məişəti barədə məlumat verərkən yazırdı: «onlar ağacın ətrafında oturur, tonqala müəyyən bir bitkinin meyvəsini atır və sonradan ellinlilər şərabdan sərxoş olduqları kimi, bu meyvələrdən yanmasından alınan tüstüdən keflənirdilər». Digər müəlliflər isə hesab edirlər ki, arxeoloqlar tərəfindən bu və digər ərazilərdə olan mağaralarda aparılan elmi tədqiqatlar tiryək xaşxaşından Daş dövründən istifadə edildiyini göstərir. Məsələn, alman alimi L.Levin İsveçrə göllərinin dibindən götürülmüş torpaq nümunələrində xaş-xaş laləsinin toxumlarını aşkar etmişdi[15].

İlk minillikdə tiryək Qədim Romada olduqca məhşurlaşmışdı ki, bunda da tiryəkdən müalicə vasitəsi kimi istifadə edən təbiblərin böyük rolu olmuşdur. Hippokratın (e.ə. 440-377-ci illər) əsərlərində də tiryək xaş-xaşının şirəsindən bir sıra xəstəliklərin müalicəsi məqsədilə istifadə edilməsi barədə müəyyən qeydlərə rast gəlmək olar[16]. Hippokratın bir sıra əsərlərində «mekonin» adlanan maddənin təsirindən bəhs edilir. Tarixi mənbələrə əsaslanıb deyə bilərik ki, Hippokratın özü də tibbi praktikada heroindən istifadə etmişdi[17].

Teofrastın əsərlərinin birində (eramızdan əvvəl 350-ci il) tiryək xaş-xaşının süd şirəsi daha aydın şəkildə qeyd olunur. Müəllifin işlətdiyi «mekonin»in birmənalı şəkildə tiryək olduğu aydındır. O, tiryəki göz xəstəliriklərinin və psixi pozuntuların müalicəsi zamanı istifadəsi mümkün olan ən təsirli vasitələrdən biri kimi xarakterizə edirdi[18].

---

[15] Юнак В.Ю. Наркомания-дорога в бездну. Киев: 2002, с.8

[16] Наркотики: история беды. Информационный буклет. Кулебаки, 2019, с.2

[17] Однолько И.В. Исторические и современные аспекты противодействия незаконному обороту наркотиков среди несовершеннолетних//Проблемы правоохранительной деятельности. 2011. №1, с.67.

[18] Ульянкина Т.И. История опиумных препаратов и проблема возникновения наркомании//rmc.ru/articles/anesteziologiya/

B.S.Zahidov qeyd edir ki, «Be.ə. 329-cu ildə Makedoniyalı İsgəndər Çinə yürüş edib Qaşqar şəhərində qərar tutmuşdur. Bu zaman tarixdə ilk dəfə olaraq Çin ipəyinin yunan tiryəkinə dəyişdirilməsi baş vermiş, beləliklə tarixdə narkobiznesin əsası qoyulmuş, həm də Çin ipəyinin sirri açılmışdır. Tiryəkin yolu Tibetdən başlanıb, Kəşmir, Əfqanıstan, Qazaxıstan, Qara dəniz, Xəzər dənizi, İran, Azərbaycan, Gürcüstan, Rusiya və Türkiyədən keçərək Avropaya gedib çıxmışdır. Bunu nəzərə alan məşhur fransız alimi Mişel Ktuzis «İpək yolunu» həm də «Tiryək yolu» adlandırmışdır»[19]. Qədim Roma yazıçısı və dövlət xadimi Mark Porsiy Katon (e.ə. 234-149-cu illər) və Roma alim-ensiklopedisti Mark Terensiy Varron (e.ə.116-27-ci illər) öz əsərlərində müxtəlif narkotik vasitələri qeyd etmişlər. Onların sırasında tiryək-zəfəran tinkturasının tərkibinə daxil olan xaş-xaş barədə də qeydlər vardır[20].

S.H.Məmmədova və A.T.Naibova yazırlar ki, «bizim eradan əvvəl 2-ci əsrdə Parfiya hökmdarı Mitridat tiryək adlanan zəhərlənməyə qarşı dərman hazırlamışdı. 129-cu ildə anadan olmuş məşhur romalı filosof, həkim, anatom və farmakoloq Klavdi Qalenin iki kitabı tiryəklərə, Əbu Əli İbn Sinanın «Qanunlarında» bir fəsil tiryək reseptlərinə həsr olunmuşdur. Tiryəkin tərkibində narkotik vasitənin olması heç də mütləq şərt deyildir. Məsələn, İbn Sina göstərdiyi 87 tiryək reseptindən yalnız 41-nin tərkibində narkotik maddələrin olması göstərilir»[21].

Skriboniy Larqiy öz əsərlərinin birində (bizim eranın 40-cı illəri) xaş-xaş qutucuqlarından tiryəkin yığılması metodunu ətraflı şəkildə təsvir edirdi. Valafrid Strabon isə «Bağ mədəniyyəti haqqında» əsərində xaş-xaşın becərilməsi qaydalarından ya-

---

[19] Zahidov B.S. Azərbaycanda narkotizmlə və narkobizneslə mübarizənin aktual problemləri. Bakı: 2007, s.89

[20] Юнак В.Ю. Наркомания-дорога в бездну. Киев: 2002, с.12

[21] Мяммядов С.Щ., Наибова А.Т. Азярбайжан классик ядябиййатында наркоманийа елементляри //Антинаркотизм. 2001, №1, с.92-95.

zırdı. Avropada farmakologiyasının əsasını qoyanlardan biri hesab olunan qədim yunan həkimi Dioskorid kitablarının birində «mekanin» adlandırdığı bitkinin və xaş-xaş qutucuqlarının şirəsindən hazırlanan ekstraktların aktivliyini analizi nəticələri təsvir edilmişdi. Qeyd edək ki, Dioskorid tiryəki bəzən «dio-kodion» da adlandırırdı ki, bu addan da 19-cu əsrin sonlarında nəşr olunan «Alman farmakologiyası» kitabında istifadə edilmişdir.

Tiryəkdən tibbi istifadə ilə bağlı qeydlərə Pliniyin (bizim eranın 1-ci əsri) 37 cildlik «Təbii tarix» kitabında da təsadüf edilir. Qədim Roma həkimi olan Klavdiy Qalen (bizim eranın 129-201-ci illəri) öz əsərlərində tiryəkin «möcüzəli» təsirindən yazmışdır[22].

Ərəb həkimləri bir neçə əsr sonra tiryək və ondan hazırlanmış preparatları tibbi praktikada intensiv şəkildə tətbiq etməyə başlayırlar. Avropada Avisenna kimi tanınan Abu Əli İbn Sina (980-1037-ci illər) diareya və göz xəstəliklərində tiryəkdən istifadəni tövsiyə edirdi. Qeyd edək bəzi tarixçilər onun ölümünü tiryəkdən istifadə zamanı doza həddinin aşması ilə əlaqələndirirlər. Pfrasels XV əsrdə tiryək əsasında olan ilk dərman preparatını öz pasientinə verdiyi barədə yazmışdır. Parasels tiryəkdən müxtəlif psixi pozuntuların müalicəsində istifadə edirdi. Sidenxem tiryək preparatlarını isteriya və ipoxondriyanın müalicəsi zamanı tətbiq edirdi.

Qədim dövrlərin və orta əsrlərin məşhur həkimlərinin traktaktlarında öz əksini tapmış qeydlər göstərir ki, onlar tiryəkin yalnız müsbət xassələrini qeyd etmişlər ki, bu da əsasən o dövrdə təbabətin səviyyəsi və tibbi biliklərin kifayət etməməsi ilə izah oluna bilər. Məhz buna görə də o dövrün təbibləri tiryək qəbul edən insanın orqanizmində yaranan və geriyə dönüşü olmayan ağır nəticələri üzə çıxarmağa, narkotiklərin qəbulunun

---

[22] Ульянкина Т.И. История опиумных препаратов и проблема возникновения наркомании//rmc.ru/articles/anesteziologiya/

insan orqanizmində hansı fəsadları doğura biləcəyini izləməyə imkan verməmişdir.

Ş.Hüseynov qeyd edir ki, tiryək ilk dəfə müalicəvi deyil, narkotik vasitə kimi XV əsrdə Böyük Monqol imperiyasında, əsasən də Şimali Hindistan şəhərlərində geniş istifadə edilirdi. 1556-1605-ci illərdə Əkbər I Cəlal ad-dinin idarəçiliyi dövründə tiryək ticarəti Böyük Monqol İmperiyasının mühüm gəlir mənbələrindən birinə çevrilir. «Hindistanın şərqində, Kəlküttəyə yaxın ərazidə-Qanqa çayının yuxarı vadilərində (benqal tiryəki) və Hindistanın qərbində-Bombeydən şimalda (Malvin tiryəki) tiryək xaş-xaşı yetişdirilirdi» [23].

Çində tiryək xaş-xaşının yaranması və istifadəsi XVII əsrə aid olan tibbi kitablarda qeyd olunur. Uzun müddət tiryək ölkəyə Hindistandan, sonradan isə Portuqaliyadan gətirilirdi. XVII əsrin ikinci yarısına qədər tiryək müstəsna olaraq, dərman, əsasən də dizenteriyaya qarşı effektiv vasitə kimi Çinə gətirilirdi. XVII əsrdə İspanlar və Hollandlar Filippində və Cənubi Çində ticarət zamanı bu ölkələrə tütün məmulatlarını gətirməyə, bu zaman tütünə tiryək əlavə etməyə başlamışlar. Hollandlar tiryəki malyariya ilə mübarizə vasitəsi hesab edirdilər[24].

B.S.Zahidov bununla bağlı yazır: "Çində tiryək xaş-xaşının tibbi xüsusiyyətləri çoxdan məlum idi, lakin bu bitkidlən narkotik kimi geniş istifadə edilmirdi. Lakin 16-cı əsrdən başlayaraq tütünçəkmə vərdişləri yayıldıqca tiryəkin tütünə qarışdırılaraq çəkilməsi də yayılmağa başladı. Çinin cənubunda ticarətçilərlə yanaşı, tərkibində tiryək olan tütün məmulatlarını zadəganlar da çəkməyə başladı və beləliklə də, tiryək çəkmə vərdişləri Çinin daxilinə yayılmağa başladı. Bunun qarşısını almaq məqsədilə

---

[23] Hüseynov Ş. Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə: elmi-nəzəri, hüquqi-təcrübi məsələləri və problemlərinin həlli yolları. Dərs vəsaiti. Bakı: 2016, s.22

[24] Ульянкина Т.И. История опиумных препаратов и проблема возникновения наркомании//rmc.ru/articles/anesteziologiya/

18-ci əsrdə Çin imperatoru tiryək çəkmənin və bu maddə ilə ticarətin qadağan edilməsi ilə bağlı Fərman verdi. Lakin 1729 və 1799-cu il Fərmanlarına baxmayaraq, tiryək Çinə daxil olmağa, məmurlar isə tiryək qaçaqmalçılığında iştirak etməkdə davam edirdilər. Məhz bu işdə Ost-Hind şirkəti böyük rol oynadı. 18-ci əsrin 70-ci illərində bu şirkət tiryəklə ticarətdə inhisarçı idi və bu işdə şirkəti qeyri-rəsmi olaraq Birləşmiş Krallığın hökuməti də dəstəkləyirdi. 1770-ci illərin ortalarında Çində il ərzində 1,5 ton tiryək satılırdı. Birinci «tiryək müharibəsinin» başlandığı ərəfədə tiryək qaçaqmalçılığının həcmi il ərzində bir neçə min yeşik təşkil edirdi”[25].

Ölkədə əhalinin əhəmiyyətli hissəsində tiryəkdən asılılıq yaranmasına gətirdiyini nəzərə alaraq, 1729-cu ildə Çin imperatoru Yunq Çanqa, 1800-cü ildə isə imperator Kia Konqa Çində çəkmək üçün tiryəkin satılmasını və ölkədə mövcud olan tiryəkxanaların qadağan edilməsi barədə Qanun imzaladılar. Bu qanunlara baxmayaraq, İngiltərə və Hollandiya qazanc dalınca qaçaraq Çinə böyük tiryək partiyalarının qaçaqmalçılıqla gətirilməsini davam etdirdilər. Yarım əsrlik bir dövr ərzində min tonlarla tiryək (1820-ci ildə 6000 yeşik, 1880-cı ildə isə artıq 100 min yeşik) dünyanın ən sıx məskunlaşmış və ən mədəni ölkələrindən biri sayılan Çini daxilən parçalamış, bu ölkənin əhalisinin mənəviyyat və əxlaqına, sağlamlığına olduqca mənfi təsir göstərmişdir[26]. Ölkəni tiryək ekspansiyasından qorumaq cəhdi Çin və İngiltərə, sonradan isə Çin və Fransa (1839-1860-cı illər: Birinci Tiryək müharibəsi-1840-1842, İkinci Tiryək müharibəsi-1856-1860) arasında «tiryək müharibələri» adlandırılan müharibələrə gətirdi.

---

[25] Zahidov B.S. Azərbaycanda narkotizmlə və narkobizneslə mübarizənin aktual problemləri. Bakı: 2007, s.84

[26] Əliyev Q. Narkomaniya və narkotizmlə mübarizə problemləri. Bakı: 1999, s.14

Bu müharibələrdə Çinin məğlub olması ona gətirdi ki, ölkə xarici dövlətlərə tiryəkin ölkəyə gətirilməsinə razılıq verməyə məcbur oldu. Nəticədə, Çində tiryək çəkmə daha geniş miqyaslar aldı.

A.Kəngərli qeyd edir ki, ingilislər Çindən ipək, düyü, çay, qızıl və xəz alır, dəyərini isə tiryəklə ödəyirdilər. İngilislərin əsas məqsədi-Çini iqtisadi və hərbi cəhətdən sarsıtmaq, onu parçalayıb sərvətlərini Hindistan kimi talayıb aparmaq idi. Tiryəki Çinli gənclərin başına açdığı bəlalardan xilas etmək üçün Çin imperaturu 1839-cu ildə Kantonda «tiryək ehtiyatlarını müsadirə və məhv etmək, tiryək yüklü gəmiləri isə dənizdə batırmaq» barədə Fərman verdi və bunu bəşəriyyət tarixində ilk antinarkotik dövlət tədbiri hesab etmək olardı[27].

Çin imperatorunun bu fərmanı ölkənin suverenitetini saxlamaq məqsədilə tiryəklə mübarizəyə, bu narkotik vasitənin kütləvi müsadirəsi və məhv edilməsinə yönəlmişdi. Bu məqsdlə hətta göyərtəsində tiryək olan gəmilər belə ölkəyə daxil olmamışdan ələ keçirilir, yandırılır və ya batırılırdı. Bu dövr tarixdə dövlət tərəfindən həyata keçirilən ilk antinarkotik proqram hesab edilə bilər.

1839-cu il hakimiyyəti başda mançcur sülaləsinin imperatoru Tsik Dao-Quan olmaqla tiryəkin ingilislər tərəfindən qaçaqmalçılıq yolu ilə ölkəyə gətirilməsinin qarşısını almaq məqsədilə genişmiqyaslı tədbirlərə başlanması ilə tarixə düşdü. 18 mart 1839-cu ildə ölüm cəzasının ingilislərə tətbiq ediləcəyi barədə əmr verilmişdir. İngilislərə təklif edilirdi ki, anbarlarda saxlanılan tiryəki təhvil versinlər. İmperator komissarına 22.243 yeşik tiryək təhvil verdikdən sonra məhv edilməsi üçün göstəriş vermişdir. Bu hadisə ingilislər tərəfindən Çinə qarşı müharibəyə başlanması üçün bir bəhanə oldu[28].

---

[27] Kəngərli A. Narkotik maddə-ailəvi qırğın «silahı». Bakı: 2017, s.25

[28] Hüseynov Ş. Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə: elmi-nəzəri, hüquqi-təcrübi məsələləri və problemlərinin həlli yolları. Dərs vəsaiti. Bakı: 2016, s.23

1894-1895-ci illərdə Yaponiya ilə müharibədə Çinin məğlub olması (məğlubiyyətin əsas səbəblərindən biri də Çin əsgərlərinin böyük bir hissəsinin tiryək asılılığında olması idi) Çin hökumətini yenidən tiryəkçəkmə halları ilə daha ciddi mübarizə aparmağa vadar etdi. 1906-cı ildə Tiryəklə mübarizə Komissiyası ölkənin ali hakimiyyət orqanları qarşısında islahatların aparılması haqqında məsələni qaldırdı. İslahatlar nəticəsində ölkəyə tiryəkin gətirilməsi dayandırılsa da ölkə ərazisində tiryək xaş-xaşının qanunsuz əkilib becərilməsi halları artmağa başladı.

XVIII əsrin həkimləri spazmalarda, həmçinin ipoxandriya, konvulsiv pozğunluqlar, hidrofobiya, asteniya və sair kimi müxtəlif psixi xəstəliklərin müalicəsində geniş istifadə edirdilər[29]. Narkotik asılılığını əks etdirən ilk qeydələr, məqalələr də bu dövrdə nəşr olunmağa başlayır. Məsələn, Londonlu həkim Con Cons 1701-ci ildə yazdığı traktatında uzun müddətli istifadədən sonra tiryək qəbulunu qəfildən dayandırılması effektini təsvir etmişdi. Müəllif, bu zaman demək olar ki, narkomaniyanın təsvirinə yaxınlaşsa da, lakin öz fikirlərini narkomaniya konsepsiyasında formulə edə bilməmişdi. 1792-ci ildə Simen tiryəkin depressiya doğuran təsirini, 1791-ci ildə isə Qandi tiryəkin stimullaşdırıcı effektini təsvir etmişdir. Hər iki müəllif müəyyən dərəcədə haqlı olsalar da, onlar narkotiklərə olan reaksiyanı “səhvən pasientlərin fərdi reaksiyası kimi interpretasiya edir, bunu narkomaniya ilə deyil, bu şəxslərin fiziki konstitusiyası ilə, nəsilliklə, yaşla və s. ilə əlaqələndirirlər”[30].

1753-cü ildə Edinburqlu həkim Yanq yazırdı: «laudanumun (gözəl tiryəkin) kiçik dozalarla qəbulu zəif dozada zəhər qəbulu deməkdir». Tiryəkin psixotrop xassələrinin ilk elmi təsvirlərindən

---

[29] Ульянкина Т.И. История опиумных препаратов и проблема возникновения наркомании//rmc.ru/articles/anesteziologiya/

[30] Abdullayev Y., Cavadov F. Narkomaniya və narkotizm (Dünya ölkələrinin və beynəlxalq təşkilatların narkotiklərlin qanunsuz dövriyyəsi ilə mübarizə təcrübəsi). Bakı: 2004, s.24-25

biri öz dövrünün tanınmış filosofu, həkimi və şairi olan Albrext Qalerə (1708-1777) məxsusdur. Qaler sidik kisəsində və kanalında olan daşlardan əziyyət çəkirdi və getdikcə artmaqda olan dozalarda tiryək qəbul etmiş və tiryəkin depressiyanın aradan qaldırılmasında yaxşı nəticələr verdiyini qeyd etmişdir.

1803-cü ildə Hannoverdən olan alman kimyaçı-farmasevti F.Sertyurner tiryəkin alkoloidi olan forminin sintezi üzrə tədqiqatlar aparmağa başlamışdır. Elə həmin dövrdə fransız farmasevti Deroze tiryəkdən «tiryək duzunu»-kristallik maddəni ayırmışdır. 1805-ci ildə Sertyurner «tiryək və ya mekon turşusunun»-onun tərəfindən «morfiy» adlandırılan alkoloidin ixtira edildiyi barədə məqalə nəşr etdirdi. Məqalədə bu alkoloidin xassələri də təsvir edilmişdi. Bu ad yunan mifologiyasından götürülmüşdü və tiryəkdən ayrılmış maddənin yuxugətirici effektini bildirirdi. Alkoloidin müasir adı-«morfin» bir qədər sonra Gey-Lüssak tərəfindən təklif olunmuşdur. Tiryəkdən morfinin sintezi tibbi praktikada qeyri-spesifik terapiyadan rasional terapiyaya keçməyə imkan vermişdir.

XIX əsrin əvvəllərindən sürətlə ağrıkəsici preparat kimi yayılmağa başlayan morfin mürəkkəb əməliyyatlarda istifadə edilməyə başlandı və xəstəxanalarda və səhra hospitallarında ağrı şokundan ölüm halları minimuma endi. Vərəm xəstəliyinin müalicəsində də morfin və kodeindən istifadə edilirdi.

Narkoz üçün morfinin tətbiqi və morfinizmin-morfindən xroniki sui-istifadə nəticəsində inkişaf edən narkomaniyanın meydana gəlməsi daha sonrakı dövrlərə aid olmaqla ilk dəfə olaraq 1853-cü ildə Fud tərəfindən təklif olunan alkaloidlərin dərialtı inyeksiyaların tibbi praktikaya daxil olması ilə sıx bağlıdır. 1864-cü ildə Pravats şpritsinin meydana gəlməsi ilə Qərbi, sonradan isə Şərqi Avropada morfinizmin daha sürətlə artmasına təkan verdi. 19-cu əsrin psixiatriya üzrə lüğətlərində  də artıq «morfinomaniya» və «mofinizm»  kimi diaqnostik terminlər meydana gəlir[31].

[31] Ульянкина Т.И. История опиумных препаратов и проблема возникновения наркомании//rmc.ru/articles/anesteziologiya/

XIX əsrdə morfinizmin sürətlə artaraq geniş yayılmasinda Krım və Fransa-Prussiya müharibələri (1870-1871-ci illər) də obyektiv təkan vermişdi. Çoxsaylı yaralılar və morfin narkozu altında keçirilən əməliyyatlar morfinin populyarlaşmasına və nəticə kimi morfinizmin yaranmasına şərait yaratdı. «Müharibənin gedişi zamanı döyüşlərdə ağır yaralanan əsgərlər üzərində cərrahiyyə əməliyyatları əsasən morfin narkozu altında keçirilirdi ki, bu da sonralar morfinizmin geniş yayılmasına şərait yaratdı. Qeyd etmək lazımdır ki, bu illərdə həkimlər, xüsusən də cərrahlar morfinə böyük ümidlər bəsləyirdilər. Onlar hesab edirdilər ki, tiryəkdən fərqli olaraq morfin narkomaniyaya gətirmir. Bu da onların böyük səhvi idi» [32].

Hesab olunur ki, Krım (1853-1856), Fransa-Prussiya (1870-1871) və ABŞ-dakı Vətəndaş müharibələri morfinizmin «çiçəklənməsinə» rəvac vermişdir. Səbəb isə müharibə vaxtı saysız-hesabsız yaralı və xəstələrin əmələ gəlməsi, düşmənlə ön cəbhədə olarkən real ölüm təhlükəsi, qorxu, xof və sair amillər narkotiklərin həddindən artıq istifadə edilməsi və narkomaniyanın yayılması ilə nəticələnmişdir. Həmçinin, müharibə dövründə ondan hər iki tərəfdən o qədər çox istifadə edilib ki, ona o vaxt «əsgər xəstəliyi» də deyilirdi[33].

Məhz morfinizmin geniş yayılması tədqiqatçıları yeni ağrıkəsici dərman vasitəsinin axtarışına vadar etdi. 1896-cı ildə Yozef Fon Merinq tərəfindən yeni preparat-dionin (morfinin törəməsi) sintez edildi. Merinq, o dövrün alkaloidlərin istehsalı üzrə ixtisaslaşmış aparıcı firma olan «Merek» firmasının rəhbərlərini bu yeni preparatın istehsalının zəruriliyinədə inandıra bildi. Nəticədə dərhal kəskin populyarlıq qazanan dionin bazara daxil ol-

---

[32] Abdullayev Y., Cavadov F. Narkomaniya və narkotizm (Dünya ölkələrinin və beynəlxalq təşkilatların narkotiklərlin qanunsuz dövriyyəsi ilə mübarizə təcrübəsi). Bakı: 2004, s.27-28

[33] Kəngərli A. Narkotik maddə-ailəvi qırğın «silahı». Bakı: 2017, s.26-27

du. Ondan kodein və digər opiatların əvəzinə geniş istifadə edilməyə başlandı.

Heroin tiryəkin alkaloidi olan morfinin daha təhlükəsiz edilməsi məqsədilə sintez edilmişdir. Eyni zamanda əvvəlcə heroin analgetik vasitə kimi hazırlanırdı. Bu preparatın texniki adı olan diasetilmorfin 1874-cü ildə Londonda Santa-Mariya xəstəxanasının Tibb məktəbində kimyaçı Older Rayt tərəfindən sintez edilmişdi. O, heroin əldə etmək üçün morfini üzvi turşularla emal etmişdi. Lakin arterial təzyiqi və nəfəs tezliyini aşağı salmaq kimi xüsusiyyətinə, sonralar isə vərəm xəstələrində öskürəyi sakitləşdirmək və yuxu gətirmək xarakteristikasına baxmayaraq, bu vasitə klinik maraq kəsb etməmişdir.

Fon Merinqin nailiyyəti farmokologiyanın inkişafı prosesini daha da sürətləndirdi. Bu yarışa 1863-cü ildə yaradılmış «Bayer və Co» alman şirkəti də qoşuldu. 1895-ci ildə bu şirkətin əməkdaşı olan Feliks Hoffman tərəfindən diasetilmorfin təkrar kəşf edildi. Qeyd edək ki, məhz bu kimyaçı tərəfindən «Aspirin» də ixtira edilmişdir. «Bayer və Co» şirkətinin tədqiqat proqramlarının direktoru professor Henrix Drezerin tapşırığı ilə bu preparat ciddi klinik sınaqlara məruz qaldı. Heroin heyvanların (balıq, qurbağa, dovşan və s.) üzərində sınandı. Tədqiqatlar onun morfindən daha güclü ağrıkəsici olduğunu göstərdi. O, preparatı öz üzərində də sınaqdan çıxarmış, onun yan təsirlərini aşkar etmişdi və güclü eyforiya, «qəhrəmancasına» ruh yüksəkliyidi. Belə fərz edilirdi ki, məhz buna görə də preparat sonradan «heroin» adını almışdır.

1895-ci ildə bu şirkət diasetilmorfinin (heroinin) sənaye istehsalını işə salmış, 1898-ci ildə isə bu məhsul öskürəyi sakitləşdirən vasitə kimi satılmağa başlamışdır. Drezer bu preparatı «qəhrəman narkotik» adlandırmış və ona görə də Bayer şirkəti onu «Heroin» ticarət nişanı ilə buraxmağa başlamışdı[34].

---

[34] Nağıyev A. Qara kabus. Bakı: 2013, s.2; Hüseynov Ş. Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə: elmi-nəzəri, hüquqi, təcrübi məslələri və problemlərinin həlli yolları. Dərs vəsaiti. Bakı: 2016, s.210

XX əsrin əvvəllərində heroin öskürəyə qarşı vasitə kimi (o cümlədən uşaqlar üçün) satılır, morfinin əvəzedicisi kimi istifadə edilirdi. «Möcüzə-dərman» apteklərdə  sirop və ya həb şəklində satılırdı. Ondan qripin, astmanın və vərəmin müalicəsi zamanı istifadə edilirdi. Kardiologiyada da ürək xəstəliklərinin müalicəsi gedişində bu preparatdan istifadə halları az deyildi. Həmçinin, mədə-bağırsaq xəstəliklərinin və sklerozun müalicəsində də tətbiq edirdilər. Ginekologiyada heroin tamponları kifayət qədər geniş yayılmışdır.

Qeyd edək ki, məhz bu «möcüzəli preparatın» satışı hesabına «Bayer və Co» şirkəti 1913-cü ildə Almaniyanın ən böyük üç şirkətlərindən birinə çevrildi.

XIX  əsrdə Avropada və Amerikada sedativ təsirə malik və ağrıları azaldan vasitə kimi  tiryəkin spirtdə olan tekturasından yəni ekstraktından istifadə olunurdu. Morfin və onun törəmələri güclü baş ağrılarının, xroniki miqrenlərin götürülməsi üçün daha tez-tez tətbiq olunurdu. Heroindən son mərhələdə olan onkoloji xəstələrin vəziyyətinin yaxşılaşdırılması üçün istifadə edilirdi və hesab olunurdu ki, heroin morfindən daha təsiredicidir və onun yan təsir effetkləri daha azdır. Kodein kimi opioid preparatları öskürəyin müalicəsi üçün tətbiq olunurdu. Opiatlara qrupuna daxil olan buprenorfin əsasən rezistent xarakterli depressiv vəziyyətlərin müalicə zamanı istifadə edilirdi.

Tiryək və onun məhsulları təkcə tibbi preparat kimi deyil, həm də eyforiya vəziyyətinə gətirən vasitə, psixostimulyatorlar keyfiyyətində də istifadə olunurdu.  Məhz sonuncu xüsusiyyətlərinə görə bu vasitələr hərbi münaqişələr zamanı həlledici döyüşdən əvvəl əsgərlərin dözümlülüyünü yüksəltmək məqsədilə də tətbiq edilirdi. Belə maddə və vasitələrin mütəmadi istehlakı sabit asılılığa gətirir ki, bu da aşağıdakı simptomlarla müşaiyət olunur: nəzarətin itirilməsi; emosional və fiziki səviyyədə növbəti dozadan güclü asılılıq; yeni doza əldə etməyin mümkün olmadığı hallarda təcəvüzkarlıq; şüurun dolaşıqlığı və reallıq hissinin itirilməsi.

Beləliklə, Y.Abdullayev və F.Cavadovun düzgün qeyd etdikləri kimi, «əgər minilliklər ərzində insanlar (bəşəriyyət) tiryəkin təsirini bir qayda olaraq müsbət qiymətləndirirdisə, sivilizasiya inkişaf etdikcə, kimya və farmokologiya metodları təkmilləşdikcə, tiryək məhsullarının, o cümlədən morfinin, heroinin və digər narkotiklərin təsiri nəticəsində insanların psixi və fiziki cəhətdən şikəstləşməsi və ölümü arasında səbəb-nəticə əlaqəsi daha aydın görünməyə başladı»[35].

**2) Kokaindən istifadə tarixi**

Kokain təbii mənşəli qədim, güclü və təhlükəli narkotik vasitələrdən biridir. Eramızdan 3000 il əvvəl qədim inklər And dağlarında seyrək dağ havası şəraitlərində nəfəs darlığını yaxşılaşdırmaq və ürək döyüntülərini artırmaq üçün bu ərazilərdə bitən koka kolunun yarpaqlarını çeynəyirdilər. «İnklər əsrlərlə kokain kolunun yarpaqlarını çeynəməklə ürək döyüntülərinin və tənəffüsun tezləşdirilməsinə nail olurdular. Bunu onlar dağlıq şəraitində olan hava seyrəkliyinin (oksigen çatışmazlığının) orqanizmlərinə neqativ təsirindən qorunmaq məqsədilə edirdilər. Koka kolunun yarpaqları dini mərasim və ayinlərin həyata keçirilməsində mühüm rol oynayırdı»[36]. Ondan müalicə məqsədilə də istifadə halları mövcud idi. Cənubi Amerikanın hindu tayfalarına məxsus olan qədim sərdabə komplekslərinin üzərində koka yarpağını çeynəyən adamların təsviri həkk olunmuşdur. Eyni zamanda Cənubi Amerika ölkələrində, məsələn, Peruda İspan istilasından əvvəl koka yarpaqlarından dini mərasimlər zamanı istifadə halları da geniş yayılmışdı[37]. İspanlar zəbt etdikləri ərazilərdə koka yarpaqlarının istehlakı-

---

[35] Abdullayev Y., Cavadov F. Narkomaniya və narkotizm (Dünya ölkələrinin və beynəlxalq təşkilatların narkotiklərlin qanunsuz dövriyyəsi ilə mübarizə təcrübəsi). Bakı: 2004, s.28-29

[36] Hüseynov Ş. Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə: elmi-nəzəri, hüquqi-təcrübi məsələləri və problemlərinin həlli yolları. Dərs vəsaiti. Bakı: 2016, s.27

[37] Курсов С.В. Кокаиновая интоксикация//www.mif-ua.com, http://emergency.com.ua

nı zərərli hesab etsələr də buna göz yumur, hətta bir sıra hallarda gümüş mədənlərində işləyən hindulara koka yarpaqlarını verirdilər ki, bu da mədəndə ağır iş şəraitlərinə fəhlələrin dözümlülük səviyyəsini artırırdı[38]. Məsələn, «1532-ci ildə İspaniyanın Peruya təcavüzündən sonra gümüş mədənlərində qul kimi işlədilən hindulara kokain yarpaqları verilirdi, belə halda ondan istifadə edən işçilərin əmək məhsuldarlığı işləmə müddəti xeyli artırdı və bu yolla onların asanlıqla istismar edilməsinə nail olunurdu. İşçilərin əməyi onlara koka yarpaqları verməklə ödənilirdi. İspanlar özləri bu dövrdə kokadan istifadə etmirdilər…. XIX əsrə qədər avropalıların koka kolu haqqında məlumatları demək olar ki, yox idi»[39].

İlk dəfə olaraq koka yarpaqlarından təmiz şəkildə kokainin ayrılması isə alman kimyaçısı Albert Himan tərəfindən 1859-cu ildə həyata keçirilmişdi. 1859-1860-cı illərdə Albert Nimann koka kolundan kokain alkoloidini əldə edərək onun strukturunu müəyyən etdi. 1878-ci ildə amerikalı həkim Bentli morfinizmlə mübarizə üçün «əvəzedici» kimi kokaindən istifadə ideyasını təklif etdi. Belə bir «müalicə» isə narkomaniyanın yeni formasının-kokainizmin yaranmasına, narkoasılılıqdan əziyyət çəkən xəstələrin ikiqat narkomaniyanın-morfinizmin və kokainizmin qurbanlarına çevrilməsinə gətirdi. Bununla bağlı alman tədqiqatçısı Bayer 1828-ci ildə yazırdı: «beləliklə də narkomaniyanın yeni, mübarizə aparılan növündən daha təhlükəli olan növü yarandı». Kimyaçılar kokainin strukturunun dəyişdirilməsi yolu ilə onun zərərli təsirlərini aradan qaldırmağa çalışsalar da, bu sahədə heç bir uğur əldə edə bilmədilər[40].

---

[38] Курманов К.Ш. Наркомания: Уголовно-правовые и криминологические проблемы. Фрунзе. 1989

[39] Hüseynov Ş. Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə: elmi-nəzəri, hüquqi-təcrübi məsələləri və problemlərinin həlli yolları. Dərs vəsaiti. Bakı: 2016, s.27

[40] Ульянкина Т.И. История опиумных препаратов и проблема возникновения наркомании//rmcru/articles/anesteziologiya/

Bununla belə yalnız 1880-cı illərdə kokain tibbi ictimaiyyət arasında məhşurlaşmağa başladı. Bunun da səbəbkarlarından biri avstriya psixo-analitik Ziqmund Freyd idi.

1884-cü ildə Freyd alman hərbi həkimin «Kokainin mühümlüyü və psixoloji effektləri» adı altında nəşr edilən məqaləni əldə edir. Bu məqaləyə qədər Z.Freyd kokain adlı maddə barədə heç bir məlumatı olmasa da o, müəyyən psixi xəstəliklərin müalicəsi zamanı kokaindən istifadənin mümkün olduğu qənaətinə gəlir. Əvvəlcə o kokaindən özü istifadə etmiş və bu zaman özünün depressiv vəziyyətinin yaxşılaşdığını, özünə inamın artıdığını və iş qabiliyyətinin yüksəldiyini görür.

1884-cü ildə onun «Koka haqqında» məqaləsi dərc olunur. Məqalədə Z.Freyd kokaini sehirli bir maddə adlandırmış, onun effektini təbliğ etmişdi. Bu narkotik vasitəni sevgilisi və dostunun da qəbul etmələrini tövsiyə etmişdir. O, kokaini oftalmoloq Karl Kellerə tövsiyə etmişdir ki, sonuncu da göz damcıları şəklində kokainin də daxil olduğu məhlulların göz əməliyyatları zamanı anestetik kimi yüksək effektivliyini qeyd etmişdi[41].

Məqalədə bu maddənin depressiya ilə mübarizədə, sinir tipli mədə diskomfortunun aradan qaldırılmasında, fiziki və intellektual fəaliyyətin yüksəldilməsində olduqca effektiv vasitə olduğu göstərmiş, həmçinin kokainin vərdiş və asılılıq yaratmadığı, əlavə təsirlərin olmadığı qeyd olunmuşdur.

Sonralar Z.Freyd özünün əvvəlki mövqeyini dəyişmiş, kokainin onun «fiziki və mənəvi cəhətdən zəifləməsinə» səbəb olduğu qənaətinə gəlmişdir.

Z.Freyd kokainin ən xarakterik xassə və xüsusiyyətləri haqqında 5 məqalədə nəşr etdirdikdən sonra özünün əvvəlki mövqeyindən imtina etmiş, kokainin neqativ nəticələrini yoxladıqdan, özünün ən yaxın dostu olan psixiatr Ernst Fleyşelin kokain

[41] Курсов С.В. Кокаиновая интоксикация//www.mif-ua.com, http://emergency.com.ua

qəbulu nəticəsində ölməsindən sonra özünün elmi əsərləri külliyatına kokainin təsviri və xüsusiyyətləri ilə bağlı olan heç bir məqaləni daxil etməmişdir.

Qeyd edək ki, XIX əsrin sonu, XX əsrin əvvəllərində kokaindən ən müxtəlif növlərdə «möcüzəli eleksirlər» hazırlamağa başladılar. Bu dövrdə qeyd olunan vasitələr özlərinin energetik və gümrahlaşdırıcı içkilər kimi geniş yayılmışdı. Onların sırasında Korsika kimyaçısı və farmasevti Ancelo Mariani tərəfindən «Vino Mariani» adı altında satışa çıxarılan və koka yarpaqlarının ekstraktlarından hazırlanan şərab idi.

1886-cı ildə preparatın məşhurluğu daha da artmışdır ki, bunun da səbəbi "Koka-kola", şirkəti tərəfindən yeni alkoqolsuz içki olan Koka-Kolanın tərkibinə inqredient kimi koka yarpaqlarının daxil edilməsi olmuşdur. 1850-1910-cu illərdə kokain və tiryək eliksirləri, toniklər və şərablar bütün sosial təbəqələrə məxsus insanlar tərəfindən geniş şəkildə istifadə edilirdi. Kokain toniklərinin «möcüzəli» effektinə heyran qalanlar arasında ixtiraçı Tomas Edison və aktrisa Sara Bernar da var idi. Preparat səssiz kino sənayesinin nümayəndələri arasında həddən artıq məşhurlaşmışdı.

Qeyd edək ki 1890-1895-ci illərdə bu içki "intellekt və temperament üçün müalicəvi içki" kimi reklam edilirdi. Eyni zamanda artıq XIX əsrin sonu, XX əsrin əvvəllərində cəmiyyət kokainin təhlükəliliyindən, onun fiziki və psixoloji asılılıq yarada bilməsini dərk etməyə başlamışdı. Məhz ictimai təzyiq Koka-Kola şirkətini 1903-cü ildə bu alkoqolsuz içkinin tərkibindən koka yarpaqlarını çıxartmağa vadar etdi. 1903-cü ildə bu içkinin tərkibindən kokain çıxarılmış, ona koka yarpaqları əlavə edilmişdir.

1912-ci ildə ABŞ hökuməti il ərzində kokain istehlakı nəticəsində 5000 ölüm hadisəsinin baş verdiyini rəsmən elan etmişdi. Artıq 1922-ci ildə bu narkotik vasitə rəsmən qadağan edildi.

Kokain istehlakının kəsin artımının ikinci dalğası 1970-ci illərdə başladı. Məhz 1970-ci ildən başlayaraq Kolumbiya narkokartelləri kokainin ABŞ və digər ölkələrə qaçaqmalçılığı üçün mürəkkəb şəbəkələr yaratmağa başladılar. 1970-1980-cı illərdə kokaindən istifadə etmiş ABŞ universiteti tələbələrinin sayı 10 dəfədən çox artmışdı. WADA Ümumdünya Antidopinq Agentliyi tərəfindən kokain digər psixostimulyatorlarla birlikdə daimi əsaslarla qadağan edilmiş preparatlar və substansiyalar siyahısına daxil edilmişdir.

1990-cı illərin əvvəllərində kolumbiya narkokartelləri il ərzində 500-800 tona yaxın kokain istehsal etməklə bu narkotik vasitəni təkcə ABŞ-a deyil, həm də Avropa və Asiya ölkələrinə çatdırılmasını təşkil edərək həyata keçirirdi. Lakin artıq 1990-cı illərin ortalarında hüquq-mühafizə orqanlarının və ordu qüvvələrinin qətiyyətli hərəkətləri nəticəsində böyük narkokartellərin əksəriyyətinin kriminal fəaliyyətinə son qoyuldu. Onları daha kiçik transmilli mütəşəkkil dəstə və təşkilatlar əvəz etməyə başladı. Qeyd edək ki, bu gün təkcə Kolumbiyada narkotiklərin qaçaqmalçılığı ilə məşğul olana 300-dən artıq cinayətkar təşkilat mövcuddur[42].

Koka yarpaqları başı dumanlandıran vasitə kimi hələ üç min il əvvəl istifadə edildiyi halda, kokainin kristallaşdırılmış forması olan krek 1970-ci illərin əvvəllərində yaradılmış, 1980-cı illərin ortalarında isə kokainlə müqayisədə daha ucuz olduğu və tez eyforiya vəziyyəti doğurduğundan geniş istifadə edilməyə başlanmışdır.

Qeyd edək ki, Avropada krek qəbul edən narkoistifadəçilərin əksəriyyəti Hamburq, London və Paris kimi üç şəhərdə cəmləşmişdir. Həmçinin müəyyən olunmuşdur ki, krek Qvadelupa, Fransa Qvianası və Martinika kimi Fransa ərazilərində, habelə Niderlandın bəzi vilayətlərində böyük problemə çevrilmişdir.

---

[42] Курсов С.В. Кокаиновая интоксикация//www.mif-ua.com, http://emergency.com.ua

**3) Kannabis məhsullarından (marixuana, həşiş və s.) istifadə tarixi**

Digər bitki mənşəli narkotiklər kimi, çətənə (kannabis) və onun məhsullarından istifadə tarixi də qədimdir. Çətənin tarixi 10 000 illərlə hesablanır. Arxeoloji qazıntılar və bu zaman aşkar edilmiş suxurların tədqiqi göstərir ki, hələ e.ə. 8000-ci illərdə çətənədən istifadə edilmişdir. Ş.Hüseynov arxeoloji tapıntılara əsaslanaraq qeyd edir ki, kannabis və onun məhsullarından "istifadə edilməsi (tayvan arxeoloqlarının aşkar etdikləri qabların 10 min il əvvəl kannabis (bitkisindən hazırlanması güman edilirdi) daş dövrünə aid edilir. İlk dəfə çətənənin təsvirinə dair məlumatlar Çində bizim eramızdan əvvəl 2800-cü ilə təsadüf edir və bu bitkinin sonradan digər Asiya ölkələrinə yayılması tarixi, elm və arxeoloji mənəbələrə və aparılan tədqiqatlara istinad edilməklə əsaslandırılır"[43].

Kannabis və onun məhsullarının ilk izləri eramızdan əvvəl 3-cü əsrdə yaranmış misir sərdabələrində aşkar edilmişdir.

Asiyada ilk olaraq çinlilər çətənə yetişdirməyə başlamışdılar və onlar bu bitkidən müxtəlif məqsədlərlə, ilk növbədə müalicə məqsədləri ilə istifadə edirdilər. Belə ki, bu ölkədə bitkinin köklərindən trombların və infeksiyaların müalicəsində istifadə olunurdu. Məsələn, eramızdan 3000 əvvəl Çin imperatoru Şennun müalicə kitabında bağırsaq pozuntuları, öskürəyin müalicəsində həşişdən dərman vasitəsi kimi istifadə edilməsinin mümkünlüyü barədə qeydlərə rast gəlmək olar. Bu vasitə çay kimi dəmlənirdi[44].

Vətəni Mərkəzi Asiya hesab edilən bu ərazilərdən kannabis dünyaya yayılmış, Afrika və İspaniyaya, daha sonra isə Amerikaya gedib çıxmışdır.

---

[43] Hüseynov Ş. Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə: elmi-nəzəri, hüquqi-təcrübi məsələləri və problemlərinin həlli yolları. Dərs vəsaiti. Bakı: 2016, s.19

[44] Наркотики: история беды. Информационный буклет. Кулебаки: 2019, с.2

Çətənə və onun məhsulları nəfəs yollarını, sinir pozğunluqlarının müalicəsi üçün və ağrıkəsici vasitə kimi tətbiq olunurdu. Yunanıstanda antik dövrlərdə təbiblər çətənədən əməliyyatlar zamanı anesteziya vasitəsi kimi istifadə edilirdi. "Keçmiş əsrlərin bütün məşhur tibb kitablarında marixuananın adı çəkilir, bir çox xəstəliklərin müalicəsində istifadə edilən universal vasitələr sırasında onun adı göstərilirdi" [45].

Qədim Misir mumiyalarında həşişin izləri tapılmışdır. Qədim Roma və Yunan həkimləri və döyüşçüləri də həşişdən istifadə etmişlər. Qədim zamanlarda çinlilər marixuanadan hazırlanmış müxtəlif ədvalardan gücverici-stimulyator kimi istifadə etmişlər [46].

Y.Abdullayev və F.Cavadov tarixi mənbələrə istinad edərək yazırlar ki, «Orta əsrlərdə Cannabis Sativa adlanan bu bitkidən öz möhkəmliyi ilə fərqlənən kəndirlərin və parçaların hazırlanmasında istifadə edirdilər. Kannabisdən alınan parça isə ingiliscə «canvass» adlanır. Ondan dənizçilikdə geniş şəkildə istifadə edilirdi, çünki bu dəniz suyu ilə təmasda korlanmayan yeganə natural parça idi» [47].

Bunu B.S.Zahidov da qeyd edir və yazır ki, «Şərqdə yetişdirilən narkotik xassəli bitkilərdən, məsələn çətənədən hazırlanmış kəndirlər və başqa avadanlıqlar XVII əsrdə Hollandiyanın gəmi tərsanələrində, eləcə də yelkənli qayıqlar hazırlanmasında geniş istifadə edilirdi. Kənaf bitkisindən hazırlanan yelkənlər öz keyfiyyəti və möhkəmliyi ilə fərqləndiyindən Hollandiya, İtaliya və Rusiya gəmiqayıranlarının diqqətini çəkirdi.

---

[45] Abdullayev Y., Cavadov F. Narkomaniya və narkotizm (Dünya ölkələrinin və beynəlxalq təşkilatların narkotiklərlin qanunsuz dövriyyəsi ilə mübarizə təcrübəsi). Bakı: 2004, s.32

[46] Nağıyev A. Qara kabus. Bakı: 2013, s.2

[47] Abdullayev Y., Cavadov F. Narkomaniya və narkotizm (Dünya ölkələrinin və beynəlxalq təşkilatların narkotiklərlin qanunsuz dövriyyəsi ilə mübarizə təcrübəsi). Bakı: 2004, s.32

Kənafdan hazırlanmış yelkənlərdən, kəndirlərdən, kisələrdən və başqa avadanlıqlardan geniş istifadə istifadə edilməsi bu narkotik tərkibli bitkinin əkilib-becərilməsinə marağı artırırdı[48]. Böyük Britaniyada çətənin becərilməsinə 800-cü illərdə başlanmışdır. 16-cı əsrdə 8-ci Henri fermerlərə britaniya hərbi-dəniz donanması üçün material kimi böyük həcmlərdə çətənə əkini və yetişdirilməsi ilə məşğul olmalarını əmr etmişdi.

Çətənənin toxuculuqda və tibb sahəsində istifadə edilməsi ilə bağlı xüsusiyyətləri nəzərə alınmaqla, ABŞ-da XVII əsrdə çətənənin əkilib becərilməsi ilə məşğul olan şəxslərə-fermerlərə hökumət tərəfindən dotasiyalar verilirdi.

Kannabis və onun məhsullarından istifadənin qadağan edilməsi XII əsrə təsadüf edilir. Belə ki, məhz bu əsrdə əvvəl İspan, daha sonra isə Fransa kilsəsi belə bir qərar çıxarmışdı. Lakin bu qadağaların 150 ildən sonra ləğv edildiyi də qeyd olunmalıdır[49].

Kannabis (marixuana) qərb təbabətinə irlandiyalı həkim, Kalkutta tibb kollecinin professoru Uilyam Bruk O Şenessi tərəfindən daxil edilmişdir. Məhz onun tərəfindən 1839-cu ildə kannabisin qıcolmalara qarşı effektivliyi barədə məqalə dərc olunmuşdur. O Şonessi qeyd edirdi ki, çətənənin spirtlə qarışığından hazırlanmış qarışıq (tinktura) özünü effektiv ağrıkəsici vasitə kimi göstərmişdir. Londona qayıdarkən özü ilə xeyli miqdarda çətənə gətirərək O Şonessi 1842-ci ildə farmasevt Piter Skvayrı bu işə cəlb edərək «Skvayer Ekstraktı» adlandırılan ilk kommersiya yönümlü kannabis ekstraktını hazırlamışdılar. Sonralar İngiltərə kraliçası Viktoriyanın şəxsi həkimi olan Con Rassel Reynolds 1890-cı ildə The Lancet jurnalında məqalə dərc etdirmiş və bu məqalədə yuxusuzluğun, nevralgiyanın, miqrenin,

---

[48] Zahidov B.S. Azərbaycanda narkotizmlə və narkobizneslə mübarizənin aktual problemləri. Bakı: 2007, s.89-90

[49] Hüseynov Ş. Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə: elmi-nəzəri, hüquqi-təcrübi məsələləri və problemlərinin həlli yolları. Dərs vəsaiti. Bakı: 2016, s.20

epilepsiyanın və digər xəstəliklərin müalicəsində həşişin tətbiqi üzrə özünün 30 illik klinik təcrübəsinin iclamını vermişdir.

XIX əsrin 30-cu illərində Fransada kannabis məhsullarının qəbulu geniş vüsət almışdı. Məsələn, bu ölkədə hətta 1830-cı ildə «həşiş sevənlər klubu» da yaradılmışdı[50].

Qeyd edək ki, 1848-ci ildə Fransada baş verən inqilab zamanı hətta Parisdə baş tutan kütləvi nümayişlər zamanı etirazçıların tələblərindən biri də həşişin leqallaşdırılması idi.

1810-1860-cı illərdə Avropada kannabisin terapevtik xüsusiyyətləri həkim və farmasevtlər tərəfindən öyrənildi və bronxial astma, boğulma tutmaları, təşviş-həyəcanlı hallarda, hətta ağrıkəsici, qıcolma əleyhinə dərman kimi də istifadə edilirdi. 19-cu əsrin axırında marixuananın «müalicəvi» keyfiyyətləri şübhə altına düşdüyü üçün həkimlər ondan imtina etdilər, lakin marixuana Avropa və Amerika əhalisi arasında artıq yayılmışdı [51].

19-cu əsrin sonlarında (kannabis) marixuana və ya onun müxtəlif məhsulları, xüsusən də həşiş tibbi praktikada geniş istifadə edilirdi və bu preparatlar qərb farmakopeyalarda əks olunmuşdur. Lakin 1932-ci ildə Britaniya farmakopeyasında kannabis və onun məhsulları barədə qeydlər götürüldükdən sonra onun terapevtik məqsədlərlə tətbiqi halları kəskin şəkildə azalmışdır.

Tibbdə «marixuana» sözündən istifadə olunmur. Təbiblər bu məhsulu Cannabis Medical adlandırırlar və 12 Avropa ölkəsində (Avstriya, Belçika, Almaniya, Fransa, Böyük Britaniya, Niderland, İsveçrə, İspaniya, İtaliya, Yunanıstan, Xorvatiya, Lüyksemburq), habelə Avstraliya, İsrail, Kanada və ABŞ-da bu preparatlardan tibbdə istifadəsinə icazə verilmişdir. Bu ölkələrdə tərkibində kannabis olan dərman vasitələrindən qlaukomanın, miqrenin, kimya terapiyadan irəli gələn ürək bulanması və

[50] Kəngərli A. Narkotik maddə-ailəvi qırğın «silahı». Bakı: 2017, s.26
[51] Kəngərli A. Narkotik maddə-ailəvi qırğın «silahı». Bakı: 2017, s.19

qusmanın, artritin, sklerozun, fobiyanın, depressiyanın, yuxu pozğunluğunun, xroniki ağrıların, əzələ spazmalarının, Parkinson sindromunun, Xantinqton sindromunun və bir sıra digər xəstəliklərin müalicəsində istifadə olunur.

XXI əsrin ilk illərindən başlayaraq kannabis bitkisindən hazırlanan bir sıra narkotiklərin, xüsusən də marixuananın dünya üzrə dekriminallaşdırılması meyillərinin meydana gəlməsi, bu prosesin son illərdə genişlənməsi müşahidə olunmaqdadır.

Texniki çətənənin dünya bazarının 75%-i Çinə məxsusdur. Avropada çətənə 21 ölkədə, o cümlədən Fransada yetişdirilir. ABŞ-ın 30 ştatında kannabisin istehsalı və istehlakı leqallaşdırılmışdır. Qeyd edək ki, 2020-ci ilin dekabrında BMT kannabisi və onun törəmələrini xüsusilə təhlükəli olan preparatların siyahısından çıxarmışdır.

Son illərdə kannabis-sənayesinin sürətlə artdığı da qeyd olunmalıdır. Belə ki, əgər 2018-ci ildə kannabis-sənayesinin amerika startaplarına 881 mln dollar investisiya qoyulduğu halda, 2019-cu ildə bu rəqəm 1,2 mlrd dollara çatmışdır. Eyni templərin saxlanıldığı təqdirdə 2028-ci ildə kannabis sənayesinin, bu bazarın tutumu 40 mlrd ABŞ dollarına çata biləcəyini proqnozlaşdırmaq mümkündür. Bəzi analitiklər daha böyük rəqəmləri qeyd edirlər. Məsələn, Global Market Insights-ın maliyyə analitikləri hesablamışlar ki, əgər investorlar tərəfindən bu istiqamətdə maraq artacaqsa, onda 2025-ci ildə kannabis sənayesinin təkcə ABŞ-da dəyəri 59 mlrd dollara çatacaqdır.

**4) Sintetik narkotiklərdən, psixostimulyatorlardan və hallüsinogenlərdən istifadə tarixi**

İlk sintetik narkotiklərin meydana gəlməsi XIX əsrin sonu, XX əsrin əvvəllərinə təsadüf edir.

1887-ci ildə yapon kimyaçısı Naqayoşi Naqai tərəfindən amfetamin sintezləşdirilmişdir. 1927-ci ildə bu maddə Smith Kline and French laboratoriyası tərəfindən tədqiq olunmuş,

onun inqalyasiya üçün dərman vasitəsi kimi satışına icazə verilmişdir. Daha sonralar amfetaminlər qrupuna aid olub, lakin kimyəvi tərkibinə görə artıq amfetamindən (benzedrin) fərqlənən bir sıra əvəzedicilər (DMA, MDMA, DOM, TMA və s.) də alındı. Əvəzedicilər sırasından ən geniş yayılan metamfetamindir[52].

XIX əsrin sonlarında bu preparat tibbdə astmanın, Parkinson xəstəliyinin, depressiyanın müalicəsində istifadə edilir, arıqlamaq üçün vasitə kimi də qəbul edilirdi. Eyni zamanda 19-cu əsrin sonu, 20-ci əsrin əvvəllərində bu narkotik vasitə əsasən yorğunluğun götürülməsi üçün döyüş əməliyyatlarında istifadə olunurdu. Amfetamini, həmçinin işgörmə qabiliyyətinin artırılması məqsədilə istifadə edənlər də vardı. Yalnız 1960-cı illərdə amfetaminin güclü psixoloji asılılıq formalaşdıra, xarakterik pananoidal simptomlu psixozlar doğura bildiyi dəqiq müəyyən olundu.

Tibbdə amfetaminlərdən istifadənin ən pik həddi 1960-cı illərə təsadüf edir. Məsələn, 1959-cu ildə Böyük Britaniyada bütün rəsmi reseptlərin 2,5%-də tərkibində amfetamin olan preparatlar qeyd olunmuşdur. Bu preparatlar o dövrdə əsasən epilepsiyanın, şizofreniyanın, depressiyanın, beyin zədələnmələrinin və seksual disfunksiyaların müalicəsi, həmçinin piylənmənin qarşısının alınması üçün anorektik aqent kimi tövsiyə edilirdi.

Daha çox «ekstazi» kimi tanınan metilendioksi metamfetamin (MDMA) 1914-cü ildə almaniyanın Merck laboratoriyalarında anorektik aqent (iştahın qarşısını alan vasitə) kimi sintezləşdirilmişdir. Ekstazidən 1950-1960-cı ildə ABŞ-da hərbi-dəniz qüvvələrində tədqiqat məqsədləri ilə, 1970-ci illərdə isə psi-

---

[52] Sağlam gənclik sağlam gələcəkdir. Azərbaycan Respublikakasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyələşdirdiyi «Orta təhsil müəssisələrində şagirdlər arasında narkomaniya əleyhinə maarifləndirmə tədbirləri» layihəsi çərçivəsində «Maarifçi Gənclər» İctimai Birliyi tərəfindən nəşr edilmişdir. Bakı: 2017, s.15.

xoterapevt və pasient arasında kommunikasiyanı asanlaşdıran vasitə (entaktogen agent) kimi istifadə edilmişdir.

1990-cı ildən başlayaraq, ekstazi gənclər arasında populyarlıq qazandı, əhvalı qaldıran, yorğunluğu götürən, stimuləedici xüsusiyyətləri onu tezliklə əvəzsiz «klub» narkotikinə çevirdi. Qeyd edək ki, bir çox xarici ölkələrdə gecə klublarında, uzun gecə şənliklərində indi də geniş istifadə edilir[53].

Metodon ilk dəfə ikinci dünya müharibəsi dövründə Almaniyada alınmış narkotik təbiətli sintetik ağrıkəsici maddədir. Təbabətdə, əsasən ağrıkəsici və opiomaniyanın müalicəsində (əvəzedici terppiya) əvəzedici preparat kimi geniş tətbiq olunur[54]. 1919-cu ildə təmiz şəkildə meskalin əldə edilmişdir ki, bu da sintez edilən ilk hallüsinogen olmşudur.

Lizergin turşunun dietilamidin (LSD) tarixi 1938-ci ildən başlayır. Məhz bu ildə isveçrə kimyaçısı Albert Hofman tərəfindən bu maddə sintezləşdirilmişdir. Qırmızı çovdar mahmızı göbələyi üzərində apardığı tədqiqatlar zamanı o bir sıra yeni birləşmələri sintezləşdirmişdir ki, onların sırasında da LSD (lizengin turşusunun dietilamidi) 25-ci olmuşdur. Ona görə də Hofman aldığı birləşməni LSD-25 adlandırmışdı. Sonralar bu maddənin adından 25 götürülərək sadəcə LSD adlandırıldı. LSD-dünyada mövcud olan ən güclü toksik və hallüstinogen maddələrdən biri hesab olunur[55].

---

53 Kəngərli A. Narkotik maddə-ailəvi qırğın «silahı». Bakı: 2017, s.35

54 Sağlam gənclik sağlam gələcəkdir. Azərbaycan Respublikakasının Prezidenti yanında Qeyri-Hökuməi Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyələşdirdiyi «Orta təhsil müəəssisələrində şagirdlər arasında narkomaniya əleyhinə maarifləndirmə tədbirləri» layihəsi çərçivəsində «Maarifçi Gənclər» İctimai Birliyi tərəfindən nəşr edilmişdir. Bakı: 2017, s.14.

55 Sağlam gənclik sağlam gələcəkdir. Azərbaycan Respublikakasının Prezidenti yanında Qeyri-Hökuməi Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyələşdirdiyi «Orta təhsil müəəssisələrində şagirdlər arasında narkomaniya əleyhinə maarifləndirmə tədbirləri» layihəsi çərçivəsində «Maarifçi Gənclər» İctimai Birliyi tərəfindən nəşr edilmişdir. Bakı : 2017, s.12.

Sintezləşdirildikdən 5 ildən sonra, 1943-cü ildə təsadüf nəticəsində LSD-25-in hallüsinogen xassələri aşkar edildi. Bu isə belə baş vermişdir ki, Hofman onun farkoloji keyfiyyətlərini yoxlamaq qərarına gəlmiş və laborator eksperiment zamanı təsadüfən maddənin kiçik bir miqdarını əlinə dağıtmışdı. Kimyaçının əlində gedən absorbsiya prosesi nəticəsində onda qeyri-adi hisslər yaranmışdı və o, bu hisslərin əlinə tökülmüş maddə nəticəsində yarandığına əmin olmaq üçün onun 0,25 mq miqdarını daxilə qəbul etmişdir. «Sandoz» firmasına təqdim olunan hesabatında o ətraflı şəkildə keçirdiyi «yuxuya bənzər» vəziyyəti, gözünün qarşısından keçən fantastik mənzərələrin kəsilməz axınını, rənglərin qeyri-adi, intensiv, kaleydoskopik formalarını təsvir etmişdir.

Bu maddə psixiatrlarda maraq doğurmuş və Sürix universitetinin psixiatriya klinikasında LSD-nin kliniki effektləri öyrənildikdən sonra 1947-ci ildə «Sandoz» firması farmasevtik bazara tartart formasında LSD-dən ibarət olan «Delysid» dərman vasitəsini buraxdı. Sonrakı illərdə preparat psixoterapiya zamanı psixiatrlar və psixoloqlar tərəfindən geniş istifadə edilən vasitəyə çevrildi. Belə hesab edilirdi ki, LSD pasientin «eqo» müdafiəsini sındırmaq, onda onun üçün ən qədim və xoşagəlməz xatirələri canlandırmaq və beləliklə də psixoterapevtik (psixoanalitik) müdaxiləni yüngülləşdirmək iqtidarındadır.

1950-ci illərin əvvəllərində müxtəlif ölkələrin bir sıra tanınmış psixiatriya institutlarında insanlar və heyvanlar üzərində LSD ilə eksperimentlər aparılmağa başlandı. Bəzi mütəxəssislər şizofreniyanın, alkoqolizmin ağır formalarının müalicəsində LSD-yə böyük ümidlər bəsləyirdilər. LSD-dən tiryək narkomaniyasının, psixopatiyanın, «suisidal maniyanın», uşaq autizminin müalicəsində tətbiqi üzrə də cəhdlər edilmişdir. Bildirilirdi ki, LSD-dən istifadə sağalmaz xərçəng xəstəliyinə tutulmuş şəxslərə qaçılmaz ölümünü daha sakit qarşılamaqda kömək edəcəkdir.

Qeyd edək ki, LSD preparatı ilə psixiatrlarla yanaşı ABŞ-nın Mərkəzi Kəşfiyyat İdarəsi (MKİ) də maraqlanmağa başladı. Aydın oldu ki, 2-ci dünya müharibəsindən sonra kəşfiyyatçıların əlinə faşistlər tərəfindən meskalinlə bağlı keçirilən eksperimentlər haqqında məlumatlar düşmüşdü. Faşistlər üzərlərində sınaqların keçrildiyi şəxslərin istəklərini özlərinə tabe etdirməyə imkan verəcək preparat əldə etmək istəyirdilər. MKİ-nin rəhbərləri hesab etdilər ki, belə bir preparat ən azı əks kəşfiyyatla bağlı məsələlərdə əvəzsiz ola bilərdi.

1953-cü ildə MKİ tərəfindən şüura kimyəvi təsir ilə bağlı tədqiqatlara həsr olunmuş gizli «MK-ULTRA» layihəsi işə salındı. Əvvəllər eksperimentlər üçün tələb olunan LSD İsveçrənin «Sandoz» firmasından alınardı. Lakin bu olduqca baha idi  preparatın sintezi tələb olunan göbələk xəstəliyinin bakteriyaları olduqca defisit idi. Ona görə layihənin rəhbərləri gizli olaraq amerikanın kimya şirkətlərinin birinə  sintetiq analoqu hazırlamağı tapşırdılar. MKİ-i üzərlərində eksperimentlərin aparıldığı şəxslər qismində məhkumları, nevroloji klinikaların pasientlərini və pul qazanmaq istəyən tələbələri  cəlb edirdilər.

70-ci illərdə ABŞ-da LSD-25-ə olan moda epidemiya şəklini almışdı. Bu narkotiki qəbul edən adamların sayı 10 minlərlə idi. Mətbuat hər gün bu preparatın təsiri altında baş verən ölümlərdən və özünüöldürmə faktlarından xəbər verirdi; psixiatrik klinikalar LSD istehlakçıları ilə dolu idi. Bu isə LSD adlanan sintetik narkotikin insanın fiziki və psixi sağlamlığına böyük zərər vurduğunu göstərirdi.  XX əsrin 70-ci illərində ABŞ və Avropada LSD-nin klinik tətbiqinə olan maraq sönməyə başladı. Elə həmin illərdə də ABŞ-da LSD-dən hallüsinogen narkotik vasitə kimi istifadə halları da artmağa başladı. Cem Stivensonun «Göylərə hücum edərək. LSD və amerika arzusu» kitabında bu əsərin müəllifi LSD qəbul edərkən Xoffmanın düşdüyü vəziyyəti belə təsvir edirdi: O, artmaqda olan başgicəllənmə, görmə ilə bağlı bəzi problemləri və daima gülmək arzusunu hiss etdi. Jurnalda apardığı qeydləri da-

yandırmağa məcbur oldu və assistentlərin birindən onu evə ötürməyi və həkim çağırmağı xahiş etdi. Sonra o velosipedə oturaraq evə getməyə başladı və yol boyunca ətrafındakı dünyanın dəyişməyə başladığını gördü. Evə getdiyi yol boyu yerləşən tanış bulvar Xoffman üçün Salvador Dalinin rəsm əsərinə çevrilmişdi. O, bunu assistenti ilə müzakirə etmək istədikdə aşkar etdiyi ki, səsi ona tabe olmur. Xoffman düşündü ki, o həmişəlik ağlını itirmişdir. Hazırda «qara» bazarda rast gəlinən LSD məhsulları yalnız gizli laboratoriyalarda hazırlanır. Ən təhlükəli sintetik narkotik vasitələrə aid edilən fensiklidin 1950-ci ildə sintez edilmişdir və hallüsinogenlər qrupuna aiddir.

Ondan XX əsrin 60-cı illərində baytarlıqda qeyri-leqal yolla iri heyvanların sakitləşdirilməsi məqsədilə istifadə edilirdi. O, «Sernalin» ticarət adı ilə buraxılır. 1978-ci ildə onun istehsalı dayandırılmışdır, lakin gizli laboratoriyalarda istehsalı davam etdirilir. Qeyri-leqal yolla alınan nümunələrdə, əlavə kimi kokain, metamfetamin, metakvalondan istifadə olunur.

Daha bir sintetik narkotik vasitə 1979-cu ildə sintez edilmiş fentanildir. Fentanilin istehlakının ən yüksək dövrü 1985-ci ilə təsadüf edir, 1988-ci ildən başlayraq isə onun gizli istehsalı və istehlakının azalması müşahidə olunur ki, bunun da əsas səbəbi qeyri-leqal dövriyyəyə Fentanilinin analoqu olan və morfindən 6000, heroindən isə 1000 dəfə güclü təsirə malik 3-Metilfentalinin daxil olması idi[56].

XXI əsrin ilk illərində də yeni-yeni sintetik təbiətli psixoaktiv maddələrin qanunsuz dövriyyəyə daxil olması, hər il onlarla daha təhlükəli, insan orqanizmi üçün ağır fəsadlar doğuran sintetik narkotiklərin, xüsusən də sintetik kannabinoidlərin meydana gəlməsi və qeyri-tibbi məqsədlərlə istehlakı hallarının artması meyili müşahidə olunmaqdadır.

---

[56] Hüseynov Ş. Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə: elmi-nəzəri, hüquqi-təcrübi məslələri və problemlərinin həlli yolları. Dərs vəsaiti. Bakı: 2016, s.267-269

# FƏSİL 2. ƏN ÇOX İSTİFADƏ EDİLƏN PSİXOAKTİV MADDƏLƏRİN XÜSUSİYYƏTLƏRİ VƏ ONLARIN SAĞLAMLIĞA ZƏRƏRLİ TƏSİRİ

**Opioidlər.**

Bu qrup psixoaktiv maddələrə təbii törəmələr kimi tiryək laləsindən emal edilmiş (morfin və kodein), həm də yarımsintetik və sintetik birləşmələr (heroin, metadon və başqaları) aiddir. Şəkər tozu, yuyucu toz və s. ilə 80%-dək durulaşdırılmış müxtəlif çalarlı (ağdan qəhvəyiyə) opiat tərkibli qarışıqlar bir neçə yolla istifadə oluna bilər: nəfəs alma, çəkmə, inyeksiya. Asılılıq daha çox bir neçə dadmadan sonra, psixoaktiv maddənin istənilən formada tətbiqi ilə formalaşır. Psixoaktiv maddədən istifadə edən sərxoş vəziyyətdə olan insan zəifləmiş, yuxulu, hərəkətləri yavaşımış, nitqi gərilmiş və anlaşılmaz, ağrıya həssaslığı azalmış, göz bəbəyi olduqca daralmış olur.

Hətta psixoaktiv maddənin bir dəfə, amma həddən artıq yüksək dozada qəbulu ölümlə nəticələnə bilər və inyeksiya şəklində istifadə isə hepatitlər və İİV yoluxmalarına səbəb ola bilər.

Xroniki istifadə zamanı başqa fəsadlar da yaranır. Bir tərəfdən psixoaktiv maddənin özünün təsirinin nəticəsi kimi: immunitetin azalması, perefirik sinirlərin fəaliyyətinin pozulması, qaraciyərin, reproduktiv orqanların funksiyalarının pozulması, böyrəklərin, tənəffüs orqanlarının, dərinin, dişlərin zədələnməsi, digər tərəfdən ağır bakterial infeksiyalar şəklində ağırlaşmalar (məsələn, sepsis, B, C hepatitləri, İİV-infeksiyalar, vərəm) müşahidə oluna bilər.

Opiatlarla bağlı olan əsas təhlükələrdən biri ondan ibarətdir ki, xəstələr bütün vaxtlarını psixoaktiv maddələrin axtarışına və istifadəsinə sərf etməyə başlayırlar. Opiat istifadəçisinin normal həyata qayıdışı uzunmüddətli və çətin prosesdir.

Opiatların istifadəsi vaxtı səciyyəvi əlamətlər:

- qorxu hissinin azalması;

- enerjinin artması, eyforiya;
- solğunluq və ya dərinin torpaq rəngində olması;
- soyuq tər;
- ağızda quruluq;
- istifadə zamanı göz bəbəklərinin daralması, istifadədən məhrum vaxtı- genişlənməsi;
- oynaqlarda, ayaqlarda, kürəkdə ağrılar;
- bərk və qəbizliyiə meyilli nəcis;
- cinsi meyilin azalması[57].

**Kannabinoidlər** (çətənə, marixuana, anaşa və həşiş)-daha çox istifadə edilən qeyri-qanuni psixoaktiv maddələrdir.

Marixuana çətənənin qurudulmuş, xırdalanmış gülləri və müəyyən növlərinin yarpaqlarıdır. Həşiş həmin bitkidən alınmış, qəhvəyi, bərk, yağlı kütlə kimi görünən qatrandır. Adətən tütünlə birgə, çəkmə yolu ilə istifadə olunur. Konnabinoidlərin (çətənə törəmələri) istifadəsi vaxtı müxtəlif effektlər ola bilər və bunlar maddənin tərkibindən, dozasından, fərdi xüsusiyyətlər və hətta əhval-ruhiyyədən asılı olur.

Yeniyetmə və gənclər arasında belə fikir mövcuddur ki, çətənə törəmələri kifayət qədər zərərsiz maddədir, «yüngül» psixoaktiv maddədir, istifadəsi asılılığın yaranmasına səbəb olmur və orqanizm üçün təhlükəsi yoxdur. Ancaq bu doğru deyil, heroinə nisbətən çətənə törəmələrinin orqanizmə dağıdıcı təsirinin daha gec başlanması bu fikrin formalaşmasına səbəb olur.

Çətənə törəmələrindən müntəzəm istifadə nəticəsində ağır broxintlər, ağciyər xərçəngi, aritmiyalar (ürək ritmində pozuntu), qadınlarda reproduktiv funksiyanın pozulması-sonsuzluq, kişilərdə cinsi fəaliyyətin zəifləməsi (impotensiya) və sonsuzluq inkişaf edir. İnsanın psixikasına təsiri nəticəsində ağır fəsadlar baş verir: yaddaşın zəifləməsi, mücərrəd düşüncənin pozulması, sayıqlamanın inkişaf etməsi, psixozlar.

[57] Narkotik vasitələrdən və psixotrop maddələrdən sui-istifadə edən şəxslərin müəyyənləşdirilməsinə kömək üçün metodik tövsiyələr. Bakı: 2021, s.22-23

Çətənədən istifadə zamanı tipik əlamətlər:
- ilk gözəçarpan-qavrayışın ləngiməsi;
- fikir dağınıqlığı, yavaşımış reaksiyalar;
- nitq anlaşılmazlığı;
- güclü aclıq hissi;
- səbəbsiz gülüş, qəhqəhə;
- ağızda quruluq;
- ürək döyüntüsünün artması[58].

**Psixostimulyatorlar**-sinir sisteminə oyadıcı təsir göstərən psixoaktiv maddələr qrupudur. Bura kokain, krek, efedrinin törəmələri, efedrinin sintetik analoqu- amfetamin aiddir. Efedrinin və fenilpropanolaminin (soyuqdəymə əleyhinə dərman preparatlarının tərkibinə daxil olan, aptek şəbəkəsində azad satılan maddələr) sistemsiz istehsal edilmiş törəmələri venadaxili, bəzən gündə 10 dəfəyə qədər, daha çox qrup şəklində qəbul edilir.

Bu maddələrdən istifadə etdikdən sonra sərxoşluq vəziyyətində psixi və hərəkəti fəallıq yüksəlir: yeniyetmə və gənclər hövsələsiz, vurnuxan, boşboğaz olur, hərəkət etmək istəyirlər, nizamsız cinsi əlaqəyə gətirən cinsi meyil güclənir, nəbzin tezliyi artır, arterial təzyiq yüksəlir, susuzluq və yuxusuzluq baş verir, iştaha kəskin azalır. Sərxoşluq vəziyyətindən çıxandan sonra-tez qıcıqlanma, aqressivlik, depressiya, yuxululuq yaranır. Psixoaktiv maddədən asılılığın formalaşması dövrü olur: 4-7 gün daimi istifadəni, 2-4 «bərpa» günü (uzunsürən yuxu ilə müşahidə edilən) əvəz edir.

Psixostimulyatorlardan istifadənin nəticələri orqanizm üçün son dərəcədə dağıdıcıdır, bütün orqanlar əzab çəkir. Xüsusilə sinir sistemi zədələnir: zehni inkişaf səviyyəsi aşağı enir, əqli zəiflik inkişaf edir, aqressivlik və kobudluq artır, çox vaxt psixozlar (qorxulu hallüsinasiyalar, təqib və təsir sayıqlamaları) inki-

---

[58] Narkotik vasitələrdən və psixotrop maddələrdən sui-istifadə edən şəxslərin müəyyənləşdirilməsinə kömək üçün metodik tövsiyələr. Bakı: 2021, s.23-24

şaf edir, intiharlara gətirən ağır depressiyalar, həssaslığın pozulması, əllərin və ayaqların titrəməsi. Ürək-damar sistemində dəyişiklik baş verir: ürəyin əzələsi zədələnir, ritmi pozulur, arterial təzyiq yüksəlir, bu da beyinə qansızma və miokard infarktı səbəbindən erək ölümlə nəticələnə bilər. İnyeksiya yolu ilə psixoaktiv maddədən istifadə toksiki və virus hepatitlərinin yaranmasına səbəb olur, nizamsız cinsi əlaqələr İİV-infeksiyaların, zöhrəvi xəstəliklərin və hepatitlərin ötürülməsi riskini yüksəldir.

Kokaininin istifadəsi vaxtı tipik əlamətlər:

- qırmızı, şişmiş burun;
- yerişdə səndələmə;
- anlaşılmaz nitq;
- gözlərin qüzehi qişasının zəif titrəməsi;
- özünə güvənmə;
- cinsi oynanıqlıq.

Qeyd: psixoaktiv maddəninin qəbulunun dayandırılması dilin, göz qapaqlarının, uzadılmış əllərin titrəməsinə, ürək bulanmasına, qusmağa, ürək döyüntüsünün artmasına, vizual hallüsinasiyalara səbəb olur.

Amfetaminlərin istifadəsi vaxtı tipik əlamətlər:

- uzunmüddətli fəallıq, eyforiya;
- hərəkət etmək arzusu;
- yuxusüzluq;
- cinsi davranış dəyişikliyi.

Uzunmüddətli qəbulun dayandırılması nəticəsində iki günə qədər çəkən depressiya, iştahın azalması, paranoidal vəziyyət müşahidə olunur.

Psixostimulyartorlardan istifadə vaxtı tipik əlamətlər:

- zəhlətökən davranış;
- boşboğazlıq;
- hərəkətlərdə fəallığın artması;

- dərin solğunluğu;

- kəskin arıqlama[59].

**Psixaktiv maddə istifadəsi nəticəsində yaranan sərxoşluğun ümumi əlamətlər:**

- eyforiya, yəni yüksək əhvali-ruhiyyə;

- ləngiməklə və ya düşüncənin sürətlənməsi ilə uyğunlaşmış sakit həzz. Sərxoşlar canlanmış, şən, ünsiyyətcil, boşboğaz, bərkdən danışan, zəhlətökəndir;

- tez-tez seksual oyanma yaranır. Amma belə əhvali-ruhiyyə daimi olmur və qəflətən narazılıqla dəyişə bilər. Bəzi hallarda təfəkkür və sinir-əzələ reaksiyalarının yavaşıması müşahidə olunur (donma-tam sönməyə qədər, onlara göstərilən münasibətə reaksiyanın olmaması);

- bəzən psixoaktiv maddələrin böyük dozasının istifadəsi zamanı şüurun uzunmüddətli itməsi baş verir;

- hərəkət koordinasiyasının pozuntuları meydana çıxır: sərxoşlar qeyri-dəqiq, kəskin olurlar, dəqiq hərəkətləri yerinə yetirə bilmirlər. Əl barmaqlarının azca titrəməsi tipik haldır;

- inamsız yeriş, yerimə zamanı səndələmələr, hərəkət istiqamətindən kəskin sapmalar müşahidə olunur;

- mimika aydın ifadə edilmiş olur;

- nitq qeyri-səlis, aydın olmayan, yavaşımış olur. Bəzən nitq qəfildən dayanır, əvəzinə əl-qol hərəkətlərindən istifadə olunur;

- xəttin pozulması mümkündür (müəllimlər buna xüsusi diqqət etməlidirlər);

- şəxsin üzü, dodaqları sallanmış maskanı xatırladır, yarıaçıq göz qapaqları, işıqlandırmadan asılı olmayaraq genişlənmiş göz bəbəkləri müşahidə olunur. Belə vəziyyətdə tərləmə çox qeyd edilir, nəbz tezləşir, soloğunluq və ya üzün qızarması meydana çıxır. Preparatların təsiri sona yaxınlaşdıqda psixoaktiv

---

[59] Narkotik vasitələrdən və psixotrop maddələrdən sui-istifadə edən şəxslərin müəyyənləşdirilməsinə kömək üçün metodik tövsiyələr. Bakı: 2021, s.25

maddə istifadəçiləri süst, az hərəkətli, ətrafdakılara qarşı laqeyd olur, dərin yuxuya gedirlər. Bu vaxt onları oyatmaq kifayət qədər çətin olur. Qeyd edək ki, bu yalnız ümumi əlamətlərdir[60].

**Psixaktiv maddələrin qəbulu nəticəsində yaranan sərxoşluğun diferensial diaqnostikası**

1)Tiryək, morfin, heroin, kodein:

- bəbəyin daralması; işığa qarşı reaksiya ya zəif olur, ya da olmur;
- üzün və burun ucunun dərisinində qaşınma, qatı tüpürcək və gözdən yaş axma, əsnəmək, burun axma və burun çəkmə;
- dəri səthinin solğunluğu;
- ağızda quruluq;
- dəridə quruluq;
-yüksək əhval-ruhiyyə, aydın nitq, sürətli təfəkkür, bunlar daha sonra tormozlanma və süstlüklə əvəz olunur. Sualları cavablandırmaq istəyinin olmaması. «Lomka» (psixoaktiv maddələrin təsiri zamanı artan həyəcan);
- «Lomka» zamanı qripəbənzər vəziyyət və diareya müşahidə olunur. Özünü spirtli içki qəbul etmiş şəxs kimi qələmə vermək

2)Marixuana, həşiş, anaşa:

- bəbəyin həddən artıq genişlənməsi;
- nəbzin tezləşməsi;
- burun-dodaq üçbucaq solğunluğu, dərinin torpaq rəngində olması;
- dildə və ağızın selikli qişasında ərp;
- çox nəzərə çarpayan tərləmə;
- artmış canvar iştahı», qeyri-adi yüksək əhval-ruhiyyə, ünsiyyətdə olmaq arzusu, çox danışma, yumşaq ürəklilik;
- öskürək, bronxit əlamətləri çox vaxt sərxoşluqla uyğunlaşır;

---

[60] Narkotik vasitələrdən və psixotrop maddələrdən sui-istifadə edən şəxslərin müəyyənləşdirilməsinə kömək üçün metodik tövsiyələr. Bakı: 2021, s.32-33

3)Efedron, pervitin:

- tədricən bəbəyin genişlənməsi;
- nəbzin tezləşməsi;
- dərinin solğunluğu, torpaq rəngində olması, yanaqların qeyri-adi qızarması;
- dodaqlarda quruluq, dodaqların yalanması;
- tərləmə;
- narahat olma, vurnuxan, zəhlətökən, düşüncəsiz, sərt hərəkətlər, yeni hissləri bölüşmək, gördüyü hallüsinasiyalardan danışmaq arzusu, «lomka» zamanı- yalançılıq, aqressivlik, hirslilik və hövsələsizlik;
- haldan düşmüş xəstə adam görünüşü çox vaxt sərxoşluqla uyğunlaşır;

4)barbituratlar, sedativ maddələr və trankvilizatorlar:

- bəbəyin həddən artıq genişlənməsi, işığa qarşı reaksiya ya zəif olur, ya da olmur;
- nəbzin qeyri-stabil dəyişməsi, sürətlənməsi;
- solğunluq, dərinin torpaq rəngində olması, bəzi hallarda qeyri-adi qızarma;
- dodaqlarda quruluq və onları yalama;
- narahat olma, vurnuxma, zəhlətökənlik, düşüncəsizlik, sərt hərəkətlər;
- yeni hissləri bölüşmək arzusu;
- «lomka» zamanı gördüyü hallüsinasiyalardan danışmaq, yalançılıq, aqressivlik, hövsələsizlik və bir yerdə durmamaq;
- həddən artıq dozanın qəbulu zamanı tərləmə və arterial təzyiqin aşağı olması;
- bəhrəsiz fəaliyyət, anlaşılmazlıq, təfəkkür və istiqmət pozuntusu;
- «qorxusuz» alkoqol qəbulunu xatırlama və sərxoşluqla uyğunlaşma;

5)hallüsegenlər, LSD, psilosibin:

- əhval-ruhiyyənin və qavrama qabiliyyətinin dəyişkənliyi;

- şübhəli yanaşma, həyəcan, təşviş;
- ürək bulanma;
- tremor (kiçik titrəyişlər);

6)amfetaminlər, retamin, qrasidin:
- iştahanın olmaması;
- həyəcan, sürətli danışıq, tremor;
- tez qıcıqlanma, dəyişkən əhval-ruhiyyə[61].

**Psixoaktiv maddələrin istifadəsi zamanı həddən artıq böyük dozanın qəbulu**

Psixoaktiv maddələrin istifadəsi zamanı ən ağır nəticələrdən biri həddən artıq böyük doza qəbul etdikdə yaranır. Bu halda tənəffüs yollarının qusuntu kütlələri ilə tutulması nəticəsində tənəffüs və ürək çatışmazlığından ölüm baş verə bilər.

Doza aşıldıqda baş verən əlamətlər:
- şüurun itməsi;
- kəskin solğunluq;
- səthi və tək-tək nəfəs;
- nəbz əllə pis yoxlanılır;
- xarici qıcıqlandırıcılara reaksiya yoxdur;
- qusma və ya qusuntu kütlələrinin izləri;
- əllə yoxladıqda soyuq dəri, dodaqlar, qulaqlar, barmaqların ucları göy rəngli olur.

Psixoaktiv maddələrin müntəzəm qəbulu nəticəsində insanlarda səthi tənəffüsün yavaşıması, qaraciyərin zədələnməsi (opiatların və onların törəmələrinin qəbulu zamanı), qeyri-adi hərəkətlər, emosional qeyri-stabil psixoz (hallüsinogenlər, xüsusən də LSD qəbulu zamanı), istiqamət pozuntusu, güclü depressiya, hallüsinasiya, arterial təzyiqin yüksəlməsi, qəfil süstlük (amfetamin, retamin, pervitin qəbulu zamanı) müşahidə oluna bilər[62].

---

[61] Narkotik vasitələrdən və psixotrop maddələrdən sui-istifadə edən şəxslərin müəyyənləşdirilməsinə kömək üçün metodik tövsiyələr. Bakı: 2021, s. 34-41

[62] Narkotik vasitələrdən və psixotrop maddələrdən sui-istifadə edən şəxslərin müəyyənləşdirilməsinə kömək üçün metodik tövsiyələr. Bakı: 2021, s.40-41

# FƏSİL 3. QLOBALLAŞMA DÖVRÜNDƏ NARKOMANLIQ VƏ NARKOBİZNES (NARKOTİK VASİTƏLƏRİN VƏ PSİXOTROP MADDƏLƏRİN QANUNSUZ DÖVRİYYƏSİ): MÖVCUD VƏZİYYƏT VƏ MÜASİR MEYİLLƏR

BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsi, müvafiq beynəlxalq araşdırma mərkəzlərinin təqdim etdikləri göstəricilərə görə, dünya miqyasında narkotik vasitələrin qanunsuz dövriyyəsinin illik həcmi təxminən 650 milyard ABŞ dolları (dünya üzrə ÜDM-nin təxminən 1%-i) təşkil edir.

P.N.Kobets yazır ki, geniş yayılmış cəmiyyətəzidd hadisə kimi narkomaniya və narkocinayətkarlıq bütün dünya birliyinin diqqət mərkəzindədir. Çünki məhz narkomaniyanın, narkocinayətkarlığın geniş yayılması nəticəsində istər dövlətlərin özləri, istərsə də onların iqtisadiyyatı, bütövlükdə cəmiyyət təhlükə altındadır. Narkocinayətkarlıq ilk növbədə yeni nəslin sağlamlığına olduqca mənfi təsir edərək bəşəriyyətin fiziki, psixi, mənəvi, intellektual, genetik və reproduktiv təhlükəsizliyi üçün ciddi təhlükə kəsb edir[63].

Narkobiznes və narkomaniya problemi BMT tərəfindən rəsmən nüvə müharibəsi və ekoloji fəlakət ilə yanaşı müasirliyin ən qlobal təhlükələrindən biri hesab edilmiş, dünyada narkotiklərin istehlakının və coğrafiyasının, miqyaslarının daima genişlənməsi; narkocinayətkarlığın mütəşəkkil cinayətkarlıqla, qanunsuz silah alveri ilə və terrorizmlə qovuşması; həddən artıq böyük gəlirlər və narkodollarların yuyulması üçün əsaslardan biri kimi çıxış edən kor-

---

[63] Кобец П.Н. Совершенствование борьбы с незаконным оборотом наркотических средств на территории государств -участников содружества независимых государств-одно из условий обеспечения национальной безопасности Российской Федерации//Национальная безопасность и стратегическое планирование. 2017, №4(20), с.22

rupsiyalığın səviyyəsinin yüksəlməsi və sair kimi xarakterik əlamətlərlə səciyyələndiyi göstərilmişdir[64].

BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin hesabatına əsasən, dünyada narkotik istifadəçilərinin sayı artaraq 292 milyona çatmışdır. Kannabis ən çox istifadə olunan narkotik vasitə olaraq qalmaqdadır. Belə ki, dünya əhalisinin böyük hissəsi (təxminən 228 milyon) kannabis, digər hissəsi isə opioid, amfetamin, kokain və ekstazi istifadəçisidirlər.

2022-ci ildə kannabis istehlak edənlərin sayı 228 mln nəfər olmuşdur ki, bu da dünya əhalisinin 4%-dir. 60 milyon insan, yəni dünya əhalisinin 1,2%-i opioidlər qrupuna daxil olan narkotiklərdən istifadə etmişlər. Onların da 50%-i Cənubi və Cənub-Qərbi Asiyada yaşayan insanlardır. Opioid istehlak edən əhalinin təxminən 30 milyon nəfəri əsasən heroin qəbul edənlər olmuşdur. 2022-ci ildə dünyada 23,5 milyon insan kokain istehlak etmişdir ki, bu da dünya əhalisinin 0,45%-ni təşkil edir. 30 milyon insan amfetamin istehlakçısı olmuşdur ki, bu da dünya əhalisinin 0,6%-ni təşkil edir. 2022-ci ildə dünya əhalisinin 0,4%-i, yəni 20 milyon nəfəri ekstazi qrupuna daxil olan maddə qəbul etmişlər.

BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin məlumatında ABŞ-da 15-64 yaş arası vətəndaşların 16,5%-i narkotik vasitələrdən və psixotrop maddələrdən istifadə edir. Bu göstərici ilə ABŞ dünyada ilk sıradadır. İkinci yer daha bir Şimali Amerika ölkəsinə-Kanadaya (14,7%) məxsusdur. Sonrakı yerlərdə Nigeriya (14,3%), Çili (11,8%), Çexiya (11,4%), Fransa (11,1%), Yeni Zelandiya (11,0%), Avstraliya (10,2%), Uruqvay (9,3%), İtaliya və İspaniya (9,2%), İsveçrə və Hollandiya (8,0%), Xorvatiya (7,9%), Danimarka (6,9%), Finlyandiya (6,8%), İslandiya (6,6%), İngiltərə (6,5%), Avstriya (6,4%),

---

[64] Еременко В. Транснациональный наркобизнес как глобальная угроза современности//Власть: 2008. №5, с.45

Şotlandiya (6,3%), Misir (6,2%) və Almaniya (6,1%) qərarlaşmışdır. Qeyd edək ki, 122 ölkə arasında Türkiyə (0,3) 120- ci yerdə olmuşdur (bax: cədvəl 1).

Qeyd olunan hesabata görə, Azərbaycanda 15-64 yaş arası vətəndaşların 3,5%-i ən azı bir dəfə narkotik vasitələrdən istifadə etmişdir. Bu göstərici ilə Azərbaycan 122 ölkə arasında 58-ci sırada yerləşmişdir. Region ölkələrindən Özbəkistan (4,2%) 53-cü, Rusiya (3,5%) 62-ci, Gürcüstan (2,7%) 72-ci, Qazaxıstan (2,4%) 78-ci, Ukrayna (2,1%) 81-ci, Belarus (1,0%) 101-ci, Moldova (0,7% ) 110-cu olmuşdur (cədvəl 1)

*Cədvəl 1*

**Dünya ölkələrində 15-64 yaş arasında olan narkotik istehlakçılarının xüsusi çəkisi (BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin 122 ölkəni əhatə edən hesabatı 2017-ci il)**

| № | Ölkə | Göstərici |
|---|---|---|
| 1 | ABŞ | 16,5 |
| 2 | Kanada | 14,73 |
| 3 | Nigeriya | 14,3 |
| 4 | Çili | 11,83 |
| 5 | Çexiya | 11,4 |
| 6 | Fransa | 11,1 |
| 7 | Yeni Zelandiya | 11,0 |
| 9 | Avstraliya | 10,2 |
| 11 | Uruqvay | 9,3 |
| 12 | İtaliya | 9,2 |
| 13 | İspaniya | 9,2 |
| 15 | İsrail | 8,88 |
| 19 | İsverçə | 8,09 |
| 20 | Hollandiya | 8,0 |
| 21 | Xorvatiya | 7,9 |
| 22 | Qrenlandiya | 7,6 |
| 24 | Danimarka | 6,9 |

| | | |
|---|---|---|
| 25 | Finlyandiya | 6,8 |
| 26 | İslandiya | 6,6 |
| 27 | İngiltərə | 6,5 |
| 28 | Avstriya | 6,4 |
| 29 | Şotlandiya | 6,29 |
| 30 | Misir | 6,24 |
| 31 | Almaniya | 6,1 |
| 32 | Estoniya | 6,0 |
| 33 | İrlandiya | 6,0 |
| 34 | Albaniya | 5,6 |
| 35 | BƏƏ | 5,35 |
| 36 | Belçika | 4,6 |
| 37 | Polşa | 4,6 |
| 38 | Şimali İrlandiya | 4,6 |
| 39 | Sloveniya | 4,4 |
| 40 | Slovakiya | 4,3 |
| 41 | Əfqanıstan | 4,28 |
| 42 | Latviya | 4,2 |
| 43 | Norveç | 4,2 |
| 44 | Özbəkistan | 4,2 |
| 45 | Pakistan | 3,6 |
| 46 | Azərbaycan | 3,5 |
| 47 | Bolqarıstan | 3,5 |
| 48 | Rusiya | 3,49 |
| 49 | Kolumbiya | 3,27 |
| 50 | Argentina | 3,2 |
| 51 | İsveç | 3,2 |
| 52 | Gürcüstan | 2,7 |
| 53 | Portuqaliya | 2,7 |
| 54 | Braziliya | 2,5 |
| 55 | Qazaxıstan | 2,4 |
| 56 | Litva | 2,3 |
| 57 | Ukrayna | 2,13 |
| 58 | Rumıniya | 2,0 |
| 59 | Monteneqro | 1,82 |

| | | |
|---|---|---|
| 60 | Yunanıstan | 1,7 |
| 61 | Bosniya və Hersoqovina | 1,6 |
| 62 | Paraqvay | 1,6 |
| 63 | Serbiya | 1,6 |
| 64 | Macarıstan | 1,53 |
| 65 | Meksika | 1,2 |
| 66 | Makedoniya | 1,13 |
| 67 | Belarus | 1,07 |
| 68 | Peru | 1,03 |
| 69 | Moldova | 0,7 |
| 70 | Çin | 0,67 |
| 71 | Yaponiya | 0,3 |
| 72 | Türkiyə | 0,3 |
| 73 | Cnubi Koreya | 0,29 |

Maraqlıdır ki, narkotik tərkibli bitkilərin əkilib-becərildiyi və istehsal edildiyi, sintetik narkotikləri istehsal edən laboratoyiların mövcud olduğu Kolumbiya (3.27), Əfqanıstan (4.28), Pakistan (3.6), Tailand (1.2), Laos (0.88), Boliviya (1.27), Meksika (1.2), Peru (1.03), Ekvador (0.67) kimi ölkələrdə narkotiklərin istehlakı səviyyəsi o qədər də yüksək deyildir. Narkotik vasitələr-planetimizdə əhalinin ölümünün heç də əsas səbəbi deyildir. Eyni zamanda, narkotik vasitələrin və psixotrop maddələrin insan həyatı və sağlamlığı üçün ən təhlükəl növlərinin mütəmadi qəbulu, doza həddinin aşması nəticəsində baş verən ölüm halları heç də az deyildir. Qeyd edək ki, narkotik vasitələrdən baş verən ölüm hallarının sayı haqqında məlumatların toplanması və təhlili ilə BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsi məşğul olur. Özünün illik hesabatında World Drug Report əhalinin mütləq və nisbi (əhalinin 1 mln nəfərinə düşən) ölüm sayı ilə bağlı məlumatları dərc etdirir.

Ölüm səviyyəsinə insanların bütün növ narkotiklərdən (opiatlar, amfetaminlər, hallüsinoqenlər, kokain, heroin, ekstazi və

s.) istifadə nəticəsində baş verən ölüm halları daxildir. Statistika yaşları 15-64 arasında olan insanların ölümü haqqında məlumatlar düşür. Sonuncu hesabat 2018-ci ildə dərc olunmuşdur (cədvəl 2).

Statistika göstərir ki, istər mütləq, istərsə də nisbi göstəricilərdə narkotik vasitələrdən ölüm halları daha çox ABŞ-da müşahidə edilir.

*Cədvəl 2*

**Narkotiklərin istehlakı nəticəsində baş verən ölüm səviyyəsi üzrə ölkələrin reytinqi**

| № | Ölkələr | Ölüm hallarının sayı | 1 milyon əhaliyə düşən ölüm hallarının sayı |
|---|---|---|---|
| 1 | ABŞ | 63 632 | 300,7 |
| 2 | İsveç | 1 039 | 173,5 |
| 3 | Estoniya | 114 | 134,3 |
| 4 | Avstraliya | 1 899 | 121,7 |
| 5 | Uruqvay | 264 | 119,9 |
| 6 | İslandiya | 23 | 105,2 |
| 7 | Kanada | 2 458 | 100,4 |
| 8 | Norveç | 289 | 84,6 |
| 9 | Böyük Britaniya | 3141 | 74,7 |
| 10 | Finlyandiya | 254 | 72,8 |
| 11 | Danimarka | 263 | 72,1 |
| 12 | İrlandiya | 214 | 69,6 |
| 13 | Yeni Zelandiya | 191 | 64,2 |
| 14 | Rusiya | 5766 | 58,1 |
| 15 | İran | 3190 | 55,9 |
| 16 | Venesuela | 197 | 55,3 |
| 17 | Litva | 106 | 54,8 |
| 18 | İspaniya | 1180 | 38,1 |
| 19 | Avstriya | 215 | 37 |
| 20 | Monte-Neqro | 14 | 32,9 |

| | | | |
|---|---|---|---|
| 21 | Xorvatiya | 79 | 28,1 |
| 22 | İsveçrə | 134 | 24,1 |
| 23 | Sloveniya | 32 | 22,9 |
| 24 | Almaniya | 1226 | 22,8 |
| 25 | Qazaxıstan | 222 | 18,8 |
| 26 | Çin | 25727 | 18,56 |
| 27 | Özbəkistan | 356 | 16,72 |
| 28 | İsrail | 83 | 16,7 |
| 29 | Makedoniya | 23 | 15,8 |
| 30 | Bosniya və Hersoqovina | 40 | 15,6 |
| 31 | Belarus | 95 | 14,5 |
| 32 | Slovakiya | 54 | 14,1 |
| 33 | Latviya | 18 | 14 |
| 34 | Türkiyə | 590 | 11,3 |
| 35 | Niderland | 123 | 11,1 |
| 36 | Argentina | 286 | 10,3 |
| 37 | Belçika | 74 | 10,2 |
| 38 | Yunanıstan | 66 | 9 |
| 39 | Polşa | 225 | 8,5 |
| 40 | Portuqaliya | 54 | 8 |
| 41 | Moldova | 27 | 7,7 |
| 42 | İtaliya | 266 | 7 |
| 43 | Serbiya | 40 | 6,8 |
| 44 | Çexiya | 44 | 6,2 |
| 45 | Meksika | 54 | 6,1 |
| 46 | Qırğızstan | 23 | 6 |
| 47 | Myanma | 186 | 5,3 |
| 48 | Ukrayna | 24 | 5,1 |
| 49 | Azərbaycan | 26 | 3,8 |
| 50 | Macarıstan | 25 | 3,8 |
| 51 | Fransa | 147 | 3,6 |
| 52 | Bolqarıstan | 17 | 3,6 |
| 53 | Braziliya | 481 | 3,4 |
| 54 | Peru | 42 | 2,2 |
| 55 | Albaniya | 4 | 2 |

| | | | |
|---|---|---|---|
| 56 | Gürcüstan | 5 | 1,9 |
| 57 | Ekvador | 17 | 1,7 |
| 58 | Rumıniya | 31 | 1,5 |
| 59 | Tacikistan | 7 | 1,3 |
| 60 | Əfqanıstan | 16 | 1,1 |
| 61 | Paraqvay | 1 | 0,5 |
| 62 | Malayziya | 7 | 0,3 |
| 63 | Cənubi Koreya | 3 | 0,1 |

Narkotik vasitələrin qəbulu nəticəsində baş verən ölüm hallarının səviyyəsi daha az olan ölkələr sırasında Malayziya (03), Cənubi Koreya ( 0.1), Paraqvay (0.5) və digərlərini göstərə bilərik.

BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin məlumatına görə 2018-ci ildə ABŞ-da 63 632 nəfər, Çində 25 727, Rusiyada 5766, İranda 3190, Böyük Britaniyada 3141, Kanadada 2458, Avstraliyada 1899, Almaniyada 1226, İsveçdə 1069 nəfər narkotik vasitələrin qəbulu nəticəsində həyatını itirmişdir. Qeyd edək ki, 2018-ci ildə Azərbaycanda narkotik vasitələrin qurbanı olan şəxslərin sayı 26 nəfər olmuşdur (cədvəl 2).

2020-ci ildə ABŞ-da narkotiklərin qəbulu zamanı doza həddini aşma nəticəsində baş vermiş ölüm hallarının sayı 2019-cu illə (72 151) müqayisədə 30% artaraq 93 331 olmuşdur. Bu zəmində baş verən ölüm hallarının 74.4%-i (69 710) opiod qrupuna daxil olan narkotik vasitələrin qəbulu nəticəsində baş vermişdir. 2021-ci ildə ABŞ-da doza həddini aşma nəticəsində baş verən ölüm halları 15% artaraq 100 000 həddini keçmişdir ki, bu da son bir neçə onillikdə qeydə alınmış ən böyük rəqəmdir. ABŞ-nın Narkotiklərlə Mübarizə İdarəsinin hesablamalarına görə 2020-ci ildə bu ölkədə hər gün 144 nəfər insan narkodoza həddini aşma nəticəsindən həyatını itirir. ABŞ-da son illərdə daha bir təhlükəli meyil qeydə alınmışdır. Elə ki, gənclər arasında morfindən 80-100 dəfə güclü olan və sintetik opioid sayılan fen-

tanildən istifadə halları artmağa başlamışdır. Narkomanlıq nəticəsində həyatdan məhrum olanların 63%-i heroin və fentanil kimi narkotik vasitələri qəbul edənlər təşkil etmişdir.

Bir milyon əhali arasında narkotik vasitələrin və psixotrop maddələrdən qeyri-tibbi məqsədlərlə istehlakı nəticəsində baş verən ölüm hallarına sayına görə ilk yerlər ABŞ (1 milyon əhaliyə 300,7 ölüm halı), İsveç (173,5), Estoniya (134,3), Avstraliya (121,7), Uruqvay (119,9), İslandiya (105,2), Kanada (100,4), Norveç (84,6), Böyük Britaniya (74,7), Finlyandiya (42,8), Danimarka (72,1), İrlandiya (69,6), Yeni Zellandiya (64,2), Rusiya (58,1), İran (55,9) kimi ölkələrə məxsusdur. MDB ölkələri arasında Qazaxıstan (18,8) 33-cü, Özbəkistan (16,7) 36-cı, Qırğızstan (6,0) 63-cü, Ukrayna (5,1) 65-ci, Azərbaycan (3,8) 67-ci yerdə qərarlaşmışdır. Ümumilikdə isə Ümumdünya Səhiyyə Təşkilatının hesabatına görə bir ildə narkoistifadədən ölənlərin sayı 450 minə çatmışdır (cədvəl 2).

2019-cu ildə Avropa İttifaqı ölkələrində qeyri-leqal narkotiklərin istehlakı nəticəsində ən azı 5141 ölüm hadisəsi baş vermişdir ki, bu da 2018-ci ilin göstəricisindən 3% çoxdur. Bu ildə Avropa İttifaqı ölkələrində narkotik vasitələrin qəbulu zamanı doza həddini aşma nəticəsində baş verən və 15-64 yaşlı 1 milyon əhaliyə düşən ölüm hallarının sayı 14,8 olmuşdur. 2019-cu ildə Çexiya, Danimarka, Almaniya, İtaliya, Lüksemburq, Rumıniya və Slovakiya kimi ölkələrdə heroin (morfin) qəbulu nəticəsində baş verən ölüm hallarının sayında artım baş vermişdir[65]. 2019-cu ildə Avropa İttifaqı ölkələrində, Norveç və Türkiyədə 15-19 yaşda olan şəxslər arasında narkotik qəbulu nəticəsində 116 ölüm hadisəsi baş vermişdir (cədvəl 3).

Avropa İttifaqı ölkələrində əhalinin 100 000 nəfərinə düşən ölüm hallarının daha aşağı səviyyəsi Çex Respublikası (50),

---

[65] Европейский доклад о наркотиках: тенденции и изменения. Европейский центр мониторинга наркотиков и наркозависимости. 2021, с.40.

Polşa (50), Bolqarıstan (20), daha yüksək səviyyəsi isə İrlandiya (710), İsveç (770), Finlyandiya (650) kimi ölkələrdə qeydə alınmışdır. Əhalinin 100 000 nəfərinə düşən ölüm sayı Böyük Britaniyada 760, Türkiyədə isə 60 olmuşdur. Qeyd edək ki, Avropa İttifaqı üzrə orta göstərici 150 olmuşdur.

*Cədvəl 3*

**2019-cu ildə bəzi Avropa ölkələrində narkotiklərin istehlakı nəticəsində baş verən ölüm halları**

| Ölkələr | Ölüm hallarının sayı | Əhalinin 100 000 nəfərinə düşən ölüm halları |
|---|---|---|
| Belçika | 61 | 80 |
| Bolqarıstan | 11 | 20 |
| Çexiya | 42 | 50 |
| Danimarka | 173 | 390 |
| Estoniya | 27 | 300 |
| İrlandiya | 235 | 710 |
| Yunanıstan | 57 | 80 |
| İspaniya | 450 | 150 |
| Fransa | 465 | 90 |
| Xorvatiya | 97 | 370 |
| İtaliya | 373 | 100 |
| Kipr | 5 | 80 |
| Latviya | 12 | 100 |
| Litva | 52 | 290 |
| Lüksemburq | 8 | 190 |
| Macarıstan | 4 | 70 |
| Malta | 3 | 90 |
| Niderland | 252 | 200 |
| Avstriya | 196 | 330 |
| Polşa | 199 | 60 |
| Portuqaliya | 55 | 80 |
| Rumıniya | 45 | 30 |

| | | |
|---|---|---|
| Sloveniya | 74 | 510 |
| Slovakiya | 34 | 80 |
| Finlyandiya | 234 | 650 |
| İsveç | 540 | 770 |
| Türkiyə | 342 | 60 |
| Norveç | 286 | 770 |
| Birləşmiş Krallıq | 3284 | 760 |

Avropada ən müxtəlif növ narkotiklər istehlak edilir. Narkotik vasitələri qəbul edən şəxslər arasında polinarkomaniya kifayət qədər geniş yayılmışdır və bunu kəmiyyət etibarı ilə qiymətləndirmək çətindir. Bu qitədə ən geniş yayılmış narkotik isə kannabisdir və kannabis məhsulları digər narkotiklərlə müqayisədə 5 dəfə çox qəbul edilir[66].

Ekspert qiymətləndirmələri göstərir ki, Avropa İttifaqında həyatında ən azı bir dəfə narkotik vasitə qəbul edən şəxslərin sayı 83 milyon və ya yaşı 15-64 arasında olan əhalinin 28,9%-ni təşkil edir. Onların arasında kişilərin sayı 50,6 milyon, qadınların sayı isə 32,8 milyondur.

Avropa İttifaqında 2019-cu ildə əvəzedici opioid terapiyasını keçənlərin sayı 510 000 nəfər olmuşdur. Qeyd edək ki, doza həddini aşma ilə bağlı olan ölüm hallarının 76%-i opioid qrupuna daxil olan narkotiklərlə bağlı olmuşdur.

Konkret narkotik vasitələrin növlərinə gəldikdə isə tədqiqatlar göstərir ki, 2019-cu il ərzində 15-64 yaşda olan 22,2 mln avropalı, yəni bu yaşda olan Avropa əhalisinin 7,7%-i, 15-34 yaşda olan əhalinin isə 15,4%-i, yəni 15,8 mln-u kannabis məhsullarından istifadə etmişdir.

15-64 yaşda olan Avropalıların 2,6 mln nəfəri, yəni bu yaşda olan əhalinin 0,9%-i MDMA, 3,5 mln nəfəri, yəni 1,2%-i ko-

[66] Европейский доклад о наркотиках: тенденции и изменения. Европейский центр мониторинга наркотиков и наркозависимости. 2021, с.12.

kain, 2,0 mln nəfəri, yəni 0,7%-i son bir ildə amfetaminlər qəbul etmişlər. 15-34 yaşda olan əhalinin isə 1,9%-i, yəni 2,0 mln nəfəri MDMA, 1,2%, yəni 3,5 mln-u kokain, 1,4%-i, yəni 1,4 mln-u amfetamin qəbul etmişdir.

2019-cu ildə Avropada narkotiklərin müsadirəsi ilə bağlı 1,1 milyon fakt qeydə alınmışdır. 2009-cu illə müqayisədə 2019-cu ildə müsadirə olunmuş kannabis qətranı (həşiş) 9,0%, heroin isə 27% azalmışdır. Eyni zamanda 2009-cu illə müqayisədə 2019-cu ildə müsadirə olunmuş kokain 27%, amfetamin 40%, marixuana isə 72% artmışdır. Müsadirə olunmuş MDMA (290%) və metamfetaminlərdə (182%) daha böyük artım qeydə alınmışdır.

2019-cu ildə Avropa İttifaqı ölkələrində ümumi həcmi 465 ton olan kannabis qətranının və ümumi həcmi 148 ton olan marixuananın müsadirəsi üzrə 326 000 fakt qeydə alınmıqdır. Bu ildə Türkiyədə həşiş və marixuananın müsadirəsi ilə bağlı uyğun olaraq 6200 və 64 000 hadisə baş vermiş, nəticədə 28 ton həşiş və 63 ton marixuana qanunsuz dövriyyədən çıxarılmışdır.

2015-2020-ci illərdə Avropanın 26 ölkəsində keçirilmiş sorğuların nəticələrinə görə Avropa İttifaqında 15-34 yaşda olan kannabis məhsullarının istehlakı 15,4% səviyyəsində qiymətləndirilir. Qeyd edək ki, bu orta rəqəmdir və ayrı-ayrı ölkələrdə xeyli dərəcədə fərqlidir. Məsələn, Macarıstanda 3,4%, Fransada 21,8%. Əgər 15-24 yaşda olan avropalılar arasında bu sahədə vəziyyəti qiymətləndirsək, onda görərik ki, onlar arasında kannabis məhsullarının yayılması faizi bir qədər yuxarıdır: 19,2% (yaşları 15-24 arasında olan 9,1 milyon şəxs) şəxs son ildə, 10,3% (4,9 mln) isə son bir ayda bu növ narkotiklər qəbul etmişdir (cədvəl 4).

2019-cu ildə ESPAD tərəfindən 15-16 yaşda olan məktəblilər arasında keçirilən sorğulara cəlb olunmuş Avropa İttifaqının 24 ölkəsi üzrə məlumatlar göstərir ki, bu ölkələr arasında

qeyd olunan yaşlarda olan məktəblilələr arasında kannabis məhsullarının istehlakı səviyyəsi 7-23% arasında dəyişir (orta səviyyə-17,3%)[67].

Kannabis kimi geniş yayılmış narkotik maddənin və ondan hazırlanmış müxtəlif narkotik vasitələrə gəldikdə isə, 15-65 yaşda olan şəxslər arasında kannabis məhsulları daha çox Fransa (44,8), İtaliya (32,7), Danimarka (38,4), İspaniya (37,5), Niderland (27,7), Çexiya (25,9), Finlyandiya (25,6) kimi ölkələrdə istehlak edilir. 15-34 yaşda olan əhali arasında isə kannabis məhsullarının istehlakı səviyyəsi Fransa (21,8), Xorvatiya (20,3), İtaliya (20,9), Novreç (23,2) və Böyük Britaniya (29,0) kimi ölkələrdə daha yüksəkdir (cədvəl 4)

*Cədvəl 4*

**Avropa ölkələrində çətənə (kannabis) məhsullarının istehlakının yayılmasının qiymətləndirilməsi) tədqiqatlar əsasən 2013-2020-ci illərdə keçirilmişdir.**

| Ölkələr | 15-64 yaşda olan əhali arasında ömrü boyu ən azı bir dəfə kannabis məhsullarını qəbul edən şəxslərin xüsusi çəkisi (faizlə) | 15-34 yaşda olan əhali arasında son 12 ayda kannabis məhsullarını qəbul edən şəxslərin xüsusi çəkisi (faizlə) |
|---|---|---|
| Belçika | 22,6 | 13,6 |
| Bolqarıstan | 8,3 | 10,3 |
| Çexiya | 25,9 | 17,8 |
| Danimarka | 38,4 | 15,4 |
| Almaniya | 28,2 | 16,9 |
| Estoniya | 24,5 | 16,6 |
| İrlandiya | 27,9 | 13,8 |
| Yunanıstan | 11,0 | 4,5 |
| İspaniya | 37,5 | 19,1 |

[67] Европейский доклад о наркотиках: тенденции и изменения. Европейский центр мониторинга наркотиков и наркозависимости. 2021, с.16.

| | | |
|---|---|---|
| Fransa | 44,8 | 21,8 |
| Xorvatiya | 22,9 | 20,3 |
| İtaliya | 32,7 | 20,9 |
| Kipr | 14,1 | 8,1 |
| Latviya | 9,8 | 10,0 |
| Litva | 10,8 | 6,0 |
| Macarıstan | 6,1 | 3,4 |
| Niderland | 27,7 | 15,5 |
| Avstriya | 23,6 | 14,1 |
| Polşa | 12,1 | 7,8 |
| Portuqaliya | 11,0 | 8,0 |
| Rumıniya | 6,1 | 6,0 |
| Sloveniya | 20,7 | 12,3 |
| Slovakiya | 17,0 | 7,7 |
| Finlyandiya | 25,6 | 15,5 |
| İsveç | 16,7 | 7,9 |
| Norveç | 23,2 | 10,5 |

Yaşları 15-16 olan yeniyetmələr arasında ən azı bir dəfə marixuanadan (kannabis) məhsularından istifadə edənlər Çex Respublikasında 28%, İspaniya və Fransada 23%, Latviyada 26%, İtaliyada 27%, Niderlandda 22%, Slovakiyada 22%, Polşa və Avstriyada 21%, Sloveniyada 23%, Slovakiyada 24%, Böyük Britaniyada 23% olmuşdur[68].

Sorğuların nəticələri göstərir ki, Avropa İttifaqında yaşı 15-64 arasında olan əhalinin 1,8%-i (61%-nin isə yaşı 35-dən yuxarı olmamışdır) son iyirmi gündə demək olar ki, hər gün marixuana qəbul etmişlər. 17 Avropa ölkəsində qeydə alınmış kəskin zəhərlənmə hallarının 26%-də zəhərlənməyə səbəb olan narkotik vasitə qismində sintetik kannabinoidlər çıxış etmişdir.

Avropa İttifaqı üzrə orta göstərici uyğun olaraq 27.2 və 15.4 təşkil etmişdir. Qeyd edək ki, Türkiyə və Birləşmiş Krallıqda bu göstəricilər uyğun olaraq 2.7, 29.0, 1.8 və 13.4 olmuşdur.

[68] Европейский доклад о наркотиках: тенденции и изменения (Европейский центр мониторинга наркотиков и наркозависимости). 2021,c.48-51

Bu ildə Avropa İttifaqına daxil olan ölkələr, habelə Böyük Britaniya və Türkiyədə kokain istehlakçıları ilə bağlı statistik məlumatlar cədvəl 5-də verilmişdir.

*Cədvəl 5*

**Avropa ölkələrində və Türkiyədə kokain istehlakının yayılmasının qiymətləndirilməsi (tədqiqatlar əsasən 2015-2020-ci illərdə) keçirilmişdir.**

| Ölkələr | 15-64 yaşda olan əhali arasında ömrü boyu ən azı bir dəfə kokain qəbul edən şəxslərin xüsusi çəkisi (faizlə) | 15-34 yaşda olan əhali arasında son 12 ayda kokain qəbul edən şəxslərin xüsusi çəkisi (faizlə) |
|---|---|---|
| Bolqarıstan | 0,9 | 0,5 |
| Çexiya | 1,7 | 0,3 |
| Danimarka | 6,4 | 3,9 |
| Almaniya | 4,1 | 2,4 |
| Estoniya | 5,0 | 2,8 |
| İrlandiya | 7,8 | 2,8 |
| Yunanıstan | 1,3 | 0,6 |
| İspaniya | 11,2 | 3,2 |
| Fransa | 5,6 | 3,2 |
| Xorvatiya | 4,8 | 3,9 |
| İtaliya | 6,9 | 1,7 |
| Latviya | 1,5 | 1,2 |
| Litva | 0,7 | 0,3 |
| Macarıstan | 1,7 | 0,6 |
| Niderland | 6,5 | 4,6 |
| Avstriya | 3,0 | 0,4 |
| Polşa | 0,7 | 0,5 |
| Portuqaliya | 1,2 | 0,3 |
| Rumıniya | 1,6 | 0,7 |
| Sloveniya | 2,7 | 1,8 |
| Slovakiya | 0,9 | 0,2 |
| Finlyandiya | 3,2 | 1,5 |
| İsveç | - | 2,5 |
| Türkiyə | 0,2 | 0,1 |
| Norveç | 5,2 | 2,8 |
| Birləşmiş Krallıq | 10,1 | 5,3 |

Cədvəl 5-dən göründüyü kimi, Avropa ölkələrində 15-64 yaşda olan şəxslər arasında kokain istehlakının səviyyəsi İspaniya (11,2), Britaniya (10,1), İtaliya (6,9), İrlandiya (7,8), Danimarka (6,4), Niderland (6,5), Fransa (5,6) kimi ölkələrdə daha yüksəkdir. Kokain istehlakının ən aşağı səviyyəsi Türkiyə (0,2), Polşa (0,7) və Malta (0,5) kimi ölkələrdə qeydə alınmışdır.

Avropa İttifaqı üzrə kokain istehlakı səviyyəsi 15-64 yaşda olan əhali arasında 4.8%, 15-34 yaşda olan əhali arasında isə 2.1% olmuşdur.

Avropada 15-64 yaşda olan əhali arasında amfetamin istehlakı daha çox Estoniya (6,1), Danimarka (6,1), Niderland (5,5), Finlyandiya (4,7), Xorvatiya (4,6), Almaniya (4,1) və Böyük Britaniyada (8,6) müşahidə olunmuşdur (cədvəl 6). 15-34 yaşda olan ölkələr arasında isə amfetaminlərin istehlakı səviyyəsinə görə Xorvatiya (3,5), İtaliya (3,5) və Niderland (4,1) «fərqlənmişdir (cədvəl 6)

*Cədvəl 6*

**Avropa ölkələrində və Türkiyədə amfetaminlərin istehlakının yayılmasının qiymətləndirilməsi (tədqiqatlar əsasən 2013-2020-ci illərdə) keçirilmişdir.**

| Ölkələr | 15-64 yaşda olan əhali arasında ömrü boyu ən azı bir dəfə amfetamin qəbul edən şəxslərin xüsusi çəkisi (faizlə) | 15-34 yaşda olan əhali arasında son 12 ayda amfetamin qəbul edən şəxslərin xüsusi çəkisi (faizlə) |
|---|---|---|
| Bolqarıstan | 1,5 | 1,8 |
| Çexiya | 1,9 | 1,0 |
| Danimarka | 7,0 | 1,4 |
| Almaniya | 4,1 | 2,9 |
| Estoniya | 6,1 | 2,1 |
| İrlandiya | 4,1 | 0,6 |
| Yunanıstan | - | - |

| | | |
|---|---|---|
| İspaniya | 4,3 | 1,1 |
| Fransa | 2,2 | 0,6 |
| Xorvatiya | 4,6 | 3,5 |
| İtaliya | 2,4 | 3,5 |
| Latviya | 1,9 | 0,7 |
| Litva | 1,2 | 0,5 |
| Macarıstan | 1,5 | 0,8 |
| Malta | 0,3 | - |
| Niderland | 5,5 | 4,1 |
| Avstriya | 2,2 | 0,9 |
| Polşa | 2,4 | 1,4 |
| Portuqaliya | 0,4 | 0,0 |
| Rumıniya | 0,2 | 0,1 |
| Sloveniya | 2,3 | 1,1 |
| Slovakiya | 0,9 | 0,2 |
| Finlyandiya | 4,7 | 3,0 |
| İsveç | - | 1,2 |
| Türkiyə | 0,0 | - |
| Norveç | 3,5 | 0,3 |
| Birləşmiş Krallıq | 8,6 | 1,0 |

Avropa İttifaqı üzrə orta göstərici isə uyğun olaraq 3.0 və 1.4 olmuşdur.

2019-cu ildə 15-16 yaşda olan şəxslərin ümumi sayında heç olmasa bir dəfə amfetamin qəbul edən yeniyetmələrin xüsusi çəkisi isə Bolqarıstanda 3%, Almaniyada 2%, Estoniyada 3%, İrlandiyada 2%, Xorvatiyada 2%, İtaliyada 1%, Macarıstanda 3%, Niderlandda 1%, Polşada 3%, Avstriyada 2%, Finlyandiyada 2%, İsveçdə 2%, Yunanıstanda 1%, Novreçdə 2% olmuşuşdur (cədvəl 6).

2013-2020-ci illərdə Avropanın 25 ölkəsində keçirilən sorğular göstərmişdir ki, son ildə bu ölkələrdə amfetamin və metamifetamin isthelak edən və yaşları 15-34 yaş arasında olan şəxslərin sayı 1,4 milyon nəfər olmuşdur (bu yaşda olan şəxslərin 1,4%-i). 2019-cu ildə narkoloji müalicə müəssisələrinə müraciət

edən şəxslərin 13 000-nin qəbul etdikləri əsas narkotik amfetamin olmuşdur. Bolqarıstan, Latviya, Polşa və Finlyandiyada ilk dəfə narkoloji müəssisələrə daxil olan şəxslərin 15%-i məhz bu növ narkotiklər qəbul edənlər olmuşdur.

Avropa ölkələrində 15-64 yaşda olan əhali arasında MDMA istehlakı səviyyəsinə görə Çexiya (5,6), İspaniya (5,0), İrlandiya (9,2), Niderland (10,2) «öndədir». O ki, qaldı 15-34 yaşda olan şxslərə, bu kateqoriyalı insanlar arasında MDMA istehlakı səviyyəsi Niderland (8,5), İrlandiya (4,4), Almaniya (2,8), Bolqarıstan (3,1) və Çexiyada (3,3) daha yüksəkdir (cədvəl 7).

*Cədvəl 7*

**Avropa ölkələrində və Türkiyədə MDMA istehlakının yayılmasının qiymətləndirilməsi (tədqiqatlar əsasən 2013-2020-ci illərdə) keçirilmişdir.**

| Ölkələr | 15-64 yaşda olan əhali arasında ömrü boyu ən azı bir dəfə MDMA qəbul edən şəxslərin xüsusi çəkisi (faizlə) | 15-34 yaşda olan əhali arasında son 12 ayda MDMA qəbul edən şəxslərin xüsusi çəkisi (faizlə) |
|---|---|---|
| Bolqarıstan | 2,1 | 3,1 |
| Çexiya | 5,6 | 3,2 |
| Danimarka | 3,2 | 1,5 |
| Almaniya | 3,9 | 2,8 |
| Estoniya | 5,4 | 2,5 |
| İrlandiya | 9,2 | 4,4 |
| Yunanıstan | 0,6 | 0,4 |
| İspaniya | 5,0 | 1,6 |
| Fransa | 3,9 | 1,3 |
| Xorvatiya | 4,2 | 2,6 |
| İtaliya | 2,7 | 0,8 |
| Latviya | 2,4 | 0,8 |
| Litva | 1,7 | 1,0 |

| | | |
|---|---|---|
| Macarıstan | 2,5 | 1,1 |
| Niderland | 10,8 | 8,5 |
| Avstriya | 2,9 | 1,1 |
| Polşa | 1,0 | 0,5 |
| Portuqaliya | 0,7 | 0,2 |
| Rumıniya | 1,0 | 0,8 |
| Sloveniya | 2,9 | 1,3 |
| Slovakiya | 3,1 | 1,0 |
| Finlyandiya | 5,0 | 2,6 |
| İsveç | - | 2,0 |
| Türkiyə | 0,4 | 0,2 |
| Norveç | 3,3 | 1,1 |
| Birləşmiş Krallıq | 9,1 | 3,1 |

2013-2020-ci illər ərzində keçirilən tədqiqatların nəticələrinə əsaslanaraq deyə bilərik ki, Avropa İttifaqı üzrə 16-64 yaşda olan əhalinin 3.6% ömrü boyu ən azı bir dəfə, 15-34 yaşda olan əhalinin isə 1.9%-son 12 ayda MDMA qəbul etmişdir. Türkiyədə bu göstəricilər uyğun olaraq 0.4 və 0.2% olmuşdur.

2013-2020-ci illərdə 26 Avropa ölkəsində aparılan sorğuların nəticələri göstərir ki, Avropada MDMA qəbul edən 15-34 yaşda olan şəxslərin sayı 2 milyon olmuşdur ki, bu da qeyd olunan yaş qrupunda olan şəxslərin 1,9%-ni təşkil edir (Bu göstərici Portuqaliyada 0,2%, Niderlandda isə 4,1% olmuşdur. 15-24 yaşda olan şəxslər arasında bu növ narkotik vasitələrin yayılması ilə bağlı göstəricilər daha yüksək olmaqla 2,2% təşkil etmişdir.

Avropada 15-16 yaşlı məktəblilər arasında ən azı bir dəfə MDMA qəbul edənlər Çex Respublikasında 4%, Estoniyada 5%, Latviyada 5%, Böyük Britaniyada 4%, İrlandiya, Bolqarıstan, Kipr, Litva, Macarıstan Niderland, Avstriya, Polşa, Portuqaliya, Slovakiya və Sloveniyada  3% təşkil etmişdir (cədvəl 7).

2015-2018-ci ildə bir sıra Avropa ölkələrində keçirilən sorğularına nəticələri göstərir ki, 15-64 yaşda olan əhali arasında yeni psixoaktiv maddələrin istehlakı bu yaşda olan əhalinin 0,1-

1,4%-ni təşkil etmişdir. 15-34 yaşda olan şəxslər arasında isə yeni psixoaktiv maddələri qəbul edənlərin xüsusi çəkisi 0,2%-3,2% olmuşdur.

2015 və 2019-cu illərdə Avropa İttifaqı ölkələrinin əhalisinin 61,2%-ni təşkil edən 22 ölkədə ESPAD tərəfindən məktəblilər arasında keçirilən sorğulara cəlb edilmiş 15-16 yaşlı məktəbəlilər arasında 2015-ci ildə yeni psixoaktiv maddələr qəbul edənlərin xüsusi çəkisi 0,8-8,3%, 2019-cu ildə isə 0,6-4,9% olmuşdur (orta statistik göstərici 2,4%).

2020-ci ilin sonuna Avropa İttifaqı ölkələrində 830 yeni psixoaktiv maddənin istehlakı faktı qeydə alınmışdır ki, onların da 46-ı məhz 2020-ci ildə meydana gəlmişdir. 2019-cu ildə Avropa İttifaqı ölkələrində, Türkiyə və Norveçdə yeni psixoaktiv maddələrin müsadirə edilməsi ilə bağlı 22070 fakt qeydə alınmışdır. Avropa İttifaqı ölkələrində müsadirə edilmiş yeni psixoaktiv maddələrin həcmi isə 2 ton olmuşdur (Türkiyə və Norveçlə birlikdə 2,7 ton).

Ayrı-ayrı ölkələrdə keçirilən tədqiqatların nəticələri göstərir ki, 2018-ci ildə LSD və hallüsinogen göbələklər istehlak edənlərin 15-34 yaşda olan şəxslərin ümumi sayında xüsusi çəkisi 1,0% olmuşdur. Eyni zamanda bəzi ölkələrdə bu göstərici daha yüksək olmuşdur (məsələn, Finlyandiya - 2,0%, Estoniya - 1,7%).

Tədqiqatlar göstərir ki, Avropa İttifaqının ayrı-ayrı ölkələrində yaşları 15-64 olan 1000 nəfər əhaliyə opioidlər istehlak edənlərin sayı 1-7 arasında dəyişir. Ümumilikdə bu Avropa İttifaqının qeyd olunan yaşda olan əhalisinin 0,35%-i və ya 1 milyon nəfər deməkdir. Qeyd edək ki, opioidlər qrupuna daxil olan narkotikləri qəbul edənlər sayı Almaniya, İspaniya, Fransa və İtaliyada daha çoxdur (68%-ə qədər). 2019-cu ildə Avropada müalicə üçün narkoloji müəssisələrə müraciət edən şəxslərin 27%-i, yəni 84 000-i opioidlər qrupuna daxil olan

narkotik istehlak edən şəxslər təşkil etmişdir. Onların da 20 000 nəfəri ilk dəfə bu müəssisələrə müraciət edənlər olmuşdur[69].

Sorğular göstərir ki, Avropa İttifaqında son ildə yaşları 15-34 arasında olan kokain istehlak edən 2,2 milyon insan olmuşdur ki, bu da qeyd olunan yaş qrupuna məxsus şəxslərin 2,1%-ni təşkil edir.

Narkoloji müəssisələrə müraciət edən və istehlak etdikləri əsas narkotikin kokain olduğu şəxslərin sayı 2019-cu ildə 45 000 nəfər olmuşdur ki, bu da narkomaniyadan müalicə alanların 14%-ni təşkil edir. Krek qəbul edən şəxslərin narkoloji müəssisələrə müraciət etmə halları 7000-ə qədər olmuşdur.

2019-cu ildə Avropa İttifaqına daxil olan ölkələrdə 98 000 kokainin müsadirəsi faktı qeydə alınmışdır ki, nəticədə 213 ton kokain (2018-ci ildə 177 ton) müsadirə olunmuşdur. Belçika (65 ton), Niderland (44 ton) və İspaniya (38 ton) kimi üç ölkənin müsadirə olunmuş kokaində «payları» 69% təşkil etmişdir (cədvəl 8).

***Cədvəl 8***

**2019-cu ildə Avropa ölkələrində və Türkiyədə müsadirə olunmuş narkotiklərin miqdarı (kq)**

| Ölkələr | Heroin | Kokain | Amfetamin | MDMA, MDA, MDEA-kq (həb) | Marixuana | Kannabis qətranı |
|---|---|---|---|---|---|---|
| Belçika | 1929 | 65248 | 1052 | 250 kq (409007həb) | 17290 | 108 |
| Bolqarıstan | 787 | 318 | 97 | 107(2184) | 2939 | 0,6 |
| Çexiya | 9 | 187 | 28 | 37(74832) | 546 | 2 |

[69] Европейский доклад о наркотиках: тенденции и изменения. Европейский центр мониторинга наркотиков и наркозависимости. 2021, с.26-30.

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Danimarka | 46 | 190 | 217 | 66(35568) | 492 | 2399 |
| Almaniya | 298 | 8166 | 1669 | -(693668) | 7731 | 1295 |
| Estoniya | 0,1 | 17 | 115 | 34 | 97 | 2 |
| İrlandiya | - | - | - | - | - | - |
| Yunanıstan | 403 | 953 | 9629 | 2(169269) | 12515 | 6587 |
| İspaniya | 234 | 37868 | 2043 | 340(270836) | 19861 | 349489 |
| Fransa | 1073 | 15761 | 725 | - (1699848) | 29952 | 74340 |
| Xorvatiya | 12 | 16 | 41 | 16 | 2231 | 148 |
| İtaliya | 615 | 8245 | 50 | 37(19338) | 23632 | 20986 |
| Latviya | 0,1 | 2202 | 108 | 4(96003) | 63 | 372 |
| Litva | 2 | 16 | 28 | 283 | 220 | 1775 |
| Macarıstan | 77 | 30 | 46 | 2(66829) | 715 | 2 |
| Niderland | 1326 | 43836 | 1025 | 599 | - | 1552 |
| Avstriya | 95 | 87 | 152 | 9(77922) | 1216 | 147 |
| Polşa | 21 | 2248 | 2214 | 323(260112) | 3495 | 436 |
| Portuqaliya | 15 | 10567 | 3 | 2(15133) | 492 | 3234 |
| Rumıniya | 138 | 16157 | 7 | 4(47283) | 1207 | 21 |
| Sloveniya | 759 | 4 | 28 | 0,2(9763) | 704 | 9 |
| Slovakiya | 2 | 0,3 | 9 | 0,3(1329) | 131 | 0,5 |
| Finlyandiya | 8 | 223 | 190 | 29(265511) | 397 | 215 |
| İsveç | 64 | 121 | 1000 | 59(347038) | 1009 | 1832 |
| Türkiyə | 20165 | 1634 | 3831 | -(8 695 605) | 62685 | 27889 |
| Norveç | 88 | 136 | 467 | 44(120474) | 458 | 2244 |
| Birləşmiş Krallıq | 617 | 3469 | 1668 | 1(713 896) | 29533 | 8470 |

2019-cu ildə Avropa İttifaqına daxil olan ölkələr ümumi həcmi 14 ton (2018-ci ildə 8 ton) amfetaminin 34000 müsadirə

halları barədə məlumat vermişlər. Polşada (1,7 ton) və Belçikada (1,0 ton) müsadirə olunmuş amfetaminlərin sayı daha çox olmuşdur. 2019-cu ildə Yuanıstanda 9,6 ton amfetamin, Türkiyədə isə 2,8 ton (11 milyon həb) amfetamin müsadirə edilmişdir (cədvəl 8).

2019-cu ildə Avropa İttifaqının ölkələrində metamfetaminlərin müsadirəsi ilə bağlı 10 000 hadisə qeydə alınmış, müsadirə olunmuş bu növ narkotiklərin həcmi isə 2,9 ton təşkil etmişdir. İspaniyada 1,6 ton, Slovakiyada 1,5 ton, Niderland və Polşada isə hər birində 0,5 ton metamfetamin müsadirə olunmuşdur. Bu ölkələrə metamfetamin əsasən Meksikadan gətirilmişdir. Avstriya, Almaniya və bir sıra digər ölkələrə metamfetamin Meksikadan əsasən aviadaşınmalarla, poçt göndərişləri ilə daxil olur. Çexiyada yayılan metamfetaminin bir hissəsi bu ölkədə istehsal olunur, həmçinin Niderland, Belçika və Polşadan gətirilir. Avropa ölkələrinin narkoloji müəssisələrində müalicə olunan narkomanların 9200 nəfərinin istehlak etdiyi əsas narkotik metamfetamin olmuşdur.

Avropa İttifaqında müsadirə olunmuş MDMA tozunun həcmi 2016-cı ildə 0,3 ton olduğu halda, 2018-ci və 2019-cu illərin hər birində 2,2 ton olmuşdur. 2019-cu ildə Avropa İttifaqı ölkələrində müsadirə olunmuş MDMA həblərinin sayı 4,6 milyon olmuşdur. Qeyd edək ki, 2017-2019-cu illərdə Türkiyədə 8 milyon MDMA həbi müsadirə edilmişdir ki, bu da qeyd olunan illərdə bütün Avropa İttifaqı ölkələrində müsadirə olunan bu növ narkotiklərin ümumi həcmini üstələmişdir[70].

2019-cu ildə Avropada LSD-nin müsadirə edilməsi hallarının sayı 2400 olmuşdur (115 000 min ədəd). 16-ı Avropa İttifaqı ölkəsindən daxil olan məlumatlara görə 2019-cu ildə 250-600 kq həcmində keptamin müsadirə edilmişdir. Bu ildə Avropa İttifaqı ölkələri heroinin müsadirəsi ilə bağlı 26 000 hadisə barədə

---

[70] Европейский доклад о наркотиках: тенденции и изменения. Европейский центр мониторинга наркотиков и наркозависимости. 2021, с.22-24.

məlumat vermiş, müsadirə olunmuş bu növ narkotiklərin ümumi həcmi isə 7,9 ton olmuşdur. O cümlədən Belçikada -1,9 ton; Bolqarıstan - 0,8 ton; Fransa-1 ton; Niderland-1,3 ton; Sloveniya-0,8 ton. Bu ildə Türkiyədə 20 tondan artıq heroin müsadirə olunmuşdur ki, bu da son onillik üzrə ən yüksək rəqəmdir. 2019-cu ildə opioidlər qrupuna daxil olan narkotiklərin müsadirəsi ilə bağlı 13 000 hadisə qeydə alınmış, nəticədə 1,7 ton və böyük sayda həblər müsadirə edilmişdir. Bu ildə 15 kq fentanil törəmələrinə aid narkotiklər müsadirə edilmişdir ki, bu da 2018-ci ildəki göstəricidən 2,5 dəfə çoxdur. 2019-cu ildə Avropa İttifaqına daxil olan ölkələrdə 3,7 milyon çətənə kolu müsadirə olunmuşdur[71]. 2019-cu ildə müsadirə edilmiş sintetik narkotiklərin 60%-ə qədərini sintetik kannabinoidlər və katinonlar təşkil etmişdir. 2008-2020-ci illərdə Avropada 209 yeni sintetik kannabinoidlər aşkar edilmişdir ki, onların da 11-i 2020-ci ildə aşkar edilmişdir.

2019-cu ildə Almaniyada 15, Polşada isə 4 amfetamin istehsalı ilə məşğul olan gizli laboratoriya aşkar edilərək ləğv edilmişdir. Öz ərazilərində belə laboratoriyaların mövcudluğu haqqında Danimarka və Norveç də məlumat vermişdir. 2019-cu ildə Niderlandda heroin istehsalı ilə məşğul olan 4 gizli laboratoriya, İspaniyada kokain istehsalı ilə məşğul olan 5 gizli laboratoriya ləğv edilmişdir. 2020-ci ildə Niderlandda gündəlik istehsal həcmi 150-200 kq heroin olan gizli fabrik aşkar edilmişdir.

Avropa İttifaqının 7 ölkəsi 2019-cu ildə metamfetamin istehsalı ilə məşğul olan 267 gizli laboratoriyanın (Belçikada 3, Niderlandda isə 201-cu ildə 9 və 2020-ci ildə 32) ləğv edildiyi barədə məlumat vermişdir. Bu laboratoriyaların xammalla təmin olunmasında Avropa və Meksika cinayətkar qruplaşmaları iştirak etmişlər.

[71] Европейский доклад о наркотиках: тенденции и изменения. Европейский центр мониторинга наркотиков и наркозависимости. 2021, с.30.

2019-cu ildə Avropa İttifaqının 4 ölkəsində MDMA istehsalını həyata keçirən gizli 28 laboratoriya (Niderlandda 20, Belçikada 5, Almaniyada 2 və Polşada 1) aşkar edilmişdir. Bu ildə bir sıra Avropa ölkələrində sintetik katinonlərin istehsalı ilə məşğul olan və 4-ü Niderlandda, 1-i isə Polşada yerləşən 5 gizli laboratoriya ləğv edilmişdir. Avropa İttifaqında 1,5 milyon narkotiklər haqqında qanunvericiliyin pozulması faktı qeydə alınmışdır, bu da 2009-cu illə müqayisədə 24% çoxdur. Bu hüquq pozuntularının əksəriyyəti, yəni 1,2 milyonu (82%-i) narkotiklərin saxlanması və ya istehlakı ilə bağlı olmuşdur.

Avropa İttifaqına daxil olan ölkələrdə qeydə alınmış hüquq pozuntularının 617 000-u yəni üçdə ikisi kannabis məhsullarının saxlanması və istehlakı ilə bağlı olmuşdur. Bu ildə kokainin, amfetaminin, MDMA-nın və heroinin istehlakı və ya saxlanması ilə bağlı uyğun olaraq 76 000, 55 000, 17000 və 23000 hüquq pozuntusu qeydə alınmışdır.

Avropa İttifaqında 2009-cu illə müqayisədə 2019-cu ildə narkotiklərin satışı ilə bağlı cinayətlərin sayı 13% artaraq 209 000 olmuşdur. 2019-cu ildə çətənə məhsullarının satışı ilə bağlı 101 000 hüquq pozuntusu qeydə alınmışdır ki, bu da satışla bağlı əməllərin 57%-ni təşkil edir. 2011-ci ildən başlayaraq MDMA daşınması və satışı ilə bağlı əməllərin sayı artmaqda davam edir və 2019-cu ildə onların sayı 7000 olmuşdur. Kokain satışı ilə bağlı hüquq pozuntularının sayında isə son 3 ildə artım baş vermiş, 2019-cu ildə onların sayı 34 000 olmuşdur. Bu dövrdə heroin satışının dinamikasında sabit meyillər müşahidə olunmuşdur və 2019-cu ildə heroinin satışı ilə bağlı 10 000 hüquq pozuntusu qeydə alınmışdır[72].

Qloballaşma dövründə əvvəllər bir ölkənin, SSRİ-nin tərkibində, hazırda isə müstəqil dövlətlər olan bir sıra ölkələrdə də narkomanlığın, narkotik vasitələrin və psixotrop maddələrin qa-

---

[72] Европейский доклад о наркотиках: тенденции и изменения. Европейский центр мониторинга наркотиков и наркозависимости. 2021, с.34.

nunsuz dövriyyəsinin vəziyyəti və dinamikasının tədqiqi, bu sahədə xarakterik meyillərin müəyyən edilməsi də maraq kəsb etməklə məqsədəmüvafiq hesab edilməlidir.

2017-ci ilin məlumatlarına əsasən, Rusiya Federasiyasında narkoloji dispanserlərdə qeydiyyatda 581 139 şəxs olmuşdur (cədvəl 9).

***Cədvəl 9***

**Rusiya Federasiyasında narkoloji vəziyyətin əsas göstəriciləri**

| İllər üzrə narkotik istfadəçiləri | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|---|
| Qeydiyyatda olan narkotik istifadəçilərin sayı | 581139 | 546139 | 503955 | 480647 | 448019 | 449705 |
| Yeni qeydiyyata götürülənlərin sayı | 69894 | 59959 | 57052 | 51205 | 43351 | 42824 |

2017-2022-ci illər üzrə rəsmi statistik məlumatlar bu ölkədə narkoloji müəssisələrdə qeydiyyatda olan şəxslərin sayında azalma meyilinin müşahidə olunduğunu göstərir. Lakin ekspert hesablamalarına görə, ölkədə 7,3 milyon insan qeyri-tibbi məqsədlərlə narkotik qəbul edir ki, onların da 2,4 milyonu narkotik vasitələrdən mütəmadi şəkildə istifadə edənlərdir[73]. Dünya üzrə heroin istehlakının 20%-i Rusiyanın «payına» düşür. Ölkə əhalisinin 3-5 milyonu müntəzəm olaraq yeni psixoaktiv maddələr qəbul edənlərdir.

Rusiyada son illərin statistikası bu ölkədə qeydə alınmış narkocinayətlərin sayında da azalma meyilinin müşahidə olunduğunu göstərir (cədvəl 10)

---

[73] Тепляшин П.В. Состояние наркопреступности в Российской Федерации: основные криминологические показатели и тенденции//Журнал LEX RUSSICA (МГЮА). 2017, №10(131), с.148

*Cədvəl 10*

**Rusiyada narkocinayətlərin vəziyyəti və dinamikası**

| İllər üzrə narkotiklə bağlı cinayət faktları | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|---|
| Qeydə alınmış cinayətlər | 208681 | 200 306 | 190 197 | 189905 | 179732 | 177741 |
| Cinayət məsuliyyətinə cəlb olunmuş şəxslər | 106292 | 95683 | 85425 | 83137 | 85147 | 79666 |
| Narkotik qaçaqmalçılığı | 1012 | 1357 | 1157 | 969 | 1350 | 606 |

Belə ki, 2017-ci ildə RF-da narkotiklərlə bağlı 208681 cinayət qeydə alındığı halda, 2022-ci ildə onların sayı 15%-ə qədər azalmışdır.

Rusiyada müsadirə olunmuş narkotik vasitələrin və psixotrop maddələrin miqdarına gəldikdə isə deyə bilərik ki, 2017-2022-ci illərdə müsadirə olunmuş heroin, tiryək, həşiş kimi narkotik vasitələrin həcmində artım, psixotrop maddələrin, marixunanın həcmində, habelə amfetamin və metamfetamin kimi sintetik narkotiklərin miqdarında azalma qeydə alınmışdır (cədvəl 11).

Oxşar meyillər narkotiklərin qaçaqmalçılığı ilə bağlı cinayətlərdə də müşahidə olunmuşdur: 2017-ci ildə 1012 cinayət qeydə alındığı halda, 2022-ci ildə bu növ cinayətlərin sayı 40% azalar 606 olmuşdur.

M.M.Şumilov, A.P.İsayev və A.B.Qurkin transsərhəd narkocinayətkarlığına  xüsusi diqqət yetirir və göstərirlər ki, Əfqanıstandan həyata keçirilən narkotrafik nəticəsində hər il təxminən 100 000 rusiyalı həyatını itirir, ölkəyə böyük maddi

və mənəvi zərər vurulur. Müəlliflərin fikrincə, yalnız nəzərdən keçirilən problemə kompleks «multimodel» yanaşma heroin, kokain, amfetamin və digər təhlükəli narkotik vasitələrin və psixotrop maddələrin ölkə ərazisinə daxil olma templərini aşağı sala, əhalinin sonrakı narkotizasiyasını dayandıra və bu sahədə mövcud olan şəraiti sağlamlaşdıra bilər[74].

P.V.Teplyaşina qeyd edir ki, Əfqanıstanda istehsal olunan heroin ölkə ərazisinə aşağıdakı marşrutlar üzrə daxil olur: «şimal marşrutu»-Tacikistan, Özbəkistan, Qırğızıstan, Kazaxıstandan keçməklə; «balkan marşrutu»nun bir hissəsi olan qafqaz xətti ilə-İran, Türkiyə və Qafqaz ölkələrindən keçməklə; «şərq marşrutu» üzrə-əsasən Çindən keçməklə. Müəllif, Latın Amerikası ölkələrindən ölkəyə daxil olması hallarının sabit artım meyillərinin müşahidə olunduğunu qeyd edir və yazır ki, Rusiya Federasiyasına kokainin ən aktiv «tədarükçüləri» qismində əsasən Beliz, Boliviya, Qvatemala, Honduras, Kosta-Rika, Nikaraqua, Panama və Uruqvaydan olan cinayətkar qruplaşmaları çıxış edir. Onun fikrincə, ölkəyə bu narkotik vasitənin daxil olması üç əsas marşrutlarla həyata keçirilir: «atlantik-hind marşrutu» üzrə-Qərbi Avropa ölkələrindən, Aralıq və Qara dənizlərdən, Yaxın Şərq ölkələrindən keçməklə; «Şimal marşrutu» üzrə-Atlantik və Şimal Buzlu okeanlardan keçməklə; «Sakit okean marşrutu» üzrə-Sakit okeandan keçməklə[75].

---

[74] Шумилов М.М., Исаев А.П., Гуркин А.Б. Афганская наркоугроза и меры противодействия ей в контексте реализации Стратегии государственной антинаркотической политики РФ до 2020г//Управленческое консультирование. 2015. №3, с.36

[75] Тепляшин П.В. Состояние наркопреступности в Российской Федерации: основные криминологические показатели и тенденции//Журнал LEX RUSSICA (МГЮА). 2017, №10(131), с.150

*Cədvəl 11*

**Rusiyada müsadirə olunmuş narkotiklərin və psixotrop maddələrin miqdarı**

| Narkotik vasitələr və psixotrop maddələr | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|---|
| Cəmi (tonla) | 21,3 | 20,6 | 19,5 | 21,0 | 30,6 | 26,4 |
| O cümlədən: | | | | | | |
| Heroin (kq) | 499,8 | 721,7 | 502,7 | 486,4 | 1431 | 911,7 |
| Tiryək (kq) | 2,5 | 1,3 | 7,5 | 14 | 0,6 | 16,6 |
| Həşiş (kq) | 1118,0 | 2075,0 | 2786,0 | 932,0 | 2213 | 1760 |
| Marixuna (kq) | 12352,0 | 12888,0 | 10102,0 | 9380,0 | 12175 | 9215 |
| Psixotrop maddələr | 437,3kq | 598,3kq | 372,4kq | 559,9 | 4835,0 | 340,1 |
| Amfetamin | 393 kq | 586,3kq | 361,1kq | 340,5 | 276,0 | 328,2 |
| Metamfetamin | 1131 kq | 20,3kq | 77,3kq | 119,8 | 1482,0 | 53,0 |
| MDMA | 98 kq | 294kq | 443,5kq | 110,5 | 422,0 | 55,7 |
| -N-metilefedron | 2633 | 2433 | | - | | |

Rusiya Federasiyasına Çin Xalq Respublikasından və bir sıra digər Avropa ölkələrindən sintetik narkotiklərin, əsasən də sintetik kannabinoidlərin və N-metilefedronun daşınması və ölkə ərazisində yayılması ilə bağlı çoxsaylı faktlar vardır. Ölkədə, ayrı-ayrı regionlarda İnternet şəbəkəsindən və beynəlxalq poçt rabitəsindən istifadə etməklə «gizli saxlanc yerləri» vasitəsilə təmassız bu növ narkoticərətin həyata keçirilməsini üzrə bütöv bir şəbəkə fəaliyyət göstərir[76].

2020-ci ilin məlumatına əsaslansaq görərik ki, Ukraynada 1-1,5 milyona qədər insan narkotikdən istifadə edir və bu rəqəmlər hər il orta hesabla 8-10% artır. Ukraynada narkotiklərin 20%-i internet vasitəsilə yayılır.

[76] Тепляшин П.В. Состояние наркопреступности в Российской Федерации: основные криминологические показатели и тенденции//Журнал LEX RUSSICA (МГЮА). 2017, №10 (131), с.150

Qazaxıstanda narkotik qəbul edənlərin sayı 2014-cü ildə 111 000, 2017-ci ildə isə 120 000 olmuşdur ki, bu da yaşı 15-dən yuxarı olan ölkə əhalisinin 1,0%-dir. Eyni zamanda ekspertlər, bu rəqəmin daha yüksək, ən azı 450 min olduğunu qeyd edirlər ki, bu da artıq ölkə əhalisinin 2,0%-i deməkdir[77]. Statistika Qazaxıstanda son üç ildə narkoasılılığa düşən gənclərin sayının 2,5 dəfə artdığını göstərir.

Eyni zamanda rəsmi statistika Qazaxıstanda, habelə digər Orta Asiya respublikalarında narkoloji müəssisələrdə qeydiyyatda olan şəxslərin sayında azalmanın müşahidə olunduğunu göstərir (cədvəl 12)

*Cədvəl 12*

**Orta Asiya respublikalarında qeydiyyatda olan narkomanların sayı**

| Ölkələr | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|---|
| Qazaxıstan | 24883 | 22748 | 22121 | 20378 | 18782 | 18136 |
| Qırğızstan | 8543 | 8562 | 8448 | 8342 | 8226 | 7672 |
| Tacikistan | 6947 | 6059 | 5375 | 5099 | 4749 | 4381 |
| Özbəkistan | 8036 | 6142 | 5698 | 5254 | 5035 | 5365 |

Narkotik vasitələrin sosial şəbəkələrə və elektron ticarət platformalarına keçməsi narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinin daha da genişlənməsinə gətirmişdir. Bu gün İnternetdə sintetik narkotik vasitə satışını leqal və qeyri-leqal həyata keçirən onlarla və yüzlərlə səhifələr fəaliyyət göstərir.

L.V.Qotçina qeyd edir ki, «İnternet şəbəkəsi «kriminal İT mütəxəssisləri» tərəfindən narkoticarət məqsədilə aktiv istifadə edilir, bu zaman cinayətlərin iştirakçıları və zərərçəkənləri (qur-

---

[77] Сотни тысяч наркоманов насчитали в Казахстана//www.NUR.kz

banları) qismində yeniyetmələr və gənclər seçilir»[78]. F.M.Cavadov da «internetin, müxtəlif yönümlü cinayətkarların hökmranlıq etdiyi məkana çevrilməyə başladığını» qeyd edərək yazır: «Zorakılığın və narkotiklərin təbliğatı, insanlarla ticarət və uşaq fahişəliyi sənayesi-bugünün İnternetinin reallıqlarındandır» [79].

2020-ci ildə təkcə Qazaxıstanda narkotik vasitələri yaymaqla məşğul olan 1 103 sayt bloklanmışdır. Qeyd edək ki, Qazaxıstanda son illərdə QIWI-pulqabı vasitəsilə narkotiklərin «təmassız» ticarəti şəbəkəsi, kriptovalyuta əsasında narkotiklərin onlayan-ödəniş sistemi aktiv fəaliyyət göstərir. Bu zaman yeniyetmələrin «kladmen, miner» adlanan «kuryer», «narkotik saxlayan» keyfiyyətində kriminal narkobiznesə cəlb edilməsi halları da artmışdır.

Dünya miqyasında narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi sahəsində hüquqazidd əməllərin qarşısının alınması istiqamətində ciddi addımlar atılsa da, narkotacirlər tərəfindən «ağ ölümün» daha geniş miqyasda yayılmasının metodları günbəgün yenilənir. Qloballaşan dünyada xüsusən texnologiyaların inkişafı, gənc nəslin sosial şəbəkələrə marağının artması narkotacirlərin öz çirkin əməllərini onlayn yolla həyata keçirilməsinə də geniş zəmin yaradır. Bu isə son dövrlərdə leksikonumuza «onlayn yolla narkotik vasitələrin satışı» söz birləşməsinin daxil olmasına gətirib çıxarmışdır.

Son illərdə Azərbaycanda da müasir İnternet texnologiyalardan, sosial şəbəkələrdəın istifadə etməklə narkocinayətlərin törədilməsi halları çoxalmışdır. Məsələn, 2020-ci ildə Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin əməkdaşları tərə-

---

78 Готчина Л.В. Преступность несовершоннолетних и молодежи: состояние и перспективы//Российский девиантологический журнал 2021. №1 (2), с.304-313.

79 Cavadov F. Yeniyetmələr və kompüter cinayətkarlığı//Məhkəmə ekspertizası, kriminalistika və kriminologiyanın aktual məsələləri. Elmi əsərlər məcmuəsi. 2005. №41, s.4.

findən rəhbərləri Türkiyə Respublikasında yaşayan və Azərbaycan ərazisində onlayn narkotik satan şəxslərə qarşı genişmiqyaslı əməliyyat tədbiri keçirilmişdir. Əməliyyat zamanı onlayn yolla narkotik vasitələrin və psixotrop maddələrin Azərbaycan ərazisində satışını təşkil edən 32 nəfərdən ibarət mütəşəkkil dəstənin üzvləri zərərsizləşdirilmişdir. Araşdırma zamanı müəyyən edilmişdir ki, dəstənin rəhbərləri İstanbul şəhərində yaşayan Azərbaycan vətəndaşları A. və qohumu O. narkotiklərin onlayan satışını həyata keçirən şəbəkə yaradıblar. Qeyd edək ki, A. dəstə üzvləri arasında tanınmamaq üçün «Baba», O. isə «Orxan XX» kod adlarından istifadə ediblər. Müəyyən olunmuşdur ki, dəstə üzvləri gizli pərdələyici üsullardan istifadə edərək «Baba» və «Orxan XX»-nın tapşırıqları əsasında narkotik vasitə və psixotrop maddələri Bakı şəhərinin müxtəlif yerlərində yerləşdiriblər. Sonradan şəbəkəyə daxil olan narkokuryerlər həmin yerlərin şəklini çəkib «Whatsapp» ani mesaslaşma sistemi ilə dəstə başçılarına göndəriblər. Aparılan istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri nəticəsində onların narkotik vasitələrin satışını həyata keçirdikləri sosial şəbəkə hesabları, aralarındakı gizli sövdələşmələrin səs yazıları, eləcə də Bakı şəhərinin demək olar ki, hər bir rayonunda mövcud olan və narkotik vasitələrin tədarük edildiyi saxlanc yerləri də müəyyən edilmişdir. Həmin məkanlara Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin əməkdaşları tərəfindən baxış keçirilən zaman külli miqdarda narkotik vasitələr olan heroin, tiryək, marixuana, habelə metamfetamin, kokain, yüksək təsiredici psixotrop tərkibli dərmanlar, ekstazi həbləri, həmçinin narkotik vasitələrin onlayan satışı zamanı istifadə etdikləri bank kartları, ödəniş qəbzlər, müxtəlif ölkələrə məxsus mobil nömrələr və sair sübutlar aşkar olunaraq götürülmüşdür. Narkokuryerlər qismində çıxış edən şəbəkə üzvlərinin bir çox narkotik vasitə aludəçisi olduğu müəyyənləşmişdir. Bu isə onların asanlıqla narkotiklərin satışı ilə məşğul olan şəxslərdən asılı vəziyyətə düşməsinə səbəb olmuşdur.

Qeyd edək ki, mütəşəkkil dəstəyə daxil olan şəbəkə üzvləri öz aralarında gizliliyi saxlamaq və polis əməkdaşlarının diqqətindən yayınmaq üçün real həyatda bir-biriləri ilə ünsiyyətdə olmayıblar. Ancaq sosial şəbəkələrlə əlaqə saxlayan dəstə üzlərinin hər birinin özünəməxsus kod adları da olub. Mütəşəkkil dəstənin başçıları narkokuryerliyə gənc qızları cəlb etməkdən də çəkinməyiblər. Təsadüfi deyildir ki, şəbəkənin 7 üzvü qadın olmuşdur. Onlayn yolla narkotik sifariş verən adamlar pulu ödəmə terminalları vasitəsilə «Baba» və «Orxan XX»-nin xaricdəki bank hesablarına köçürəndən sonra onlar narkotik vasitələri götürmələri üçün həmin yerlərin şəklini müştərilərə ötürüblər. Dəstə başçıları narkotik vasitələrin qaçaqmalçılıq yolu ilə ölkə ərazisinə keçirilməsində isə Türkiyə Respublikasında yaşayan Azərbaycan vətəndaşlarından istifadə ediblər.

Araşdırma zamanı müəyyən edilmişdir ki, narkotik vasitələrin satışından əldə edilən külli miqdarda pul vəsaitləri dəstənin başçısı A.-nın anası E.-cə cəmlənmişdir. Daha sonra o, çoxsaylı bank kartlarından istifadə etməklə pul vəsaitlərini nağdlaşdıraraq həmin pulları Türkiyədə yaşayan oğluna göndərmişdir.

Mütəşəkkil cinayətkar dəstə üzvlərinin yaşadıqları mənzillərə və Bakı şəhərində narkotik vasitələrin saxlanıldığı gizli yerlərə baxış keçirilən zaman külli miqdarda narkotik vasitələr və psixotrop maddələr, o cümlədən müxtəlif ölkələrə məxsus mobil nömrələr, xeyli sayda bank kartları və digər sübutlar aşkar edilərək götürülmüşdür.

Daha bir misal gətirək. 2021-ci ilin sentyabrında DİN-i tərəfindən təmassız, yəni onlayn yolla narkotik vasitələrin və psixotrop maddələrin sosial şəbəkələrdə satışı ilə məşğul olan, bu yolla əldə olunan külli miqdarda pul vəsaitlərinin qeyri-leqal yolla dövriyyəsinə nəzarət edən mütəşəkkil cinayətkar dəstənin üzvlərinin ifşa edilməsi istiqamətində əməliyyat-axtarış tədbirləri keçirilmişdir.

Tədbir zamanı əvvəlcə DİN-nin Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin əməkdaşları tərəfindən instaqram və digər sosial şəbəkələr vasitəsi ilə ölkə ərazisində narkotiklərin satışı ilə məşğul olan səhifələrin hərtərəfli monitorinqi aparılmış və əldə edilən məlumatlar təhlil edilmişdir. Əməliyyat yolu ilə əldə olunan elektron sübutlar və digər materiallar araşdırılan zamanı müəyyən olunmuşdur ki, instaqram sosial şəbəkəsində açılmış səhifələr vasitəsi ilə narkotik maddələr, əsasən «patı», «şüşəç» adlanan metamfetamin və «kola», «kakos» adlanan heroinin satışı təşkil olunur. Həmin səhifələrdə müxtəlif banklara məxsus kartların şəkilləri watsapp ani mesaşlaşma tətbiqi ilə alıcılara göndərilir. Ölkə daxilində alıcılar həmin kartlara pul ödədikdən sonra narkotik vasitələr kuryerlər vasitəsi ilə onlara çatdırılır. İnstaqram sosial şəbəkəsində fəaliyyət göstərən çoxsaylı belə səhifələrin ünvanları dəqiqləşdirilib və DİN-nin feysbuk şirkəti ilə qarşılıqlı əməkdaşlıq fəaliyyəti çərçivəsində həmin səhifələrin xarici ölkələrdən idarə olunduğuna dair rəsmi cavab alınıb.

Araşdırma zamanı müəyyən edilib ki, narkoşəbəkəyə daxil olan şəxslər gizliliyi təmin etmək məqsədilə bir-birilərini tanımadan fəaliyyət göstərirlər və iki əsas hissəyə ayrılırlar. Şəbəkəyə daxil olan birinci dəstə əsasən narkotik vasitələrin istifadəçilərindən ibarət olmaqla xaricdəki narkotacirlər üçün ölkə ərazisində kuryerlik fəaliyyəti ilə məşğul olublar. Yəni həmin narkotacirlərin whatsapp ani mesajlaşma sistemi vasitəsi ilə göndərdikləri ünvanlara narkotik maddələri çatdırıblar. İkinci dəstənin üzvləri isə narkotik vasitələrin satışından əldə edilən pul vəsaitlərinin leqallaşdırılmasını təmin ediblər. Bu məqsədlə onlar müxtəlif vətəndaşlara şirnikləşdirici asan yolla pul qazanmaq vədi verərək adlarını, hətta bir adamın adına bir-neçə bank kartı açıblar. Daha sonra həmin kartlara narkotik vasitələrin onlayan yolla satışından əldə edilən pul vəsaitləri toplanıb.

Baş İdarə əməkdaşlarının müxtəlif vaxtlarda və məkanlarda həyata keçirdikləri əməliyyatlar zamanı ölkə daxilində narkotik vasitələrin satışından əldə olunan pul vəsaitlərinin toplanaraq deyilən ünvanlara çatdırılmasına rəhbərlik edən F.(qadın), onun həyat yoldaşı A., eləcə də dəstəyə daxil olan daha 18 nəfər saxlanılmışdır.

Dəstə üzvlərinin ətraflarında aparılan əməliyyat-axtarış tədbirləri ilə müəyyən edilmişdir ki, onlar ölkə ərazisində müxtəlif şəxslərə aid narkotik vasitələrin satışı zamanı istifadə edilən 2 minə yaxın kart hesabı açıblar. Həmin şəxslərin yaşadıqları ünvanlara baxış zamanı qeyd edilən kartların böyük bir qismi, həmçinin narkotik vasitələrin anbar kimi saxlanıldığı paytaxt və bölgələrdəki evlərdən isə külli miqdarda heroin, metamfetamin, psixotrop tərkibli dərmanlar, elektron tərəzilər və digər maddi sübutlar aşkar edilmişdir.

Araşdırma zamanı dəstə üzvlərinin narkotik vasitələrin satışı zamanı kart hesablarına toplanan pullar vasitəsi ilə internet üzərindən müxtəlif kriptovalyutalar və həmin ölkəyə idxal edilən digər məhsullar alaraq xaricdəki narkotacirlərə göndərdikləri müəyyən edilmişdir.

Bir sözlə, elmi-texniki tərəqqi və ictimai münasibətlərin inkişafı ilə eyni zamanda narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinin, o cümlədən narkocinayətlərin törədilməsinin forma və metodları da təkmilləşir. Yüksək texnologiyalardan, sosial şəbəkələrdən, qlobal İnternet şəbəkəsindən istifadə etməklə həyata keçirilən qanunazidd fəaliyyətin, o cümlədən narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə bağlı cinayətkar fəaliyyətin yeni formaları meydana gəlir[80].

[80] Щурова А.С. Незаконный оборот наркотических средств и их аналогов с использованием компьютерных технологий (сети Интернет): уголовно-правовое и криминологическое исследование. Диссертация на соискание ученой степени кандидата юридических наук. Санкт-Петербург: 2017, с.9-10

Müasir texnologiyaların, o cümlədən İnternet şəbəkəsinin inkişafı səviyyəsi, həmçinin istifadəçilər auditoriyasının daima artması nəzərə alınmaqla narkotiklərin təbliği və reklamı məqsədləri ilə internet-resurslardan daha geniş istifadə ediləcəyini proqnozlaşdırmaq olar.

EUROPOL-n məlumatlarına əsasən Avropada narkotik vasitələrin qanunsuz bazarının illik həcmi ən az 30 milyard ABŞ dolları səviyyəsindədir. Bu isə öz növbəsində, Dünya Bankının qiymətləndirmələrinə görə Avropa İttifaqının illik ÜDM-in təqribən 0,2-0,3%-ni təşkil edir.

EUROPOL-un 2022-ci il may ayında yenilənmiş hesabatına əsasən son dövrlərə qədər xüsusilə Avropa regionunda ciddi təhdid təşkil etməyən metamfetamin kimi sintetik narkotikin istifadəsi 2019-cu ilin sonlarından etibarən geniş yayılmışdır. Həmçinin, BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin 2021-ci ilə olan hesabatına əsasən metamfetamin dünyada ən çox istifadə edilən sintetik tərkibli narkotik vasitələrdən birinə çevrilmişdir. Təsadüfi deyildir ki, sintetik tərkibli naroktik vasitə istehsal edən laboratoriyaların böüyük əksəriyyəti (ekspertlərin fikrincə (80-95%-i) məhz metamfetaminlə əlaqəlidir.

BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsi tərəfindən illik əsasda hazırlanan Ümumdünya Narkotiklər Hesabatında tiryək istehsalında ən böyük pay sahibləri əvvəlki illərdə olduğu kimi Əfqanıstan, Meksika və Myanma kimi ölkələrdir. Təkcə Əfqanıstanın üzərinə 2020-ci ildə dünyada istehsal edilmiş tiryəkin 85%-i düşür. Meksika və Myanma üçün bu göstərici birlikdə 11% təşkil edir. 2022-ci ildə Əfqanıstanda tiryək istehsalı əvvəlki illə müqayisədə 32% artaraq 233,000 hektar sahəni əhatə etmişdir.

BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin məlumatına əsaslanıb deyə bilərik ki, son illər ərzində tiryəkdən fərqli olaraq kokain istehsalında ciddi artım tempi müşahidə olunmamışıdır. Kokain istehsalı 2019-cu ildə 1784 ton səviyyəsində müəy-

yən edilmişdir. Əvvəlki illərdə olduğu kimi, dünyada kokain istehsalının ən böyük pay sahibləri Latın Amerikası ölkələri, xüsusilə Kolumbiyadır.

Marixuana (kannabis) əkilən narkotik tərkibli bitkilər arasında ən geniş istehsal coğrafiyasına malik olmaqda davam edir. 2021-ci ildə kannabis istehsalı bazarının həcmi 323,9 milyard ABŞ dolları təşkil etmişdir. Bir sıra ölkələrdə tibbi məqsədlərlə kannabis istehsalının və istifadəsinin leqallaşdırılması səbəbindən bu həcmin 2030-cu ilə qədər illik 21,4% həcmində artması proqnozlaşdırılır.

Həmçinin, BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin 2020-2022-ci il məruzələrində narkotiklərin qlobal bazarının genişləndiyi və daha mürəkkəbləşdiyi ilə yanaşı, eləcədə narkotik vasitələrin və psixtrop maddələrin qanunsuz dövriyyəsi və istehlakı sahəsində bir sıra səciyyəvi meyillər də qeyd olunmuşdur: psixostimulyatorlardan istifadə hallarının daha da artması; amfetamin sırasına aid olan stimulyatorlar bazarının sürətlə artmaqda davam etməsi; dünyada narkotiklərin yayılması və istehlakının ənənəvi sxemlərinin transfarmasiyaya uğramağa başlaması və narkobiznesdə internet-ticarətin xüsusi çəkisinin artması; spays və s. kimi sintetik kannabiodlərin və sedativ preparatların qeyri-tibbi istehlakının əhəmiyyətli dərəcədə artması və s.

Son illərin tədqiqatları göstərir ki, narkotiklərin istehsalı və istehlakı, habelə onların insan sağlamlığına təsiri ilə bağlı dünyadakı vəziyyət dəyişməmişdir. Əvvəllər də olduğu kimi, hazırda da mütəşəkkil narkocinayətkar qruplaşmalar dünyaya meydan oxuyurlar[81].

V.Eremenko, narkoekspansiyanın qlobal xarakterinin göz qabağında olduğunu və bu narkoekspansiyanın insan sivilizasi-

---

[81] Кобец П.Н. Совершенствование борьбы с незаконным оборотом наркотических средств на территории государств – участников содружества независимых государств – одно из условий обеспечения национальной безопасности Российской Федерации//Национальная безопасность и стратегическое планирование. 2017, №4(20), с.22

yası üçün real və getdikcə artmaqda olan təhlükə kəsb etməyə başladığını göstərir[82].

D.A.Şestakov narkobiznesi-«ilk növbədə qlobal iqtisadiyyat sahəsində cinayətkarlığın tərkib hissəsi kimi çıxış edən iqtisadi hadisə»[83] kimi qiymətləndirir.

P.V.Teplyaşina və E.A.Fedorova hazırda transmilli mütəşəkkil cinayətkarlığın tərkib hissəsi olan transmilli narkocinayətkarlıqdan tam şəkildə müdafiə olunan dünya ölkəsinin mövcud olmadığını qeyd edərək, transmilli narkocinayətkarlığı səciyyələndirən xarakterik əlamətlərə aşağıdakıları aid edirlər: 1)strukturluluğun və mütəşəkkilliyin yüksək səviyyəsi; 2) böyük həcmdə daşınar və daşınmaz əmlak, bank hesabları və sairədən ibarət olan maddi bazanın mövcudluğu; 3)qeyri-leqal fəaliyyətlə yanaşı, leqal fəaliyyət növlərinin də olması də yaranaraq inkişaf etməsi (barlar, gecə klubları, konsaltinq şirkətləri, mühafizə xidmətini təqdim edən qurumlar və s.); 4)korrupsion əlaqələrin narkocinayətkarlığın zəruri atributuna çevrilməsi; 5)müasir informasiya-analatik bazanın mövcudluğu; 6)narkobiznesin miqyasının və coğrafiyasının genişləndirilməklə narkoistehlakın və psixaktiv meddələrə olan tələbatın daima artmasına istiqamətlənən səylərin gücləndirilməsi və s.[84].

Məhz qloballaşmanın yaratdığı yeni imkanlar cinayətkar narkotəşkilatlara öz aralarında daha sıx əməkdaşlığı həyata keçirməyə, bir ölkənin hüdudlarından kənara çıxaraq transmillіləşməyə, narkocinayətkar qruplaşmaların, hüquq-mühafizə orqanlarına

---

[82] Еременко В. Транснациональный наркобизнес как глобальная угроза современности//Власть. 2008. №5, с.49

[83] Шестаков Д.А. Хотим ли мы ликвидировать наркобизнес? (теоретико-криминологический подход)//Безопасность большого города: «Современные технологии профилактики наркопотребления и противодействия наркопреступности: материалы 4-й науч.-практ.конф. СПб.: Правительство Санкт-Петербурга: 2009, с.23

[84] Тепляшина П.В., Федорова Е.А. Транснациональная наркопреступность: понятие, признаки, детерминанты и отдельные направления противодействия//Криминология. Вчера. Сегодня. Завтра. 2017, №3 (46), с.69-70

müqavimət göstərmə imkanlarını genişləndirməklə kriminal narkofəaliyyəti daha yaxşı pərdələməyə şərait yaradır[85].

Narkobiznes yüksək dərəcədə rentabellidir. Narkobiznesin «yaşamasını» şərtləndirən əsas amil yüksək gəlir əldə etmək imkanının mövcudluğudur. A.L.Repetskayanın məlumatlarına görə narkotiklərlə bağlı əməliyyatlarda normal gəlir 300-2000% civarındadır. Narkotacirlər böyük maliyyə gücünə malikdirlər və onlar öz qüdrətlərindən terrorizmi və siyasi korrupsiyanı dəstəkləmək üçün istifadə edirlər. Narkotik vasitələrin qanunsuz dövriyyəsində faktiki olaraq bütün nəhəng transmilli cinayətkar təşkilatlar iştirak edirlər. Eyni zamanda beynəlxalq bazarda eləcədə, narkotik vasitələrin cinayətkar yollarla daşınması ilə məşğul olan kiçik və orta cinayətkar qruplaşmaların aktivləşməsi də müşahidə olunur[86].

Narkokartellərin narkotik vasitələrin qanunsuz dövriyyəsindən əldə etdikləri hədsiz gəlirlər narkobiznesin genişləndirilməsi ilə yanaşı, həm də terrorizmin, qanlı münaqişələrin maliyyələşdirilməsinə sərf edilir. Narkobiznesin dövlətlərə və cəmiyyətə vurduğu zərər hədsizdir. Böyük miqdarda pul vəsaitləri narkotiklərin qanunsuz dövriyyəsi ilə mübarizəyə, polisin, məhkəmə sisteminin möhkəmləndirilməsinə, narkomanların müalicəsi və reabilitasiyası proqramlarına ayrılır. Küçə cinayətkarlığı, qruplaşmalar arasında müharibə və qanlı toqquşmalar, puç olmuş insan həyatları - narkomaniya və narkobiznesin doğurduğu reallıqdır[87].

---

85 Табаков А.В. Современное состояние и основные тенденции развития транснациональной организованной наркопреступности: монография. СПб: СПбГАСУ, 2018.- 259с.

86 Репецкая А.Л. Транснациональная организованная преступность. Иркутск: 2005, с.82-83.

87 Михайлов Ю.В., Абрамов А.Ю. Международные подходы к борьбе с распространением наркотических средств и психотропных веществ//Медицинский вестник Северного Кавказа. 2013. Т.8. №3, с.61

Narkocinayətkar qruplaşmalar sosial cəhətdən zəif müdafiə olunanan yeniyetmə və gəncləri öz kriminal fəaliyyətlərinə daha geniş şəkildə cəlb etməyə başlamışlar. Gizli saxlanc yerlərində narkotiklərin gizlədilməsi, narkomalların təmassız ötürülməsi metodlarından və üsullarından istifadə edilməsi, pərakəndə narkoticarətə hamilə qadınların və uşaqların cəlb edilməsi, bu kriminal biznesi təşkil edənlərə məsuliyyətdən asanlıqla yayınmağa imkan verir[88].

M.S.Xuseynova narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi sahəsində mövcud təhlükəli meyillər arasında aşağıdakıları xüsusi olaraq qeyd edir:

- narkotik vasitələrin istehlakı qısa müddətdə insan orqanizminin bütün funksiyalarının tükənməsinə və son nəticədə sağlamlıq vəziyyətində köklü neqativ dəyişikliklərin baş verməsinə, insanın vaxtından əvvəl fəaliyyət (iş) qabiyyətinin itirilməsinə və ya ölümünə gətirir ki, bu da dövlətin əmək qabiliyyətli aktiv əhalisinin azalmasına səbəb ola bilər;
- abstinent sindrom vəziyyətində olan narkomanlar narkotik vasitələr əldə etmək üçün vəsait tapmaq məqsədilə tamah və tamah-zorakı xarakterli digər cinayətlər törətmək iqtidarındadırlar ki, bu da ciddi kriminogen amil hesab edilməlidir;
- narkotik vasitələrin qanunsuz dövriyyəsi sahəsində cinayətkar fəaliyyəti həyata keçirənlər bu narkoistehlaka daha çox insanı cəlb etmək məqsədilə ilk vaxtlar yeniyetmə və gənclərə bu vasitələri pulsuz təklif edirlər ki, bu da daha çox insanların narkomaniya girdabına düşməsinə gətirib çıxarır[89].

---

[88] Готчина Л.В. Преступность несовершоннолетних и молодежи: состояние и перспективы//Российский девиантологический журнал 2021. №1(2), с.310-311

[89] Хусейнова М.С. Уголовно-правовая и криминологическая характеристика незаконного оборота наркотических средств по законодательству Республики Таджикистан. Диссертация на соискание ученой степени кандидата юридических наук. Душанбе: 2021, с.

P.V.Teplyaşina narkovəziyyətin əsas meyilləri sırasında göstərir: müsadirə olunmuş narkotik vasitələrin və psixotrop maddələrin strukturunda kannabis, opiod və sintetik qrupa daxil olan narkotiklərin xüsusi çəkisinin yüksəlməsi; sintetik narkotiklərin («dizayner» narkotiklərin) və psixoaktiv maddələrin (amfetamin sıralı stimulyatorlar, sintetik analqetiklər və sintetik opiodlar, sintetik kannabinoidlər və s.) qanunsuz dövriyyəsinin miqyaslarının və həcminin genişlənməkdə davam etməsi; narkoistehsaldan narkoistehlaka qədər olan bütün prosesi əhatə edən narkosənayenin formalaşması cizgilərinin açıq-aydın müşahidə olunmağa başlaması, kriminal narkotexnologiyaların yaranaraq inkişaf etməsi və s. [90].

Narkobiznes sahəsində son illərdə yaranan daha bir təhlükəli meyil transsərhəd narkobiznesinin, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinin və bununla bağlı cinayətkarlığın artmasıdır. Buna misal olaraq, Azərbaycan Respublikasının və İran İslam Respublikasının sərhədlərində, iki ölkə arasındakı gömrük, sərhəd-keçid məntəqələrində narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı cinayətlərin, o cümlədən narkotiklərin qaçaqmalçılığı hallarının əhəmiyyətli dərəcədə artmasını, bu kriminal fəaliyyətin bir qayda olaraq transmilli narkocinayətkar qruplaşmaların əlində cəmləndiyini göstərmək olar. Statistik məlumatlar da belə bir meyilin mövcudluğunu göstərir.

2016-2022-ci illər ərzində gömrük orqanları tərəfindən aşkar edilərək müsadirə olunmuş irihəcmli narkotik vasitələr və psixotrop maddələrlə bağlı aşağıdakı faktları xüsusi olaraq qeyd etmək olar:

---

[90] Тепляшин П.В. Состояние наркопреступности в Российской Федерации: основные криминологические показатели и тенденции//Журнал LEX RUSSICA (МГЮА). 2017, №10(131), с.152-153

- 16 aprel 2016-cı ildə İran-Belçika marşrutu ilə hərəkət edən avtomobildəki kişmiş yükünün arasında ümumi çəkisi 505 kq 225 qram olan heroin (Astara gömrük məntəqəsi);

- 23 may 2018-ci ildə İran-Polşa marşrutu ilə hərəkət edən yük avtomobilində oda davamlı lövhələrin arasında 500 kq 635 qr heroin (Astara);

- 01 iyun 2020-ci ildə İran-Ukrayna marşrutu ilə hərəkət edən avtomobildəki yemiş yükünün içərisində 523 kq 700 qr heroin (Astara);

- 14 avqust 2021-ci ildə İran-Türkiyə marşrutu ilə hərəkət edən yuk avtomobilinin yanacaq çəninin içərisində 190 kq 840 qr metamfetamin (Şaxtaxtı);

- 14 sentyabr 2021-ci ildə İran-Latviya marşrutu ilə hərəkət edən yük avtomobilində maye halında 527 kq 600 qr (quru halda 337 kq 791 qr) tiryək (Biləsuvar);

- 25 aprel 2021-ci ildə İran-Türkiyə marşrutu ilə hərəkət edən yük nəqliyyat vasitəsinin sürücü tərəfində olan yanacaq çəninin içərisində 307 kq 900 qr metamfetamin (Culfa) və s.

Ümumiyyətlə, isə qeyd etmək istərdik ki, gömrük orqanları tərəfindən irihəcmli narkotik vasitələr və psixotrop maddələr yük avtomobillərinin ən müxtəlif yerlərində, o cümlədən yük avtomobilinin qoşqusunun döşəməsində gizli saxlanc yerində, nəqliyyat vasitəsinin arxa hissəsinin döşəməsində, qoşqunun təkərlərinin arasındakı oxda,  avtomobilin kabininin tavan hissəsində, qoşqunun soyuducu qurğunun altında, kabində olan yataq yerinin altında olan çənin içərisində; badımcan, kivi, gül, yemiş, kartof, kişmiş yükünün içərisində; mebellərin içərisində; ağac heykəlciklər və digər dekarativ məmulatlar yükünün arasında, natrium bikorbonat kisələrinin içərisində, qoşqudakı suni dəri yükündə olan karton borularda, yanacaq çəninin içərisində, pomza daşına qarışdırılmış halda; mebel və xalça yükündə, unlu qənnadı məmulatları yükünün altında; döşəmənin təmizlənməsi üçün plastik şotkaların sapının hər birinin içində və sair kimi

yerlərdə aşkar edilmişdir. Bu zaman irihəcmli narkotik vasitələrin və psixotrop maddələri daşıyan yük avtomobillərinin əsasən İran-Almaniya, İran-Polşa, İran-Niderland, İran-Bolqarıstan, İran-Türkiyə, İran-Qazaxıstan, İran-Belçika, İran-Ukrayna, İran-Danimarka, İran-Gürcüstan, İran-İsveç, İran-Rusiya, İran-Avstriya, İran-Çexiya, İran-Moldova kimi marşrutlar üzrə hərəkət etdikləri müəyyən olunmuşdur.

2023-cü ilin may ayında Xəzər dənizinin İran sahillərindən qayıqlarla ölkəyə narkotik vasitələri qaçaqmalçılıq yolu ilə gətirən mütəşəkkil dəstə üzvlərinin saxlanılması istiqamətində DİN-nin Baş Narkotiklərlə Mübarizə İdarəsinin əməkdaşları tərəfindən xüsusi əməliyyat-axtarış tədbiri keçirilmişdir. Belə ki, Baş İdarənin əməkdaşlarının Sumqayıt şəhərinin Yaşma bağları adlanan ərazisində keçirdiyi tədbir nəticəsində əvvəl məhkum olunmuş şəxslər-E. və Z. narkotiklərin qanunsuz dövriyyəsini təşkil etdikləri üçün saxlanılıblar. Onların üzərindən və Z.-nin idarə etdiyi avtomobildən ümumilikdə 187 kq, o cümlədən 113 kq tərkibi psixotrop maddələr əlavə edilərək zənginləşdirilmiş marixuana, 37 kq heroin, 36 kq metamfetamin, 1 kq tiryək və 5 min ədəd «Metadon M40» həbi aşkar edilərək götürülmüşdür.

Araşdırmalar zamanı E. və Z. vaxtaşırı olaraq «Rəsul», «Rza» və digər İran vətəndaşları ilə əlbir olaraq narkotikləri dəniz yolu ilə ölkə ərazisinə gətirdikləri məlum olmuşdur. Saxlanılan şəxslər həmin narkotikləri əldə edəndən sonra Bakı şəhərində ayrı-ayrı şəxslərə ötürərək satışını təşkil etməli imişlər. E. və Z. ifadələrində dəfələrlə İrandan xüsusi katerlərlə dəniz vasitəsi ilə qaçaqmalçılıq yolu ilə Xəzər rayonu Zirə qəsəbəsində hər kəsin «qartalın burnu» kimi tanıdığı yerə göndərilən narkotikləri xüsusi texniki vasitələrdən istifadə etməklə əldə etdiklərini və satışını həyata keçirdiklərini bildirmişlər. Qeyd edək ki, E. və Z. ətrafda şübhə oyatmamaq üçün ilk baxışdan hər kəsdə balıqçı görüntüsü yaradıblar. Aparılan araşdlırmalarla onların dəniz yolu ilə gətirilən narkotiklərin ölkə ərazisində qanunsuz

dövriyyəsini təşkil edən əsas şəxslərdən olmaları müəyyən edilmişdir.

Ümumiyyətlə, 2023-cü ilin may ayında həyata keçirilən intensiv əməliyyat-axtarış tədbirləri nəticəsində İrandan qaçaqmalçılıq yolu ilə ölkəmizə narkotik vasitələr göndərən transmilli mütəşəkkil dəstənin Azərbaycandakı üzvlərinə, eləcədə ölkə daxilində narkotiklərin satışını təşkil edən şəxslərə qarşı Bakıda və bölgələrdə keçirilən əməliyyatlar zamanı səkkiz mütəşəkkil dəstənin üzvləri, o cümlədən 83 nəfər saxlanılmışdır. Qanunsuz dövriyyədən «qara bazar»da dəyəri 20 milyon manat olan 512 kiloqram narkotik vasitə-kokain, heroin, tiryək, marixuana, psixotrop maddə-metamfetamin, eləcədə 13 min ədəd ekstazi və metadon həbi çıxarılmışdır. Əməliyyatlar paytaxtla yanaşı, Sumqayıt şəhəri, Abşeron rayonu, habelə bir sıra bölgələrdə keçirilmiş, Baş İdarənin əməkdaşları tərəfindən çətin relyef, coğrafi və meşəlik şəraitindən, həmçinin Xəzər dənizinin İran sahillərindən qayıqlarla ölkəyə narkotik vasitələrin qaçaqmalçılıq yolu ilə gətirilməsinin qarşısının qətiyyətlə alınmasına istiqamətlənmiş kompleks tədbirlər həyata keçirilmişdir.

Göründüyü kimi, narkotik vasitələr və psixotrop maddələr ölkəyə əsasən İran İslam Respublikasından gətirilir. Bunu Azərbaycan Respublikası Baş nazirinin müavini, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının sədri Əli Əhmədov da qeyd edir. Komissiyanın sədri, 25 noyabr 2022-ci ildə Nazirlər Kabinetində narkotik vasitələrin qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizə çərçivəsində kütləvi informasiya vasitələri tərəfindən görülmüş işlərin müzakirəsinə həsr olunan görüşdə demişdir: «Bu ilin on ayı ərzində xarici ölkə mənşəli narkotik vasitələrin təxminən 95 faizindən çoxu İran İslam Respublikasının ərazisindən qaçaqmalçılıq və digər qanunsuz yollarla Azərbaycana gətirilib».

Ş.Kərimov və İ.Hacı-zadə düzgün olaraq qeyd edirlər ki, «son illər İran İslam Respublikası narkobaron dövlətə çevrilib. Respublikamıza ixrac olunan narkotik və psixotrop maddələrin tam əksəriyyəti İrandan daxil olur»[91].

Narkotiklərə nəzarət üzrə Beynəlxalq komitənin 2017-2022-ci illəri əhatə edən dövrdə narkotiklər haqqında Ümumdünya məruzələrinin kontent-analizi dünyada narkotiklərin və digər psixoaktiv maddələrin qanunsuz dövriyyəsinin əsas kəmiyyət və keyfiyyət meyillərini müəyyən etməyə imkan vermişdir:

- qadağan edilmiş narkotiklərin dünya istehlakının həcmi sabit qalmaqla 15-64 yaşda olan əhalin 3,4-7,0%-ni təşkil edir; narkotik qəbul edənlərin 10-15%-ni problemli narkoistehlakçılar-narkotik asılılıqdan əziyyət çəkən və ya narkotik qəbulu ilə bağlı pozğunluqları olan şəxslər qrupu təşkil edir;

- daha çox istehlak edilən narkotiklər marixuana, həşiş, kannabis qətranı və s. kimi kannabis məhsullarıdır; sonrakı yerlərdə tiryək xaş-xaşından hazırlanan narkotiklər (heroin, morfin, tiryək, reseptlə buraxılan opiodlar); amfitamin sıralı narkotiklər, kokain və sair.

- müasir texnologiyaların köməyi ilə yeni psixotrop maddələrin istehsalı və istehlakı halları meydana gəlmiş və onların istehsalı və istehlakının genişlənməsi müşahidə olunur;

- beynəlxalq narkobiznes beynəlxalq terrorizmin və milli ekstremizmin yayılmasına ciddi təsir edir;

- qadağan edilmiş psixoaktiv maddələrin istehlakı yeniyetmə və gənclər arasında, xüsusən də şəhərlərdə yaşayan kişi cinsli şəxslər arasında yayılması və psixoaktiv maddələrin çeşidinin daima genişlənməsi ilə xarakterizə olunur. Bir çox inkişaf etmiş

---

[91] Kərimov Ş., Hacı-zadə İ. Narkomaniya ilə mübarizə günün tələbidir// Cinayət hüququnun aktual problemləri (elmi məqalələr məcmusu). Ş.T.Səmədovanın umumi redaktəsi ilə. Bakı: Mütərcim, 2022,s.190

ölkələrdə qadağan edilmiş narkobazarlar sabitləşmə əlamətlərini nümayiş etdirir, eyni zamanda inkişaf etməkdə olan ölkələrin əksəriyyətində narkotiklərin istehlakı hallarının artımı davam edir; məhz psixoaktiv maddələrin istehlakı kimi qlobal problem inkişaf etməkdə olan ölkələrə istiqamətlənir;

- faktiki məlumatlar və son illərin tədqiqatları beynəlxalq və regional səviyyədə ən təhlükəli narkotiklərin daşınmasında və ticarətində qanunsuz silahlı birləşmələrin (ilk növbədə terror təşkilatlarının) iştirakının artmaqda olan rolunu göstərir;
- bir çox ölkələrdə narkotizasiya üsulları, istehlak olunan narkotiklərin strukturu dəyişmiş, yeni, daha güclü təsir edən sintetik narkotiklərə və psixotrop maddələrə sabit tələbat yaranmışdır;
- son illərdə narkomanlığın sosial bazası genişlənmiş və öz xarakteristikasını dəyişərək ənənəvi olaraq «yoluxan» sosial qrupların hüdudlarından kənara çıxmışdır: hazırda narkomanlıq istər əhalinin az təminatlı təbəqələrdə, istərsə də maddi rifah səviyyəsi yüksək olan əhali qrupları arasında geniş yayılmağa başlamışdır[92].

Beləliklə, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi qloballaşan dünyada hər bir ölkənin vacib təhlükəsizlik problemlərindən biridir. Qanunsuz narkoticarət dövlətin müflisləşməsi, üsyançı müharibələr və terrorizm, transmilli mütəşəkkil cinayətkarlıq və uzun müddətli daxili münaqişələr kimi ciddi təhlükəsizlik problemlərinə səbəb olan hallardan birinə çevrilmişdir[93].

---

[92] Харабет К.В. Противодействиек наркотизму и наркопреступности в вооруженных силах Российской Федерации (социально-правовое и криминологическое исследование) . Диссертация на соискание ученой степени доктора юридических наук. М., 2018, с.41-43

[93] Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə: real vəziyyət və həlli yolları. Azərbaycan Respublikasının Baş Prokurorluğunun Elmi-Tədris Mərkəzi. Bakı: 2021, s.8

B.S.Zahidov düzgün olaraq qeyd edir ki, «Transmilli narkosindikatlar cinayətkar fəaliyyətdə ən müasir silahları, elektron müşahidə və nəzarət sistemlərini, təhlükəsizliyin təminin ən yeni metodlarını, üsul və vasitələrini tətbiq edirlər. Kriminal fəaliyyətin transmilli miqyaslarını getdikcə daha da genişləndirmək məqsədilə son zamanlar cinayətkar narkoqruplaşmalar qlobal informasiya şəbəkəsi olan İnternetdən də istifadə edirlər. Bundan başqa beynalxalq elektron bank şəbəkəsinə qoşulmuş və böyük imkanlara malik müasir kompüter texnikasından istifadə beynalxalq miqyasda kriminal gəlirlərin leqallaşdırılması prosesini sürətləndirməyə, daha geniş miqyaslarda həyata keçirməyə şərait yaradır. Bu baxımdan BMT ekspertləri tərəfindən narkobiznesdən əldə edilmiş 300-800 milyard ABŞ dolları miqdarında pulların leqallaşdırılması («yuyulması») barədə gətirdikləri rəqəmlər tamamilə real görünür»[94].

Mütəşəkkil narkocinayətkarlıq aşağıdakı əlamətlərlə səciyyələnən cinayətkarlığın ən təhlükəli növlərindən biridir: topdan və pərakəndə narkobiznesə əhalinin, xüsusən də yeniyetmələrin, tələbələrin və bütünlükdə gənclərin cəlb edilməsi hallarının artaraq genişlənməsi; narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı cinayətlərin miqyaslarının genişlənməsi, narkocinayətkar qurumların silahlanma və maddi-texniki təchizat səviyyəsinin, mütəşəkkillik dərəcəsinin artması; narkotiklərin yayılması sahəsində potensialın yüksəldilməsi üçün qlobal İnternet şəbəkəsi də daxil olmaqla informasiya mühitindən, sosial şəbəkələrdən istifadə kimi təhlükəli meyillərin yaranması və s. [95].

Dünya ölkələrində narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı vəziyyəti əks etdirən statistik

[94] Cavadov F., Vəliyev H., Abdullayev Y. Narkomanlıqla və narkobizneslə mübarizə: problemlər və həllər/Məhkəmə ekspertizası, kriminalistika və kriminologiyanın aktual məsələləri. Elmi əsərlər məcmuəsi. 2014, № 62, s.7-8

[95] Хохлов Е.Е. Роль международных структур в борьбе с незаконным оборотом наркотиков// Научный портал МВД России: 2020. №2 (50), с.119.

məlumatların, beynəlxalq təşkilatların hazırladığı hesabatların, xüsusi ədəbiyyatın analizi əsasında son illərdə narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinin, narkomanlığın və narkobiznesin bir sıra meyillərlə səciyyələndiyini qeyd etmək olar: 1)narkocinayətkarlığın latentliyinin, sosial təhlükəlilik dərəcəsinin, mütəşəkkillik səviyyəsinin yüksəlməsi, narkobiznesin əsasən mütəşəkkil cinayətkar dəstələrin, o cümlədən transmilli mütəşəkkil kriminal qurumların əlində cəmləşməsi, narkobiznes sənayesinin və narkocinayətkarlığın transmilliləşməsi meyillərinin güclənməsi; 2)narkosənayenin genişlənməsi və möhkəmlənməsi əsasında yeni kriminal narkotexnologiyaların təşəkkül tapması, internet məkanından narkoticarət bazarı kimi istifadə hallarının artması; 3)cinayətkarlığın strukturunda narkocinayətkarlığın xüsusi çəkisinin artma meyili ilə xarakterizə olunması; 4)narkotiklərə aludə olan şəxslərin ümumi sayında qadınların, yeniyetmə və gənclərin xüsusi çəkisinin artması; 5)«qara bazarda» narkoməhsulların çeşidinin genişlənməsi, psixoaktiv maddələrin insan sağlamlığı üçün daha təhlükəli olan yeni növlərinin (məsələn, spays, kratom), sintetik psixostimulyatoların istehsalı və istehlakının sürətlə yayılması; 6)yeni narkobazarların, narkotik vasitələrin və psixotrop maddələrin daşınmasının yeni marşrutlarının, yeni tranzit-keçid məntəqələrinin yaranması, tranzit dövlətlərin narkotiklərin istehlakçısı olan regionlara çevrilməsi; 7)yeni psixoaktiv maddələr istehsal edən qeyri-leqal laboratoriyaların yaradılması və onların sayının artması; 8)narkoticarət üçün yaradılmış və uyğunlaşdırılmış qeyri-leqal və yarımleqal mağazaların (xüsusən də internet-mağazaların) təşkil edilməsi və onların sayının artması; 9)narkomaniya zəminində oğurluq, quldurluq və soyğunçuluq və sair kimi tamah və tamah-zorakı cinayətlərin törədilməsi hallarının artması; 10)narkobiznesdən əldə edilmiş «çirkli» narkopulların terrorçuluğun maliyyələşdirilməsinin əsas mənbələrin-

dən birinə çevrilməsi; 11)transmilli fəaliyyət göstərən mütəşəkkil cinayətkar dəstələrin və təşkilatların narkobiznesin miqyaslarının genişləndirilməsinə istiqamətlənən fəaliyyətlərində terror metodlarından və üsullarından geniş istifadə etməyə başlamaları; 12)narkoterrorizmin meydana gəlməsi, narkobiznesin terrorizmin əsas maliyyə mənbələrindən birinə çevrilməsi və s.[96].

Narkomaniya və narkobizneslə mübarizənin müasir səviyyəsi artıq bu və ya digər dövlətlərdə narkotiklərin istehsalına nəzarət haqında beynəlxalq müqavilələr olmadan, narkotiklər bazarına ciddi nəzarəti təmin etmədən, dövlətlər arasında bağlanmış sazişlərə, beynəlxalq səviyyədə qəbul edilmiş konvensiyalara dəqiq əməl edilmədən təsəvvür olunmur. Dünya alimləri narkotik vasitələrə aludə olan şəxslərə kömək etmək üçün yeni, daha effektiv, elmin müasir səviyyəsinə cavab verən üsullar və metodlar axtarışındadırlar. Yeni müalicə metodikaları işlənib hazırlanır, dərman preparatlarının təsiri yoxlanılır, hətta insanın narkotik asılılıqdan xilas edilməsi məqsədilə əməliyyatların keçirilməsi məsələləri də araşdırılır. Narkomanlığın profilaktikası işinə tibb, psixiatriya, psixologiya, hüquq, sosiologiya və sair kimi sahələrdə toplanmış biliklər, metod və üsullar kompleksi cəlb edilir. Lakin alimlərin və praktiki işçilərin bütün səylərinə

---

[96] Əliyev N.T. Qloballaşma dövründə cinayətkarlığın müasir vəziyyəti, səciyyəvi cəhətləri və meyilləri//Polis Akademiyasının Elmi Xəbərləri. 2019. №3(23), s.13; Cavadov F., Ablullayev Y. Narkomanlıqla və narkobizenslə mübarizə: problemlər və onların həlli yolları//Məhkəmə ekspertizası, kriminalistika və kriminologiyanın aktual məsələləri. Elmi əsərlər məcmuəsi. 2014, №62, s.12; Zahidov B.S. Azərbaycanda narkotizmlə və narkobizenslə mübarizənin aktual problemləri. Bakı: 2007, s.273-274; Zahidov B.S. Azərbaycanda narkotizmlə və narkobizneslə mübarizənin aktual problemləri (cinayət hüququ və kriminoloji istiqamətlər). Hüquq elmləri doktoru alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı: 2005, s.46; Həsənov E.H. Narkotizm: meyillər və aradan qaldırılma tədbirləri. Bakı: 1999, s.42; Cavadov F., Abdullayev Y. Qloballaşan dünyada transmilli cinayətkarlıqla mübarizənin beynəlxalq və regional problemləri: kriminoloci aspektlər //«Regional cinayətkarlığın kriminoloji tədqiqinin aktual polemləri» 3-cü beynəlxalq elmi-praktik konfransın materialları. Bakı: 2015, s.85

baxmayaraq, narkomaniya problemi əvvəllər olduğu kimi hazırda da bəşəriyyət qarşısında ən kəskin, ictimai təhlükəli, yaxın gələcəkdə həlli çətin olan problemlərdən biri olaraq qalmaqdadır[97].

D.A.Şestakov yazır ki, müasir postliberal mərhələdə mütəşəkkil cinayətkar fəaliyyətin qlobal struktur idrakına, həmçinin bu fəaliyyətlə bağlı dövlətdaxili və beynəlxalq planetar strukturların maraqlarına və fəaliyyətinə konstruktiv-tənqidi yanaşmaya əvvəlkindən daha artıq ehtiyac yaranır. Bu zaman narkotizm və ona əsaslanan, planetar miqyaslarda şaxələnərək yayılan narkocinayətkarlıq getdikcə daha çox dərəcədə ekoloji fəlakətlər və digər sosial-patoloji proseslərlə yanaşı, bəşəriyyətin özünüməhvinin kortəbii mexanizmlərindən biri kimi (mümkün ki, onun proqramına qoyulmuş) nəzərdən keçirilir[98].

Cinayətlərin, xüsusilə də transmilli mütəşəkkil cinayətkar dəstə və təşkilatlar tərəfindən törədilən ən təhlükəli kriminal əməllərin dövlət sərhədlərinin hüdudlarından kənara çıxması, beynəlxalq xarakter daşıyan cinayətlərin sayının artma meyili kimi bir şəraitdə cinayətkarlıqla mübarizə getdikcə daha da çətinləşir və bu sahədə səmərəliliyə və uğura nail olunmasının əksər dövlətlərin razılaşdırılmış fəaliyyəti nəticəsində, dövlətdaxili və beynəlxalq səylər, o cümlədən beynəlxalq müqavilələr əsasında həyata keçirilən fəaliyyət nəticəsində mümkün olduğunu bütün aydınlığı ilə göstərir[99].

Beləliklə, BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsi tərəfindən 2024-cü ildə hazırlanmış narkotiklər haqqında

---

[97] Федулов А.В. Наркоглобализм: его тенденции//Вестник ЧитГУ. 2007. №3(44), с.184

[98] Шестаков Д.А. Почему бы не ликвидировать наркобизнес? Теоретико-криминологический подход//Криминологический журнал ОГУЭП. 2010. №1(11), с.30

[99] Хохлов Е.Е. Роль международных структур в борьбе с незаконным оборотом наркотиков// Научный портал МВД России: 2020. №2(50), с.112-113

Ümumdünya Məruzəsində bir sıra narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi sahəsində son illərdə müşahidə olunan xarakterik meyillər qismində aşağıdakıları xüsusi olaraq qeyd edə bilərik:

- kannabis əvvəlki kimi dünyada ən çox istehlak olunan narkotikdir;
- son on ildə kannabis istehlak edən şəxslərin sayı 28% artmışdır;
- kannabis istehlk edənlərin ən yüksək səviyyəsi Şimali Amerikada müşahidə olunur. Belə ki, 2022-ci ildə bu regionda 15-64 yaş arasında olan əhalinin 19,8% kannabis qəbul etmişdir;
- regiondan və subregiondan asılı olaraq qadınlar arasında kannabis istehlakçılarının xüsusi çəkisi 9%-dən (Asiya) 45%-ə (Şimali Amerika) qədər dəyişir;
- 2017-2019-cu illərdə müşahidə olunan cüzi artımdan sonra opiodlardən istifadə üzrə qlobal səviyyə 2020-2022-ci illərdə sabitləşmişdir;
- əvvəllər olduğu kimi, hazırda da opioidlər ən ölümcül narkotiklər qrupuna daxildir. Belə ki, narkotiklərin istehlakı ilə bilavasitə bağlı olan ölüm hallarının (əsasən doza həddini aşma) üçdə ikisi məhz bu qrupa daxil olan narkotiklərlə bağlıdır;
- əvvəlki illərdə olduğu kimi, kokain satışının iki əsas bazarı Şimali və Cənubi Amerika, habelə Qərbi və Mərkəzi Avropadır;
- son iyirmi ildə kokainə olan tələbatın Afrika və Asiyada artması da müşahidə olunur;
- mütləq rəqəmlərdə daha çox amfetamin istehlakçısı Şərqi və Cənub-Şərqi Asiya və Şimali Amerika regionlarında yaşayırlar (Şimali Amerika isə amfetamin qəbul edənlərin sayına görə birinci yerdədir);
- son illərdə amfetamin qrupuna daxil olan stimulyatorların qanunsuz dövriyyəsinin coğrafiyası genişlənmiş, dövriyyədə

baş verən artım yeni, qeyri-ənənəvi bazarların meydana gəlməsi ilə bağlı olmuşdur;

- Yaxın və Orta Şərqdə kaptaqon adlanan amfetamin qrupuna daxil olan stimulyatorların qanunsuz dövriyyəsi və istehlakında artım davam etməkdədir;

- 2022-ci ildə yeni psixoaktiv maddələrin istehlakı faktları dünyanın əksər ölkələrində qeydə alınmışdır;

- son zamanlar əhalinin böyük qrupları tərəfindən istehlak olunan yeni psixoaktiv maddələrə yarımsintetik kannabioidlər, məsələn, Şimali Amerikada daha çox yayılmış delta-8-TQK və əsasən Avropada istehlak olunan qeksahidrokannabinolu aid etmək olar;

- 2020-2022-ci illərdə müsadirə olunmuş yeni psixoaktiv maddələrin daha böyük həcmi katamin, həmçinin sintetik katinon və kannabinoidlə bağlıdır;

- 2020-ci ilə qədər davam edən uzunmüddətli artım meyilindən sonra, müsadirə olunmuş kannabis qətranının həcmi 2021-ci ildə aşağı düşmüş, 2022-ci ildə isə 2017-ci ildən sonrakı illər üzrə ən aşağı səviyyəyə enmişdir. Bunun da səbəbi kimi Şimali Amerika regionunun bir sıra inzibati vahidlərində kannabisin leqallaşdırılması siyasətinin həyata keçirilməsi nəticəsində bu narkotik vasitənin müsadirə olunması hallarının kəskin aşağı düşməsi ilə bağlıdır;

- 2022-ci illə müqayisədə, 2023-cü ildə dünya üzrə tiryək xaş-xaşının əkin sahələri 70% azalmışdır ki, bunun da başlıca olaraq Əfqanıstanda «Taliban» hərəkatının 2022-ci ilin aprelində tərkibində narkotik maddələr olan bu bitkinin istehsalının qadağan etməsi ilə bu ölkədə əkin sahələrinin 95% azalması ilə bağlıdır. Qeyd edək ki, 2023-cü ildə dünya üzrə istehsal olunan tiryəkin həcmi də 74% azalmışdır;

- 2023-cü ildə tiryəkin ən böyük istehsalçısı Myanma olmuş (tiryəkin ümumdünya istehsalında xüsusi çəkisi 54%), tiryək is-

tehsalında Əfqanıstanın xüsusi çəkisi isə 17%-ə qədər aşağı düşmüşdür (2022-ci ildə bu rəqəm 82%-ə bərabər idi); Bununla belə, Əfqanıstanda narkotik vasitələrin becərilməsinə qoyulan qadağa onun qanunsuz ticarətinin qarşısını almamış, əksinə qiymətlərin 3-4 dəfə artmasına səbəb olmuşdur. Eyni zamanda, becərilmə tələb etməyən metamfetamin və bu tipli sintetik tərkibli narkotiklərin istehsalında artım müşahidə olunmuşdur.

- əvvəlki illərdə olduğu kimi opioidlərin qanunsuz dövriyyəsi əsasən balkan marşrutu üzrə həyata keçirilir. Eyni zamanda son illərdə Mərkəzi Asiyada və Qafqaz ölkələrində heroinin müsadirə olunması hallarının artması şimal marşrutu üzrə qanunsuz dövriyyənin aktivləşməsindən xəbər verir;

- BMT tərəfindən monitorinq aparılmış son illər ərzində dünyada kokain istehsalında tiryəkdən fərqli olaraq ciddi artım tempi müşahidə olunmaqdadır. 2022-ci ildə dünya üzrə kokain istehsalı 2757 ton səviyyəsində və kokain becərilən ərazilər isə 355 000 hektar müəyyən edilmişdir. Dünyada kokain istehsalının ən böyük pay sahibləri Latın Amerikası ölkələri, xüsusilə Kolumbiya, Peru və Boliviya olmaqda davam edir. Kokainin qeyri-qanuni ixrac olunduğu əsas bazarları isə Şimali Amerika ilə yanaşı, Qərbi və Mərkəzi Avropa ölkələridir.

- kokainin qanunsuz dövriyyəsi əsasən dəniz yolu ilə, geniş şaxələnmiş marşrutlarla həyata keçirilir; son illərdə müsadirə olunmuş kokainin 80%-i dəniz yolu ilə həyata keçirilən dövriyyənin predmeti olmuşdur.

Ümumdünya Məruzəsində narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi, həmçinin bu və digər ənənəvi narkotik vasitələrin, habelə yeni psixoaktiv maddələrin, psixostimulyatorların topdan və pərakəndə satışı, onların qeyri-tibbi məqsədlərlə istehlakı ilə bağlı aşağıdakı əsas problemlər də xüsusi olaraq göstərilir:

- bütün dünyada qeydə alınan narkoloji pozğunluqların 41%-i kannabisin istehlakı ilə bağlıdır;

- son illərdə opioidlərin istehlakı sabit səviyyədə qalsa da qeyri-tibbi məqsədlərlə opioidlərin qəbulundan irəli gələn ölüm hallarının artması ciddi narahatlıq doğurur. Bunun əsas səbəbləri qismində Şimali Amerikada fentanilin, habelə Şimali və Qərbi Afrikada, Yaxın və Orta Şərqdə və Cənub-Qərbi Asiyada qeyri-tibbi məqsədlərlə tramadolun istehlakı hallarının artmasıdır;

- kokainin satış bazarı ənənəvi Şimali Amerika və Qərbi Avropa bazarlarından tədricən kənara çıxaraq Afrika və Asiyanı da əhatə etməyə başlayır;

- kokainin qanunsuz dövriyyəsinin yeni mərkəzləri meydana gəlir, bu zaman qlobal tədarük və çatdırılmada Afrika daha əhəmiyyətli rol oynamağa başlayır;

- metamfetaminin hazırlanması və istehsalı getdikcə daha çox dərəcədə bu narkotikin satışı üzrə ənənəvi bazarların (Şərqi və Cənub-Şərqi Asiya və Şimali Amerika) hüdudlarından kənara çıxır, Cənub-Qərbi Asiya, Yaxın və Orta Şərq, Okeaniya, Avropa və Afrika kimi yeni istehsal və istehlak bazarları yaranır;

- Şərqi Avropa və Mərkəzi Asiya kimi regionlarda yeni psixoaktiv maddələr artıq ciddi bir problemə çevrilir;

- Şərqi və Cənub-Şərqi Asiyada ən geniş yayılmış narkotiklərdən biri olan ketaminin satışı və istehlakı digər regionlarda, o cümlədən Qərbi və Mərkəzi Avropada və Avstraliyada da yayılmağa başlayır, onların bu regionlarda da istehsalı və istehlakı səviyyəsində artımı müşahidə olunur;

- Şimali Amerika, Qərbi və Mərkəzi Avropada fentanillə müqayisədə daha yüksək psixoaktivliyə malik olan nitazen adlanan narkotik vasitəsinin istehlakı ilə bağlı ölüm halları qeydə alınmağa başlanmışdır.

2024-cü ilin narkotiklər üzrə Ümumdünya Məruzəsində qeyd olunanlarla yanaşı, həmçinin narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı dünyanın ayrı-ayrı regionlarında mövcud olan vəziyyətin inkişafının aşağıdakı meyillərlə xarakterizə olunması da göstərilmişdir:

- kannabis istehlakı səviyyəsi Qərbi və Mərkəzi Afrikada xüsusilə yüksəkdir. Belə ki, son bir ildə bu narkotik vasitəni qəbul edən şəxslər region əhalisinin demək olar ki, 10%-ni (31 milyon insan) təşkil etmişdir;
- 2022-ci ildə bu subregionun əhalisinin 1,3%-i opioidlərdən istifadə etmişlər;
- Şərqi Afrikada bitki mənşəli yeni psixoaktiv maddə olan katadan istifadə halları da geniş yayılmışdır;
- 2022-ci ildə Afrikada inyeksiya yolu ilə narkotik qəbul edən şəxslərin sayı 1,37 milyon olmuşdur ki, onların da 166 min nəfəri, yəni 12,1%-i HİV-ə yoluxmuşdur;
- Şimali Afrika Qərbi Avropada satış üçün nəzərdə tutulan kannabis qətranının regionlararası dövriyyəsinin əsas və həlledici şəbəkələrindən birinə çevrilmişdir;
- hazırda Qərbi Afrika kokainin, Şərqi Afrika heroinin qanunsuz dövriyyəsinin strukturunda həlledici regionlardan birinə çevrilmişdir;
- Şimali Amerikada son bir ildə opioidləri qeyri-tibbi məqsədlərlə istehlak edən yaşlı əhalinin sayı 9 milyon olmuşdur ki, bu da əhalinin ümumi sayının 2,7%-ni təşkil edir;
- Cənubi və Mərkəzi Amerika, Karib hövzəsi kimi regionlarda kokain məhsullarının istehlakı ilə bağlı narkoloji xidmətə müraciət edənlərin daha yüksək səviyyəsi qeydə alınmışdır;
- digər dünya regionları ilə müqayisədə Şimali və Cənubi Amerikada tibbi təyinat olmadan stimullaşdırıcı dərman preparatlarının istehlakının səviyyəsi daha yüksəkdir;

- son illərdə Şimali Amerika ölkələrində, xüsusən də Meksikada metamfetamin qəbulu nəticəsində yaranan narkoloji pozunluqlardan müalicə keçən insanların sayı əhəmiyyətli dərəcədə artmışdır;

- 2022-ci ildə Şimali Amerikada inyeksiya yolu ilə narkotik istehlak edən şəxslər bu regionun yetkin yaşda olan əhalisinin 1%-nə, yəni 3,4 milyon nəfərə çatmışdır;

- Şimali Amerikada istehsal olunan metamfetaminin böyük hissəsi daxili bazarda satış üçün nəzərdə tutulmuşdur; bu regionda metamfetaminin istehlakı səviyyəsinin artması doza həddini aşma səbəbindən baş verən ölüm hallarının da artmasına gətirmişdir;

- Şimali Amerika həmçinin istər kişilər, istərsə də qadınlar arasında kannabis istehlakının yüksək səviyyəsi ilə xarakterizə olunur;

- dünyada opioidlərdən istifadə edənlərin demək olar ki, 50%-i Asiyada (regionun yaşlı əhalisinin 1,1%-i) yaşayır;

- 2022-ci ildə Cənub-Qərbi Asiyada dünyada opioidlərin istehlakının ən yüksək göstəricilərindən biri (3,2%) qeydə alınmışdır;

- Şərqi və Cənub-Şərqi Asiyada ən geniş yayılmış narkotik metamfetamin olduğu halda, Cənub-Qərbi və Cənubi Asiya narkobazarında opioidlər, ilk növbədə tiryək və heroin, Yaxın və Orta Şərqdə isə kaptaqon üstünlük təşkil edir; eyni zamanda Şərqi və Cənub-Şərqi Asiyada qeyri-tibbi məqsədlərlə ketamindən istifadə halları da geniş yayılmışdır;

- inyeksiya yolu ilə narkotiklər istehlak edənlərin ən böyük sayı Asiyadadır (2022-ci ildə 5,2 milyon nəfər);

- Qərbi və Mərkəzi Avropa dünya üzrə kokain satışının ikinci ən böyük bazarıdır;

- Avropada kokaindən sonra daha geniş yayılan narkotik amfetamindir, ümumiyyətlə isə son on ildə amfetamin qrupuna daxil olan narkotiklərin Avropada istehlakı səviyyəsinin artımı müşahidə olunur; Avropa həmçinin ekstazinin əsas satış bazarlarından biridir;

- Qərbi Avropada 2021-ci ildən başlayaraq yeni psixoaktiv maddələr bazarının genişlənməsi müşahidə olunur ki, bunda da bu maddələrin onlyan satışı, xüsusən katinonlar kimi psixoaktiv maddələrin onlayn formada təklif edilməsi hallarının artması önəmli rol oynamışdır;

- Qərbi və Mərkəzi Avropada kokain istehlakının intensivliyi yüksəlmiş, nəticədə də narkoloji xidmətə müraciət etmə halları artmışdır. Həmçinin, bu regionda, eynilə də Şimali Amerikada krekin qəbulundan və doza həddinin aşmasından baş verən ölüm halları da xeyli artmışdır. Daha bir təhlükəli meyil Afrika və Asiya ölkələrində də kokainin istehlakı səviyyəsinin artması ilə bağlıdır;

- 2022-ci ildə fentanildən daha güclü təsir edən və əsasən Şimali Amerika, Qərbi Avropa və Cənubi Amerika narkobazarlarında yayılan, sintetik opioidlər qrupuna aid olan nitazenlərin yayılma intensivliyi də xüsusi narahatlıq doğurur; yeni psixoaktiv maddələr qrupuna aid edilən, güclü təsir effektinə malik nitazenlərin istehlakı nəticəsində baş verən ölüm halları da xeyli artmışdır;

- cinayətkar qruplaşmaların Afrikadan kokainin, heroinin və metamfetaminin daşınması üzrə tranzit keçid məntəqəsi kimi istifadə etməyə başlaması da ciddi narahatlıq yaradır.

Son illərdə sintetik tərkibli narkotik vasitələrin istehsalı artmaqdadır. Mənşəyi bəlli olmayan sintetik vasitələr ölüm hallarının sayının artmasına gətirib çıxarmışdır. Təqdim olunmuş məlumatlara əsasən, təkcə sintetik opioiddən ölənlərin sayı 81 000 nəfərə çatmışdır. metamfetamin və bu tipli sintetik tərkibli narkotiklərin istehsalı artırmışdır.

Həmçinin son illərdə kannabisdən qeyri-tibbi məqsədlərlə istifadə üçün istehsalı və satışının leqallaşdırılması tendensiyası artmışdır. Belə ki, Kanada və ABŞ-nin 27 ştatında kannabisdən qeyri-tibbi məqsədlərlə istifadə üçün istehsalı və satışı tam leqallaşdırılmış, Uruqvayda isə bu proses dövlətin nəzarəti altında həyata keçirilir. Həmçinin, Almaniya və Lüksemburqda şəxsi istifadə üçün kannabis becərilməsinə icazə verilir. Kannabisin leqallaşdırılmasına dair qərar qəbul edən ölkələr sırasında Malta, Niderland, İsveçrə, Cənubi Afrika Respublikası və Tailand da yer alır.

Məlum olduğu kimi, informasiya texnologiyalarının inkişafı nəticəsində "darknet" kimi tanınan internet platformalarında qanunsuz narkotik ticarəti artmaqdadır. Belə ki, 2011-ci illə müqayisədə 2023-cü ildə "darknet"də narkotiklərin satışı 10 dəfə artmışdır. Hazırda təxmini hesablamalara görə, narkotik ticarətinin 19%-i məhz "darknet" platformasının üzərinə düşür və ödənişlərin 70%-i kriptovalyutalar vasitəsilə aparılır.

Dünyanın bir çox regionlarında mütəşəkkil cinayətkar dəstələr və təşkilatlar qanunun aliliyinin təminində çətinliklərdən və qeyri-sabitlik şəraitindən istifadə edərək narkotiklərin qanunsuz dövriyyəsinin miqyaslarını genişləndirməyə çalışırlar.

Son illərdə «Qızıl uçbucaq» adlandırılan Cənub-Şərqi Asiya regionunda metamfetaminlərin istehsalı kəskin artaraq ənənəvi opioidlər olan heroin və tiryəkin istehsalı səviyyəsini ötmüşdür. «Qızıl üçbucaqda» fəaliyyət göstərən silahlı qruplaşmalar kriminal fəaliyyət üsullarını, metod və vasitələrini təkmilləşdirmək istiqamətində bir sıra addımlar atmış, narkotik vasitələrin və psixotrop maddələrin, həmçinin yeni psixoaktiv maddələrin onlayan-satışını da həyata keçirməyə, bu məqsədlə informasiya-telekommunikasiya şəbəkələrindən, o cümlədən İnternetdən geniş istifadə etməyə başlamışlar.

Latın Amerikası və Asiyanın bir sıra sərhədyanı rayonlarında cinayətkar narkoqruplaşmalar insan alveri də daxil olmaqla digər cinayətkar fəaliyyət formalarını da mənimsəməyə başlamışlar. Latın Amerikası və Karib hövzəsi ölkələrində, həmçinin Qərbi Avropada kokainin qanunsuz dövriyyəsi ilə bağlı olan zorakılıq səviyyəsi, cinayətkar qruplar və bandalar arasında kriminal fəaliyyət sahələrinin bölüşdürülməsi uğrunda qızğın rəqabət geniş vüsət almışdır.

Hazırda sintetik narkotiklərin istənilən ölkədə və regionda istehsalı mümkün olsa da, cinayətkar narkoqruplaşmalar sintetik narkoistehsalın təşkili üçün bir qayda olaraq qeyri-sabitliklə səciyyələnən, iqtisadi inkişaf səviyyəsinin, əhalinin maddi durumunun olduqca aşağı olan ölkələri (məsələn, Əfqanıstan, Meksika, Myanma, Suriya və s.) seçməyə üstünlük verirlər.

Beləliklə, deyə bilərik ki, narkotiklərin qanunsuz dövriyyəsi və istehsalı beynəlxalq təhlükəsizliyə və əhalinin sağlamlığına əsas təhdid olaraq qalmaqdadır.

Narkoticarətçilərin çevik şəkildə bir narkotikdən digərinə keçməsi, daşınma marşrutlarının, metod, üsul və vasitələrinin tez-tez dəyişməsi, narkotiklərin istehsalı və dövriyyəsinin digər cinayətkar fəaliyyət formaları və növləri ilə müşayiət olunması, narkotiklərin qanunsuz dövriyyəsindən əldə edilən yüksək gəlirlərin cinayətkar qruplaşmalara münaqişəli vəziyyətlərdə təqdim etdikləri yeni imkanlar və digər amillərlə xarakterizə olunan narkotiklərin daşınması prosesinin artmaqda olan mürəkkəbliyi, bu sahədə səmərəli cavab tədbirlərinin işlənib hazırlanmasına və reallaşdırılmasına kompleks yanaşmanı tələb edir. Belə yanaşmanın əsas tərkib hissələrinə isə aşağıdakılar aid edilə bilər:

1)transmilli mütəşəkkil narkocinayətkarlığa kompleks əks təsir strategiyalarının, proqramların və fəaliyyət planlarının işlənib hazırlanması; narkobazarın vəziyyəti, strukturu və dinamikasına sistemli təsir göstərilməsi; mütəşəkkil cinayətkar dəs-

tə və təşkilatlara yeniyetmə və gənclərin cəlb olunmasının, bu kriminal strukturlar arasında transmilli əlaqələrin formalaşmasının qarşısının alınması; tərkibində narkotik maddələr olan bitkilərin əkildiyi ərazilərdə yaşayan əhali və icmalar üzərində səmərəli və konstruktiv nəzərətin təmininə imkan verən qabaqlayıcı və profilaktik tədbirlərin və fəaliyyət planlarının işlənib hazırlanması və reallaşdırılması; mütəşəkkil narkocinayətkarlığa qarşı tədbirlər kompleksi işlənib hazırlanarkən cinayətkarlığın bu təhlükəli formasının qanunun aliliyinə, idarəetməyə, sosial-iqtisadi inkişafa, ətraf mühitə, insan hüquqları sahəsinə və sair təsirinin nəzərə alınması;

2) narkotiklərin daşınması zəncirinin aşağı səviyyəsinə (məsələn, kasıblıq və seçimin olmaması səbəbindən tərkibində narkotik maddələr olan bitkilərin əkini ilə məşğul olanlara, narkotiklərin pərakəndə satışını həyata keçirənlərə) cəlb olunmuş şəxslərə daha üstün sosial-iqtisadi alternativlərin təklif olunması; bu alternativlər təkcə sadəcə olaraq gəlirlərin və ya məhsulun əvəzlənməsi ilə məhdudlaşmamalı, xroniki kasıblıq, gerilik və təhlükəsizlik şəraitinin olmaması kimi köklü struktur səbəblərin aradan qaldırılmasına istiqamətlənməlidir;

3) hüquq-mühafizə orqanlarının və ədalət mühakiməsi sisteminin ehtiyatlarının strateji və taktiki cəhətdən düzgün və mükəmməl planlaşdırılması: narkotiklərin tədarükü və çatdırılması zəncirinin planlı şəkildə məhv edilməsi üçün prioritetlərin müəyyən edilməsi və ehtiyatların səmərəli şəkildə paylaşdırılması;

4)hüquq-mühafizə orqanlarının və ədalət mühakiməsi sisteminin əməkdaşlarının texnoloji cəhətdən inkişafının, narkotiklərin tədarükü, topdan və pərakəndə satışı məntəqələrinə çatdırılması zəncirində tətbiq olunan texnoloji səviyyədən geri qalmayan və hətta üstələyən texnoloji bacarıqlara və ehtiyatlara malik olmalarının təmini və s.

# FƏSİL 4. NARKOTİK VASİTƏLƏRİN VƏ PSİXOTROP MADDƏLƏRİN QANUNSUZ DÖVRİYYƏSİ İLƏ MÜBARİZƏ HAQQINDA KONVENSİYALAR

Məlum olduğu kimi, narkotiklər üzərində nəzarət, narkotik vasitələrin və psixotrop maddələrin dövriyyəsini tənzimləyən və universal xarakter daşıyan beynalxalq sənədin qəbul edilməsinin zəruriliyi hələ Millətlər Liqasının xüsusi orqanları tərəfindən etiraf edilmişdi. BMT-nin təsis edilməsi ilə onun nəzdində yaradılan narkotik vasitələr üzrə yeni yaradılmış Komissiyasının qarşısında qoyulan əsas vəzifələrdən biri də narkotiklər haqqında belə vahid konvensiyanın hazırlanması olmuşdur[100].

Ç.Mustafayev yazır: «Artıq ayrı-ayrı dövlətlər cinayətkarlığa qarşı mübarizə işində geniş əməkdaşlığın zəruriliyini birmənalı qəbul edirlər. Bunu müasir cinayətkarlığın xüsusiyyətləri, inkişaf tempi, eyni vaxtda bir neçə dövlətin mənafeyinə zərər yetirməsi və s. tələb edir. Əlbəttə, heç kim üçün gizli deyil ki, dünyanın bir çox ölkələrini bürümüş narkomaniyaya, terrorizmə, bütün bəşəriyyət üçün təhlükəli olan ekoloji cinayətlərə qarşı bir dövlət daxilində mübarizə aparılması kifayət qədər səmərə verə bilməz. Odur ki, bəşəriyyət üçün təhlükəli olan bu sosial bəlalara qarşı dünya dövlətlərinin birgə mübarizə aparmaq ehtiyacı təbii olaraq yaranır»[101].

Artıq XX əsrin əvvəllərindən başlayaraq beynəlxalq birlik tərəfindən narkotiklərin əlçatanlığını məhdudlaşdıran qlobal nəzarət mexanizmlərini yaratmağa başlamışdır. 1912-1972-ci illər ərzində narkotiklər üzərində nəzarət haqqında xeyli sayda çoxtərəfli müqavilələr bağlanmışdır.

---

[100] Cavadov F., Abdullayev Y. Narkomaniya və narkotizm (Dünya ölkələrinin və beynəlxalq təşkilatların narkotiklərin qanunsuz dövriyyəsi ilə mübarizə təcrübəsi). Bakı: 2004, s.186-187.

[101] Mustafayev Ç.F. Müasir şəraitdə cinayətkarlığa qarşı mübarizə problemləri// Qanunçuluq, 1997, №10. S.3

Narkotik vasitələrə dair məsələlərin beynəlxalq səviyyədə müzakirəsi və buna əsasən beynəlxalq-hüquqi qərarların qəbul edilməsi milli qanunvericilikləri yaxınlaşdırır, narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə mübarizənin üstün istiqamətlərini müəyyənləşdirir, bunlarla bağlı cinayətlərin təhlükəliliyinin dərk edilməsi və məsuliyyət məsələlərini formalaşdırır, istifadəsi və hazırlanmasına beynəlxalq nəzarət qoyulmalı olan narkotik vasitələrin siyahılarını (cədvəllərini) konkretləşdirirdi.

Bununla bərabər, bir neçə hüquqi aktın və beynəlxalq orqanın eyni zamanda fəaliyyət göstərməsi narkotiklərlə bağlı bütün məsələlərin hüquqi tənzimlənməsini və nəzarətinin kifayət qədər təmin etmirdi və narkotik vasitələrə nəzarətin həyata keçirilməsində müəyyən çətinliklər yaradırdı. Bundan başqa, fəaliyyətdə olan beynəlxalq aktlar praktika ilə ayaqlaşa bilmir və mövcud həyati gerçəkliyə tam cavab vermirdi. Narkomanlıq və narkobizneslə bağlı bir çox problemlər həll edilməmiş qalırdı. Məsələn, nəzarət yalnız narkotik vasitələrin bəzi hazır formalarını əhatə edir, bunların hazırlanması üçün xammal olan maddələr, sintetik narkotiklər isə kənarda qalırdı. Eyni zamanda narkotik tərkibli bitkilərin becərilməsi və istifadəsi məsələlərinin, bir sıra digər problemlərin hüquqi tənzimlənməsi də həll edilməmişdi.

Bu və digər amillər Birləşmiş Millətlər Təşkilatı çərçivəsində narkotik vasitələrin və psixotrop maddələrə dair beynəlxalq-hüquqi sənədlərin-konvensiyaların işlənib hazırlanmasını şərtləndirdi. Nəticədə, Narkotik vasitələr haqqında 1961-ci il Vahid Konvensiyası, Psixotrop maddələr haqqında 1971-ci il Konvensiyası və narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizəyə dair 1988-ci il BMT Konvensiyası qəbul edildi. Qeyd olunan bu konvensiyaların məzmun və mahiyyətinin, onlarda öz əksini tapmış əsas maddə və normaların təhlili məqsədəuyğun hesab edilməlidir.

**1) Narkotik vasitələr haqqında 1961-ci il vahid Konvensiyası**

BMT-nın İqtisadi və Sosial Şurası 28 iyul 1958-ci il tarixli 689 C (XXMİ) qətnaməsi ilə BMT-nın Nizamnaməsinin 62-ci maddəsinin 4-cü bəndinə və Baş Assambleyanın 3 dekabr 1949-cu il tarixli 366-cı (IV) qətnaməsinin qərarlarına uyğun olaraq, bu sahədə mövcud olan çoxtərəfli müqavilələri vahid sənədlə əvəz edərək Narkotik vasitələr haqqında Vahid Konvensiyanı qəbul etmək, müstəsna olaraq narkotik vasitələr üzərində nəzarəti həyata keçirən beynəlxalq müqavilə orqanlarının sayını azaltmaq və narkotik xammalın istehsalı üzərinə nəzarət qoymaq üçün səlahiyyətli nümayəndələrin konfransını çağırmağı qərara aldı. BMT-nin bu qətnaməsində universal xarakter daşıyan yeni beynalxalq müqavilənin- konvensiyanın qəbulunu şərtləndirən əsas amillər kimi "bu sahədəki mövcud çoxtərəfli müqavilələri vahid sənədlə əvəz etmək, narkotiklərin qanunsuz dövriyyəsinə qarşı beynalxalq nəzarətin yaranmış sistemini sadələşdirmək, nəzarətlə məşğul olan beynalxalq orqanların sayını azaltmaq, onu dünyada baş verən sosial-iqtisadi dəyişikliklərə uyğunlaşdırmaq, narkotiklərin istehsalına səmərəli nəzarət sistemi yaratmaq" göstərilmişdi[102].

Narkotik vasitələr haqqında Vahid Konvensiyanın qəbul edilməsi üçün BMT-nin Konfransı 1961-ci il yanvarın 24-dən 25-nə kimi BMT-nin Mərkəzi idarələrində keçirildi.

Konfransın işində Ümumdünya Səhiyyə Təşkilatı; Beynəlxalq Mülki Aviasiya Təşkilatı; Beynəlxalq Əmək Təşkilatı; Birləşmiş Millətlərin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı kimi beynəlxalq ixtisaslaşdırılmış təsisatlar, Opium üzrə daimi Mərkəzi Komitə; Narkotik vasitələr üzrə nəzarət orqanı kimi beynəlxalq

[102] Cavadov F., Abdullayev Y. Narkomaniya və narkotizm (Dünya ölkələrinin və beynəlxalq təşkilatların narkotiklərin qanunsuz dövriyyəsi ilə mübarizə təcrübəsi). Bakı: 2004, s.187-188.

orqanlar, Katolik Xeyriyyə Təsisatlarının Beynəlxalq Konfransı; Hüquqşünas Qadınların Beynəlxalq Federasiyası; Kriminal Polisin Beynəlxalq Əməkdaşlıq Təşkilatı kimi qeyri-hökumət təşkilatları iştirak etmişdi.

Müzakirələr nəticəsində Konfrans Narkotik vasitələr haqqında 1961-ci il Vahid Konvensiyasını qəbul etdi və imzalamaq üçün açdı. Bundan başqa, Konfrans, bu Yekun aktına əlavə olunan beş qətnamə qəbul etdi.

Narkotik vasitələr haqqında Vahid Konvensiyanın qəbul edilməsi üçün BMT Konfransında Narkotik vasitələr sahəsində texniki yardım, Narkomanların müalicəsi, Qanunsuz dövriyyə ilə məşğul olan şəxslər, Narkotik vasitələr üzrə Komissiya üzvlərinin tərkibi, Beynəlxalq nəzarət aparatı adı altında dörd qətnamə qəbul etmişdir.

Qeyd edək ki, Vahid Konvensiyanın qüvvədə olduğu artıq ilk illərdə bu beynəlxalq-hüquqi sənəddə bir sıra boşluqların olduğu, Konvensiyanın tətbiqi zamanı müəyyən çətinliklər yaradan müddəaların olduğu nəzərə alınaraq, BMT-nın İqtisadi və Sosial Şurası Narkotik vasitələr haqqında 1961-ci il Vahid Konvensiyasına düzəlişlərin təklif olunması faktını qeyd edərək və bu Konvensiyanın 47-ci maddəsini nəzərə alaraq, özünün 21 mart 1971-ci il tarixli 1577-ci qətnaməsində BMT-nın Nizamnaməsinin 62-ci maddəsinin 4-cü bəndinə əsasən Narkotik vasitələr haqqında 1961-ci il Vahid Konvensiyasına təklif olunmuş bütün düzəlişlərə baxılması üçün səlahiyyətli nümayəndələrin konfransının çaxırılmasını qərara aldı.

Narkotik vasitələr haqqında 1961-ci il Vahid Konvensiyasına düzəlişlərə baxılması üçün BMT-nin Konfransı BMT-nin Cenevrə Bölməsində 1972-ci il martın 6-dan 24-ə kimi keçirildi.

Konfransda 97 dövlət öz nümayəndələri vasitəsilə təmsil olunurdu. Dominikan Respublikası, Kamerun, Malayziya, Mal-

ta, Rumıniya kimi dövlətlər isə Konfransda müşahidəçilərlə təmsil olunmuşdu.

İqtisadi və Sosial Şura özünün 1577-ci qətnaməsi ilə Ümumdünya Səhiyyə Təşkilatının və digər maraqlı ixtisaslaşdırılmış təsisatların, Narkotiklər Üzərində Nəzarət üzrə Beynəlxalq Komitənin və Kriminal Polisin Beynəlxalq Təşkilatının nümayəndələrinin Konfransa dəvət olunmasını Baş katibdən xahiş etmişdi. Ümumdünya Səhiyyə Təşkilatı, Narkotiklər Üzərində Nəzarət üzrə Beynəlxalq Komitə və Kriminal Polisin Beynəlxalq Təşkilatı konfransda təmsil olunurdular[103].

Müzakirələr nəticəsində Konfrans Narkotik vasitələr haqqında 1961-ci il Vahid Konvensiyasına düzəlişlər haqqında Protokolu qəbul etdi və imzalanması üçün açdı. Bundan başqa, Konfrans, Narkotik vasitələr haqqında 1961-ci il Vahid Konvensiyasına düzəlişlərlə baxılması üçün Yekun aktına əlavə olunan üç qətnamə qəbul etdi: Narkotiklər Üzərində Nəzarət üzrə Beynəlxalq Komitənin katibliyi; Narkotiklərdən sui-istifadə ilə mübarizə sahəsində kömək; Narkomanlığın qarşısının alınması və sosial şərait.

Konfrans, Tərəflərə: 1)bir çox hallarda narkomanlığın, narkotik vasitələrdən sui-istifadə təhlükəsinə daha meyilli olan şəxslərin yaşadıqları qeyri-sağlam sosial atmosferin nəticəsi olması faktı nəzərə alınmasını; 2)narkotik vasitələrdən qanunsuz istifadənin yayılmasına qarşı mübarizə üçün mümkün tədbirlər görülməsini; 3)gənclərin normal fiziki və mənəvi sağlamlığının təmin olunması məqsədilə onların asudə vaxtı və digər fəaliyyət növləri təşkil olunmasını tövsiyə etmişdir[104].

---

[103] BMT-nın Konvensiyaları (narkotik vasitələr və psixotrop maddələr haqqında). Bakı: 2004, s.18-20

[104] BMT-nin Konvensiyaları (narkotik vasitələr və psixotrop maddələr haqqında). Bakı: 2004, s.25-26

Düzəlişlərlə birgə 1961-ci il Konvensiyasının qəbul edilməsi beynalxalq-hüquqi münasibətlərin inkişafında mühüm mərhələdir. Belə ki, narkotiklərə dair Vahid Konvensiya beynəlxalq səviyyədə əməkdaşlıq və narkotik vasitələrə beynalxalq nəzarət sisteminin yaradılması yolu ilə narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı qətiyyətli mübarizəyə istiqamətlənmiş ən mühüm beynəlxalq-hüquqi sənəddir. 1961-ci il Vahid Konvensiyası həmçinin narkotiklərin qanuni dövriyyəsi ilə bağlı məsələləri də tənzimləyir.

Konvensiya bu məsələlər üzrə əvvəllər qəbul edilmiş bütün beynəlxalq aktlar toplusunu (1936-cı il Konvensiyasının bəzi bəndlərindən başqa) əməli surətdə bir sənədlə əvəz etdi, narkotik vasitələrin nəzarətinə dair beynəlxalq orqanların sayını azaltdı və narkotik xammal istehsalına nəzarəti müəyyənləşdirdi.

1972-ci il Protokolunun qəbulu ilə xeyli genişləndirilmiş və möhkəmləndirilmiş Narkotik vasitələr haqqında 1961-ci il Vahid Konvensiyası narkotiklərə beynəlxalq nəzarət sahəsində ən mühüm nailiyyətlərdən biri hesab edilməlidir. Çünki bu konvensiya əvvəllər qəbul edilmiş bütün beynəlxalq-hüquqi sənədləri özündə birləşdirmiş və narkotiklərə beynəlxalq nəzarət mexanizmini təkmilləşdirmişdir.

1961-ci il Vahid Konvensiyası tiryək xaş-xaşının, kokain kolunun və kannabis bitkisinin əkilib-becərilməsi, həmçinin onlardan hazırlanan və Konvensiyada narkotik vasitələr kimi təhlükəli olan məhsulların üzərinə ciddi nəzarət müəyyən edir. Ümumiyyətlə Konvensiya ilə tiryək və onun morfin, kodein və heroin kimi törəmələri, kannabis və koka kolu kimi əsasən bitki mənşəli narkotiklər, o cümlədən sintetik narkotik vasitə olan 119 adda narkotik vasitə üzərində nəzarət həyata keçirilir[105].

[105] Корчагина Г.А. Международный комитет по контролю над наркотиками: мировой опыт в борьбе с наркоугрозой//Российский психиатрический журнал. 2015, №1, с.35

1961-ci il Vahid Konvensiyasında ilk dəfə olaraq, BMT-yə daxil olan bütün dövlətlər qarşısında narkotiklərin qanunsuz dövriyyəsi ilə mübarizə vəzifəsi qoyulmuş, həmçinin müxtəlif dövlətlər tərəfindən bu dövrdə narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə mübarizə prosesində tətbiq olunan mexanizmlərin unifikasiyasının, vahidliyinin təmini ilə bağlı yaranan bir çox problemlərin həll edilməsi nəzərdə tutulmuşdu.

Bu dövrdə narkotik vasitələrlə mübarizə haqqında xeyli sayda çoxtərəfli müqavilələrin mövcud olduğunu nəzərə alaraq, Konvensiyanın qəbulunun məqsədlərindən biri də onların hamısının vahid bir beynəlxalq sənədlə əvəz edilməsi idi. Narkotiklərin qanunsuz dövriyyəsi ilə daha effektiv mübarizə məqsədilə narkotiklərin qanunsuz dövriyyəsinə beynəlxalq nəzarəti sadələşdirmək və nizamlamaq vəzifəsi də qoyulmuşdu ki, bu da öz növbəsində bu sahədə beynəlxalq nəzarəti həyata keçirən orqanların sayının azaldılmasına, həmçinin narkotik tərkibli bitkilərin əkilib-becərilməsi, narkotiklərin istehsalı üzərində daha effektiv nəzarət sisteminin yaradılmasına gətirməli idi[106].

Narkotik vasitələr haqqında 1961-ci il Vahid Konvensiyası (1972-ci il Protokoluna uyğun olaraq edilən düzəlişlərlə) Perambula hissəsindən və 54 maddədən ibarətdir.

Bu Konvensiyada anlayışlar (maddə 1), nəzarətə götürülməli olan maddələr (maddə 2), nəzarətin tətbiqi sahəsində dəyişikliklər (maddə 3), ümumi öhdəliklər (maddə 4), beynəlxalq nəzarət orqanları (maddə 5), beynəlxalq nəzarət orqanlarının xərcləri (maddə 6), Komissiyanın qərarlarına və tövsiyələrinə yenidən baxılması (maddə 7), Komissiyanın funksiyaları (maddə 8), Komitənin tərkibi və funksiyaları (maddə 9), səlahiyyət

---

[106] Иванов С.А. Принятие международных правовых актов как средство достижения правовой определенности: на примере противодействия незаконному обороту наркотиков//Государственно-правовые исследования. 2021. Выпуск 4, с.162

müddətləri və Komitənin üzvlərinin əmək haqqı (maddə 10), Komitənin prosedur qaydaları (maddə 11), hesablama sisteminin tətbiqi (maddə 12), statistik məlumatlar sisteminin tətbiqi (maddə 13), Konvensiyanın qərarlarının yerinə yetirilməsinin təmin olunması üçün Komitənin gördüyü tədbirlər (maddə 14), texniki və maliyyə yardımı (maddə 14 bis), Komitənin məruzələri (maddə 15), Katiblik (maddə 16), Xüsusi idarə (maddə 17), Tərəflərin Baş katibə bildirdikləri məlumatlar (maddə 18), narkotik vasitələrə olan tələbatın hesablanması (maddə 19), Komitəyə təqdim olunan statistik məlumatlar (maddə 20), hazırlamanın və idxalın məhdudlaşdırılması (maddə 21), tiryək istehsalının məhdudlaşdırılması (maddə 21 bis), becərməyə dair xüsusi müddəalar (maddə 22), tiryək üzrə dövlət idarələri (maddə 23), beynəlxalq ticarət üçün tiryək istehsalının məhdudlaşdırılması (maddə 24), tiryək küləşi üzərində nəzarət (maddə 25), kokain kolu və kok yarpaqları (maddə 26), kok yarpağına dair əlavə qərarlar (maddə 27), kannabis üzərində nəzarət (maddə 28), hazırlama (maddə 29), ticarət və paylama (maddə 30), beynəlxalq ticarətə dair qərarlar (maddə 31), beynəlxalq nəqliyyat gəmilərinin və təyyarələrinin ilk yardım dərman qutularında narkotik vasitələrin aparılmasına dair xüsusi qərarlar (maddə 32), narkotik vasitələrin saxlanması (maddə 33), nəzarət və təftiş tədbirləri (maddə 34), qanunsuz dövriyyə ilə mübarizə tədbirləri (maddə 35), cəzalar haqqında qərarlar (maddə 36), üzərinə həbs qoyma və müsadirə (maddə 37), narkotik vasitələrdən sui-istifadə ilə mübarizə tədbirləri (maddə 38), region mərkəzlər haqqında razılaşmalar (maddə 38 bis), narkotik vasitələr üzərində bu Konvensiyaya əsasən tələb olunan tədbirlərdən daha ciddi nəzarət tədbirlərinin tətbiq olunması (maddə 39), Konvensiyanın dilləri və imzalama, ratifikasiya və qoşulma prosedurları (maddə 40), qüvvəyə minmə (maddə 41), əvvəlki beynəlxalq müqavilələrin qüvvəsinə xitam verilməsi (maddə 44), keçid qərarları (maddə

45), denonsasiya (maddə 46), düzəlişlər (maddə 47), mübahisələr (maddə 48), keçid qeyd-şərtləri (maddə 49), digər qeyd şərtlər (maddə 50), bildiriş (maddə 51) kimi məsələləri tənzimləyən müddəalar əks olunmuşdur.

Vahid Konvensiyanın Preambula hissəsində Tərəflərin bəşəriyyətin sağlamlığı və rifahına görə təlaş keçirdikləri göstərilir və qeyd olunur ki, Tərəflər, ağrıların və iztirabların yüngülləşdirilməsi üçün narkotik vasitələrin tibdə tətbiq olunması zərurətinin mövcudluğunu və bu məqsədlər üçün narkotik vasitələrə olan tələbatın təmin olunması üçün lazımi tədbirlər görülməli olduğunu və narkomanlığın ayrı-ayrı şəxslər üçün ciddi bəla olduğunu və bəşəriyyət üçün sosial və iqtisadi təhlükə törədə biləcəyini etiraf edir; özünün bu bəlanın qarşısını almaq və onunla mübarizə aparmaq vəzifəsini dərk edir; narkotik vasitələrdən sui-istifadəyə qarşı səmərəli tədbirlərin əlaqələndirilmiş və universal tədbirlər görülməsini tələb etdiyini *nəzərə alır;* belə universal tədbirlərin ümumi məqsədlərin əldə olunmasına yönəlmiş və həmin prinsiplərlə idarə olunan beynəlxalq əməkdaşlıq tələb etdiyini *anlayır;* narkotiklər üzərində nəzarət sahəsində BMT-nin səlahiyyətini etiraf edərək və maraqlı beynəlxalq orqanların bu Təşkilat çərçivəsində olmasını *istəyir;* narkotik vasitələr haqqında mövcud müqavilələri əvəz edən, narkotik vasitələrin istifadəsini tibbi və elmi məqsədlərlə məhdudlaşdıran və bu prinsiplərin və məqsədlərin həyata keçirilməsi üçün daimi beynəlxalq əməkdaşlığı və nəzarəti nəzərdə tutan, hamı tərəfindən qəbul edilə biləcək beynəlxalq konvensiyanın bağlanmasını məqsədəuyğun olduğunu qeyd edirlər.

Konvensiyanın 1-ci maddəsində «komitə», «kannabis», «kannabis bitkisi», «kannabis qatranı», kokain kolu», «kok yarpağı», «becərmə», «narkotik vasitə», «qanunsuz dövriyyəsi», «idxal və ixrac», «tiryək», «tiryək xaş-xaşı», «xaş-xaş küləşi», «preparat», «istehsal» və s. kimi anlayışların mənası açıqlanır.

Məsələn,  göstərilir ki, Kannabis-kannabis bitkisinin çiçəklər, yaxud meyvələrlə olan, qatranı çıxarılmamış (onların hansı adla qeyd olunmasından asılı olmayaraq) yuxarı hissəsi (yuxarı hissələrlə müşayiət olunmayan toxum və yarpaqlar istisna olmaqla) deməkdir; kannabis bitkisi-Kannabis mənşəli istənilən bitki deməkdir; kannabis qatranı-kannabis bitkisindən alınmış, təmizlənməmiş, yaxud təmizlənmiş qatran deməkdir; kokain kolu-«Erythroxylon» mənşəli istənilən bitki növü deməkdir; kok yarpağı-tərkibindən bütün ekqonin, kokain və ekqoninin istənilən digər alkaloidləri çıxarılmış yarpaqlar istisna olmaqla, kokain kolunun yarpaqları deməkdir; becərmə-tiryək xaş-xaşının, kokain kolunun, yaxud kannabis bitkisinin becərilməsi deməkdir; narkotik vasitə-I və II Siyahılara daxil edilmiş istənilən təbii, yaxud sintetik maddə deməkdir; qanunsuz dövriyyə-becərmə, yaxud bu Konvensiyanın qərarlarına zidd olaraq narkotiklərin satışı üzrə istənilən  hərəkət deməkdir; hazırlama-narkotik maddələrin alınmasını, o cümlədən saflaşdırılmasını, eləcə də narkotik vasitələrin başqa narkotik vasitələrə çevrilməsini mümkün edən bütün proseslər (istehsal istisna edilməklə) deməkdir; tiryək-tiryək xaş-xaşının laxtalanmış şirəsi deməkdir; tiryək xaş-xaşı Papaver Somniferum L növündən olan bitki deməkdir; xaş-xaş küləşi-biçilmiş tiryək xaş-xaşının bütün hissələri (toxumlar istisna olunmaqla) deməkdir; preparat-tərkibində hər hansı bir narkotik vasitə olan bərk, yaxud maye qarışıq deməkdir; istehsal-tiryəkin, koka yarpağının, kannabisin və kannabis qatranının bitkilərindən (hanısılardan, yaxud hansıların ki, tərkibindən onlar alınır) ayrılması deməkdir;  I Siyahı, II Siyahı, III Siyahı və IV Siyahı-narkotik vasitələrin, yaxud preparatların müvafiq qaydada nömrələnmiş, bu Konvensiyaya əlavə olunmuş siyahıları deməkdir.

«Ümumi öhdəliklər» adlanan 4-cü maddədə Tərəflərin aşağıdakılar üçün zəruri ola bilən qanunvericilik tədbirləri və inzi-

bati tədbirlər görməli olduqları göstərilmişdir: a)öz ərazi hüdudlarında bu Konvensiyanın qərarlarının qüvvəyə mindirilməsi və yerinə yetirilməsi; b)bu Konvensiyanın qərarlarının yerinə yetirilməsində digər dövlətlərlə əməkdaşlıq edilməsi; c)bu Konvensiyanın qərarlarına riayət olunması şərti ilə narkotik vasitələrin istehsalının, hazırlanmasının, ixracının, idxalının, paylanmasının, onlarla ticarətin, onların tətbiqinin və saxlanmasının müstəsna olaraq tibbi və elmi məqsədlərlə məhdudlaşdırılması[107].

Konvensiyanın «Beynəlxalq nəzarət orqanları» adlanan 5-ci maddəsində Tərəflərin narkotik vasitələr üzərində beynəlxalq nəzarət barəsində BMT-nın səlahiyyətlərinin tanınmasına, bu Konvensiyaya uyğun olaraq İqtisadi və Sosial Şuranın narkotik vasitələr üzrə Komissiyasına və Narkotiklər Üzərində Nəzarət üzrə Beynəlxalq Komitəyə verilmiş funksiyaların müvafiq olaraq onlara həvalə olunması ilə razılaşdığı qeyd olunur.

Konvensiyanın 17-ci maddəsində bu Konvensiyanın qərarlarının tətbiqi məqsədləri üçün Tərəflər xüsusi idarəyə malik olmalarının məqsədəuyğunluğu xüsusi olaraq vurğulanmışdır.

1961-ci il Konvensiyasında öz əksini tapmış bir sıra müddəalarda elmi və tibbi məqsədlər üçün narkotiklərə tələbat haqqında informasiyanın toplanması mexanizmləri, narkotiklərin istehsalı, saxlanması və istehlakının, həmçinin tərkibində narkotik maddə olan bitkilərin əkilib-becərilməsinin yol verilən həcmlərinə nəzarət tədbirləri müəyyən olunur (19-22-ci maddələr). Bu tədbirlər narkotiklərin qara bazara daxil olma imkanlarını məhdudlaşdırmağa, onların qeyri-tibbi istehlakı səviyyəsini aşağı salmağa imkan verir[108].

---

[107] BMT-nın Konvensiyaları (narkotik vasitələr və psixotrop maddələr haqqında). Bakı: 2004, s.37

[108] Ашин А.А., Михайлов А.Е., Рябчиков В.В. Международно-правовой механизм профилактики незаконного оборота наркотиков: на примере ООН//Гуманитарные, социально-экономические и общественные науки. Адыгейский государственный университет. 2021. №2, с.86

Konvensiyada öz əksini tapmış ən mühüm müddəalar 35-ci maddədə əks olunmuş və göstərilmişdir ki, Tərəflər, konstitusiya, hüquqi və inzibati sistemlərini nəzərə almaqla, narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə mübarizəyə istiqamətlənmiş aşağıdakı tədbirlər kompleksini həyata keçirməlidirlər: 1)qanunsuz dövriyyəyə qarşı preventiv və repressiv tədbirlərin koordinasiyası üçün dövlətdaxili tədbirlər görürlər; bu məqsədlə onlar işin xeyrinə olaraq belə koordinasiyaya görə məsuliyyət daşıyacaq müvafiq orqanı təyin edə bilərlər; 2)qanunsuz dövriyyə ilə mübarizə üzrə kompaniyanın keçirilməsində bir-birinə kömək edirlər; 3)qanunsuz dövriyyə ilə mübarizə üzrə razılaşdırılmış kompaniyanın keçirilməsi üçün bir-biri ilə və üzv olduqları səlahiyyətli beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq edirlər; 4)müvafiq orqanlar arasında beynəlxalq əməkdaşlığın çevik həyata keçirilməsini təmin edirlər; 5)məhkəmə təqibi üçün beynəlxalq qaydada hüquqi sənədlərin verilməsi tələb olunduğu hallarda, Tərəflərin göstərdiyi orqanlara belə verilmənin çevik şəkildə icra edilməsini təmin edirlər; 6)əgər onlar məqsədəuyğun hesab edirlərsə Baş katib vasitəsi ilə Komitəyə və Komissiyaya 18-ci maddəyə əsasən tələb olunan məlumatlara əlavə olaraq narkotik vasitələrlə bağlı öz ərazi hüdudlarında qanunsuz fəaliyyət haqqında məlumatları, o cümlədən qanunsuz becərmə, istehsal, hazırlama və narkotik vasitələrin qanunsuz dövriyyəsi və istifadəsi barədə məlumatları təqdim edirlər və s.

Göründüyü kimi, bu maddədə narkotiklərin qanunsuz dövriyyəsi ilə mübarizə üçün tətbiq olunan tədbirlər öz əksini tapmışdır. İlk növbədə göstərilməlidir ki, bu Konvensiya daxilində hüquq pozuntularının profilaktikası ilə onlarla mübarizə arasında fərqləndirmə aparılmır. «Mübarizə» termini ilə istər profilaktik, istərsə də repressiv tədbirlər əhatə olunur. Ümumilikdə isə, bu normada narkotiklərin qanunsuz dövriyyəsinin profilaktikası ilə bağlı repressiv və preventiv tədbirlərin əlaqələndirilməsi;

narkotiklərin qanunsuz dövriyəsinə qarşıdurma ilə bağlı dövlətlərarası köməyin göstərilməsi; bu sahədə sıx və operativ əməkdaşlığın təmini; Konvensiya ilə müəyyən olunan informasiyanın təqdim olunması və s. kmi tədbirlər nəzərdə tutulmuşdur[109].

«Cəzalar haqqında qərarlar» adlanan 36-cü maddədə göstərilir ki, hər bir Tərəf, bu Konvensiyanın qərarlarını pozmaqla narkotik vasitələrin becərilməsi və istehsalının, hazırlanmasının, tərkibdən çıxarılmasının, hasil edilməsinin, saxlanmasının, təklif edilməsinin, kommersiya məqsədi ilə təklif edilməsinin, paylanmasının, satın alınmasının, satılmasının, istənilən şərtlə çatdırılmasının, dəllallığının, göndərilməsinin, tranzitlə yenidən göndərilməsinin, daşınmasının, idxalının və ixracının və Tərəflərin rəyinə görə bu Konvensiyanın qərarlarına zidd sayıla biləcək istənilən digər hərəkətin qəsdən törədildiyi halda cəzalandırılmalı olan əməl sayılmasını, törədilmiş əməlin ağırlıq dərəcəsindən asılı olaraq cəzalandırılması üzrə müvafiq tədbirlərin görülməsini təmin edir.

Vahid Konvensiya narkotik vasitələrlə bağlı əməllərin cəzalandırılmalı olub-olmamasını müəyyənləşdirir və dövlətlərə onun qərarlarının cəzalandırılmalı əməllərlə (bu əməllər qəsdən törədildiyi hallarda) pozulmasını təsdiq etməyi vəzifə olaraq tapşırır. Cəzalara dair qərara uyğun olaraq cəzalandırılmalı qəsdən törədilmiş əməllərə aşağıdakılar aid edilir: narkotik vasitələrin becərilməsi və istehsalı, hazırlanması, saxlanması, təklif edilməsi, kommersiya məqsədləri ilə təklif edilməsi, bölüşdürülməsi, alınması, satılması, hər hansı şərtlərlə daşınması, göndərilməsi, tranzitlə göndərilməsi, idxalı, ixracı və dəllallıq. Sa-

---

[109]Ашин А.А., Михайлов А.Е., Рябчиков В.В. Международно-правовой механизм профилактики незаконного оборота наркотиков: на примере ООН//Гуманитарные, социально-экономические и общественные науки. Адыгейский государственный университет. 2021. №2, с.86

dalanan cinayətlərdən hər biri müxtəlif ölkələrdə törədilmişsə, əlahiddə bir cinayət kimi nəzərdən keçirilməlidir. Cinayətlərdən hər hansı birində qəsdən iştirakçılıq, cinayətin törədilməsi və törədilməsinə sui-qəsd məqsədilə birlikdə iştirak etmə, sadalanan cinayətlərlə bağlı hazırlıq hərəkətləri və maliyyə əməliyyatları da cəzalanmalı cinayətlər sayılmalıdır.

Konvensiyada öz əksini tapmış daha bir mühüm maddə, «narkotik vasitələrdən sui-istifadə ilə mübarizə tədbirləri» adlanan 38-ci maddədir. Bu maddədə qeyd olunur ki, Tərəflər narkotik vasitələrdən sui-istifadənin qarşısının alınmasına və müvafiq şəxslərin erkən müəyyən edilməsinə, müalicə olunmasına, tərbiyə edilməsinə, əmək qabiliyyətinin bərpa olunmasına, cəmiyyətə qaytarılmasına və onların müalicəsi başa çatdıqdan sonra onlara nəzarət edilməsinə xüsusi diqqət yetirir və bunun üçün bütün mümkün tədbirləri görürlər. Tərəflər narkotik vasitələrdən sui-istifadə edən şəxslərin müalicə olunması, əmək qabiliyyətinin bərpa edilməsi, cəmiyyətə qaytarılması, eləcə də onların müalicəsi başa çatdıqdan sonra onlara nəzarət edilməsi üçün kadrların hazırlanmasına mümkün qədər kömək edirlər[110].

Konvensiyanın 38 və 38 bis maddələrində mühüm profilaktik tədbirlər təsbit olunmuşdur. Bu maddələrdə tibbi və tərbiyəvi tədbirlər vasitəsilə narkotiklərin qeyri-tibbi istehlakına qarşıdurma, həmçinin sosial adaptasiya və resosializasiya üzrə tədbirlər, o cümlədən ixtisaslaşdırılmış mərkəzlər vasitəsilə, eynilə də bu fəaliyyətə cəlb olunmuş kadrların hazırlığında köməklik göstərmə üzrə tədbirlər tövsiyə olunur[111].

---

[110] BMT-nin Konvensiyaları (narkotik vasitələr və psixotrop maddələr haqqında). Bakı: 2004, s.75-76

[111] Ашин А.А., Михайлов А.Е., Рябчиков В.В. Международно-правовой механизм профилактики незаконного оборота наркотиков: на примере ООН//Гуманитарные, социально-экономические и общественные науки. Адыгейский государственный университет. 2021. №2, с.86

Qeyd edək ki, Konvensiyanın 44-cü maddəsində əvvəlki beynəlxalq müqavilələrin qüvvəsinə xitam verilməsi ilə bağlı müddəalar əks olunmuşdur. Belə ki, qüvvəsini dayandırmıq müqavilələr sırasında aşağıdakılar göstərilmişdir: 1)1912-ci il yanvarın 23-də Haaqada imzalanmış opium üzrə Beynəlxalq Konvensiya; 2)1925-ci il fevralın 11-də Cenevrədə imzalanmış çəkilmə üçün opium istehsalı, onun daxili ticarət və onun istifadə olunması barədə Razılaşma; 3)1925-ci il fevralın 19-da Cenevrədə imzalanmış Opium üzrə Beynəlxalq Konvensiya; 4)1931-ci il iyulun 13-də Cenevrədə imzalanmış narkotik vasitələrin istehsalının məhdudlaşdırılması və paylanmasının reqlamentləşdirilməsi haqqında Konvensiya; 5)1931-ci il noyabrın 27-də Banqkokda imzalanmış Uzaq Şərqdə opiumun çəkilməsi üzərində nəzarətin müəyyən edilməsi barədə Razılaşma; 6)1946-cı il dekabrın 11-də Leyk Saksesdə imzalanmış, 1912-ci ili yanvarın 23-də Haaqada, 1925-ci il fevralın 11-də, 1925-ci il fevralın 19-da və 1931-ci il iyulun 13-də Cenevrədə, 1931-ci il noyabrın 27-də Banqkokda və 1936-cı il iyunun 26-da Cenevrədə imzalanmış razılaşmalara, konvensiyalara və protokollara dəyişiklik edilməsi barədə Protokol və s.

1961-ci il Konvensiyası mühüm bir meyarı da müəyyən etdi ki, bütün narkotik vasitələr müəyyən siyahılar üzrə təsnifləşdirildi və bu narkotik vasitələrə nəzarəti asanlaşdırmaqla yanaşı, həm də onların ictimai təhlükəliliyini də müəyyən etməyə imkan verdi.

İstehlak üçün ən təhlükəli və zərərli narkotik vasitələr birinci siyahıya, onlarla müqayisədə nisbətən az təhlükəliləri isə ikinci siyahıda yerləşdirildi. Bu iki siyahıya daxil edilən maddələrə münasibətdə ən sərt nəzarət tədbirləri tətbiq edilir. Üçüncü siyahıya daxil edilən maddələr üzərində nəzarət tədbirləri daha «yumşaqdır». Dördüncü siyahıya daxil edilən maddələr isə heç

də az olmayan hallarda müəyyən xəstəliklərin müalicəsində istifadə hallarına rast gəlinir. Təbii ki, onların apteklərdən verilməsi və ya tibb müəssisələrində istifadəsi  həkim təyinatı uyğun olaraq  resept əsasında  həyata keçirilməlidir[112].

Vahid Konvensiyaya narkotik vasitələrin dörd siyahısı daxildir. Onların hər birində zərərlilik və tibbi məqsədlərdən kənar yayılmasına qadağan dərəcəsinə görə təsnif edilmiş preparatlar göstərilmişdir. Vahid Konvensiyaya düzəlişlər haqqında 1972-ci il Protokolunda narkotik vasitələrin, bütün dörd siyahısında dəqiqləşdirmələr aparılmaqla bərabər, yeni maddələr də əlavə edilmişdir. İlkin siyahıların bəzi xüsusiyyətlərini saxlamaqla, yeni preparatlar meydana gəldikcə, siyahılara dövri olaraq dəyişikliklər və əlavələr etmək imkanı və ayrı-ayrı maddələrin insanın sağlamlığına zərərli təsiri haqqında məsələlərin aydınlaşdırılması nəzərdə tutulmuşdur.

Daha sərt nəzarət tədbirləri 1 №-li siyahıda göstərilən vasitələrə tətbiq edilir (Konvensiyanın 31-ci maddəsi, 4-16-cı bəndlər). Bu siyahıya tiryək xaş-xaşından, koka yarpaqlarından və çətənədən (kannabisdən) alınan preparatlar daxil edilmişdir. 1 №-li siyahıya aid nəzarət tədbirlərinə aşağıdakılar daxildir: 1)tibbi və elmi məqsədlər üçün qanuni istifadəni nəzərə almaqla, tərəflərin narkotik vasitələrə tələbatının qiymətləndirilməsi; tiryək xaş-xaşının hazırlanması və hazırlayanları, saxlanıldığı anbar ehtiyatları və becərilməsi üçün istifadə edilən torpaqların sahəsi haqqında ətraflı məlumatların təqdim edilməsi; 2)tiryək xaş-xaşının istehsalı və hazırlanması, idxalı və ixracı; müsadirəsi, anbar ehtiyatları; becərildiyi sahələr haqqında statistik məlumatların tərəflərin təqdim etməsi; 3)hazırlanmanın və idxalın

[112] Иванов С.А. Принятие международных правовых актов как средство достижения правовой определенности: на примере противодействия незаконному обороту наркотиков//Государственно-правовые исследования. 2021. Выпуск 4, с.162

miqdarının qanuni istifadəni və üstəlik ixrac edilən miqdarı və xüsusi ehtiyatlar üçün zəruri olan miqdarı ötüb keçməyən hədlə məhdudlaşdırılması; 4)tiryəkin və konsentratlaşdırılmış (döyülmüş, briketləşdirilmiş, cövhərləşdirilmiş) xaş-xaş kütləsinin, xüsusilə beynalxalq ticarət üçün istehsalı üzərində nəzarət; 5)narkotik vasitələrin hazırlanmasına, onların ticarətinə və yayılmasına, o cümlədən, ixracına və idxalına tərəflərin lisenziya verməsi və onun üzərində nəzarət; 6)tibbi məqsədlərlə istifadə üçün nəzərdə tutulmuş narkotik vasitələrə tərəflərin reseptlər verməsi və sənədləşmənin aparılması; 7)etiketləşdirmə.

2 №-li siyahıya tibbi məqsədlərlə daha geniş istifadə edilən və resept üzrə buraxılan narkotik vasitələr daxildir. Nəzarət tədbirləri (31-ci maddə) əsasən müəssisələrə hazırlama lisenziyalarının verilməsini nəzərdə tutur.

3 №-li siyahı tərkibində inqrediyentlər şəklində 2 №-li siyahının daha aşağı konsentrasiyalarda narkotik vasitələri olan preparatlardan, habelə Ümumdünya Səhiyyə Təşkilatının qiymətləndirməsinə görə sui-istifadə predmeti ola bilməyən preparatlardan ibarətdir. Onların ticarət yolu ilə yayılması üzərində nəzarət tədbirləri tələb olunmur.

4 №-li siyahıya xüsusi təhlükəli xassələrə malik olan, lakin terapevtik məqsədlərlə çox məhdud miqyasda istifadə edilən və tərəflərin tamamilə qadağan edə (istehsalı, hazırlanması, ixracı, idxalı, ticarəti, saxlanması) bildiyi kiçik miqdarda narkotik vasitələr daxildir [113].

Konvensiyanın iştirakçıları öz əraziləri hüdudunda əvvəllər olduğu kimi yalnız zəruri qanunvericilik tədbirlərini deyil, həm də Konvensiyanın bütün qərarlarını yerinə yetirmək üçün inzibati tədbirlər görməyi, bu sahədə əməkdaşlıq etməyi öhdələrinə

---

[113] Cavadov F., Abdullayev Y. Narkomaniya və narkotizm (Dünya ölkələrinin və beynəlxalq təşkilatların narkotiklərin qanunsuz dövriyyəsi ilə mübarizə təcrübəsi). Bakı: 2004, s.188-190.

götürürdülər. Narkotik vasitələrin istehsalı, hazırlanması, idxalı, ixracı, bölüşdürülməsi, ticarəti, istifadəsi və saxlanılmasını məhdudlaşdırmaq, onları istisnasız olaraq tibbi məqsədlərlə, insanların fiziki ağrı və iztirablarının yüngülləşdirilməsi məqsədləri ilə tətbiq etmək nəzərdə tutulurdu. Kovensiya narkotik vasitələrə nəzarət üzrə əvvəllər fəaliyyət göstərən dörd müxtəlif beynəlxalq orqanın əvəzinə iki orqan təsis etdi və bu funksiyaları İqtisadi və Sosial Şuranın narkotik vasitələr üzrə Komissiyasına və Birləşmiş Millətlər Təşkilatının yenidən təşkil edilmiş narkotiklərə nəzarət üzrə beynəlxalq Komitəsinə tapşırdı və onlara həmin sahədə nəzarətin həyata keçirilməsi üzrə geniş səlahiyyətlər verdi.

1961-ci il Konvensiyası dünya miqyasında narkomaniya və narkotiklərin qanunsuz dövriyyəsi ilə mübarizənin hüquqi fundamenti olmaqla sistemli və nizamlı normalar məcmusundan ibarət olan ilk beynəlxalq-hüquqi akt idi. Konvensiyaya əlavələr haqqında 1972-ci il Protokolu əsasən narkotik vasitələrin gizli istehsalı, daşınması və istehlakı ilə mübarizənin aktivləşdirilməsinə istiqamətlənmiş; narkomanların müalicəsi və reabilitasiyası xidmətinin təşkilinə xüsusi diqqət yetirmişdir. Protokolda xüsusi olaraq qeyd olunmuşdur ki, narkotiklərin sui-istifadəsi ilə bağlı işlərdə repressiv tədbirlərlə müqayisədə narkomaniya ilə xəstələnənlərin müalicəsi, onların reabilitasiyası və inteqrasiyası daha vacib və əhəmiyyətli hesab edilməlidir.

1972-ci il Protokolu ilə Konvensiyada yeni redaksiyada verilmiş 38bis maddəsi (regional mərkəzlər haqqında Saziş) Tərəflərin lazım bildikləri hallarda narkotiklərin qanunsuz istifadəsi və dövriyyəsi ilə mübarizə üçün regional elmi-tədqiqat və maarifləndirmə mərkəzlərinin yaradılmasını nəzərdə tutur[114].

---

[114] Артюшенко А.Б. Международное нормативно-правовое регулирование и сотрудничество в сфере контроля над оборотом наркотических средств и психотропных веществ//Научный портал МВД России. 2009. №1, с.121-122

Narkotiklərin qanunsuz dövriyyəsi ilə mübarizə üçün mühüm əhəmiyyət kəsb edən daha bir beynəlxalq sənəd Psixotrop maddələr haqqında 1971-ci il Konvensiyasıdır. Bu Konvensiyanın müddəalarında istehlakı XX əsrin 60-70-ci illərdə xüsusilə geniş yayılmış psixotrop maddələrin qanunsuz istehsalı və onların istehlakının qarşısının alınması vasitələri öz əksini tapmışdır[115].

Psixotrop maddələr haqqında 1971-ci il Konvensiyası bir sıra ölkələrdə səhiyyə və sosial sahədə ciddi problemlər doğuran müəyyən psixotrop maddələrdən sui-istifadə hallarının aşağı salınması məqsədilə qəbul edilmişdir.

Psixotrop maddələr haqqında Konvensiyanın 21 fevral 1971-ci ildə qəbul edilməsi dünya birliyinin psixotrop maddələrin qanunsuz satış bazarının genişlənməsi və bununla bağlı bəzi psixotrop maddələrdən sui istifadə nəticəsində yaranan əhalinin sağlamlığı və sosial problemlərlə bağlı narahatlığının qanunauyğun nəticəsi idi[116].

**2) Psixotrop maddələr haqqında 1971-ci il Konvensiyası**

Psixotrop maddələr haqqında Protokolun qəbul edilməsi üçün BMT-nin Konfransı 1971-ci il yanvarın 11-dən fevralın 21-dək Vyanada keçirildi.

Konfransda 71 dövlət öz nümayəndəsi ilə təmsil olunmuşdu. Çexoslovakiya, Vyetnam Respublikası, Ruminiya, Uruqvay isə Konfransda müşahidəçi qismində iştirak etmişdir.

Konfransda Ümumdünya Səhiyyə Təşkilatı, Narkotiklər Üzərində Nəzarət üzrə Beynəlxalq Komitə, Kriminal Polisin

---

115 Иванов С.А. Принятие международных правовых актов как средство достижения правовой определенности: на примере противодействия незаконному обороту наркотиков//Государственно-правовые исследования. 2021. Выпуск 4, с.162

116 Артюшенко А.Б. Междунродное нормативно-правовое регулирование и сотрудничество в сфере контроля над оборотом наркотических средств и психотропных веществ//Научный портал МВД России. 2009. №1, с.122

Beynəlxalq Təşkilatı (İnterpol) kimi beynəlxalq ixtisaslaşdırılmış təsisatlar nümayəndə heyətləri ilə iştirak etmişlər.

Konfrans Psixotrop maddələr haqqında 1971-ci il Konvensiyasını qəbul edərək imzalanması üçün açıq elan etdi. Bundan başqa, Konfrans əlavə olaraq üç qətnamə də qəbul etdi. Məsələn, «Amfetaminlər sahəsində tədqiqatlar» adlanan 2-ci qətnamədə Konfrans, amfetaminlərin sui-istifadəyə səbəb olmaq xüsusiyyətlərinə malik olduğunu və qanunsuz dövriyyənin predmeti olduğunu, bu maddələrin terapevtik təcrübədə faydalı sayılmasına baxmayaraq bu faydalılığın məhdud olmasını nəzərə alaraq, amfetaminləri əvəz edə biləcək daha az təhlükəli maddələr sahəsində tədqiqatların təşviq edilməsini və mövcud maliyyə imkanları daxilində belə tədqiqatların maliyyələşdirilməsini Ümumdünya Səhiyyə Təşkilatından xahiş etmiş; bunun üçün zəruri bazaya malik olan hökumətlərə analoji tədbirlərin görülməsini məsləhət görmüşdür[117].

Psixotrop maddələr haqqında 1971-ci il Konvensiyası hallüsinogenlər, amfetamin tipli psixostimulyatorlar, barbituratlar, həmçinin yuxugətirici, oyadıcı və analgeziyaedici vasitələr kimi maddələrə nəzarətin beynalxalq sistemini müəyyən edir. Qeyd edək ki, bu maddələrin bəzilərinin istifadəsi, ümumiyyətlə, qadağan edilmişdir, digərləri isə yalnız reseptlə verilir. Konvensiyanın müddəalarına uyğun olaraq, reseptlər tibbi praktikaya ciddi uyğun surətdə yazılmalı, preparatların etiketləri onlardan istifadə haqqında göstərişlərlə və zəruri xəbərdarlıqlarla təmin edilməlidir. Konvensiyada psixotrop maddələrin sui-istifadəsinə qarşı tədbirlər nəzərdə tutulur və narkomanların müalicəsi, reabilitasiyası və sosial reinteqrasiyasının zəruriliyi ilə bağlı müddəalar da öz əksini tapmışdır [118].

---

[117] BMT-nin Konvensiyaları (narkotik vasitələr və psixotrop maddələr haqqında). Bakı: 2004, s.103-104

[118] Cavadov F., Abdullayev Y. Narkomaniya və narkotizm (Dünya ölkələrinin və beynəlxalq təşkilatların narkotiklərin qanunsuz dövriyyəsi ilə mübarizə təcrübəsi). Bakı: 2004, s.191-192.

1971-ci il Konvensiyası 1961-ci il Konvensiyasında əks olunan nəzarət prinsiplərindən çıxış edərək beynəlxalq nazərət sahəsinə mərkəzi sinir sisteminin stimulyatorlarını, sedativ xarakterli vasitələri və hallüsinogenləri daxil etmişdir. Ümumiyyətlə 116 psixotrop maddə bu Konvensiyanın nəzarəti altına düşmüşdür[119].

BMT-nin Psixotrop maddələr haqqında 1971-ci il Konvensiyası Preambuladan və 33 maddədən ibarətdir. Bu Konvensiyada «terminlərdən istifadə (maddə 1), maddələr üzərində nəzarətin tətbiqi sferası (maddə 2), preparatlar üzərində nəzarətə dair xüsusi müddəalar (maddə 3), nəzarətin tətbiqi sferasına dair digəor xüsusi müddəalar (maddə 4), istifadənin tibbi və elmi məqsdələrlə məhdudlaşdırılması (maddə 5), xüsusi idarə (maddə 6), I siyahıya daxil edilmiş maddələrə dair xüsusi müddəalar (maddə 7), lisenziyalar (maddə 8), reseptlər (maddə 9), qutuların üzərində çəkindirici yazılar və reklam (maddə 10), qeydiyyat yazıları (maddə 11), beynəlxalq ticarətə dair müddəalar (maddə 12), ixrac və idxalın qadağan olunması və məhdudlaşdırılması (maddə 13), psixotrop maddələrin beynəlxalq xətlərdə hərəkət edən gəmilərin, təyyarələrin və ictimai nəqliyyatın digər növlərinin ilk yardım aptek qutularında aparılmasına dair xüsusi müddəalar (maddə 14), təftiş (maddə 15), tərəflərin təqdim etdikləri məruzələr (maddə 16), Komissiyanın funksiyaları (maddə 17), Komitənin məruzələri (maddə 18), Konvensiyanın müddəalarının yerinə yetirilməsinin təmin edilməsi məqsədilə Komitənin gördüyü tədbirlər (maddə 19), psixotrop maddələrdən sui-istifadəyə qarşı tədbirlər (maddə 20), qanunsuz dövriyyəyə qarşı tədbirlər (maddə 21), cəzalar haqqında müddəalar (maddə

[119] Корчагина Г.А. Международный комитет по контролю над наркотиками: мировой опыт в борьбе с наркоугрозой//Российский психиатрический журнал. 2015, №1, с.35

22), Konvensiya ilə nəzərdə tutulan tədbirlərdən daha ciddi nəzarət tədbirlərinin tətbiq olunması (maddə 23), bu Konvensiyanın müddəalarının həyata keçirilməsi ilə bağlı beynəlxalq orqanların xərcləri (maddə 24), buraxılma, imzalama, ratifikasiya və qoşulma qaydaları (maddə 25), qüvvəyə minmə (maddə 26), ərazi üzrə tətbiq olunma (maddə 27), bu Konvensiyanın məqsədləri üçün olan rayonlar (maddə 28), denonsasiya (maddə 29), düzəlişlər (maddə 30), mübahisələr (maddə 31), qeyd-şərtlər (maddə 32), bildiriş (maddə 33) kimi məsələlər kompleksinin təsbit olunduğu müddəalar əks olunmuşdur.

Konvensiyanın Preambula hissəsində göstərilir ki, Tərəflər, bəşəriyyətin sağlamlığı və rifahının qayğısına qalaraq, bəzi psixotrop maddələrdən sui-istifadə nəticəsində yaranan, əhalinin sağlamlığı üçün problemlərin və sosial problemlərin mövcudluğundan narahatlıqlarını ifadə etmiş, belə maddələrdən sui-istifadənin və onun doğurduğu qanunsuz dövriyyənin qarşısını almaq və ona qarşı mübarizə aparmaq qətiyyətinə gəlmiş, belə maddələrdən istifadənin qanuni məqsədlərlə istifadə çərçivəsində məhdudlaşdırılması üçün ciddi tədbirlərin zəruri olduğunu hesab etmiş, psixotrop maddələrdən tibbi və elmi məqsədlər üçün istifadənin zəruri olduğunu və onlardan bu məqsədlər üçün istifadə imkanının həddindən artıq məhdudlaşdırılmamalı olduğunu təsdiq etmiş, belə maddələrdən sui-istifadəyə qarşı tədbirlərin effektiv olması üçün onların əlaqəli və universal olmalı olduğunu hesab etmiş, psixotrop maddələr üzərində nəzarət sahəsində BMT-nın səlahiyyətli olmasını təsdiq edərək və maraqlı beynəlxalq orqanların bu Təşkilat çərçivəsində olmasını istəmiş, bu məqsədlərə nail olunması üçün beynəlxalq konvensiyanın qəbulunun zəruriliyini təsdiq etmişdir[120].

---

[120] BMT-nın Konvensiyaları (narkotik vasitələr və psixotrop maddələr haqqında). Bakı: 2004, s.105-106

Konvensiyanın «Terminlərdən istifadə» adlanan 1-ci maddəsində psixotrop maddə, preparat, ixrac və idxal, hazırlama, qanunsuz dövriyyə və sair kimi terminlərin mahiyyət və məzmunu açılmışdır. Məsələn qeyd olunmuşdur ki, psixotrop maddə - I, I, II, yaxud IV Siyahıya daxil edilmiş istənilən təbii və ya sintetik maddə, yaxud istənilən təbii material deməkdir; preparat: 1)tərkibində bir və ya bir neçə psixotrop maddə olan istənilən məhlul, yaxud istənilən fiziki vəziyyətdə olan qarışıq, yaxud 2)terapevtik dozalarda olan bir və ya bir neçə psixotrop maddə deməkdir; hazırlama-saflaşdırma və bir psixotrop maddənin digər psixotrop maddəyə çevrilməsi də daxil olmaqla, psixotrop maddələrin alınmasına kömək edən bütün proseslər deməkdir. Bu termin, həmçinin, apteklərdə resept üzrə hazırlanan preparatlar istisna olunmaqla, preparatların hazırlanmasını əhatə edir.

Konvensiyanın 6-cı maddəsində Tərəflərin Xüsusi idarə yaratmalarının tövsiyə edilməsi ilə bağlı müddəalar təsbit edilmiş və göstərilmişdir ki, bu Konvensiyanın müddəalarının tətbiq edilməsi məqsədilə hər bir Tərəfin xüsusi idarə yaratması və saxlaması məqsədəuyğundur. Bu, narkotik maddələr üzərində nəzarət haqqında konvensiyaların müddəalarının icrası naminə yaradılmış xüsusi idarə (bu onun üstünlüyü olar), yaxud onunla sıx əməkdaşlıqda işləyə bilən başqa idarə ola bilər.

1971-ci il Konvensiyasının 7-ci maddəsində 1-ci Siyahıya daxil edilmiş psixotrop maddələrin qanunsuz dövriyyəsinin profilaktikası üçün tövsiyə olunmuş profilaktik vasitələr göstərilmişdir: elmi və tibbi məqsədlər istisna edilməklə istifadənin qadağan olunması; psixotrop maddələrin istehsalı və paylanması üzrə fəaliyyətin lisenziyalaşdırılması və bu fəaliyyətə nəzarət; istehlak məqsədlərinə uyğun olan həcmlərdə psixotrop maddələrin satışının məhdudlaşdırılması qaydalarının müəyyən edilməsi; elmi və tibbi məqsədlərlə psixotrop maddələrin dövriyyəsinin dəqiq və hərtərəfli qeydiyyatının aparılması; psixotrop

maddələrin idxalı və ixracının məhdudlaşdırılması və qadağan edilməsi[121].

Konvensiyaya daxil edilmiş normalar sarasında 20 və 21-ci maddələr xüsusi olaraq qeyd olunmalıdır. Konvensiyanın 20-ci maddəsində psixotrop maddələrdən sui-istifadənin qarşısının alınmasına, belə halların erkən üzə çıxarılmasına, narkomanların müalicəsinə, tərbiyə olunmasına, uyğun şəxslərin cəmiyyətin sosial həyatına qaytarılmasına, onların əmək qabiliyyətininin bərpa olunmasına, müalicə başa çatdıqdan sonra onlar üzərində müşahidə aparılmasına istiqamətlənmiş tədbirlər kompleksi əks olunmuş, qeyd olunan məqsədlərə nail olunması üçün səylərin əlaqələndirilməsinin zəruriliyi göstərilmişdir[122].

Konvensiyanın 20-ci maddəsində Tərəflərin psixotrop maddələrdən sui-istifadəsinin qarşısının alınması üçün aşağıdakı xarakterli tədbirlərin görməli olduqları göstərilmişdir: 1)Tərəflər psixotrop maddələrdən sui-istifadənin qarşısının alınmasına, müvafiq şəxslərin ilkin çağlarda müəyyən edilməsinə, müalicə olunmasına, tərbiyə edilməsinə, əmək qabiliyyətinin bərpasına, cəmiyyətə qaytarılmasına və müalicə başa çatdıqdan sonra onlar üzərində nəzarətə yönəlmiş bütün mümkün tədbirləri görür, həmçinin, bu məqsədlərə nail olunması üçün öz səylərini əlaqələndirirlər; 2)Tərəflər psixotrop maddələrdən sui-istifadə edən şəxslərin müalicə olunması, əmək qabiliyyətinin bərpa edilməsi, cəmiyyətə qaytarılması, həmçinin, müalicə başa çatdıqdan sonra onlar üzərində nəzarət aparılması üçün kadrların hazırlanmasına mümkün qədər yardım edirlər; 3)Tərəflər müvafiq şəxslərin

[121]Ашин А.А., Михайлов А.Е., Рябчиков В.В. Международно-правовой механизм профилактики незаконного оборота наркотиков: на примере ООН//Гуманитарные, социально-экономические и общественные науки. Адыгейский государственный университет. 2021. №2, с.87

[122] Артюшенко А.Б. Междунродное нормативно-правовое регулирование и сотрудничество в сфере контроля над оборотом наркотических средств и психотропных веществ//Научный портал МВД России: 2009. №1, с.122

(əmək fəaliyyətinə görə zəruri olanların) psixotrop maddələrdən sui-istifadə və onun qarşısının alınması problemləri ilə tanış olmasına yardım etmək, eləcə də narkotik vasitələrdən sui-istifadənin geniş ölçülər almaq təhlükəsi olduğu halda əhalinin bu problemlərlə tanış olmasına kömək etmək üçün bütün mümkün tədbirləri görürlər.

Konvensiyanın 21-ci maddəsində isə bilavasitə psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı istiqamətlənən təlbirlər sadalanır və göstərilir ki, konstitusiya, hüquqi və inzibati sistemlərini lazımi qaydada nəzərə almaqla Tərəflər: a)qanunsuz dövriyyəyə qarşı preventiv və repressiv tədbirlərin əlaqələndirilməsi üçün dövlətdaxili tədbirlər görürlər; bu məqsədlə onlar, işin xeyrinə olaraq, belə əlaqələndirməyə görə məsuliyyət daşıyan müvafiq orqan təyin edə bilərlər; b)psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə mübarizə üzrə kompaniyanın keçirilməsində bir-birinə kömək edir və o cümlədən, ləngimədən diplomatik kanallar, yaxud Tərəflərin bu məqsədlər üçün təyin etdikləri səlahiyyətli orqanlar vasitəsilə, digər bilavasitə maraqlı Tərəflərə 16-cı maddəyə uyğun olaraq onların qanunsuz dövriyyə hadisəsinin müəyyən edilməsi ilə bağlı, yaxud götürmə ilə əlaqədar Baş katibə göndərdikləri istənilən bildirişin surətini göndərirlər; c)qanunsuz dövriyyə ilə mübarizə üzrə razılaşdırılmış kompaniyanın keçirilməsi məqsədilə bir-biri il əvəz üzvləri olduqları səlahiyyətli beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq edirlər; d)müvafiq orqanlar arasında beynəlxalq əməkdaşlığın operativ həyata keçirilməsini təmin edirlər; e)məhkəmə təqibi üçün beyqnəlxalq qaydada hüquqi sənədlərin verilməsi tələb olunduğu hallarda belə verilmənin Tərəflərin təyin etdikləri orqanlara operativ şəkildə həyata keçirilməsini təmin edirlər.

Narkotik vasitələr haqqında 1961-ci il Konvensiyasında olduğu kimi, Psixotrop maddələr haqqında 1971-ci il Konvensiyasında da, beynalxalq nəzarətdə olan psixotrop madələr insan

sağlamlığına təhlükəlilik baxımından dörd qrupa bölünmüşdür: 1 Siyahıya-tibbi məqsədlərlə istifadəsi qadağan edilmiş və beynalxalq ticarəti üzərində nəzarət olunan maddələr; 2 Siyahıya-xüsusi nəzarət tədbirini tələb edən və predmet-kəmiyyət nəzarətində olan maddələr; 3 və 4 Siyahılara-yalnız həkim resepti ilə buraxılan və ciddi nəzarət tədbirlərini tələb edən maddələr daxil edilmişdir.

Belə ki, I siyahıda-hallüsinogenlər qrupu (LSD, DMT, psilosibin və s.), yəni olduqca təhlükəli xassəli və terapevtik əhəmiyyəti şübhəli olan və ya heç olmayan psixotrop maddələr daxil edilmişdir. Bu maddələrə daha ciddi nəzarət tədbirləri tətbiq edilir (o cümlədən, Konvensiyanın 7-ci maddəsində elmi məqsədlər və olduqca məhdud, sərt nəzarət edilən tibbi məqsədlər istisna olmaqla, onlardan istifadənin tam qadağan edilməsi; xüsusi lisenziya verilməsi; qabaqcadan icazə verilməsi və s. nəzərdə tutulmuşdur). II siyahı ilə isə-olduqca məhdud terapevtik əhəmiyyətə malik olan stimullaşdırıcı maddələr, habelə tibbdə terapevtik məqsədlərlə, ümumiyyətlə, istifadə olunmayan müəyyən narkotik analgetiklər əhatə olunmuşdur. Bütün bu maddələr güclü asılılığa səbəb ola bilir və onlara I siyahı üçün göstərilən (7-ci maddədə göstərilən bəzi xüsusi tədbirlər istisna olmaqla) nəzarət tədbirləri tətbiq edilir. I və II siyahılar üzrə nəzarət tədbirlərinin bütövlükdə siyahısı Konvensiyanın 12-ci maddəsinin 1-ci və 3-cü bəndlərində verilir. III siyahıya-sui-istifadə predmeti olan, lakin bununla yanaşı terapevtik cəhətdən faydalı sayılan barbituratlar (sakitləşdirici, qıcolma əleyhinə və narkotik təsirli maddələr, məsələn, heksonal və tiopental-natrium) salınmışdır. Qeyd edək ki, bu siyahıya salınan maddələrlə bağlı tədbirlər də I və II siyahılardakı kimidir, lakin onların idxalına və ixracına icazə verilməsi, habelə istehsalı, istifadəsi və sair haqqında tam statistik hesabatların təqdim edilməsi tələb olunmur. IV siyahıda istər narkomanların, həm də terapevtlərin geniş istifa-

də etdikləri yuxugətirici, trankvillizəedici və analgeziyaedici maddələr yer almışdır. Bu preparatlar üzərində daha yüngül nəzarət mexanizmləri müəyyən olunmuşdur. Bu maddələr üzrə müəyyən edilən tədbirlər onlara elmi cəhətdən əsaslandırılmış tibbi praktikaya uyğun reseptlərin verilməsi, etiketləşdirilmiş, habelə hazırlanmasına və ticarətinə lisenziya verilməsi tələbləri ilə əhatə olunur[123].

**3)BMT-nin narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında 1988-ci il Konvensiyası**

Narkotiklərin qanunsuz dövriyyəsinə qarşıdurmada narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında 1988-ci il Konvensiyası böyük əhəmiyyət daşıyır.

1988-ci il Konvensiyasının qəbulunun əsas səbəbləri beynəlxalq birliyin narkotiklərin gizli qeyri-qanuni istehsalının, beynəlxalq narkotrafikin, transmilli narkocinayətkarlığın və narkotiklərin qanunsuz dövriyyəsi nəticəsində əldə edilmiş pulların yuyulmasına qarşıdurma sahəsində səylərin gücləndirilməsi ilə bağlıdır[124].

Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında Konvensiyanın qəbul edilməsi üçün BMT-nin Konfransı 1988-ci il noyabrın 25-dən dekabrın 20-nə kimi Yeni Xofburqda (Vyana) keçirildi.

Konfransın işində 106 ölkənin nümayəndə heyəti ilə yanaşı, Beynəlxalq Mülki Aviasiya Təşkilatı, Beynəlxalq Əmək Təşkilatı, təhsil, elm və mədəniyyət məsələləri üzrə BMT komitəsi,

---

[123] Cavadov F., Abdullayev Y. Narkomaniya və narkotizm (Dünya ölkələrinin və beynəlxalq təşkilatların narkotiklərin qanunsuz dövriyyəsi ilə mübarizə təcrübəsi). Bakı: 2004, s.192-193.

[124] Михайлов Ю.В., Абрамов А.Ю. Международные подходы к борьбе с распространением наркотических средств и психотропных веществ//Медицинский вестник Северного Кавказа. 2013. Т.8. №.3, с.62

sənayenin inkişafı üzrə BMT-nin və Beynəlxalq Səhiyyə Təşkilatı kimi ixtisaslaşdırılmış təsisatların nümayəndələri iştirak etmişdi. Qeyd olunanlarla yanaşı Konfransın işində Avropa Şurası, Avropa İqtisadi Birliyi, Kriminal Polisin Beynəlxalq Təşkilatı, Ərəb Dövlətləri Liqası və Cənubi Afrika ölkələrinin narkotik vasitələr və psixotrop maddələr haqqında Razılaşma kimi dövlətlərarası  təşkilatların nümayəndələri, habelə Narkotiklər Üzərində Nəzarət üzrə Beynəlxalq Komitə, cinayətkarlığın qarşısının alınması və hüquqpozucular ilə davranış üzrə BMT-nin Asiya və Uzaq Şərq İnstitutu və Narkotik vasitələrdən sui-istifadə ilə mübarizə üzrə BMT Fondu kimi BMT-nin maraqlı orqanlarının və müvafiq təsisatlarının nümayəndələri iştirak etdilər.

Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında 1988-ci il Konvensiyası 1988-ci il dekabrın 19-da Konfrans tərəfindən onun 6-cı geniş iclasında qəbul olunmuşd və 1990-cı ilin noyabrından qüvvəyə minmişdir.

Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında 1988-ci il Konvensiyası narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə mübarizədə böyük rol oynamışdır. Konvensiya BMT tərəfindən 1988-ci ilin dekabrında qəbul edilmiş və 1990-cı ilin noyabrında qüvvəyə minmiş Konvensiyanın qəbulunun əsas motivləri qismində əvvəlki iki BMT konvensiyaları ilə nəzərdə tutulmuş tədbirlərə əlavə və düzəlişlərin edilməsi, dünya birliyinin bu sahədə əməkdaşlığının möhkəmləndirilməsi çıxış etmişdir.

Əvvəlki iki konvensiya kimi, bu konvensiyanın da təyinatı da narkotiklərin dövriyyəsinin tənzimlənməsi və bu sahədə nəzarətin təmin edilməsindən ibarət idi. Konvensiyada bu sahədə yaranan problemlərin daha effektiv həlli üçün  narkotiklərin qanunsuz dövriyyəsi ilə mübarizənin təmininə istiqamətlənmiş dövlətlər ara-

sında beynəlxalq müqavilə və sazişlərin bağlanması tövsiyə olunurdu. 1988-ci il konvensiyasında əsas fəaliyyət istiqamətləri kimi narkotiklərin qanunsuz dövriyyəsi olan orqanlar arasında dövlətlərarası əlaqələrin möhkəmləndirilməsinə, bu sahədə qarşılıqlı əlaqəli fəaliyyətin səmərəliliyinin artırılmasına xüsusi önəm verilir[125].

Konvensiyanın qəbul edilməsini şərtləndirən əsas amillər qismində əvvəlki iki konvensiyasında nəzərdə tutulan bir sıra tədbirlərin təkmilləşdirilməsi və onlara əlavələr edilməsi zərurəti çıxış etmişdi. Əsas diqqətin beynalxalq-hüquqi əməkdaşlığın səmərəliyinin artırılmasına yönəldilmiş Konvensiyanın məqsədi narkotik vasitələrin qanunsuz dövriyyəsinin beynalxalq xarakter daşıyan bir sıra problemlərin daha effektiv həllinin, narkotik vasitələrin və psixotop maddələrin qanunsuz dövriyyəsinin miqyaslarının və ağır nəticələrinin azaldılmasına istiqamətlənmiş tərəflər arasında əməkdaşlığa yardım göstərməkdən ibarətdir. Təsadüfi deyildir ki, Konvensiyada narkotiklərin qanunsuz dövriyyəsinin genişlənməsinin və bu qanunsuz fəaliyyətə uşaqların cəlb olunmasının müstəsna təhlükəliyi, həmçinin asanlıqla əldə edilən narkotik vasitələrin qanunsuz hazırlanmasına və bunların gizli istehsalının artmasına gətirən bəzi maddələrə nəzarət tədbirlərinin görülməsi vacibliyi xüsusi olaraq qeyd olunur[126].

Preambuladan və 34 maddədən ibarət Konvensiyada anlayışlar (maddə 1), Konvensiyanın tətbiq sahəsi (maddə 2), Hüquq pozuntuları və sanksiyalar (maddə 3), yurisdiksiya (maddə 4), müsadirə (maddə 5), ekstradisiya (maddə 6), qarşılıqlı hüquqi yardım (maddə 7), cinayət araşdırmasının materiallarının verilməsi (maddə 8), əməkdaşlığın digər formaları və kadrların hazırlanması

[125] Иванов С.А. Принятие международных правовых актов как средство достижения правовой определенности: на примере противодействия незаконному обороту наркотиков//Государственно-правовые исследования. 2021. Выпуск 4, с.163

[126] Cavadov F., Abdullayev Y. Narkomaniya və narkotizm (Dünya ölkələrinin və beynəlxalq təşkilatların narkotiklərin qanunsuz dövriyyəsi ilə mübarizə təcrübəsi). Bakı: 2004, s.193-194.

(maddə 9), beynəlxalq əməkdaşlıq və tranzit ölkələr üçün yardım (maddə 10), nəzarətli göndərişlər (maddə 11), narkotik vasitələrin, yaxud psixotrop maddələrin qanunsuz hazırlanmasında tez-tez istifadə olunan maddələr (maddə 12), materiallar və avadanlıqlar (maddə 13), narkotik tərkibli bitkilərin qanunsuz becərilməsinin kökünün kəsilməsi və narkotik vasitələrə və psixotrop maddələrə olan qanunsuz tələbatın aradan qaldırılması üzrə tədbirlər (maddə 14), kommersiya daşımaları (maddə 15), kommersiya sənədləri və ixrac olunan yüklərin nişanlanması (maddə 16), dənizdə qanunsuz dövriyyə (maddə 17), azad ticarət zonaları və azad limanlar (maddə 18), poçt göndərişlərinin istifadə olunması (maddə 19), tərəflərin təqdim etdikləri məlumatlar (maddə 20), Komissiyanın funksiyaları (maddə 21), Komitənin funksiyaları (maddə 22), Komitənin məruzələri (maddə 23), bu konvensiyada nəzərdə tutulan tədbirlərdən daha ciddi tədbirlərin tətbiq olunması (maddə 24), əvvəlki müqavilələr üzrə hüquq və öhdəliklərin saxlanması (maddə 25), imzalama (maddə 26), ratifikasiya, qəbul edilmə, bəyənilmə, yaxud rəsmi təsdiq edilmə aktı (maddə 27), qoşulma (maddə 28), qüvvəyə minmə (maddə 29), denonsasiya (maddə 30), düzəlişlər (maddə 31), mübahisələrin tənzimlənməsi (maddə 32), autentik mətnlər (maddə 33), depozitarii (maddə 34) kimi məsələlərin beynəlxalq-hüquqi tənzimlənməsinə istiqamətlənmiş müddəalar təsbit olunmuşdur.

Konvensiyanın Preambula hissəsində bu Konvensiyanın Tərəflərinin insanlığın sağlamlığına və rifahına ciddi təhlükə yaradan, cəmiyyətin iqtisadi, mədəni və siyasi əsaslarına mənfi təsir göstərən, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz istehsalı, tələbatı və dövriyyəsinin artım miqyası və təmayülündən, müxtəlif sosial qruplar arasında narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinin daha da geniş yayılmasından və xüsusən də uşaqların dünyanın bir çox rayonlarında qanunsuz narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə cəlb olunmasından, onların həmin

vasitələrin və maddələrin qanunsuz istehsalı və dövriyyəsi zamanı istismar edilməsindən dərin narahat olduqları, qanunsuz dövriyyə və mütəşəkkil cinayətkarlığın qanuni iqtisadiyyatı dağıdan və dövlətlərin sabitliyinə, təhlükəsizliyinə və suverenliyinə təhlükə yaradan digər əlaqəli formaları arasında qarşılıqlı əlaqələrin mövcudluğunu, qarşısının alınması təxirəsalınmaz və ilk növbədə diqqət tələb edən qanunsuz dövriyyənin beynəlxalq cinayətkar fəaliyyət olduğunu təsdiq etdikləri, qanunsuz dövriyyənin böyük gəlirlər və maliyyə vəsaitləri gətirdiyini, bunun isə transmilli cinayətkar təşkilatlara hakimiyyət mexanizmlərinə, qanuni ticarət və maliyyə fəaliyyətinə və cəmiyyətin bütün səviyyələrinə müdaxilə etmək, onları pozmaq və dağıtmaq imkanı verdiyini dərk etdikləri, qanunsuz dövriyyə ilə məşğul olan şəxsləri cinayətkar fəaliyyətdən əldə olunan gəlirlərdən məhrum etmək və bununla da onları bu fəaliyyətə təhrik edən əsas motivi aradan qaldırmaq qətiyyətinə gəldikləri, belə vasitələrə və maddələrə olan tələbatı və qanunsuz dövriyyədən alınan çox böyük gəlirləri də daxil etməklə, narkotik vasitələrdən və psixotrop maddələrdən sui-istifadə probleminin əsl səbəblərini aradan qaldırmağa çalışdıqları, bəzi maddələr, o cümlədən narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz hazırlanmasında istifadə edilən prekursorlar, kimyəvi maddələr və həlledici məhlullar üzərində nəzarət tədbirlərini zəruri hesab etdikləri, qanunsuz dövriyyənin aradan qaldırılmasının bütün dövlətlərin kollektiv vəzifəsi olduğunu və bu məqsədlə beynəlxalq əməkdaşlıq çərçivəsində səylərin koordinasiyasının zəruriliyini təsdiq etdikləri, narkotik vasitələr və psixotrop maddələr üzərində nəzarət sahəsində BMT-nin səlahiyyətlərini tanıyaraq və belə nəzarətlə məşğul olan beynəlxalq orqanların bu Təşkilat çərçivəsində olmasını istədikləri, narkotik vasitələrə və psixotrop maddələrə dair mövcud müqavilələrin rəhbər prinsiplərini və onlarla nəzərdə tutulan nəzarət sistemini yenidən təsdiq etdikləri, qanunsuz döv-

riyyənin və onun ciddi nəticələrinin təsirinin və miqyaslarının azaldılması məqsədilə, Narkotik vasitələr haqqında 1961-ci il Vahid Konvensiyası və Psixotrop maddələr haqqında 1971-ci il Konvensiyası ilə nəzərdə tutulan tədbirlərin möhkəmləndirilməsi və genişləndirilməsinin vacibliyini, beynəlxalq cinayətkar fəaliyyət olan qanunsuz dövriyyənin qarşısının alınması üçün hüquqi sahədə beynəlxalq əməkdaşlığın effektiv hüquqi vasitələrinin möhkəmləndirilməsinin və gücləndirilməsinin mühüm əhəmiyyətini təsdiq etdikləri, bütünlüklə, problemin müxtəlif aspektlərini, xüsusilə də mövcud müqavilələrdə nəzərdə tutulmayanları özündə əks etdirən, xüsusi olaraq qanunsuz dövriyyə ilə mübarizəyə yönəlmiş, geniş əhatəli, effektiv və təsirli beynəlxalq konvensiyanın bağlanmasını istədikləri ifadə olunmuşdur.

Konvensiyanın «Anlayışlar» adı altında verilmiş 1-ci maddəsində Komitə, kannabis bitkisi, kokain kolu, Komissiya, müsadirə, nəzarətli göndəriş, Şura, «dondurma» və ya üzərinə həbs qoyma», narkotik vasitə, gəlirlər, mülkiyyət, psixotrop maddələr, tranzit dövlət və sair kimi anlayışların mahiyyətinə aydınlıq gətirilir. Məsələn, göstərilir ki, Nəzarətli göndəriş-bu Konvensiyanın 3-cü maddəsinin 1-ci bəndinə əsasən tanınmış hüquqpozmaların iştirakçısı olan şəxslərin müəyyən edilməsi məqsədilə müvafiq ölkələrin səlahiyyətli orqanlarının razılığı ilə və onların nəzarəti altında narkotik vasitələrin, psixotrop maddələrin, bu Konvensiyanın əlavəsindəki I Cədvələ, yaxud II Cədvələ daxil edilmiş maddələrin, yaxud onları əvəz edən maddələrin qanunsuz və ya şübhə doğuran partiyalarının bir və ya bir neçə ölkənin ərazisindən aparılmasına, keçirilməsinə, yaxud ərazisinə gətirilməsinə yol verən metod deməkdir; «Dondurma» və ya «üzərinə həbs qoyma»-məhkəmə, yaxud səlahiyyətli orqan tərəfindən çıxarılmış qərara əsasən mülkiyyətin köçürülməsi, konversiyası, yerləşdirilməsi, yaxud yerdəyişməsinin müvəqqəti

olaraq qadağan olunması və ya mülkiyyətin müvəqqəti həbsi, yaxud nəzarət altına götürülməsi deməkdir; Tranzit Dövlət-ərazisi üzərindən qanunsuz narkotik vasitələr, psixotrop maddələr, həmçinin I Cədvələ və II Cədvələ daxil edilmiş maddələr daşınan və belə vasitələrin və maddələrin nə mənşə yeri, nə də ki, son təyinat yeri olmayan dövlət deməkdir[127].

Konvensiyanın 2-ci maddəsində bu beynəlxalq müqavilənin tətbiq sahəsi ilə bağlı müddəalar əks olunmuş və göstərilmişdir ki, bu Konvensiyanın məqsədi narkotik vasitələrin və ya psixotrop maddələrin beynəlxalq xarakter daşıyan qanunsuz dövriyyəsinin problemlərinin effektiv həlli üçün Tərəflər arasında əməkdaşlığa kömək etməkdən ibarətdir. Konvensiya üzrə öz vəzifələrini yerinə yetirərkən Tərəflər özlərinin daxili qanunvericilik sistemlərinin əsas müddəalarına uyğun olaraq, qanunvericilik və təşkilat xarakterli tədbirlər də daxil olmaqla, zəruri tədbirlər görürlər.

Konvensiyanın ən mühüm müddəaları 3-cü maddədə təsbit olunmuşdur. Belə ki, «hüquq pozuntuları və sanksiyalar» adlanan bu maddəyə uyğun olaraq, hər bir Tərəf, qəsdən törədildiyi hallarda, aşağıdakı hərəkətlərin öz qanunvericiliyinə müvafiq olaraq cinayət kimi tanınması üçün tələb oluna biləcək tədbirlər görür:

a) 1961-ci il Vahid Konvensiyasının, yaxud 1971-ci il Konvensiyasının müddəalarına zidd olaraq istənilən narkotik vasitənin və ya psixotrop maddənin istehsalı, hazırlanması, ayrılması, təklif edilməsi, satış məqsədilə təklif edilməsi, yayılması, satışı, istənilən şərtlə göndərilməsi, vasitəçiliyi, keçirilməsi, tranzit yolla göndərilməsi, daşınması, idxalı və ya ixracı; 1961-ci il Konvensiyasının və düzəlişlərlə olan həmin Konvensiyanın müddəalarına zidd olaraq narkotik vasitələrin istehsalı məqsədi-

---

[127] BMT-nın Konvensiyaları (narkotik vasitələr və psixotrop maddələr haqqında). Bakı: 2004, s.173-176

lə tiryək xaş-xaşının, kokain kolunun və ya kannabis bitkisinin becərilməsi; qeyd olunan istənilən fəaliyyət növü məqsədi üçün istənilən narkotik vasitənin və ya psixotrop maddənin saxlanması və ya alınması; narkotik vasitələrin və ya psixotrop maddələrin qanunsuz bejərilməsi, istehsalı, yaxud hazırlanması məqsədilə istifadə olunacağı məlum olduğu halda avadanlıqların, I Cədvəldə və II Cədvəldə göstərilən materialların, yaxud maddələrin hazırlanması, daşınması və ya yayılması; yuxarıdakı I, II, III və IV yarımbəndlərində sadalanan istənilən hüquqpozmanın təşkili, onlara rəhbərlik və ya onların maliyyələşdirilməsi;

b) mülkiyyətin konversiyası və ya köçürülməsi, əgər belə mülkiyyətin bu bəndin a yarımbəndində nəzərdə tutulmuş hüquqpozma, yaxud hüquqpozmalar nətijəsində, yaxud belə hüquqpozmada və ya hüquqpozmalarda iştirak nəticəsində, yaxud mülkiyyətin qanunsuz mənbəyinin gizlədilməsi, yaxud ört-basdır edilməsi məqsədilə və ya belə hüquqpozmanın, yaxud hüquqpozmaların törədilməsində iştirak etmiş istənilən şəxsə öz hərəkətlərinə görə məsuliyyətdən yaxa qurtarmaq üçün yardım məqsədilə əldə olunduğu məlumdursa; mülkiyyətin əsl xarakterinin, mənbəyinin, yerləşdiriyi yerin, sərəncam vermə üsulunun, yerdəyişməsinin, əsl mülkiyyət hüquqlarının, yaxud onun mənsubiyyətinin gizlədilməsi və ya ört-basdır edilməsi, əgər belə mülkiyyətin bu bəndin a yarımbəndində nəzərdə tutulmuş hüquqpozma, yaxud hüquqpozmalar nəticəsində, yaxud belə hüquqpozmada və ya hüquqpozmalarda iştirak nəticəsində əldə edilməsi məlumdursa;

c)özünün konstitusiya müddəalarını və öz hüquq sisteminin əsas prinsiplərini nəzərə almaqla: mülkiyyətin əldə edilməsi, ona malik olma və ya ondan istifadə, əgər belə mülkiyyətin bu bəndin a yarımbəndində nəzərdə tutulmuşhüquqpozma, yaxud hüquqpozmalar nəticəsində, yaxud belə hüquqpozmada və ya hüquqpozmalarda iştirak nəticəsində əldə edilməsi məlum olmuşdursa; avadanlığa, yaxud materiallara, yaxud I Cədvəldə və II Cədvəldə göstəril-

miş maddələrə malik olma, əgər onların hər hansı bir narkotik vasitələrin və ya psixotrop maddələrin qanunsuz becərilməsi, istehsalı və ya hazırlanması məqsədləri üçün istifadə olunması, yaxud istifadə olunajağının nəzərdə tutulması məlumdursa; istənilən vasitələrlə başqalarını bu maddədə nəzərdə tutulmuş hüquqpozmaların törədilməsinə, yaxud narkotik vasitələrin və ya psixotrop maddələrin qanunsuz istifadəsinə açıq təhrik etmə, yaxud vadar etmə; bu maddədə nəzərdə tutulmuş hüquqpozmanın, yaxud hüquqpozmaların törədilməsində iştirak etmə, əlaqəli olma, yaxud həmin məqsədlə cinayət əlaqəsinə girmə, belə hüquqpozmanı və ya hüquqpozmaları törətməyə cəhd, həmçinin, onların törədilməsi zamanı kömək etmə, təhrik etmə, yardım göstərmə və ya məsləhətlər vermə[128].

Konvensiyanın 3-cü maddəsi narkotiklərin qanunsuz dövriyyəsi ilə mübarizənin səmərəliliyinin yüksəldilməsi məqsədilə, bir neçə yeni cinayət tərkibini müəyyən etmiş və onlara görə məsuliyyət müəyyən edən normaların konvensiya iştirakçıları tərəfindən cinayət qanunvericiliyinə daxil edilməsini tövsiyə etmişdir: 1)əgər bu Konvensiyanın əlavələrində göstərilən avadanlıqlardan, materiallardan və ya maddələrdən, narkotik vasitələrin və ya psixotrop maddələrin qanunsuz becərilməsi, istehsalı, hazırlanması məqsədləri ilə istifadənin nəzərdə tutulması məlumdursa, onların hazırlanması, daşınması və ya yayılması; 2)narkocinayətlərin təşkili, rəhbərlik və ya maliyyələşdirilməsi; 3)əgər mülkiyyətin bu Konvensiyada göstərilən hər hansı hüquqpozma nəticəsində və ya belə hüquqpozmada iştirak nəticəsində əldə edildiyi məlumdursa, mülkiyyətin qanunsuz mənbəyini gizlətmək və ya ört-basdır etmək məqsədilə, yaxud belə hüquqpozmanın törədilməsində iştirak edən hər hansı şəxsə onun öz əməllərinə görə məsuliyyətdən yayınmasına kömək etmək məqsədilə mülkiyyətin konversiyası və ya köçürül-

---

[128] BMT-nin Konvensiyaları (narkotik vasitələr və psixotrop maddələr haqqında). Bakı: 2004, s.177-179

məsi; 4)əgər mülkiyyətn narkocinayət nəticəsində və ya onda iştirak etmək nəticəsində əldə edildiyi məlumdursa, onun əsl xarakterinin, mənbəyinin, yerləşdiyi yerin, sərəncamvermə üsulunun, yerdəyişməsinin, ona aid əsl hüquqların gizlədilməsi və ört-basdır edilməsi [129].

1988-ci il Konvensiyasının mühüm novellası narkocinayətlərin ağırlaşdırıcı hallarının müəyyən edilməsi olmuşdur. Belə ki, bu maddənin 5-ci bəndinə uyğun olaraq, tərəflər onların məhkəmələrinin və yurisdiksiyaya malik digər səlahiyyətli orqanlarının bu maddənin 1-ci bəndində nəzərdə tutulmuş hüquqpozmaları ağırlaşdıran hallar kimi, aşağıdakı faktiki cəhətləri nəzərə ala bilmələrini təmin edirlər: a)hüquqpozucusunun daxil olduğu mütəşəkkil cinayətkar qrupun hüquqpozmada iştirakı; b)hüquqpozucusunun beynəlxalq mütəşəkkil cinayətkar fəaliyyətin digər növlərində iştirakı; c)hüquqpozucusunun bu hüquqpozmanın törədilməsinə yardım edən qanunsuz fəaliyyətin digər növlərində iştirakı; d)hüquqpozucunun zor və ya silah tətbiq etməsi; e)hüquqpozucunun vəzifəli şəxs olması və bu hüquqpozmanın onun vəzifəsi ilə bağlı olması faktı; f)yetkinlik yaşına çatmayanları cəlb etmə və ya onlardan istifadə etmə; g)hüquqpozmanın islah müəssisələrində, yaxud tədris ocağında və ya ictimai idarələrdə, yaxud onların bilavasitə yaxınlığında və ya şagirdlərin və tələbələrin tədris, idman və ictimai tədbirlərin keçirilməsi üçün istifadə etdikləri digər yerlərdə törədilməsi faktı; h)müvafiq tərəfin milli qanunvericiliyi ilə yol verilən hədlərdə, xaricdə və ya öz ölkəsində, əvvəlki məhkumluq, xüsusilə də analoji hüquqpozmalara görə[130].

1988-ci il Konvensiyasının 4-9-cu maddələrində narkotiklərin və onların hazırlanması üçün istifadə olunan əmlakın müsadirəsi,

---

[129] Cavadov F., Abdullayev Y. Narkomaniya və narkotizm (Dünya ölkələrinin və beynəlxalq təşkilatların narkotiklərin qanunsuz dövriyyəsi ilə mübarizə təcrübəsi). Bakı: 2004, s.197-198.

[130] BMT-nin Konvensiyaları (narkotik vasitələr və psixotrop maddələr haqqında). Bakı: 2004, s.180-181

cinayət ədalət mühakiməsi çərçivəsində ixtisaslaşmış orqanların qarşılıqlı əlaqəli fəaliyyəti üzrə tövsiyələrdə ifadə olunan narkotiklərin qanunsuz dövriyyəsi ilə mübarizə mexanizmləri nəzərdə tutulmuşdur[131].

Konvensiyanın müddəalarına əsasən Tərəflər, üzərlərinə götürdükləri öhdəliklərin həyata keçirilməsi üçün qanunvericilik və təşkilati xarakterli zəruri tədbirlər görürlər. Bunların arasında araşdırılan məqsədlərə aid aşağıdakı müddəalar, fikirlər, daha böyük maraq kəsb edir.

Birincisi, tövsiyə xarakteri daşıyan, Konvensiyada «qanunsuz dövriyyə» anlayışına daxil edilmiş konkret qərəzli hərəkətlərin milli qanunvericilikdə cinayət hesab olunması haqqında müddəa. Konvensiyada aşağıdakı hərəkətlər «qanunsuz dövriyyə» anlayışına aid edilir: düzəlişlərlə birlikdə 1961-ci il Konvensiyasının müddəalarını pozaraq hər hansı bir narkotik vasitənin istehsalı, hazırlanması, təklif edilməsi, satış məqsədilə təklif edilməsi, yayılması, satılması, istənilən şərtlərlə tədarükü, göndərilməsi, tranzitlə göndərilməsi, nəqliyyatla daşınması, vasitəçilik, ixrac və ya idxalı; narkotik vasitələrin istehsalı məqsədilə tərkibində narkotik olan xüsusi göstərilmiş bitkilərin becərilməsi; qanunsuz dövriyyə məqsədilə hər hansı narkotik vasitənin saxlanılması və alınması; narkotik vasitələrin qanunsuz becərilməsi, istehsalı və ya hazırlanması, nəqliyyatla daşınması və ya yayılması; yuxarıda sadalanan hər hansı hüquq pozuntularının təşkili, maliyyələşdirilməsi və bunlara rəhbərlik; göstərilən hüquq pozuntuları nəticəsində əldə edilən mülkiyyətin konversiyası və ya köçürülməsi, yaxud bu hüquq pozuntularının törədilməsində iştirak etmiş şəxsə öz əməlləriə görə məsuliyyətdən yayınmaq məqsədilə kömək göstərilməsi; mülkiyyətin göstərilən hüquq pozuntuları nəticəsində əldə edilməsi mə-

[131]Ашин А.А., Михайлов А.Е., Рябчиков В.В. Международно-правовой механизм профилактики незаконного оборота наркотиков: на примере ООН//Гуманитарные, социально-экономические и общественные науки. Адыгейский государственный университет. 2021. №2, с.86

lum olduqda onun mənbəyinin, yerinin, yerdəyişməsinin, ona qarşı əsl hüquqların gizlədilməsi; hər hansı narkotik vasitənin qanunsuz becərilməsi, istehsalı və ya hazırlanması üçün istifadə məqsədilə avadanlıq və ya materiallara yiyələnmə; göstərilən hüquq pozuntularından hər hansı birinə başqalarının hər hansı vasitə ilə təhlik edilməsi; göstərilən hüquq pozuntularının törədilməsi məqsədilə cinayətkar sövdələşmədə iştirak, həmçinin belə əməllər törədilərkən təhrik, yardım etmə və ya məsləhət verilməsi; 1961-ci il Vahid Konvensiyasının (düzəlişlərlə) müddəalarına zidd olaraq hər hansı bir narkotik vasitənin şəxsi istifadə üçün qəsdən saxlanması, əldə edilməsi və ya becərilməsi.

İkincisi, göstərilən cinayətlərə görə məsuliyyət və cəzalandırma məsələlərinin formalaşdırılmasına aid olan müddəa. Buraya narkotik vasitələrlə bağlı təhlükəli cinayətlərə görə mühakimə olunanlara qarşı həbs və ya azadlıqdan məhrumetmənin digər növlərinin tətbiq edilməsinə, həmçinin müalicə, əmək qabiliyyətinin bərpası və ya sosial reinteqrasiya, sonrakı müşahidələr kimi əlavə cəza tədbirlərinə dair tövsiyələr daxildir.

Üçüncüsü, qarşılıqlı razılaşmalar əsasında beynəlxalq səviyyədə nəzarət altına göndərmədən istifadəyə dair müddəa. Nəzarət altında göndərmə-bir və ya bir neçə ölkənin ərazisinə qanunsuz və ya şübhə doğuran narkotik vasitə partiyalarının keçirilməsinə yol verilməsi metodudur. Səlahiyyətli orqanların nəzarəti altında həyata keçirilən bu əməliyyat yuxarıda göstərilən hüquq pozuntularında iştirak edən şəxslərin üzə çıxarılması məqsədini güdür.

1988-ci il Konvensiyasında narkotiklərin qanunsuz dövriyyəsi ilə mübarizəyə istiqamətlənmiş fəaliyyətə xüsusi diqqət yetirilmiş və onda cinayətkarların ekstradisiyası, qarşılıqlı hüquqi yardım və pulların yuyulmasının qarşısının alınması ilə bağlı müddəalar əks olunmuşdur.

Qeyd edək ki, 1961-ci il Vahid konvensiyasından və 1971-ci il psixotrop maddələr haqqında konvensiyasından fərqli olaraq, 1988-ci il tarixli Konvensiyada ekstradisiya ilə bağlı məsə-

lələrin tənzimlənməsinə istiqamətlənmiş müddəalar da yer almışdır. Belə ki, Konvensiyanın 6-cı maddəsində göstərilir ki, ekstradisiyanın həyata keçirilməsi, yaxud effektivliyinin yüksəldilməsi məqsədilə Tərəflər ikitərəfli və çoxtərəfli sazişlər bağlamağa çalışırlar. Tərəflər bu maddənin tətbiq olunduğu hüquqpozmalara görə həbsxanada saxlamaqla azadlıqdan məhrumetməyə, yaxud azadlıqdan məhrumetmənin digər növlərinə məhkum olunmuş şəxslərin öz ölkələrinə ekstradisiyası barədə xüsusi və ümumi xarakterli ikitərəfli və çoxtərəfli sazişlərin bağlanması imkanına baxa bilərlər ki, onlar cəzanın qalan hissəsini həmin ölkələrdə çəkə bilsinlər.

Konvensiyanın 7-ci maddəsində qarşılıqlı hüquqi yardımla bağlı məsələlərin beynəlxalq və regional səviyyədə tənzimlənməsinə istiqamətlənmiş bir sıra müddəalar yer almışdır. Belə ki, bu maddədə qeyd olunar ki, Tərəflər bu maddəyə müvafiq olaraq bir-birinə 3-cü maddənin 1-ci bəndinə əsasən tanınmış cinayət hüquqpozmalarına dair istintaq, cinayət təqibi və məhkəmə araşdırması ilə bağlı ən geniş qarşılıqlı hüquqi yardım göstərirlər. Həmçinin göstərilir ki, bu maddəyə müvafiq olaraq göstərilən hüquqi yardım aşağıdakı məqsədlərlə tələb oluna bilər: a)sübutların, yaxud ifadələrin toplanması; b)məhkəmə araşdırmasının materialları ilə tanış etmək; c)axtarışların və həbslərin keçirilməsi; d)əşyaların və yerlərin müayinəsi; e)məlumatların və sübutetmə əşyalarının təqdim olunması; f)bank, maliyyə, firma və kommersiya sənədləri də daxil edilməklə, müvafiq sənədlərin və materialların əsllərinin və ya təsdiq olunmuş surətlərinin təqdim olunması; g)sübut məqsədləri üçün gəlirlərin, mülkiyyətin, vasitələrin, yaxud digər əşyaların müəyyən olunması, yaxud aşkar edilməsi.

Bu maddədə hər hansı bir Tərəfin bank sirrinə istinda etməklə bu maddəyə uyğun olaraq hüquqi yardım göstərməkdən imtina etməməli olduğu da vurğulanmış, qarşılıqlı hüquqi yardımdan imtina oluna bilməsini mümkün edən hallar qeyd olun-

muşdur: a)əgər xahiş bu maddənin müddəalarına uyğun deyilsə; b)əgər sorğualan Tərəf, xahişin yerinə yetirilməsinin onun suverenliyinə, təhlükəsizliyinə, ictimai asayişinə, yaxud digər əhəmiyyətli maraqlarına zərər vura biləcəyini hesab edirsə; c)əgər sorğualan Tərəfin milli qanunvericiliyi öz orqanlarına analoji hüquqpozmalar barədə olan xahişin yerinə yetirilməsini qadağan edirsə, əgər bu hüquqpozma onların öz yurisdiksiyasına uyğun olaraq aparılmış istintaqın, cinayət təqibinin, yaxud məhkəmə araşdırmasının mövzusu olmuşdursa; d)əgər bu, sorğualan Tərəfin qarşılıqlı hüquqi yardım göstərilməsi barədə olan hüquq sisteminin müddəalarına ziddirsə[132].

Əvvəlki konvensiyalarda öz əksini tapmayan daha bir məsələ nəzarətli göndərişlərlə bağlıdır. Belə ki, 1988-ci il Konvensiyasının 11-ci maddəsinə uyğun olaraq Tərəflər, milli hüquq sistemlərinin əsas prinsipləri buna imkan verirsə, öz imkanları daxilində, 3-cü maddənin 1-ci bəndinə uyğun olaraq tanınmış hüquqpozmaların törədilməsində iştirak edən şəxslərin aşkar edilməsi və onların cinayət təqibi məqsədilə qarşılıqlı surətdə qəbul oluna bilən sazişlər, yaxud qarşılıqlı razılaşmalar əsasında nəzarətli göndərişlərin beynəlxalq səviyyədə lazımi qaydada istifadə edilməsini nəzərdə tutan zəruri tədbirlər görürlər.

1988-ci il Konvensiyasının 12-ci maddəsində narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz hazırlanmasında tez-tez istifadə olunan əsas kimyəvi maddələr (prekursorlar) üzərində nəzarətlə bağlı bir sıra tədbirlər təsbit edilmişdir. Bu kimyəvi maddələr müxtəlif qanuni məqsədlərlə geniş tətbiq edilir. Bu maddədə öz əksini tapmış müddəalara əsasən, NNBK həmçinin üzərində beynəlxalq nəzarətin müəyyən

---

[132] BMT-nin Konvensiyaları (narkotik vasitələr və psixotrop maddələr haqqında). Bakı: 2004, s.188-194

edilməsi məsələsi ilə bağlı kimyəvi maddələrin qiymətləndirilməsinin aparılmasına da cavabdehdir. 1988-ci il Konvensiyasına uyğun olaraq təxminən 30 kimyəvi maddə üzərində beynəlxalq nəzarət müəyyən edilmişdir[133].

Konvensiyanın 14-cü maddəsində narkotik tərkibli bitkilərin qanunsuz becərilməsinin kökünün kəsilməsi və narkotik vasitələrə və psixotrop maddələrə olan qanunsuz tələbatın aradan qaldırılması üzrə tədbirlərdən bəhs edilir və qeyd olunur ki, Tərəflərin, bu Konvensiyaya uyğun olaraq gördükləri istənilən tədbirlər 1961-ci il Konvensiyasının, düzəlişlərlə olan həmin Konvensiyanın və 1971-ci il Konvensiyasının tərkibində narkotik və psixotrop maddələr olan bitkilərin qanunsuz becərilməsinin kökünün kəsilməsi və narkotik vasitələrə və psixotrop maddələrə olan qanunsuz tələbatın aradan qaldırılmasına dair müddəalardan az ciddi olmalı deyil. Hər bir tərəf qanunsuz becərmənin qarşısının alınması və onun ərazisində qanunsuz becərilən tiryək xaş-xaşı, kokain kolu və kannabis bitkisi kimi tərkibində narkotik, yaxud psixotrop maddələr olan bitkilərin məhv edilməsi üçün lazımi tədbirlər görür. Bu tədbirlərin görülməsi zamanı əsas insan hüquqlarına riayət olunur və belə istifadəni təsdiq edən tarixi faktlar olduqda, belə bitkilərin qanuni istifadəsinin ənənəvi formaları, həmçinin, ətraf mühitin mühafizəsi maraqları müvafiq qaydada nəzərə alınır. Maddənin 3-cü bəndində xüsusi olaraq göstərilir ki, Tərəflər qanunsuz becərmənin kökünün kəsilməsi üzrə səylərin effektivliyini artırmaq məqsədilə əməkdaşlıq edə bilərlər. Belə əməkdaşlıq, məqsədəuyğun olduqda, o cümlədən, qanunsuz becərməyə effektiv iqtisadi alternativliyi təmin edən, kənd rayonlarının kompleks inkişafına yardımı əhatə edə bilər. Kənd rayonlarının belə inkişaf proqramlarının həyata keçirilməsindən əvvəl, bazarlarla əlaqənin mümkünlüyü, resursların olması və mövcud sosial-iqtisadi şərait kimi faktorlar nə-

133 Корчагина Г.А. Международный комитет по контролю над наркотиками: мировой опыт в борьбе с наркоугрозой//Российский психиатрический журнал. 2015, №1, с.36

zərə almalıdır. Tərəflər istənilən digər lazımi əməkdaşlıq tədbirləri barədə razılığa gələ bilərlər. Tərəflər, həmçinin, elmi və texniki məlumatların mübadiləsinə və qanunsuz becərmənin kökünün kəsilməsi sahəsində tədqiqatların aparılmasına yardım edirlər. Tərəflər həmçinin ümumi sərhədlərə malik olduqda sərhədyanı rayonlarda qanunsuz becərmənin kökünün kəsilməsi üzrə proqramları həyata keçirərkən əməkdaşlıq etməyə çalışırlar.

1988-ci il Konvensiyası problemin müxtəlif aspektlərinin, o cümlədən, əvvəlki sənədlərdə nəzərdə tutulmayan və ya kifayət qədər tam əks olunmayan məsələləri (məsələn, tələbatın azaldılması) nəzərə alır. Onun ilk dörd maddəsində dəqiqliklə göstərilmişdir ki, Konvensiya hər hansı tərəfin onun milli qanunvericiliyinə uyğun olaraq müəyyən etdiyi hər bir cinayət yurisdiksiyasını istisna etmir. Xüsusi qeyd edilir ki, bu Konvensiya üzrə öz öhdəliklərinin həyata keçirilməsində tərəflər öz daxili qanunvericilik sistemlərinin əsas müddəalarına uyğun zəruri tədbirlər, o cümlədən, təşkilati və qanunverici xarakterli tədbirlər görürlər. BMT-nin Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında 1988-ci il Konvensiyası «narkomafiyanın qanunsuz gəlirlərinin istənilən ölkədə sonradan müsadirə edilməsi, narkoişbazların cəzalandırılmasının labüdlüyü məqsədiə aşkar edilməsi, dondurulması və ya həbs edilməsi, eləcə də əməli əməkdaşlıq, müxtəlif dövlətlərin hüquq-mühafizə orqanları kadrlarının hazırlanması üçün şəraitləri təmin edir». Bu Konvensiyanın daha mühüm müddəalarından biri narkotik vasitələrin və psixotrop maddələrin hazırlanmasında istifadə olunan maddələrə nəzarətin müəyyən edilməsidir[134].

Beləliklə, deyə bilərik ki, 1961, 1971 və 1988-ci il Konvensiyaları təkcə milli qanunvericilik səviyyəsində narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorların müəyyən

---

[134] Cavadov F., Abdullayev Y. Narkomaniya və narkotizm (Dünya ölkələrinin və beynəlxalq təşkilatların narkotiklərin qanunsuz dövriyyəsi ilə mübarizə təcrübəsi). Bakı: 2004, s.195.

edilməsi üçün sistemyaradıcı hüquqi əsas kimi deyil, həm də cinayət-hüquqi təsir tədbirləri də daxil olmaqla qeyd olunan vasitələrin və maddələrin qanunsuz dövriyyəsinə nəzarət üzrə tədbirlərin işlənib hazırlanması və müəyyən edilməsinin beynəlxalq-hüquqi əsası, standartı kimi çıxış edir[135].

Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında 1988-ci il BMT-nin Konvensiyasında narkotiklərin qaçaqmalçılığına qarşı əhatəli tədbirlər, həmçinin pulların yuyulması və narkotiklərin hazırlanmasında istifadə olunan kimyəvi maddələrin (prekursorların) qanunsuz yollarla əldə edilməsi ilə mübarizəyə istiqamətlənmiş müddəalar nəzərdə tutulmuşdur. Konvensiyada narkotiklərin qaçaqmalçılığı ilə mübarizədə əsas vasitə keyfiyyətində narkotiklərin qanunsuz dövriyyəsi hesabına əldə edilmiş gəlirlərin və əmlakın izlənilməsi, dondurulması və müsadirəsi; narkokuryerlərin ekstradisiyası; məhkəmə təqibi üçün onların verilməsi müəyyən olunmuşdur. Bu Konvensiyanın müddəalarına görə iştirakçı-dövlətlər narkotiklərə olan tələbatın ləğv edilməsi və ya azaldılması üzrə üzərlərinə öhdəlik götürürlər[136].

Beləliklə, Narkotik vasitələr haqqında 1961-ci il Vahid konvensiyası; Psixotrop maddələr haqqında 1971-ci il Konvensiyası və Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında 1988-ci il Konvensiyası hazırda narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi ilə mübarizənin beynəlxalq hüquqi əsaslarını təşkil edir. Qeyd edək ki, bu konvensiyalara qoşulmuş bir çox dövlətlərin milli qanunvericiliyi də məhz onlar əsasında formalaşdırılmışdır. Məhz bu konvensiyalar əsasında "dünya

---

[135] Ролик А.И. Международно-правовое регулирование оборота наркотических средств, психотропных веществ и их прекурсоров//Азиатско-Тихоокеанский регион: экономика, политика, право. 2014, с.14236

[136] Михайлов Ю.В., Абрамов А.Ю. Международные подходы к борьбе с распространением наркотических средств и психотропных веществ//Медицинский вестник Северного Кавказа. 2013. Т.8. №3, с.61-62

birliyi dövlətlərinin əksəriyyətini təmsil edən iştirakçı dövlətlərin bu məsələlərdə qarşılıqlı fəaliyyəti təşkil edilir. İştirakçı dövlətlər beynalxalq konvensiyaların müddəalarının yerinə yetirilməsini və bir-birləri və beynalxalq təşkilatlar qarşısında öhdəliklərinə uyğun fəaliyyət göstərilməsini tələb edən ümumi hüquqi bazaya əsaslanaraq, narkotiklərin yayılmasına qarşı mübarizədə könüllü olaraq səylərini birləşdirirlər"[137]. Lakin Ş.Hüseynovun düzgün olaraq qeyd etdiyi kimi, «Bəşəriyyət 21-ci əsrə qədəm qoymuşdur və yenə də əvvəlki dövrlərdə olduğu kimi narkotiklərin qanunsuz dövriyyəsi və narkomanlığa qarşı mübarizə kimi ümumdünya probleminin uğurlu həllinin yollarını axtarmaqda davam edir. Əksər dövlətlərin qüvvələrinin səfərbər edilməsinə baxmayaraq, bu istiqamətdə köklü dəyişikliklərə nail olmaq mümkün olmamışdır» [138].

Hesab edirik ki, qloballaşma dövrünün xarakterik xüsusiyyətləri nəzərə alınmaqla dünyada narkomaniya və narkobizneslə bağlı mövcud vəziyyətə adekvat cavab vermək iqtidarında olan daha mükəmməl və effektiv beynəlxalq-hüquqi baza yaradılmalı, müasir reallıqlara daha uyğun olan vahid Konvensiya işlənib hazırlanaraq qəbul edilməlidir.

[137] Cavadov F., Abdullayev Y. Narkomaniya və narkotizm (Dünya ölkələrinin və beynəlxalq təşkilatların narkotiklərin qanunsuz dövriyyəsi ilə mübarizə təcrübəsi). Bakı: 2004, s.199-200.

[138] Hüseynov Ş. Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə: elmi-nəzəri, hüquqi, təcrübi məsələləri və problemlərinin həlli yolları. Dərs vəsaiti. Bakı: 2016, s.34-35

# FƏSİL 5.NARKOTİK VASİTƏLƏRİN VƏ PSİXOTROP MADDƏLƏRİN QANUNSUZ DÖVRİYYƏSİNƏ QARŞI MÜBARİZƏNİ HƏYATA KEÇİRƏN BEYNƏLXALQ VƏ REGİONAL ORQANLAR

Məlum oduğu kimi, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinin qarşısının alınması, narkomanlığın profilaktikası dünya miqyaslı olduqca mürəkkəb sosial-hüquqi problemə çevrilmişdir. Bu problemə ayrı-ayrı dövlətlərin sosial nəzarət orqanları, qeyri-hökumət təşkilatları, elmi tədqiqat müəssisələri deyil, həm də beynəlxalq təşkilatlar tərəfindən narahatlıq doğuran diqqətin artması müşahidə olunmaqdadır. Belə ki, hazırda narkomanlıq və narkobizneslə bağlı bir çox problemlərlə BMT-nin ixtisaslaşdırılmış təsisatları, Ümumdünya Səhiyyə Təşkilatı, Beynəlxalq polis təşkilatı (İnterpol) və s. kimi nüfuzlu beynəlxalq və regional qurumlar məşğul olur[139].

Artıq bəllidir ki, heç bir ölkə təklikdə narkomanlıq və narkobizneslə uğurlu mübarizə aparmaq iqtidarında deyildir. Bunun üçün bir çox dövlətlərin bu sahədə səylərinin birləşdirilməsi və sıx əlaqələndirilməsi zəruridir. Məhz buna görə də bu əməkdaşlığa beynəlxalq və regional təşkilatlar qoşulmuşdur.

Beynəlxalq-hüquqi və ölkədaxili tədbirləri qarşılıqlı əlaqədə həyata keçirmədən narkocinayətkarlıqla mübarizədə lazımi səmərəyə nail olmaq qeyri-mümkünlüyünü qeyd edərək B.S.Zahidov göstərir ki, dünyanın bəzi dövlətləri narkotiklərlə mübarizəyə öz milli prizmasından yanaşaraq bu sahədə mövcud problemləri milli səviyyədə həll etməyə çalışırlar. Belə bir münasibət mənfi qiymətləndirilməlidir. Çünki mövcud reallıqlar göstərir ki, narkobizneslə

[139] Cavadov F., Abdullayev Y. Narkomaniya və narkotizm (Dünya ölkələrinin və beynəlxalq təşkilatların narkotiklərin qanunsuz dövriyyəsi ilə mübarizə təcrübəsi). Bakı: 2004, s.157.

səmərəli mübarizə yalnız dünya dövlətlərinin birgə səyləri nəticəsində mümkündür[140].

Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə mübarizədə beynəlxalq əməkdaşlığın əsasən iki formada 1)beynəlxalq orqanlar və təşkilatlar çərçivəsində; 2)beynəlxalq sazişlər əsasında həyata keçirildiyini qeyd edərək, beynəlxalq cinayətkarlıqla mübarizədə BMT-nin rolunun danılmaz olduğunu vurğulayaraq, N.H.Mehdiyev və İ.H.Abutalıbov yazırlar: «BMT cinayətkarlıqla mübarizə problemləri ilə bilavasitə 1950-ci ildən məşğul olmağa başlamışdır. Həmin dövrdən etibarən o bu sahədə əməkdaşlığın forma və istiqamətlərini inkişaf etdirməyə və əlaqələndirməyə çalışmışdır»[141].

Məlum olduğu kimi, BMT-nin 1961-ci il Vahid Konvensiyası narkotik vasitələrə nəzarət üzrə əvvəllər fəaliyyət göstərən dörd müxtəlif beynəlxalq orqanın əvəzinə iki orqan təsis etdi və bu funksiyaları İqtisadi və Sosial Şuranın narkotik vasitələr üzrə Komissiyasına və Birləşmiş Millətlər Təşkilatının yenidən təşkil edilmiş narkotiklərə nəzarət üzrə beynəlxalq Komitəsinə tapşırdı və onlara həmin sahədə nəzarətin həyata keçirilməsi üzrə geniş səlahiyyətlər verdi.

Hesab edirik ki, ilk öncə məhz bu orqanların fəaliyyətlərinin əsas istiqamətlərinin, mahiyyət və məzmunun təhlil edilməsi məqsədəuyğun hesab edilməlidir.

### 1) BMT-nin narkotik vasitələr üzrə Komissiyası

Narkotik vasitələr üzrə Komissiya 1946-cı ildə Birləşmiş Millətlər Təşkilatının İqtisadi və Sosial Şurasının yeddi funksional komissiyalarından biri kimi təsis olunmuşdur.

---

140 Zahidov B.S. Azərbaycanda narkotizmlə və narkobizneslə mübarizənin aktual problemləri. B., 2007, s.65-66

141 Mehdiyev N.H., Abutalıbov İ.H. Beynəlxalq terrozmlə mübarizədə əməkdaşlığın əsas aspektləri. B. 2007, s.62.

Belə ki, BMT-nin İqtisadi və Sosial Şurasının funksional strukturlarından biri olan Narkotik vasitələr üzrə Komissiya BMT-nin İqtisadi və Sosial Şurasının 1946-cı il 16 fevral tarixli 9(I) saylı qətnaməsi ilə yaradılmış və bununla da 1920-cı ildə Millətlər Liqası tərəfindən yaradılmış tiryək və digər təhlükəli narkotiklərlə ticarət üzrə Komitəni əvəz etmişdir.

Komissiya BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinə daxil olan narkotiklərə beynəlxalq nəzarət üzrə BMT Proqramının fəaliyyətinə direktiv rəhbərliyi və nəzarəti həyata keçirir.

Narkotik vasitələr üzrə BMT Komissiyasının tərkibinə regional qruplar üzrə aşağıdakı kimi paylanılmaqla 53 dövlət daxildir: 1)Afrika dövlətlərindən 11 üzv; 2)Asiya dövlətlərindən 11 üzv; 3) Latın Amerikası və Karib hövzəsi dövlətlərindən 10 üzv; 4)Şərqi Avropa dövlətlərindən 6 üzv; 5)Qərbi Avropa dövlətlərindən və digər dövlətlərdən 14 üzv; 6)Asiya dövlətlərindən və Latın Amerikası və Karib hövzəsi dövlətlərindən bir üzv (hər 4 ildən bir ratasiya əsasında).

Komissiya üzvlərinin səlahiyyət müddəti 4 ildər. Komissiya 5 iş gününü aşmayan dövrdə öz sessiyalarını keçirir. Komissiyanın qərarları qətnamə və qərərlar şəklində qəbul edilir.

Komissiyanın Katibliyinin funksiyasını narkotiklərə nəzarət üzrə BMT Proqramı yerinə yetirir.

Yaxın və Orta Şərqdə narkotiklərin qanunsuz dövriyyəsi və bununla bağlı məsələlər üzrə alt komissiya Narkotik vasitələr üzrə Komissiyanın yardımçı orqanlarından biridir. Alt Komissiyanın vəzifəsi narkotiklərin qanunsuz dövriyyəsi üzrə regional fəaliyyətin əlaqələndirilməsi və Komissiya üçün tövsiyələrin işlənib hazırlanmasından ibarətdir.

23 dövlət bu alt Komissiyanın üzvləridir: Azərbaycan, Əfqanıstan, Bəhreyn, Misir, Hindistan, İordaniya, İraq, İİR, Yəmən, Qazaxıstan, Qətər, Küveyt, Qırğızıstan, Livan, BƏƏ,

Oman, Pakistan, Səudiyyə Ərəbistanı, Suriya, Tacikistan, Türkmənistan, Türkiyə və Özbəkistan. Digər regionlardan olan dövlətlər Alt Komissiyanın işində müşahidəçi kimi iştirak edə bilərlər.

Komissiya narkotik vasitələrə, psixotrop maddələrə və prekursorlara beynəlxalq nəzarət siyasətini işləyib hazırlayan mərkəzi orqandır. Komissiya, Narkotik vasitələr haqqında 1961-ci il Vahid Konvensiyasının, Psixotrop maddələr haqqında 1971-ci Konvensiyasının və Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında 1988-ci il Konvensiyasının tətbiqinə ümumi nəzarəti yerinə yetirməklə yanaşı bu sahədə dünyada və konvensiyanın iştirakçı ölkələrində vəziyyətin təhlili və şərhini verir, komissiyanın səlahiyyətinə daxil olan təşkilati, hüquqi, texniki və s. xarakterli məsələlər üzrə beynəlxalq-hüquqi sənədlərin təkmilləşdirilməsi üzrə təşəbbüs hüququ ilə çıxış edir. Məsələn, müəyyən maddənin və ya bitkinin Konvensiyaların Siyahılarına əlavə olunması və ya çıxarılması Komissiyanın qərarı əsasında həyata keçirilə bilər[142].

Komissiya, narkotiklərə nəzarət üzrə üç beynəlxalq konvensiyalara-Narkotik vasitələr haqqında 1961-ci il Vahid Konvensiyası, Psixotrop maddələr haqqında 1971-ci il Konvensiyası və Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə mübarizə haqqında 1988-ci il Konvensiyasına uyğun olaraq qərarları və qətnamələri işləyib hazırlayır. Komissiya həmçinin BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin əsas inzibati və rəhbəredici orqanıdır.

BMT-nin İqtisadi və Sosial Şurasının funksional komissiyası olan Narkotik vasitələr üzrə Komissiya-narkotiklərə nəzarət üzrə siyasəti və əlaqələndirməni işləyib hazırlayan əsas hö-

[142] Hacıyev S. Narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi ilə mübarizəyə dair BMT-nin Konvensiyaları (narkotik vasitələr və psixotrop maddələr). Bakı: 2004, s.22

kumətlərarası orqandır. Komissiya, dünya miqyasında narkomaniya və narkotiklərin qaçaqmalçılığı problemlərinin analizini aparır və narkotiklər üzərində beynəlxalq nəzarətin gücləndirilməsi üzrə təklifləri işləyib hazırlayır, narkotiklərə nəzarət üzrə beynəlxalq müqavilələrin, Baş Assambleya tərəfindən təsdiq olunmuş rəhbəredici prinsiplərin və tədbirlərin monitorinqini həyata keçirir[143].

Komissiyanın BMT rəhbərliyi ilə yanaşı, həm də ayrı-ayrı ölkələrə anti-narkotik fəaliyyətin hüquqi məsələləri də daxil olmaqla, bütün məsələlər sahəsində tövsiyələr vermək hüququ vardır. Onun səlahiyyətinə bundan başqa müvafiq beynalxalq sənədlərin təkmilləşdirilməsi üzrə təşəbbüskarlıq işi də daxildir[144].

Qeyd edək ki, narkotik vasitələr haqqında 1961-ci il Vahid Konvensiyasının 8-ci maddəsində Komissiyanın funksiyaları göstərilmiş və bu funksiyalara: siyahılara dəyişiklik etmək; elmi tədqiqatlar proqramını, elmi və texniki məlumat mübadiləsini də daxil etməklə bu Konvensiyanın məqsədlərinin və qərarlarının həyata keçirilməsi barədə tövsiyələr etmək; Komissiyanın iştirakçısı olmayan dövlətlərin diqqətini onun bu Konvensiya əsasında qəbul etdiyi qərar və tövsiyələrə, onların həmin qərər və tövsiyələrə uyğun olan tədbirlər görülməsi məsələsinə baxmaları məqsədilə cəlb etmək və sair aid edilmişdir.

Komissiya Vahid Konvensiyada elan edilmiş məqsədlərə aid bütün məsələləri nəzərdən keçirir; istifadəsi, yayılması, becərilməsi və saxlanılmasına beynəlxalq nəzarət qoyulan narkotik vasitələr siyahısını hər il təshih və təsdiq edir, buraya müva-

---

143 Михайлов Ю.В., Абрамов А.Ю. Международные подходы к борьбе с распространением наркотических средств и психотропных веществ//Медицинский вестник Северного Кавказа. 2013. Т.8. №3, с.61

144 Cavadov F., Abdullayev Y. Narkomaniya və narkotizm (Dünya ölkələrinin və beynəlxalq təşkilatların narkotiklərin qanunsuz dövriyyəsi ilə mübarizə təcrübəsi). Bakı: 2004, s.203-204.

fiq dəyişiklik və əlavələr edir və bu barədə hökumətlərə məlumat verir; Komitənin diqqətini onun funksiyalarına aid ola bilən hər hansı bir cəhətə yönəldir; elmi-tədqiqat proqramları, elmi və texniki informasiya mübadiləsi də daxil olmaqla Konvensiyanın məqsəd və qərarlarının həyata keçirilməsinə dair tövsiyələr verir.

Buraya narkotik tərkibli bitkilərin qanunsuz becərilməsi kök salmış ölkələrdə onların əkin yerlərini aşkarlayan və məhv edən müasir kəşfiyyət texnologiyasının verilməsi zərurətinə dair tövsiyələri, eyni zamanda, sakinlərin kənd təsərrüfatında və digər müəssisələrdə çalıqmaqla yaşayışlarını təmin etmələri üçün həmin ölkələrin iqtisadiyyatının inkişafına yardım göstərilməsini; narkotiklərin qanunsuz istehsalı və yayılmasına qarşı tədbirlərin daha ədalətli olan beynəlxalq qaydaların yaradılması üzrə səylərə uyğunlaşdırılmasını, «üçüncü dünya» ölkələrinə milli iqtisadiyyatlarının, sənaye və kənd təsərrüfatının ənənəvi ixracat sahələrinin inkişaf etdirilməsində kömək məqsədilə ixtisaslı kadrların hazırlanmasını; yüksək riskli qruplara yönəldilmiş narkomaniyanın qarşısının alınması və müalicəsi proqramlarına birinci dərəcəli diqqət yetirilməsini aid etmək olar.

Bundan başqa, Komissiya öz funksiyalarını icra etmələri üçün tərəflərdən zəruri olan məlumatları, o cümlədən, ərazilərində Konvensiyanın tətbiqinə dair illik məruzələri; həmin Konvensiyanın yerinə yetirilməsi üçün qəbul edilmiş qanun və qaydaların mətnlərini; narkotik vasitələrin idxalına icazə verilməsində səlahiyyətli müəssisələrin ad və ünvanlarını, yaxud narkotik idxalına verilmiş şəhadətnaməni, həmçinin narkotiklərin qanunsuz dövriyyəsinə aid hər hansı digər məlumatı tələb edə bilər.

Psixotrop maddələr haqqında 1971-ci il Konvensiyasının 16-cı maddəsinə uyğun olaraq, Tərəflər Komissiyanın öz funksiyalarını yerinə yetirməsi üçün zəruri hesab edərək, onlardan

tələb edə biləcəyi məlumatı, o cümlədən aşağıdakılar barədə məlumatları da daxil etməklə bu Konvensiyanın tətbiq olunması barədə illik məruzələri Baş katibə təqdim edirlər: a)onların psixotrop maddələrə dair qanunlarında və qərarlarında vacib dəyişikliklər; b)onların ərazilərində psixotrop maddələrdən sui-istifadə olunması və qanunsuz dövriyyədə əhəmiyyətli dəyişikliklər barədə.

Bu maddədə göstərilmişdir ki, Tərəflər aşağıdakalara görə onların zəruri saydıqları istənilən qanunsuz dövriyyə halı, yaxud qanunsuz dövriyyədən götürmə barədə məlumatı, bu hadisədən sonra mümkün qədər qısa müddət ərzində Baş katibə göndərirlər: 1)aşkar olunmuş yeni tendensiyalara; 2)haqqında söhbət gedən miqdara; 3)qanunsuz dövriyyə ilə məşğul olan şəxslərin tətbiq etdikləri metodlara.

Məlum olduğu kimi, dərman asılılığı üzrə ÜST-nın ekspertlər Komitəsi  Konvensiyaya əlavə olunan təsnifat siyahılarında dərman vasitələrinin təsnifləşdirilməsinə rəhbərlik etmə və ilkin olaraq elmi qiymətləndirmə nəticələrini təqdim etmək səlahiyyətinə malikdir. Belə təqdimatlar sonradan Komissiya tərəfindən nəzərdən keçirilir və səsvermə ilə bu dəyişiklikləri təsdiq edə və ya rədd edə bilər. Bununla da Komisssiya  1961 və 1971-ci il konvensiyaları ilə müəyyən olunmuş narkotik vasitələrin və psixotrop maddələrin cədvəllərində dəyişiklik etmək imkanına malikdir.

Narkotiklər üzrə Komissiya BMT-nin İqtisadi və Sosial Şurası üçün aşağıdakı sahələrdə yardımçı funksiyaları həyata keçirir: narkotik vasitələrə münasibətdə beynəlxalq konvensiyaların və sazişlərin (Narkotik vasitələr haqqında 1961-ci il Vahid Konvensiyası, Psixotrop maddələr haqqında 1971-ci il Konvensiyası, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında 1988-ci il Konvensiyasının) tətbiqi üzərində müşahidə aparır, zərurət yarandıqda beynəlxalq

konvensiyaların layihələrini hazırlayır; narkotik vasitələr üzərində beynəlxalq nəzarət sistemində zəruri hesab edilə bilən dəyişiklikləri öyrənir və bu məsələ üzrə uyğun təklifləri İqtisadi və Sosial Şuraya təqdim edir; İqtisadi və Sosial Şuranın göstərişləri üzrə narkotik vasitələrlə bağlı olan istənilən digər funksiyaları yerinə yetirir.

**2) BMT-nin narkotiklərə nəzarət üzrə Komitəsi**

Narkotiklərə nəzarət üzrə beynəlxalq Komitə (NNBK) narkotiklərə nəzarət haqqında BMT-nin beynəlxalq konvensiyalarının icrasına nazərət üzrə müstəqil kvaziməhkəmə ekspert orqanıdır. Komitə narkotik vasitələr haqqında 1961-ci il Vahid Konvensiyasına uyğun olaraq 1968-ci ildə yaradılmışdır. Komitə 1925-ci il tiryək üzrə Beynəlxalq konvensiya ilə yaradılmış narkotiklər üzrə daimi mərkəzi Şuranın və narkotik vasitələrin istehsalının məhdudlaşdırılması və yayılmasının tənzimlənməsi haqqında 1931-ci il Konvensiyasına uyğun olaraq yaradılmış narkotiklərə nəzarət üzrə Orqanın birləşməsi əsasında formalaşmışdır.

Komitə tərkib etibarı ilə İqtisadi və Sosial Şura tərəfindən seçilən 13 üzv-ekspertdən ibarətdir. Bu ekspertlər təmsil olunduqları dövləti təmsil etməyərək, müstəqil şəkildə fəaliyyət göstərirlər. 3 üzv tibb, farmakologiya və ya dərman texnologiyaları üzrə mütəxəssislərdən ibarət olan Ümumdünya səhiyyə təşkilatının təqdim etdiyi namizədlər siyahısından, qalan 10 üzv isə hökumətlərin təqdim etdikləri namizədlər arasından seçilirlər.

Narkotiklərə Nəzarət üzrə Beynəlxalq Komitə (NNBK) kvaziməhkəmə orqanıdır və bu orqan narkotiklərə nəzarət üzrə beynəlxalq müqavilələrə hökumətlər tərəfindən əməl olunmasının monitorinqini həyata keçirir onların səylərinə kömək edir. Komitənin əsas vəzifələrindən biri də narkotiklərin qeyri-leqal kanallarla yayılmasının qarşısının alınmasından ibarətdir. Ko-

mitə narkotiklərlə bağlı ciddi problemlərin mövcud olduğu ölkələrə yoxlama üçün qruplar göndərir, onların bu səfərlərini təşkil edir, narkotiklərə nəzarət məsələləri ilə məşğul olan orqanlar üçün praktiki yönümlü təlimlər təşkil edir[145].

Komitə narkotiklərin qanuni dövriyyəsi, habelə qanunsuz hazırlanması və ticarətinin qarşısının alınması məsələləri ilə məşğul olur, müxtəlif narkotik maddələrin kimyəvi tərkibinin ekspert qiymətləndirilməsini həyata keçirir, həmçinin bir sıra dövlətlərin hökumətləri ilə narkotiklərin qanunsuz dövriyyəsinə nəzarət sahəsində əməkdaşlıq məsələləri ilə məşğul olur[146].

İqtisadi və Sosial Şura Komitənin öz funksiyalarını tam və müstəqil şəkildə yerinə yetirməsi üçün onu texniki cəhətdən təchiz edir. Komitə hər il narkotiklərə nəzarət sahəsindəki vəziyyət haqqında məruzə təqdim edir. Komitə öz fəaliyyətində digər beynəlxalq qurumlarla, xüsusən də sərbəst şəkildə narkotiklərə nəzarət sahəsində fəaliyyət göstərən Ümumdünya səhiyyət təşkilatı, Cinayət polisinin beynəlxalq təşkilatı və Ümumdünya gömrük təşkilatı kimi beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq edir.

Qeyd edək ki, Narkotiklərə nəzarət üzrə beynəlxalq Komitənin funksiyaları Narkotik vasitələr haqqında 1961-ci il vahid Konvensiyasında, psixotrop maddələr haqqında 1971-ci il Konvensiyasında və narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında 1988-ci il konvensiyasında təsbit olunmuş normalarda və müddəalarda şərh olunmuşdur.

---

145 Михайлов Ю.В., Абрамов А.Ю. Международные подходы к борьбе с распространением наркотических средств и психотропных веществ//Медицинский вестник Северного Кавказа. 2013. Т.8. №3, с.61

146 Матвеева Е.А., Романова С.А. Организационно-правовые основы международного сотрудничества РФ в противодействии наркопреступленим//Сетевое издание «Академическая мысль». 2019. №1(6), с.98.

Konvensiyanın 9-cu maddəsində Komitənin tərkibi və funksiyaları ilə bağlı müddəalar təsbit edilmiş, Komitənin Şura tərəfindən aşağıdakı şəkildə seçilən on üç üzvdən ibarət olduğu göstərilmişdir: a)tibbi, farmakoloji, yaxud farmasevtik təcrübəyə malik üç üzv -Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən göstərilən ən azı beş nəfər şəxsin daxil edildiyi siyahıdan; b)on üzv-BMT-nın üzvü olan dövlətlərin və BMT-nın üzvü olmayan Tərəflərin göstərdiyi şəxslərin siyahısından.

NNBK-nin üzvləri öz təcrübələri, səlahiyyətləri, qərəzsizliyi, korrupsiya qalmaqallarında adlarının hallanmadığı, tanınmış şəxslərdir.

Konvensiyanın 9-cu maddəsinin 4-cü bəndində Komitənin hökumətlərlə əməkdaşlıq etməklə və bu Konvensiyanın qərarlarını nəzərə alaraq, narkotik vasitələrin becərilməsini, istehsalını, hazırlanmasını və istifadə olunmasının tibbi və elmi məqsədlər üçün zəruri olan miqdarda məhdudlaşdırmağa, belə məqsədlər üçün onların mövcudluğunu təmin etməyə və narkotik vasitələrin qanunsuz becərilməsinin, istehsalının, hazırlanmasının, istifadə olunmasının və narkotik vasitələrin qanunsuz dövriyyəsinin qarşısını almağa çalışdığı qeyd olunmuşdur.

NNBK həmçinin narkotiklərin qanunsuz hazırlanması zamanı istifadə olunan kimyəvi maddələr üzərində hökumətlər tərəfindən necə nəzarət edilməsini müşahidə edir və hökumətlərə bu kimyəvi maddələrin qanunsuz dövriyyəsinə axının qarşısının alınmasında kömək edir.

«Konvensiyanın qərarlarının yerinə yetirilməsinin təmin olunması üçün Komitənin gördüyü tədbirlər» adlanan 14-cü maddədə qeyd olunur ki, Komitənin hər hansı Tərəfin, dövlətin, yaxud ərazinin bu Konvensiyanın qərarlarını yerinə yetirməməsi nəticəsində bu Konvensiyanın məqsədlərinin həyata keçirilməsinin ciddi təhlükə altında olduğunu hesab etməyə obyektiv

səbəbləri olarsa, Komitə maraqlı hökumətə məsləhətləşmələrə başlamağı təklif etmək, yaxud izahat təqdim etməyi ondan xahiş etmək hüququna malikdir. Əgər bu Konvensiyanın qərarlarını yerinə yetirən hər hansı bir Tərəf, yaxud dövlət, yaxud ərazi narkotik vasitələrin qanunsuz becərilməsinin, istehsalının, yaxud hazırlanmasının, yaxud qanunsuz dövriyyəsinin, yaxud qanunsuz istehlakının əhəmiyyətli mərkəzinə çevrilmişdirsə və əgər həmin Tərəfin, yaxud dövlətin, yaxud ərazinin belə mərkəzə çevrilə biləcəyinə ciddi təhlükə olduğuna sübut olarsa, Komitə maraqlı hökumətə məsləhətləşmələrə başlamağı təklif etmək hüququna malikdir.

«Komitənin məruzələri» adlanan 15-ci maddədə göstərilir ki, Komitə öz işi barədə illik məruzə və özünün zəruri hesab etdiyi, həmçinin, onun sərəncamında olan hesablamaların və statistik məlumatların təhlilindən ibarət olan əlavə məruzələri və müvafiq hallarda, əgər hökumətlər bunu təqdim etmişlərsə, yaxud bu onlardan tələb olunmuşdursa, Komitənin lazım bildiyi iradlar və tövsiyələrlə birlikdə izahatlar barədə hesabatı tərtib edir.

Konvensiyanın 20-ci maddəsinə əsasən, Tərəflər Komitəyə öz ərazilərinin hər biri üzrə, Komitənin göstərdiyi qaydada və formada, Komitənin göndərdiyi blanklarda aşağıdakı məsələlər üzrə statistik məlumatlar təqdim edirlər: a)narkotik vasitələrin istehsalı, yaxud hazırlanması; b)III Siyahıya daxil edilmiş digər narkotik vasitələrin, preparatların və bu Konvensiyanın şamil olmadığı maddələrin hazırlanması üçün narkotik vasitələrin istifadə olunması, eləcədə xaş-xaş küləşinin narkotik vasitələrin hazırlanması üçün istifadə olunması; c)narkotik vasitələrin istehlakı; d)narkotik vasitələrin və xaş-xaş küləşinin idxalı və ixracı; e)narkotik vasitələr üzərində həbs qoyulması və onlar barəsində sərəncam verilməsi; f)bu məlumatların aid olduğu ilin

31 dekabrına olan vəziyyətə narkotik vasitələrin anbar ehtiyatları; g)tiryək xaş-xaşının becərilməsi üçün istifadə edilən müəyyən olunması mümkün olan sahə[147].

Psixotrop maddələr haqqında 1971-ci il Konvensiyasının 19-cu maddəsində Konvensiyanın müddəalarının yerinə yetirilməsinin təmin edilməsi məqsədilə Komitənin gördüyü tədbirlər öz əksini tapmışdır. Xüsui olaraq qeyd olunmuşdur ki, əgər hökumətlər tərəfindən təqdim olunmuş məlumatın, yaxud BMT-nin orqanları tərəfindən göndərilmiş məlumatın öyrənilməsi nəticəsində Komitə hər hansı bir dövlətin, yaxud hər hansı bir rayonun bu Konvensiyanın müddəalarını yerinə yetirməməsi üzündən bu Konvensiyanın məqsədlərinə nail olunmasının ciddi təhlükə altında olması qənaətinə gələrsə, Komitə izahat üçün həmin dövlətin hökumətinə müraciət edə bilər. Komitə qeyd olunanlara uyğun olaraq tədbir görərək, müvafiq hökuməti yaranmış şəraitdə bu Konvensiyanın müddəalarının yerinə yetirilməsi üçün zəruri olan korrektiv tədbirləri görməyə dəvət edə bilər.

Komitə hər il dünya üzrə narkotiklərə nəzarət sahəsindəki vəziyyəti əks etdirən illik hesabat təqdim edir. Bu hesabatlarda Komitənin il ərzində gördüyü işlərə dair məlumatlar da verilir. İllik hesabat hökumətlərin, Ümumdünya səhiyyə təşkilatının, İnterpolun, Ümumdünya gömrük təşkilatının və digər beynəlxalq təşkilatların Komitəyə və BMT-nin digər orqanlarına təqdim etdiyi məlumatlar əsasında hazırlanır. Komitə həm milli həm də beynəlxalq səviyyədə narkotiklərlə nəzarət sahəsindəki vəziyyətin yaxşılaşdırılması məqsədilə öz təklif və tövsiyələrini də verir[148].

---

[147] BMT-nin Konvensiyaları (narkotik vasitələr və psixotrop maddələr haqqında). Bakı: 2004, s.52-53

[148] Hacıyev S. Narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi ilə mübarizəyə dair Birləşmiş Millətlər Təşkilatının Konvensiyaları. Bakı: 2004, s.22-23

Məruzələrdə dünyada narkotiklər probleminin vəziyyətinin hərtərəfli icmalı verilir, narkotiklərdən sui-istifadə və narkotiklərin qanunsuz dövriyyəsi sahəsində meyillər təhlil edilir və vəziyyətin yaxşılaşdırılması üzrə zəruri tədbirlər təklif olunur.

İllik məruzələrdə digərləri ilə yanaşı, həm də narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı cinayətkar qruplaşmaların fəaliyyəti, narkotikləri əldə etmək üçün kriptovalyutadan, İnternet-mağazalardan, sosial şəbəkələrdən istifadə etmə səviyyəsi haqqında statistik məlumatlar təhlil edilir[149].

Məsələn, narkotiklərə nəzarət üzrə beynəlxalq Komitənin 2019-cu il məruzəsində qeyd olunur ki, yeniyetmələr və gənclər arasında psixoaktiv maddələrin istehlakının qarşısının alınması üçün müxtəlif elmi-əsaslı yanaşmalar tətbiq edilməlidir. Psixoaktiv madədələrin istehlakeının profilaktikasının başlıca məqsədi yeniyetmə və gənlərin sağlam və təhlükəsiz inkişafıdır ki, bu da sağlam həyat tərzini seçmək imkanını və bacarıqlarını inkişaf etdirmək üçün şərait yaradaraq onların bacarıq və potensiallarını reallaşdırılmasına imkan verəcəkdir. Effektiv profilaktika ailə daxilində uşaqlar və valideynlər, bacı və qardaşlar arasında, təhsil müəssisələrində, iş yerlərində və bütövlükdə cəmiyyətdə pozitiv qarşılıqlı münasibətlərin yaranaraq təşəkkülünə şərait yaradacaqdır[150].

Komitənin qarşısına narkotik vasitələrin qanuni istifadəsinə beynəlxalq nəzarət sisteminin məzmununu təşkil edən mühüm vəzifələr qoyulmuşdur. Məsələn, Komitə tərəfindən dövlətlərin narkotik vasitələrə olan tələbatlarının hesablanması sistemi tətbiq edilir. Tərəflər hər il Komitəyə müəyyən edilmiş hesablama forması

---

[149] Матвеева Е.А., Романова С.А. Организационно-правовые основы международного сотрудничества РФ в противодействии наркопреступленим//Сетевое издание «Академическая мысль». 2019. №1(6), с.98.

[150] Шинкевич В.Е., Куприянчик Т.В. Формирование и выстраивание инструментария обеспечения наркобезопасности современного общества: на опыте Управления по наркотикам и преступрности ООН и Европейского центра мониторинга наркотиков и наркомании//Society and Security incights. 2023. №2, с.93-94

üzrə paylanmış blanklarda tibbi və elmi məqsədlərlə istifadə üçün nəzərdə tutulmuş, həmçinin Konvensiyaya düşməyən digər narkotik vasitələrin, preparat və maddələrin miqdarı; anbarlardakı narkotik vasitələr ehtiyatının hesabat ilinin 31 dekabrına olan vəziyyəti; tiryək xaş-xaşının becərilməsi üçün istifadə edilən torpağın sahəsi və coğrafi mövqeyi, istehsal edilməsi nəzərdə tutulan tiryəkin təxmini miqdarı; sintetik narkotik vasitələr hazırlayan sənaye müəssisələrinin sayı və bu müəssisələrin hər birində hazırlanacaq belə vasitələrin miqdarı haqqında məlumat təqdim edirlər.

Tərəflər Komitəyə narkotik vasitələrin istehsalı və ya hazırlanması, istifadəsi, idxal və ixracı, anbarlardakı ehtiyatı, tiryək xaş-xaşının becərilməsi üçün istifadə olunan sahələr və s. haqqında konkret məlumatlar təqdim edirlər. Bu məlumatlar Komitəyə həmin tərəfin və ya hər hansı başqa dövlətin Konvensiyanın qərarlarını yerinə yetirib-yetirməməsini müəyyən etməyə, öz qərarlarının icrasının təmin olunması və nəzarət fəaliyyətinin həyata keçirilməsi üçün müvafiq tədbirlər görməyə imkan verir[151].

Dünyanın 200-dən artıq ölkəsi və ərazilərindən alınan informasiyanı öyrənərək və analiz edərək, NNBK, bütün dünyada konvensiyanın necə icra olunduğunu qiymətləndirir. Milli səviyyədə həyata keçirilən səyləri daimi əsaslarla qiymətləndirərək, NNBK, müəyyən tədbirlərin qəbulunu tövsiyə edə və istər beynəlxalq, istərsə də milli səviyyədə narkotiklərə nəzarət rejimini korrektə edə bilər. Zərurət yarandıqda Komitə BMT-nin uyğun orqanlarına, ixtisaslaşmış qurumlara və hökumətlərə müqavilə öhdəliklərinə əməl etmə səylərində dövlətlərə texniki və ya maliyyə köməkliyini göstərməyi tövsiyə edə bilər[152].

---

[151] Cavadov F., Abdullayev Y. Narkomaniya və narkotizm (Dünya ölkələrinin və beynəlxalq təşkilatların narkotiklərin qanunsuz dövriyyəsi ilə mübarizə təcrübəsi). Bakı, 2004, s.168-169.

[152] Корчагина Г.А. Международный комитет по контролю над наркотиками: мировой опыт в борьбе с наркоугрозой//Российский психиатрический журнал. 2015, №1, с.36-37

NNBK, 2023-cü ildə nəşr olunmuş özünün 2022-ci ildəki illik məruzəsində kannabisdən qeyri-tibbi istehlakının leqallaşdırılması meyilləri ilə bağlı narahatlığını ifadə etmiş, bu meyilin narkotik vasitələr haqqında 1961-ci il Vahid Konvensiyasının müddəalarına zidd olduğunu xüsusi olaraq vurğulamışdır. Xüsusi halda məruzədə aşağıdakılar qeyd olunmuşdur: Narkotik vasitələr haqqında 1961-ci il Vahid konvensiyası kannabisi güclü öyrəşmə doğuran və sui-istifadəyə gətirən vasitə kimi təsnifləşdirmiş və göstərmişdir ki, kannabisdən istənilən qeyri-tibbi və ya qeyri-elmi istifadə Konvensiyaya ziddir; az sayda hökumətlər arasında kannabisin qeyri-tibbi istehlakının leqallaşdırılmasına olan meyil onların istehlakı hallarının artmasına, sağlamlığı üçün neqativ nəticələrə və psixi pozuntulara gətirəcəkdir; kannabis məhsullarının reklamı, xüsusilə də gənclər arasında belə təbliğat və reklamın aparılması onların istehlakı ilə bağlı risklərin qavranılması səviyyəsini aşağı salır; kannabisin leqallaşdırılmasının cəmiyyətə təsirini ölçmək çətindir, çünki qanunvericilik modelləri ölkədən ölkəyə fərqlidir, məlumatlar isə əvvəlki kimi məhduddur; kannabis məhsullarının leqallaşdırıldığı dövlətlərdə və ya onların ərazilərində gənclər arasında narkotik vasitələrin istehlakı hallarının artması müşahidə edilir və s.

### 3) BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsi

BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsi (UNODC)-narkotiklərin, silahın qanunsuz dövriyyəsi, mütəşəkkil cinayətkarlıq, insan alveri və beynəlxalq terrorçuluqla mübarizə aparan BMT-nin struktur bölməsidir.

İdarə 1997-ci ildə Narkotiklərə nəzarət üzrə BMT Proqramının və beynəlxalq cinayətkarlığın qarşısının alınması üzrə Mərkəzin birləşməsi nəticəsində yaradılmışdır. UNODC-n dünyanın müxtəlif regionlarında fəaliyyət göstərən 21 regional şəbəkəsi vardır.

BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin əsas fəaliyyət istiqamətlərinə aiddir: mütəşəkkil cinayətkarlıq və qanunsuz ticarət; korrupsiya; cinayətlərin qarşısının alınması ədliyyə islahatları; narkotiklərdən sui-istifadənin qarşısının alınması; terrorizmin qarşısının alınması.

Bu İdarənin fəaliyyəti 150 dünya ölkəsini əhatə edir. Bilavasitə hökumət və qeyri-hökumət təşkilatları ilə qarşılıqlı əlaqəli fəaliyyət göstərərək İdarənin əməkdaşları yerlərdə ölkələrin tələbat və ehtiyaclarına uyğunlaşdırılmış narkotiklərə nəzarət və narkocinayətkarlığın qarşısının alınması sahəsində proqramlar işləyib hazırlayaraq həyata keçirirlər[153].

İdarə (UNODC) narkotiklərin qanunsuz dövriyyəsi və beynəlxalq cinayətkarlıqla, o cümlədən beynəlxalq narkocinayətkarlıqla mübarizədə dünya lideridir.

BMT-nin Narkotiklər və Cinayətkarlıq üzr İdarəsinin funksiyalarına aşağıdakılar aiddir:

- qlobal səviyyədə informasiya mübadiləsinin təmini və maraqlı dövlətlər üçün tədris və təlim materiallarının hazırlanması;
- narkotiklərdən sui-istifadənin profilaktikası və narkomanların müalicə və reabilitasiyası strategiyasının işlənib hazırlanması;
- əsas fəaliyyət istiqaməti narkotik vasitələr, psixotrop maddələr və prekursorların dövriyyəsinə nəzarət olan xüsusi qurumların yaradılması və bu qurumların fəaliyyətinin təşkilati-texniki və hüquqi aspektləri ilə bağlı dövlətlərə lazımi kömək və məsləhətlərin təqdim olunması;
- narkotiklərin istehsalının azaldılmasına istiqamətlənmiş tədbirlərdə iştirak etmə;
- narkotiklərin eyniləşdirilməsi və tədqiqatını həyata keçirən milli və ya regional laboratoriyaların yaradılması və yaxud da təkmilləşdirilməsində dövlətlərə yardım göstərilməsi;

---

[153] Хохлов Е.Е. Роль международных структур в борьбе с незаконным оборотом наркотиков// Научный портал МВД России. 2020. №2(50), с.114

- narkotiklərin dövriyyəsinə nəzarətin təmininə istiqamətlənmiş milli qanunvericilik sistemlərinin yaradılaraq formalaşdırılmasında, konvensiyaların müddəalarının implbmentasiyasında dövlətlərə hüquqi yardımın göstərilməsi [154].

İdarə dünyanın bütün regionlarında öz fəaliyyətini aşağıdakı istiqamətlərdə həyata keçirir:-narkotiklər və cinayətkarlıqla bağlı problemlərin idrakı və bu sahədə biliklərin genişləndirilməsi məqsədilə tədqiqat və analitik iş, siyasi xarakterli çevik qərarların qəbulu üçün faktiki məlumatlar bazasının genişləndirilməsi; beynəlxalq müqavilələrin ratifikasiyası və həyata keçirilməsində, narkotiklər, cinayətkarlıq və terrorizmlə bağlı dövlətlərə daxili qanunvericiliyin işlənib hazırlanmasında normativ xarakterli köməyin göstərilməsi; narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə, cinayətkarlığa və terrorizmə qarşıdurma sahəsində iştirakçı-dövlətlərin potensialının artırılması məqsədləri ilə yerlərdə texniki əməkadaşlıq layihələrinin həyata keçirilməsi.

Qeyd edək ki, UNODC son iki onillikdə narkomanlıq və narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı kompleks problemlər sahəsində qlobal tədqiqatların önündə gedir.

UNODC-in fəaliyyəti narkotiklərdən sui-istifadə səbəbindən yaranan təhlükələr barədə dünyanı məlumatlandırmaqdan və narkotiklərin qanunsuz istehsalına, onların qanunsuz dövriyyəsinə, narkocinayətkarlığa qarşı mübarizədə beynəlxalq səylərin aktivləşdirilməsinə yönəlmişdir. Bu məqsədlərə nail olmaq üçün UNODC bir sıra təşəbbüslər, o cümlədən qadağan edilmiş narkotik tərkibli bitkilərin əkilib-becərilməsi, narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı cinayətlərin törədilməsi nəticəsində əldə edilmiş pul vəsaitləri-

---

[154] Hacıyev S. Narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi ilə mübarizəyə dair BMT-nin Konvensiyaları (narkotik vasitələr və psixotrop maddələr haqqında). Bakı: 2004, s.23-24

nin və digər əmlakın leqallaşdırılması ilə mübarizəyə yönəlmiş alternativ inkişaf layihələri ilə, xüsusi proqramlarla çıxış edir[155].

BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsi öz proqramları ilə narkotiklərə nəzarət üzrə BMT-nin bütün fəaliyyətinə rəhbərliyi təmin edir, narkotiklərin istehsalı və qaçaqmalçılığının, narkomaniya probleminin dərinləşməsinə gətirə biləcək halların qarşısını almağa kömək edir; hökumətlərə narkotiklərə nəzarət üzrə strukturların yaradılmasına və strategiyaların işlənib hazırlanmasına kömək edir; narkotiklərə nəzarət sahəsində texniki köməyi göstərir; bu sahədə müqavilələrin icra edilməsinə şərait yaradır, ekspertiza və məlumatlar bazasının dünya mərkəzi kimi fəaliyyət göstərir.

İdarənin narkotiklərin qanunsuz dövriyyəsinin qarşısının alınması istiqamətində fəaliyyəti maarifləndirmə kampaniyaları yolu ilə və elmi faktlara əsaslanaraq gəncləri və narkoasılı vəziyyətdə olan şəxsləri narkotikləri qəbul etməmələrinə inandırmağa, daha effektiv müalicə üsuallarını axtarıb tapmağa, dövlətləri narkotiklərdən sui-istifadəni cinayət kimi deyil, sağlamlıq problemi kimi nəzərdən keçirmələrinə nail olmağa istiqamətlənmişdir.

BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsi hər il «narkotiklər haqqında ümumidünya məruzəsi»ni hazırlayaraq nəşr etdirir. Məruzədə narkotiklərin istehlakının nəticələri, daşınma marşrutlarının, narkotik tərkibli bitkilərin əkilib-becərilməsi və istehsalı (kokain, tiryək və kannabis) ilə bağlı mövcud informasiyanın təhlili, qlobal sintetik narkotiklər bazarının analizi, narkocinayətkarlıq və mütəşəkkil cinayətkarlıq, korrupsiya və terrorizm arasında qarşılıqlı əlaqə və asılılıq məsələlərinin təhlili aparılır[156].

---

[155] Хохлов Е.Е. Роль международных структур в борьбе с незаконным оборотом наркотиков// Научный портал МВД России. 2020. №2(50), с.114

[156] Матвеева Е.А., Романова С.А. Организационно-правовые основы международного сотрудничества РФ в противодействии наркопреступленим//Сетевое издание «Академическая мысль». 2019. №1(6), с.98.

BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin qlobal narkotiklər probleminə yanaşması çoxaspektlidir. İdarənin maliyyələşdirdiyi, təşkilati-texniki dəstək göstərdiyi narkotiklərdən sui-istifadənin qarşısının alınması, narkomanların müalicəsi və reabilitasiyası Proqramlarında dövlətlərin qeyri-hökumət təşkilatlarının və vətəndaş cəmiyyətinin iştirakı da nəzərdə tutulur.

İdarə tərəfindən işgüzar dairələrin və qeyri-hökumət təşkilatları cəlb edilməklə narkotik vasitələrə olan tələbatın azaldılması üzrə proqramların işlənib hazırlanması və reallaşdırılmasına kömək edilir. Belə proqramlar qismində göstərilə bilər: 1)Əfqanıstan, Laos, Myanma, Boliviya, Kolumbiya və Peruda həyata keçirilmiş qanunsuz narkotik tərkibli bitki sahələrinin monitorinqi proqramında peyklər vasitəsilə zondlaşmanın, aerofoto çəkilişi və yerlərdə ekspertizanın aparılmasını nəzərdə tutur ki, bu da ölkələrə qanunsuz becərilmə rayonlarının daha geniş mənzərəsini və bu sahədə mövcud meyilləri görməyə imkan verir; 2) narkotiklərdən sui-istifədənin qiymətləndirilməsinin qlobal proqramı. Bu proqram dünya miqyasında narkotiklərdən qeyri-leqal istifadəsi üzrə dəqiq və aktual statistik məlumatların əldə edilməsini təmin edir. Narkotiklərdən sui-istifadə meyillərinin belə bir mənzərəsi profilaktika, müalicə və reabilitasiya üzrə optimal strategiyaların işlənib hazırlanması üçün mühüm əhəmiyyət kəsb edir; 3)hüquqi yardım proqramı dövlətlərdə narkotiklərə nəzarət üzrə müqavilələrin icrasının vəziyyətini müəyyən etməyə, qanunvericilik aktlarının işlənib hazırlanmasına, məhkəmə işçilərinin hazırlanmasına kömək edir. Qeyd edək ki, 2400-dən artıq hakim, prokurorluq işçiləri, hüquq tətbiqi orqanların yüksək rütbəli əmkdaşları və digər aparıcı mütəxəssislər bu proqram çərçivəsində hazırlıq keçmişlər[157].

[157] Михайлов Ю.В., Абрамов А.Ю. Международные подходы к борьбе с распространением наркотических средств и психотропных веществ//Медицинский вестник Северного Кавказа. 2013. Т.8. №3, с.62

Narkomaniyanın profilaktikası sahəsində ən qiymətli və dəyərli vəsaitlərdən biri BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin və ÜST-nın 86 eksperti tərəfindən işlənib hazırlanan və 2018-ci ildə nəşr olunan «Narkotiklərin istehlakının profilaktikası üzrə beynəlxalq standartlar» adlanan vəsaitdir. Bu vəsaitdə profilaktik işin elmi-əsaslı strategiyalarının əsas müddəaları şərh olunmuşdur. Standartlarda narkomaniyanın profilaktikası üzrə effektiv milli sisteminin əsas komponentləri və xarakteristikaları əks olunmuşdur: narkomaniyanın profilaktikası sahəsində intervensiya və siyasət (erkən uşaqlıq, orta uşaqlıq; erkən yeniyetməlik; yeniyetməlik və gənclik dövrləri üçün); effektiv profilaktika sisteminin xarakteristikası (elmi-əsaslı intervesiyalar və siyasət kompleksi; elmi-əsaslı planlaşdırma; tədqiqat fəaliyyəti və planlaşdırma) və s. Qeyd edək ki, ekspertlər qrupu tərəfindən bu standartların hazırlanması zamanı son illərdə dünyanın bir çox ölkələrində həyata keçirilən 584 tədqiqat öyrənilərək təhlil edilmişdir[158].

**4) Avropa polis İdarəsi (Evropol)**

Narkotiklərin qanunsuz dövriyyəsi ilə mübarizə aparan daha bir beynəlxalq təşkilat 6 aprel 2009-cu ildə Avropa İttifaqı Şurasının 2009/371 nömrəli qərarı ilə yaradılmış və qısaldılmış şəkildə Evropol adlandırılan Avropa polis idarəsidir. Evropolun əsas məqsədi iki və ya daha artıq iştirakçı dövlətin ərazisində baş verən mütəşəkkil cinayətkarlığın, terrorizmin və cinayətkarlığın digər ağır formalarının qarşısının alınması istiqamətində iştirakçı-dövlətlərin səlahiyyətli orqanlarının fəaliyyətinə kömək göstərilməsindən, onlar arasında qarşılıqlı əlaqəli əməkdaş-

[158] Шинкевич В.Е., Куприянчик Т.В. Формирование и выстраивание инструментария обеспечения наркобезопасности современного общества: на опыте Управления по наркотикам и преступности ООН и Европейского центра мониторинга наркотиков и наркомании//Society and Security incights. 2023. №2, с.94

lığın möhkəmləndirilməsindən ibarətdir. Qeyd edək ki, Avropa İttifaqı Şurasının Evropolun yaradılması haqqında qərarında narkotiklərlə ticarət də cinayətkarlığın belə ağır formalarına aid edilmişdir.

Qeyd edək ki, Evropol öz sisteminə daxil olan bir sıra məhkəmə-tibbi strukturların imkanlarından narkotiklərin qanunsuz dövriyyəsi ilə mübarizədə istifadə edir. Məsələn, narkotiklərin qeyri-leqal istehsalının müqayisəli tədqiqi sistemi (EILCS) sintetik narkotiklərin istehsalı üzrə fotoqrafik və ya texniki informasiya, onların anbar və saxlanma yerləri üzrə detal tədqiqatlar aparır. Bu isə son nəticədə avadanlıq, materiallar və kimyəvi preparatlar kimi götürülmüş obyektləri eyniləşdirməyə imkan verir.

Bütün bunlar isə Evropolun transmilli mütəşəkkil narkocinayətkarlıqla mübarizədə dövlətlərin beynəlxalq əməkdaşlığa, xüsusən də narkocinayətlərin açılması və istintaqı zamanı kriminalistik və digər informasiya ilə vaxtında və effektiv mübadilənin təmini üçün əlverişli şəraitin yaradılmasına əhəmiyyətli töhfə verdiyini göstərir[159].

**5) Cinayət polisinin beynəlxalq təşkilatı (İnterpol)**

Transmilli narkocinayətkarlıqla, o cümlədən onun mütəşəkkil strukturları ilə mübarizə sahəsində dövlətlərin əməkdaşlığında ən əhəmiyyətli yeri Beynəlxalq Cinayət Polisi Təşkilatı-İnterpol tutur. Belə bir əməkdaşlıqda öz iştirakını İnterpol spesifik formalarda ifadə etməklə digər təşkilatlarda olmayan, yalnız ona məxsus metod, üsul və vasitələrlə reallaşdırır[160].

Belə bir beynəlxalq polis təşkilatına tələbat cinayətkarlığın

---

[159] Хохлов Е.Е. Роль международных структур в борьбе с незаконным оборотом наркотиков// Научный портал МВД России: 2020. №2(50), с.114-116

[160] Меркушин В.В. Борьба с транснациональной организованной преступностью. Минск: 2003, с.64

miqyaslarının genişlənməsi, onun beynəlmiləlləşməsi, bilavasitə qurbanlara deyil, həm də dünya birliyi ölkələrinin maraqlarına vurulan ziyanın artması ilə bağlıdır. Bu da hər bir dövlətin milli institutları, hüquq mühafizə orqanları vasitəsilə transmilli mütəşəkkil cinayətkarlıqla və onun ayrı-ayrı formaları ilə səmərəli mübarizə aparmağın, onda baş verən və gələcəkdə baş verəcək neqativ meyillərin və təzahürlərin qarşısının alınmasının tam şəkildə mümkünsüzlüyündən irəli gəlir.

K.S.Rodionovun düzgün qeyd etdiyi kimi, dünya birliyi artıq dərk etmişdir ki, heç bir ölkə təklikdə, öz qüvvələri ilə beynəlxalq xarakter kəsb edən mütəşəkkil cinayətkarlığa, xüsusən onun narkotiklərlə ticarət, incəsənət əsərlərinin, tarixi sərvətlərin oğurlanması və qaçaqmalçılığı, insan alveri və digər ən təhlükəli növləri ilə kifayət qədər səmərəli mübarizə aparmaq iqtidarında deyildir. Bu sahədə dünyanın daha çox ölkəsinin polis qüvvələrinin nizamlı və həmrəy kollektiv əməkdaşlığı zəruridir[161].

İnterpol, fəaliyyət predmetinə görə hüquqi, fəaliyyət məqsədi və prinsiplərinə görə isə xüsusi səlahiyyətə (müxtəlif ölkələrin səlahiyyətli orqanlarının geniş əməkdaşlığı yolu ilə beynəlxalq xarakterli cinayətlərin qarşısının alınması) malik dövlətlərarası təşkilatdır.

Qeyd edək ki, cinayət polisinin beynəlxalq təşkilatı (İnterpol) 1922-ci ildə ciddi hüquq pozuntularının qarşısının alınması və cəzalandırılması sahəsində polis orqanları arasında əməkdaşlığın təmin olunması və inkişafı məqsədilə təsis olunmuşdur. Bu təşkilat nümayəndəliklər şəbəkəsinə malikdir və üzv dövlətlərdən aldığı məlumatların toplanması, təhlili və paylaşdırılmasını həyata keçirir.

Cinayətkarlıqla mübarizəyə istiqamətlənmiş beynəlxalq əməkdaşlıqda Beynəlxalq cinayət polisi təşkilatının-İnterpolun

---

[161] Rodionov K.S. İnterpol: vçera, seqodnə, zavtra. 1990, s.7.

xüsusi, önəmli rol oynadığını F.Y.Səməndərov da qeyd edirdi: "Bu təşkilat 1923-cü ildə Vyanada yaradılmış, əvvəlcə Cinayət Polisini Beynəlxalq Komissiyası kimi fəaliyyət göstərmişdir. İnterpol qeyri-hökumət təşkilatından beynəlxalq dövlətlərarası təşkilata çevrilmişdir. İnterpolun ali orqanı onun Baş Məclisidir. Baş Məclis öz sessiyalarını ildə bir dəfə keçirir. İnterpolun İcraiyyə Komitəsi regionların nümayəndələrindən təşkil edilir. Təşkilatın daimi fəaliyyət göstərən aparatı onun Katibliyidir. Başqa beynəlxalq təşkilatlardan fərqli olaraq İnterpolun hər bir ölkədə Milli Mərkəzi Bürosu (MMB) vardır"[162].

Hazırda 194 dövlət İnterpolun üzvüdür. İnterpolun əsas vəzifəsi cinayətkarlıqla mübarizə milli hüquq-mühafizə orqanlarının əməkdaşlığının inkişafı və əlaqələndirilməsidir[163].

İnterpolun yaranması və fəaliyyət istiqamətləri ilə bağlı məsələyə toxunaraq F.M.Cavadov və Y.S.Abdullayev yazırlar: «XX əsrin əvvəllərində Avropa ölkələrinin polis idarələri arasında müəyyən əlaqələr mövcud olsa da, İnterpolun təşkilati strukturu 2-ci dünya müharibəsindən sonra yaradılmışdır. Qeyd etmək lazımdır ki, onun təşkilatçıları dərhal belə bir bəyanatla çıxış etdilər ki, İnterpol cinayətkarlıqla mübarizə aparmır və siyasətə qarışmır. Doğurdan da, İnterpol, daha çox informasiya verən təşkilatdır, nəinki birbaşa fəaliyyət göstərən. Planlaşdırma və beynəlxalq xarakter daşıyan polis əməliyyatlarını bir qayda olaraq, dövlətlərin hüquq-mühafizə orqanları həyata keçirirlər»[164].

İnterpolun 29 sentyabr 2 oktyabr 2003-cü ildə İspaniyada keçirilən sessiyasında bu hökumətlərarası təşkilatın müasir reallıqlara və qloballaşma dövrünün çağırışlarına adekvat olan

---

[162] Сямяндяров Ф.Й. Криминолоэийа. Цмуми щисся. Бакы: 2003, с.156

[163] Хохлов Е.Е. Роль международных структур в борьбе с незаконным оборотом наркотиков// Научный портал МВД России. 2020. №2(50), с.114

[164] Жавадов Ф.М., Абдуллайев Й.С. Наркоманийа вя наркотизм. Бакы: 2004, с.153-154

məqsəd və vəzifələri göstərilmişdir: milli və beynəlxalq səviyyələrdə istintaqın əlaqələndirilməsi yolu ilə beynəlxalq mütəşəkkil cinayətkarlığın qarşısının alınması; əməkdaşlığın səviyyəsinin, intensivliyinin və keyfiyyətinin yüksəldilməsi, yeni texnologiyalar üzrə informasiya mübadiləsinin genişləndirilməsi (təşkilatın bütün iştirakçı-dövlətlərində İnterplolun Qlobal Kommunikasiya Sisteminin işə salınması); cinayətkar fəaliyyət haqqında sübutedici informasiyanın toplanması, analizi, saxlanması və istifadəsi üzrə hüquq-mühafizə orqanlarının tətbiq etdiyi metodların, üsullarının və vasitələrinin standartlaşdırılması.

İnterpol əməliyyat-axtarış, istintaq və digər xarakterli kriminalistik informasiyanı toplayır və sistemləşdirir; beynəlxalq axtarışda iştirak edir; milli polis xidmətlərinə informasiya təqdim edir. İnterpolun əsas vəzifələri qismində şəxsiyyət və mülkiyyət əleyhinə cinayətlərlə; mütəşəkkil cinayətkarlıq və terrorizmlə; silah və döyüş sursatının, qiymətli daşların və metalların qanunsuz dövriyyəsi; insan alveri; tarixi və mədəni sərvətlərin oğurlanması və qaçaqmalçılığı; qadın və uşaqların seksual istismarının təşkili; iqtisadiyyat və maliyyə-kredit sahələrində törədilən cinayətlərlə yanaşı, narkotiklərin qanunsuz dövriyyəsi ilə mübarizə də çıxış edir[165].

İnterpolun Baş Məclisinin 2 oktyabr 1992-ci il tarixdə Seneqalın paytaxtı Dakar şəhərində keçirilən 61-ci sessiyasında Azərbaycan İnterpola tam hüquqlu üzv qəbul edildi və İnterpolun Nizamnaməsinin 4-cü və 32-ci maddələrinə uyğun olaraq, bu təşkilatın Azərbaycanda Milli Mərkəzi Bürosu yaradılaraq fəaliyyətə başladı.

---

[165] Нигматуллин Р. Сотрудничество государств в борьбе с незаконным оборотом наркотиков //История государства и права. 2008, №22; Калужина М.А. Информационное обеспечение организации противодействия торговле людьми по калам Интерпола//Общество и право. 2008. №3, с.18.

Narkotik vasitələrin qanunsuz yayılmasına qarşı yönələn və beynəlxalq təşkilatlar tərəfindən həyata keçirilən tədbirlər sırasında İnterpolun fəaliyyəti xüsusi olaraq qeyd edilməlidir. Qeyd edək ki, XX əsrin 70-ci illərinin əvvəllərində, daha dəqiqi 1974-cü ildə bu sahədə fəaliyyətin sistemli şəkildə həyata keçirilməsi məqsədilə İnterpolun nəzdində xüsusi qrup yaradılmışdır. Bu məsələyə M.Məmmədova da toxunur və qeyd edir ki, Baş Katibliyin tərkibində Narkotik vasitələr üzrə şöbə fəaliyyət göstərir. Həmin şöbənin əməkdaşları tərəfindən narkotik vasitələrin qeyri-qanuni dövriyyəsi ilə bağlı konkret faktlar haqqında məlumatlar toplanır, ümimiləşdirilir və statistik hesabat şəklində çap edilir, Baş Məclisin növbəti sessiyasında iştirakçı dövlətlərə, həmçinin BMT-nin narkotik vasitələr üzrə Komissiyasına təqdim edilir. İnterpolun bu şöbəsinin əməkdaşları tərəfindən narkotik tərkibli bitkilərin kütləvi yetişdirildiyi və ya təbii surətdə inkişaf etdiyi yerləri göstərən xəritələr hazırlanır. Bu xəritələrdə narkotik vasitələrin və psixotrop maddələrin tranzit daşınma marşrutları göstərilir, ənənəvi və yeni tranzit daşınma yolları əks olunur. İnterpolun Baş Katibliyi müntəzəm olaraq narkotik vasitələrin və psixotrop maddələrin yeni daşınma üsulları və marşrutları barədə iştirakçı dövlətləri xəbərdar edir, onların daşınmasında dəfələrlə iştirak etmiş şəxslər barədə məlumatlar təqdim edir. Həmçinin, narkoticarətçilərin, kuryerlərinin, topdan və pərakəndə satıcıların, narkocinayətkar qurum üzvlərinin və liderlərinin, təşkilatçılarının tutulması, narkotik vasitələrin və psixotrop maddələrin müsadirəsi, onların ənənəvi becərilmə və istehsal edilmə yerlərindən daşınmasının yeni marşrutlarının və bu zaman istifadə olunan müxtəlif üsulların aşkar edilməsinə dair iştirakçı ölkələrdən daxil olan məlumatların hərtərəfli təhlili və sistemləşdirilməsi aparılır[166].

---

[166] Məmmədova M. Narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə mübarizədə İnterpolun fəaliyyəti // Hüquqi dövlət və qanun. 2001, №9, s.37.

İnterpolun bu şöbəsinin fəaliyyəti əsasən 4 istiqamətdə aparılır: 1)İştirakçı dövlətlərdən alınan sorğulara cavabların hazırlanmasın, təklif və tövsiyələrin verilməsi. Bu istiqamətdə şöbənin fəaliyyəti mahiyyət və məzmunca konkret cinayətkar narkoqurumların kriminal fəaliyyətinin qarşısının alınması, xəbərdaredici tədbirlər sisteminin işlənib hazırlanması və bu işdə iştirakçı ölkələrə kömək göstərilməsindən ibarətdir; 2)narkoticarətlə məşğul olan cinayətkar qurumların iştirakçılarının, narkoqaçaqmalçıların, narkotiklərin topdan və pərakəndə satışını həyata keçirən şəxslər, narkotik və psixotrop maddələrin müsadirəsi, onların ənənəvi əkilmə və ya istehsalı yerlərinin, istehlakçılara çatdırılmanın yeni marşrutları və kanalları, bu zaman istifadə edilən metod, vasitə və üsullar barədə iştirakçı ölkələrdən daxil olan məlumatların sistemli analizi; 3)iştirakçı dövlətlərin beynəlxalq narkoticarətlə mübarizə məsələlərini həyata keçirən orqanlarının əməkdaşlarının təhsil və ixtisas səviyyələrinin artırılması üzrə xüsusi kursların, seminarların təşkili;

4)narkobizneslə mübarizə məsələləri çərçivəsində digər beynəlxalq və regional strukturlarla əməkdaşlığın həyata keçirilməsi, bu sahədə daha sıx əlaqələrin qurulması[167].

Narkotik vasitələrin və psixotrop maddələrin daşınması, gizlədilməsi və ötürülməsinin ən qeyri-adi və gözlənilməz üsulları ilə rastlaşan İnterpol bu yenilikləri tədqiq edir və iştirakçı dövlətləri bu yeni üsullar barədə məlumatlandırır[168].

İnterpol digər funksiyaları ilə yanaşı, həm də narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi və sui-istifadəsi ilə mübarizədə milli, regional və beynəlxalq hüquq-mühafizə orqanlarına köməklik göstərir. Narkotiklərin qanunsuz dövriyyəsi ilə mübarizə üzrə qlobal əməliyyatların aparılması və əlaqələndirilməsi (Lionfish modeli), milli dövlət orqan-

---

[167] Жавадов Ф.М., Абдуллайев Й.С. Наркоманийа вя наркотизм. Бакы: 2004, с.155-156

[168] Родионов К.С. Интерпол: вчера, сегодня и завтра. М., 1990, с.155

ları tərəfindən aparılan istintaqa kömək göstərilməsinə, eləcədə dəniz, quru və hava kimi bütün mümkün marşrutlar üzrə narkotiklərin qanunsuz dövriyyəsinə sipər çəkilməsinə istiqamətlənmişdir.

Narkotiklərin qanunsuz dövriyyəsinin üzə çıxarılması, istintaqı və qarşısının alınması üçün bütün dünya ölkələrinin polis qüvvələrinə texniki, təşkilati və informasiya xarakterli kömək göstərilməsi İnterpolun narkotiklərin qanunsuz dövriyyəsi ilə mübarizə strategiyasının əsasını təşkil edir.

Məsələn, 2019-cu ilin sentyabrında keçirilən narkotiklərin qanunsuz dövriyyəsi üzrə İnterpolun ikinci qlobal konfransında narkotiklərin qanunsuz dövriyyəsi problemini həll etmək məqsədilə dünyanın 100 ölkəsindən olan 400 ekspert iştirak etmişdir. Konfrans, İnterpol vasitəsilə informasiya mübadiləsinin genişləndirilməsinin zəruriliyi ilə dünya ölkələrinə çağırış etmişdir[169].

İnterpol 1961-ci il tarixli «Narkotik vasitələr haqqında Vahid Konvensiya»nın, 1971-ci il tarixli «Psixotrop maddələr haqqında Konvensiya»nın və 1988-ci il tarixli «Narkotik vasitələrin və psixotrop maddələrin qeyri-qanuni dövriyyəsi ilə mübarizə haqqında BMT Konvensiyası»nın işlənib hazırlanmasında da fəal iştirak etmişdir. İnterpolun BMT-nin Narkotik vasitələr üzrə komissiyası və Narkotik vasitələr üzərində nəzarət üzrə beynəlxalq komitəsi ilə sıx əməkdaşlıq əlaqələri vardır. BMT-nin Narkotik vasitələrə nəzarət üzrə beynəlxalq proqramının (UNDCP) həyata keçirilməsində də İnterpol önəmli rol oynayır. Artıq 35 ildən çoxdur ki, İnterpol BMT-nin Narkotik vasitələr üzrə komissiyasına müsadirə edilmiş narkotik vasitələrin hər bir növü, onların həcmi, buna aidiyyəti olan şəxslər və s. haqqında məlumatlar verir. Bu informasiya BMT-nin illik hesabatlarına salınır.

---

[169] Хохлов Е.Е. Роль международных структур в борьбе с незаконным оборотом наркотиков// Научный портал МВД России. 2020. №2(50), с.114

«İnterpolun Baş Məclisinin bütün sessiyalarında ayrı-ayrı dövlətlərdə narkotik vasitələrin qeyri-qanuni dövriyyəsinə qarşı mübarizə və bu mübarizədə beynəlxalq əməkdaşlıq məsələləri müzakirə olunur, bununla bağlı qətnamələr və fəaliyyət proqramları qəbul edilir»[170].

Narkobizenslə mübarizədə İnterpolun əsas vəzifələri narkotiklərin qanunsuz dövriyyəsinin yeni meyillərinin və beynəlxalq səviyyədə fəaliyyət göstərən narkocinayətkar dəstələrin üzə çıxarılması, narkotiklərin qanunsuz istehsalı, dövriyyəsi və sui-istifadəsi problemləri ilə məşğul olan milli və beynəlxalq hüquq-mühafizə orqanlarına kömək göstərməkdən ibarətdir. O cümlədən:iştirakçı ölkələrdən əldə edilmiş məlumatların toplanması və analizi, bu informasiyanın digər ölkələrə təqdim edilməsi; ekspertlərin görüşlərinin təşkili yolu ilə beynəlxalq səviyyədə narkotiklərlə bağlı tədqiqatların aparılmasına kömək göstərilməsi; İnterpola üzv olan dövlətlərin narkotik vasitələrlə mübarizənin əsas istiqamətlərinin müəyyən edilməsi ilə bağlı təxirəsalınmaz danışıqların təşkili; narkotiklərlə bağlı müəyyən məsələlər üzrə konfransların təşkili, bu konfranslarda istintaq metodları və əməkdaşlığın möhkəmləndirilməsi haqqında informasiya mübadiləsinin aparılması.

**6)Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekeursorlarının qanunsuz dövriyyəsi ilə mübarizə üzrə Mərkəzi Asiya regional informasiya əlaqələndirici Mərkəz (CARICC)**

Narkotiklərin qanunsuz dövriyyəsi sahəsində transmilli mütəşəkkil cinayətkarlığa effektiv qarşıdurmaya istiqamətində fəaliyyət göstərən regional təşkilatlar sırasında narkotik vasitələrin,

---

170 Məmmədova M. Narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə mübarizədə İnterpolun fəaliyyəti // Hüquqi dövlət və qanun. 2001, №9, s.37.

psixotrop maddələrin və onların prekeursorlarının qanunsuz dövriyyəsi ilə mübarizə üzrə Mərkəzi Asiya regional informasiya əlaqələndirici Mərkəz (CARICC) də xüsusi olaraq qeyd edilməlidir.

Mərkəzin əsas məqsədi-transmilli narkocinayətkarlığa qarşıdurma sahəsində CARICC-in iştirakçı dövlətlərinin səlahiyyətli orqanlarının səylərinin əlaqələndirilməsindən ibarətdir.

Bu regional təşkilatın hüquqi əsasını 24 iyul 2006-cı ildə Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkmənistan, Özbəkistan Respublikası və Rusiya Federasiyası arasında bağlanmış Saziş təşkil edir. Prezidentlər tərəfindən imzalanmış və iştirakçı-dövlətlərin parlamentləri tərəfindən ratifikasiya olunmuş CARICC-in yaradılması haqqında Saziş 22 mart 2009-cu ildə qüvvəyə minmişdir. Qeyd edək ki, hazırda Avstriya, Əfqanıstan, Böyük Britaniya, Almaniya, Kanada, İtaliya, Pakistan, ABŞ, Türkiyə, Finlyandiya, Fransa kimi ölkələr, həmçinin İnterpol CARICC-də müşahidəçilər qismində çıxış edirlər.

CARICC haqqında Əsasnaməyə uyğun olaraq, bu Mərkəzin əsas vəzifələri və funksiyalarını narkotiklərin qanunsuz dövriyyəsi ilə mübarizədə regional səviyyədə iştirakçı-dövlətlərin səylərinin əlaqələndirilməsi, narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı transmilli mütəşəkkil cinayətkarlıqla mübarizədə iştirakçı dövlətlərin səlahiyyətli orqanları arasında əməkdaşlığın möhkəmləndirilməsinə kömək göstərilməsi təşkil edir[171].

Qeyd edək ki, MDB çərçivəsində də narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi sahəsində regional əməkdaşlığın gücləndirilməsi məqsədilə müəyyən tədbirlər həyata keçirilməyə başlanmışdır.

Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə effektiv mübarizə istər beynəlxalq, istərsə də re-

---

[171] Хохлов Е.Е. Роль международных структур в борьбе с незаконным оборотом наркотиков// Научный портал МВД России. 2020. №2 (50), с.116

gional səviyyələrdə işlənib hazırlanmış hüquqi və təşkilati mexanizmlər çərçivəsində dövlətlərin sıx əməkdaşlığı əsasında mümkünlüyü nəzərə alınaraq, Narkotik vasitələr haqqında vahid konvensiya (1961); psixotrop maddələr haqqında konvensiya (1971); həmçinin narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında konvensiya (1988) kimi beynəlxalq müqavilələrin müddəalarını, habelə BMT-nin qətnamələrini və tövsiyələrini rəhbər tutaraq, MDB-nin iştirakçı-dövlətlərinin hökumət başçıları tərəfindən 30 noyabr 2000-ci ildə narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi ilə mübarizədə əməkdaşlıq haqqında Razılaşma qəbul edildi. Bu razılaşmada əməkdaşlığın əsas prinsipləri, istiqamətləri və formaları, birbaşa təmasları həyata keçirən səlahiyyətli orqanlar, yardım haqqında sorğular əsasında əməkdaşlıq qaydaları müəyyən edilmişdir.

7 oktyabr 2002-ci ildə narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsinə qarşıdurma üzrə MDB-nin iştirakçı-dövlətlərinin əməkdaşlıq Konsepsiyası qəbul edilmişdir[172].

Sonrakı illərdə qeyd olunan razılaşma və konsepsiyanın müddəaları inkişaf etdirilmiş, nəticədə 16 sentyabr 2004-ci ildə MDB-nin iştirakçı-dövlətlərinin başçıları tərəfindən 2005-2007-ci illərdə narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi ilə mübarizə sahəsində əməkdaşlıq üzrə Proqramm təsdiq edilmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən 5 dekabr 2006-cı ildə təsdiq edilmişdir.

2005-2007-ci illər üçün narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi ilə

---

[172] Сотрудничество стран СНГ в борьбе с терроризмом, незаконным оборотом наркотиков, транснациональной организованной преступностью, другими вызовами и угрозами безопасности//www.cis.minsk.bu-info, с.9

mübarizədə MDB-nin iştirakçısı olan dövlətlərin əməkdaşlıq Proqramı MDB-nin iştirakçısı olan dövlətlərin Xarici İşlər nazirləri Şurasının, Baş prokurorların koordinasiya Şurasının, Daxili işlər nazirləri Şurasının, Təhlükəsizlik və xüsusi xidmət orqanları rəhbərləri Şurasının, Sərhəd qoşunları komandanlığı Şurasının, Vergi (maliyyə) araşdırmaları orqanları rəhbərlərinin Koordinasiyası Şurasının, Gömrük xidmətləri rəhbərləri Şurasının üçüncü birgə iclasının 08 aprel 2004-cü il tarixli Qərarının və MDB-nin hökumət başçıları Şurasının 16 aprel 2004-cü il tarixli Qərarının yerinə yetirilməsi məqsədilə işlənib hazırlanmışdır.

Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi ilə mübarizədə MDB-nin iştirakçısı olan dövlətlərin əməkdaşlıq Proqramının qəbulu, Birliyin iştirakçısı olan dövlətlərin millətlərinin sağlamlığına və təhlükəsizliyinə bilavasitə təhlükə yaradan narkobiznesin dünya səviyyəsində transmilliləşməsi və qloballaşması prosesinin artması ilə şərtlənmişdir.

Proqramda xüsusi olaraq aşağıdakı tədbirlər kompleksinin həyata keçirilməsi nəzərdə tutulmuşdur:

- əməkdaşlığın beynəlxalq hüquqi bazasının möhkəmləndirilməsi;
- MDB-nin iştirakçısı olan dövlətlərin milli qanunvericiliyinin təkmilləşdirilməsi və uzlaşdırılması:
- MDB-nin iştirakçısı olan dövlətlərin görmük sahəsində yüklərin və nəqliyyat vasitələrinin narkotiklərin qanunsuz dövriyyəsinin qarşısını almaq üçün baxış metodikasının hazırlanması;
- MDB-nin iştirakçısı olan dövlətlərin narkotəhdidə qarşı kompleks fəaliyyətin təşkilatı-hüquqi və texniki əsaslarının işlənib hazırlanması;

- MDB-nin iştirakçısı olan dövlətlərin ərazisində mütəşəkkil cinayətkarlıq və digər təhlükəli cinayət növləri ilə mübarizənin əlaqələndirilməsi üzrə Bürosunun tərkibində yaradılmış Mərkəzi-Asiya regionunda narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi ilə mübarizənin əlaqələndirilməsi üzrə struktur bölümünün və onun regional əməliyyat qrupunun işinin təşkili;

- «nəzarətli göndəriş» metodu daxil olmaqla, narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı fəaliyyət, onların qanunsuz nəqlinin qarşısının alınması, qanunsuz dövriyyədə iştirak edən şəxslərin müəyyən edilməsi; narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi nəticəsində əldə olunmuş gəlirlərin aşkar edilməsi və müsadirə olunması; narkotik tərkibli bitkilərin əkinlərinin, habelə yabanı şəkildə bitmiş narkotik tərkibli bitkilərin aşkar edilməsi və məhv olunması;

- zəruri hallarda narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi ilə bağlı transmilli xarakterli cinayətlərin açılması məqsədilə MDB-nin iştirakçısı olan dövlətlərin səlahiyyətli orqanlarının nümayəndələrinindən ibarət əməliyyat-istintaq qruplarının yaradılması praktikasını davam etdirilməsi;

- BMT-nin və digər beynəlxalq təşkilatların narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizədə yardımın göstərilməsi üxrə proqramların hazırlanmasında qarşılıqlı fəaliyyət göstərmək və həyata keçirilməsində MDB-nin iştirakçısı olan dövlətlərin səylərinin əlaqələndirilməsi;

- narkotiklərin prekursorlarının ticarəti ilə bağlı şübhəli razılaşmaların müəyyən edilməsi məqsədilə MDB çərçivəsində monitorinq sisteminin yaradılması haqqında məsələnin nəzərdən keçirilməsi;

- MDB-nin iştirakçısı olan dövlətlərin narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi ilə mübarizə aparan orqanları cəlb olunmaqla narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsində iştirak edən şəxslər barədə, habelə narkotiklərin yayılması ilə mübarizənin vəziyyətini əks etdirən məlumatların toplanılması, təhlili və ümumiləşdirilməsi üzrə avtomatlaşdırılmış telekommunikasiya məlumat sisteminin istifadə olunması şəbəkəsinin yaradılması üzrə fəaliyyətin davam etdirilməsi;

- narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi və narkomaniya ilə mübarizə problemləri üzrə, o cümlədən müasir elmi-texniki nailiyyətlər əsasında narkotəhdidlə mübarizə metodlarının təkmilləşdirilməsi üzrə birgə elmi tədqiqatların keçirilməsini davam etdirilməsi;

- narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi ilə mübarizə sahəsində qanunvericilik və digər normativ aktların, metodik vəsaitlərin, əməliyyat, statistik və digər informasiyaların mübadiləsinin həyata keçirilməsi;

- narkomaniya problemləri və narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizə problemləri ilə məşğul olan təsisatların və təşkilatların iş təcrübəsini öyrənmək üçün nümayəndə heyətlərinin mübadiləsinin həyata keçirilməsi;

- MDB-nin iştirakçısı olan dövlətlərinin ekspert müəssisələrində aprobasiya üçün, nəzərdə tutulmuş narkotiklərin, materialların və əşyaların tədqiqatları üzrə yeni metodikalar barədə məlumat mübadiləsinin həyata keçirilməsi və s.

Beləliklə, cinayətkarlıqla mübarizədə dövlətlərin beynəlxalq əməkdaşlığının əsas təşkilatçısı olan BMT istər beynəlxalq, istərsə də regional, bəzən isə dövlətdaxili səviyyədə bu fəaliyyəti həyata keçirir. Bu əməkdaşlıq BMT-nin Baş Məclisi, Ka-

tiblik, İqtisadi və Sosial Şura kimi orqanları, habelə digər ixtisaslaşmış müəssisələri tərəfindən müxtəlif sənədlərin-qətnamələrin, bəyannamələrin, konvensiyaların və s. qəbulu vasitəsilə reallaşdırılır.

Cinayətkarlıqla mübarizədə, o cümlədən narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinin qarşısının alınmasında beynəlxalq-hüquqi bazasının formalaşmasında, bu sahədə beynəlxalq standartların işlənilməsində BMT-nin cinayətkarlığın qarşısının alınması və hüquq pozucularla davranış üzrə konqresləri xüsusi rol oynayır. Belə konqreslər 1955-ci ildən başlayaraq 5 ildən bir çağırılır.

Cinayətkarlığın qarşısının alınması və hüquq pozucuları ilə davranış üzrə BMT-nin I konqresi 1955-ci ildə Cenevrədə keçirilmişdi. Bu konqresdə məhbuslarla davranış qaydaları üzrə minimal standartlar qəbul edilmişdir.

F.M.Cavadov və Y.S.Abdullayev BMT-nin VII konqresinin narkomaniya və narkotizmlə mübarizə sahəsində xüsusən önəmli rol oynadığını qeyd edərək yazırlar: «Beynəlxalq səviyyədə narkomaniya və narkotizmlə mübarizə problemləri 1985-ci ilin yayında Milanda keçirilən BMT-nin VII konqresində də ciddi müzakirə obyektinə çevrilmişdir. Konqresdə narkotiklərin qeyri-qanuni dövriyyəsinə qarşı mübarizə haqqında qətnamə qəbul olunmuşdur. Bu sənəddə BMT-nin səlahiyyətli orqanlarına təxirəsalınmaz vəzifə kimi narkotiklərin qeyri-qanuni dövriyyəsi haqqında yeni beynəlxalq sənədin işlənib hazırlanması tövsiyə olundu. Qətnamədə narkotiklərin qeyri-qanuni dövriyyəsi nəticəsində əldə edilən gəlirlərin müsadirə edilməsi; narkotiklərin qeyri-qanuni dövriyyəsi ilə mübarizə sahəsində yeni hüquqi metod və üsulların yaradılması və geniş təbliğ edilməsi; bu işdə beynəlxalq əməkdaşlığın təmin edilməsi və s. kimi məsələlər öz əksini tapmışdı»[173].

---

[173] Жавадов Ф.М., Абдуллайев Й.С. Наркоманийа вя наркотизм. Бакы: 2004, с.148

2005-ci ildə Banqkokda keçirilən BMT-nin XI konkresində də cinayətkarlıqla mübarizə ilə bağlı geniş məsələlər dairəsi müzakirə olunmuş, transmilli mütəşəkkil cinayətkarlıqla mübarizə üzrə effektiv tədbirlər, terrorizmlə, narkocinayətkarlıqla, korrupsiya və s. ilə mübarizədə beynəlxalq əməkdaşlıq məsələləri nəzərdən keçirilmişdir.

Beləliklə, deyə bilərik ki narkomanlığın profilaktikası, narkocinayətkarlıqla beynəlxalq mübarizə əsasən iki formada həyata keçirilir: konvensiyaların qəbulu və beynəlxalq təşkilatların fəaliyyəti. Konvensiyalarla müəyyən edilən öhdəliklərin həyata keçirilməsi üzərində, eləcə də narkotiklərin istehsalına, hərəkətinə və istifadə edilməsinə BMT-nin xüsusi idarələri nəzarət edir. Hazırda BMT yanında narkotik vasitələrə və psixotrop maddələrə nəzarət və onların qanunsuz dövriyyəsinə qarşı fəaliyyət sahəsində bütöv orqanlar kompleksi fəaliyyət göstərir.

Narkotiklərin qanunsuz dövriyyəsinə qarşıdurma sahəsində beynəlxalq gündəliyin formalaşması çərçivəsində qəbul edilmiş sonuncu əhəmiyyətli sənədlərdən biri də BMT Baş Assambleyasının S-30/1 sylı 19 aprel 2016-cı il tarixli Qətnaməsidir. Qətnamədə dünya birliyi narkotiklərin qanunsuz dövriyyəsinə qarşıdurmada öz qətiyyətli mövqeyini bir daha ifadə etmişdir. Bu sənəddə narkotiklərin qanunsuz dövriyyəsinə qarşıdurmanın qabaqcıl texnologiyaları müəyyən edilmiş, aşağıdakı tədbirlərin işlənib hazırlanaraq reallaşdırılmasının xüsusi əhəmiyyət kəsb etdiyi göstərilmişdir: narkotiklərin qeyri-tibbi istehlakının və sosial-təhlükəli xəstəliklərin (Hepatit, QİÇS və s.) profilaktikası üzrə tədbirlər; narkomaniyanın və onu müşayiət edən sosial-təhlükəli xəstəliklərin müalicəsi üzrə tədbirlər; narkotiklərin istehsalı və paylanmasına nəzarət üzrə tədbirlər; narkocinayətkarlıqla mübarizə üzrə tədbirlər; ümumsosial xarakterli profilaktik tədbirlər (tibbin, qeyri-diskriminasion sosial siyasətin, təhsilin inkişafı və s.) [174].

[174] Ашин А.А., Михайлов А.Е., Рябчиков В.В. Международно-правовой механизм профилактики незаконного оборота наркотиков: на примере ООН//Гуманитарные,

Narkobiznes öz təbiəti etibarı ilə transmillidir, bu da istər ayrı-ayrı dövlətlər səviyyəsində, istərsə də beynəlxalq səviyyədə onunla mübarizənin zəruriliyini doğurur. Bu isə öz növbəsində narkobizneslə mübarizə üzrə sistemli siyasətin formalaşdırılması üçün beynəlxalq səviyyədə həyata keçirilən səylərin gücləndirilməsini, bu işə beynəlxalq və regional təşkilatların qoşulmasını, onların dövlətlərin anti-narkotik siyasəti həyata keçirən milli strukturları ilə daha sıx əməkdaşlığının həyata keçirilməsini şərtləndirir[175].

социально-экономические и общественные науки. Адыгейский государственный университет. 2021. №2, с.87

[175] Зазулин Г.В. Глобализация, наркотики и конфликт//Вестник Санкт-Петербургского университета. Философия и конфликтология. 2014. №2, с.74-84.

# FƏSİL 6. DÜNYANIN BİR SIRA ÖLKƏLƏRİNDƏ NARKOTİK VASİTƏLƏRİN VƏ PSİXOTROP MADDƏLƏRİN QANUNSUZ DÖVRİYYƏSİNƏ GÖRƏ MƏSULİYYƏT NƏZƏRDƏ TUTAN CİNAYƏT QANUNVERİCİLİYİ: MÜQAYİSƏLİ-HÜQUQİ TƏHLİL

Müxtəlif dövlətlərin narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə cinayət-hüquqi vasitələrlə əks-təsiri tənzimləyən cinayət qanunvericiliyinin müqayisəli təhlilinin aparılması maraq doğurur. Bu cür təhlil vacib əhəmiyyətə malikdir. Belə ki, həmin təhlil dövlətlərin bu sahədə hüquqi nizamlamasının müsbət təcrübəsindən qarşılıqlı yararlanmalarına; milli qanunvericilikdəki boşluqların və çatışmamazlıqların aşkar edilməsinə, onun sonrakı inkişafına və təkmilləşdirilməsinə; ölkədaxili qanunvericiliyə beynəlxalq hüquq normalarının inteqrasiyasının xarakterinin və dərəcəsinin müəyyənləşdirilməsinə; belə inteqrasiyanın əsasında müxtəlif dövlətlərin daxili qanunvericiliklərinin yaxşılaşdırılması üçün zəmin və şəraitin yaradılmasına və elə bununla da narkotizmə əks-təsirin həyata keçirilməsində sonuncuların beynəlxalq əməkdaşlığının səmərəliliyinin genişləndirilməsinə və artırılmasına kömək edir.

B.S.Zahidov da belə təhlilin vacibliyini qeyd edir və bunu onunla əsaslandırır ki, «Dünyanın bir çox dövlətlərində narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə görə cinayət məsuliyyəti müəyyən edən qanunvericiliyin işlənib hazırlanması və təkmilləşdirilməsi, belə əməllərlə mübarizənin cinayət-hüquqi üsullarının, vasitə və metodlarının modernləşdirilməsi sahəsində kifayət qədər təcrübə toplanmışdır» [176].

---

[176] Zahidov B.S. Azərbaycanda narkotizmlə və narkobizneslə mübarizənin aktual problemləri. Bakı: 2007, s.166.

Dünyanın bir çox ölkələrinin cinayət qanunvericiliyinin müqayisəli-hüquqi təhlili göstərir ki, hazırda demək olar ki, bütün dünya ölkələrində narkotik vasitələrin və psixotrop maddələrin dövriyyəsi ilə mübarizəni bu ya digər dərəcədə tənzimləyən hüquq normaları kompleksi mövcuddur. Eyni zamanda müasir qanunvericinin cinayət-hüquqi təsir vasitələrinin müəyyən edilməsinə yanaşmaları fərqlidir.

B.S.Zahidov, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinin, xüsusi halda narkobiznesin beynəlxalq miqyaslı problemlərdən biri olduğunu, hər bir dövlətdə isə belə qlobal problemlə mübarizə müxtəlif milli tədbirlər vasitəsi ilə həyata keçirildiyi qeyd edir[177].

Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə, narkomaniyaya qarşıdurma sahəsində cinayət siyasətinin xarakterindən asılı olaraq dövlətləri aşağıdakı qruplar üzrə təsnifləşdirmək olar.

Birinci qrupa liberal qanunvericilik sistemi ilə səciyyələnən ölkələr daxildir (Avstriya, İsveçrə, İtaliya, Niderland, Portuqaliya, Danimarka, İspaniya, Estoniya və s.). Bu dövlətlərdə bir qayda olaraq narkotiklərin qeyri-tibbi məqsədlərlə istehakına görə cinayət məsuliyyəti nəzərdə tutulmamışdır, kannabis məhsulları ilə bağlı olan hüquq pozuntularına görə isə yüngül sanksiyalar müəyyən edilmişdir. Eyni zamanda, güclü təsir edən narkotik vasitələri hazırlama və satma əməllərinə görə sərt cinayət məsuliyyət nəzərdə tutulmuşdur.

İkinci qrupa qanunvericilik sistemi daha rasional və diferensiallaşdırılmış olan ölkələr daxildir (Bolqarıstan, Böyük Britaniya, İsrail, Fransa, ABŞ, Yaponiya, Belçika, Yunanıstan və s.). Bu ölkələrdə narkotik vasitələrin qanunsuz dövriyyəsinə görə sanksiyalar törədilmiş cinayətin xarakterinə və ağırlığına görə diferensiallaşdırılmışdır.

---

[177] Zahidov B..S. Azərbaycanda narkotizmlə və narkobizneslə mübarizənin aktual problemləri. Bakı: 2007, s.142.

Üçüncü qrupa narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə bağlı cinayətlərə görə ömürlük azadlıqdan məhrum etmə və ölüm cəzasına qədər sərt sanksiyaların müəyyən olunduğu qanunvericiliyin mövcud olduğu ölkələri aid etmək olar (Vyetnam, Banqladeş, İran, ÇXR, Kuba, Malayziya, Pakistan, BƏƏ, Oman Sultanlığı, Səudiyyə Ərəbistanı, Sinqapur, Tailand və s.)[178].

Məsələn, Oman Sultanlığında narkotik və psixotrop maddələrə ciddi nəzarət vardır. Narkotik və Psixotrop Maddələrlə Mübarizə Qanunu Sultanın 17/99 saylı, 2001-ci il tarixli Fərmanı ilə tənzimlənir. Sözügedən Qanun əsasında Narkotik Vasitələrə və Psixotrop Maddələrə Qarşı Mübarizə Baş İdarəsi yaradılmışdır.

Qanunda nəzərdə tutulmuş narkotik və narkotik vasitələrin istehsalı, istehlakı, idxalı, ixracı və ya daşınması, saxlanması, istifadəsi, alınması, satılması, qəbulu, çatdırılması, dəyişdirilməsi, sövdələşməsi, maliyyələşdirilməsi qadağandır. Bununla belə, Qanunda qeyd olunan, texniki xaraketrinə görə Kənd Təsərrüfatı və Balıq Təsərrüfatı Nazirliyi ilə razılaşdırılmalı olan hər hansı bitkinin tibbi məqsədlər üçün becərilməsi dövlət orqanlarına, ixtisaslaşdırılmış kolleclərə, institutlara və attestasiyadan keçmiş elmi tədqiqat mərkəzlərinə lisenziya verilməsinə icazə verilir.

Narkotik Vasitələrə və Psixotrop Narkotiklərə Qarşı Mübarizə Qanununda edilən dəyişikliklərə əsasən, cinayətkarlar, narkotik alverçilər və qaçaqmalçılar üçün ölüm cəzası və ömürlük

---

[178] Əliyev Q.H. Narkomaniya və narkotizmlə mübarizə prolemləri. Bakı, 1999, s.81; Шалагин А.Е., Кабиров Д.Э. Ответственность за незаконный оборот наркотических средств в зарубежном законодательстве//Вестьник Казанского юридического иститута МВД России. 2011. №3, с.13; Алейник И.Н. К вопросу об уголовной ответственности за незаконный оборот наркотических средств, психотропныъ веществ, их прекурсоров или аналогов по законодательству зарубежных стран//Актуальгные проблемы российского права. 2015. №4 (15), с.175-176

həbs cəzası kimi sərt cəzalar gözləyir. Qanunun 43-cü maddəsində qeyd olunur ki, narkotik satıcıları üçün ölüm cəzası və ya ömürlük həbs cəzası və 25.000 Oman rialından (təqribi 65 min ABŞ dolları) çox cərimə nəzərdə tutulur. Həmçinin, beynəlxalq narkotik ticarəti ilə əlaqəsi olan hər kəs üçün ölüm cəzası nəzərdə tutulur.

Səudiyyə Ərəbistanın "Narkotiklərlə Mübarizə Qanununa" görə, narkotik vasitələrindən istifadə etmək niyyəti ilə ilk dəfə saxlanılmağa görə cəza altı aydan iki ilədək müddətə azadlıqdan məhrum etmədir. Əgər şəxs ikinci dəfə narkotikdən istifadə edərsə, o, üç ay müddətinə azadlıqdan məhrum etmə ilə cəzalandırılır və narkomaniyadan müalicə üçün sanatoriyaya yerləşdirilir.

İlk dəfə narkotik satan və ya onu yayan şəxs üçün birinci dəfə üçün cəza həbs, şallaq, cərimə və ya məhkəminin tələb etdiyi bütün bu cəzalardan ibarət ola bilər. Eyni işi təkrar gördüyü halda, ona münasibətdə ölüm zəsası təyin edilə bilər. Narkotik vasitələrdən istifadə edən şəxs ona qarşı mübarizə aparan məsul şəxslərdəndirsə, Krallığın Qanun məcəlləsinin 41-ci maddəsində nəzərdə tutulmuş qaydada ən yüksək cərimələr və ya həbs tətbiq edilir.

Narkotik vasitələrdən istifadəyə qarşı mübarizədə həbs olunanlara bəzi hallarda Kral əfvi (amnistiya) şamil olunur. Belə ki, narkotik maddələrdən ilk dəfə şəxsi istifadəyə görə amnistiya düşür. Qaçaqmalçılıq halları ilk dəfədirsə, onun cəzasının yarısını həbsxanada çəkməsi şərti ilə amnistiyaya daxil edilir. Səudiyyə Ərəbistanının "Narkotiklərlə Mübarizə Qanunun" 56-cı maddəsinə görə, şəxs cəzasının başa vurduqdan sonra cinayət törətməkdə təqsirli bilindiyi müddət qədər ona Krallığın hüdudlarından kənara çıxması qadağan edilir. Lakin son dərəcə zərurət yarandıqda Daxili İşlər Nazirliyi tərəfindən səfərə icazə verilməsi istisna hal təşkil edə bilər.

Qeyd olunanları nəzərə alaraq Avropanın, İspaniya, Danimarka, Bolqarıstan, Almaniya, Belçika, Fransa, Avstriya və Böyük Britaniya kimi ölkələrinin, ABŞ, ÇXR, Türkiyə və İranın, habelə bir sıra postsovet ölkələrinin cinayət qanunvericiliyində narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə bağlı əməllərə görə cinayət məsuliyyəti nəzərdə tutan normaların və müddəaların müqayisəli təhlilinin aparılması məqsədəuyğun hesab edilməlidir.

İspaniyada narkotik cinayətlərə görə məsuliyyət CM-nin (1995) «Kollektiv təhlükəsizliyə qarşı cinayətlər haqqında» III fəslinin 368-378-ci maddələrində nəzərdə tutulmuşdur.

İspaniyada, 21 fevral 1992-ci il Qanununa uyğun olaraq şəxsi istehlak üçün narkotik vasitəni saxlama əməlinə görə yalnız inzibati sanksiyalar müəyyən edilmişdir. Eyni zamanda qanunvericilikdə «şəxsi istehlak üçün» anlayışının kəmiyyət göstəriciləri müəyyən olunmamışdır və məhkəmələr bu məsələni hər bir konkret işə aidiyyatda həll edirlər. İspaniyada narkotikləri ictimai yerlərdə qəbul etmək qadağan edilmişdir və bu tip hərəkətlər inzibati məsuliyyət doğurur. Eyni zamanda İspaniya CM-nin 368-ci maddəsinə görə insan sağlamlığına ciddi zərər vuran narkotik vasitələri satma,  narkotik vasitələrin istehlakına təhrik etmə, satma məqsədilə narkotik vasitələri və psixotrop maddələri əldə etmə cinayət məsuliyyəti yaradır və buna görə 3 ildən 9 ilədək müddətə azadlıqdan məhrum etmə və cinayətin predmeti olan məhsulunun dəyərinin 3 qatı həcmində cərimə nəzərdə tutulmuşdur. İspaniya Ali Məhkəməsinin qərarı ilə  kannabisdən fərqli olaraq amfetaminlər, kokain və heroin  sağlamlıq üçün ciddi təhlükə yaradan narkotik vasitələr kateqoriyasına aid edilmişdir[179].

[179] Алейник И.Н. К вопросу об уголовной ответственности за незаконный оборот наркотических средств, психотропныъ веществ, их прекурсоров или аналогов по

Danimarkada narkotiklərin ticarətinə və bu vasitələrlə bağlı digər qanunsuz hərəkətlərə görə məsuliyyət milli CM-in (1930) Xüsusi hissəsinin «Cəmiyyət üçün təhlükə təşkil edən cinayətlər» adlı 20-ci fəslinin 191-ci paraqrafında nəzərdə tutulmuşdur.

Danimarka CM-nin 19-ci paraqrafına görə anti-narkotik qanunvericiliyi pozan şəxs 6 ilədək müddətə həbs edilə, yəni azadlıqdan məhrum edilə bilər. Eyni zamanda satış məqsədilə külli miqdarda narkotik tədarükünə, idxalına, ixraçına, hazırlanmasına, istehsal edilməsinə və ya saxlanmasına görə cəza daha da sərtləşdirilmiş, 10 ilədək müddətə azadlıqdan məhrum etmə müəyyən olunmuşdur.

Danimarkanın eyforiant substansiyalar haqqında Aktında 2004-cü ildə dəyişiklər edilmişdir. Həmin aktda edilən dəyişikliyə görə, şəxsi istifadə üçün narkotikə malik olmaq xəbərdarlıqla deyil, cərimə ilə cəzalandırılacaqdır. Narkotiklərin restoranlarda, diskotekalarda, yeniyetmələrin tez-tez yığışdıqları digər yerlərdə yayılması artıq ağırlaşdırıcı hal sayılır. Belə cinayətlər azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

Macarıstanın hüquq sistemi narkotiklərlə bağlı cinayət hüququ normalarının tədricən sərtləşdirmişdir. Son illər ərzində, Macarıstan narktotik vasitələrin qanunsuz dövriyyəsi ilə mübarizə, narktotikin növündən asılı olmayaraq sıfır tolerantlıq prinsipinə əsaslanır və qanunvericilikdə heç bir yüngülləşdirici amil nəzərə alınmır.

Macarıstanda 14 yaşdan yuxarı, lakin yetkinlik yaşına çatmayanların narkotik vasitələrin qanunsuz dövriyyəsinə görə məsuliyyətə cəlb edilməsi mümkündür. Macarıstanda narkotik ticarəti ən ağır cəzalandırılan cinayətlərdən biridir. Mütəşəkkil cinayətkarlıqla və ya külli miqdarda narkotik vaistələrin qanunsuz dövriyyəsi ilə bağlı cinayət işlərində cinayətkarı 20 ilə qədər, bəzi hallarda isə ömürlük həbs cəzası gözləyir.

---

законодательству зарубежных стран//Актуальгные проблемы российского права. 2015. №4(15), с.176

Bolqarıstan CM-nə narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı cinayətkar əməllər haqqında kifayət qədər geniş normalar sistemi daxil edilmişdir. Məsələn, Bolqarıstan CM-nin 354a maddəsinədə uyğun icazə olmadan satış məqsədilə narkotik vasitəni istehsal, emal, əldə etmə, yayma, saxlama, daşıma və ya göndərmə əməllərinə görə cərimə edilməklə 10 ildən 15 ilədək müddətə azadlıqdan məhrum etmə cəzası müəyyən edilmişdir.

Belçika cinayət qanunvericiliyində narkotik vasitənin saxlanması, qrup şəklində istifadə edilməsi, narkotik vasitənin alqı-satqısı ilə əlaqədar məsuliyyət nəzərdə tutulmuşdur, həmin cinayətlərə görə cəza isə hər bir halda ayrıca xüsusatlar nəzərə alınmaqla məhkəmə tərəfindən təyin edilir. İstehlak istisna ounmaqla narkotik vasitənin saxlanması üçün 3 aydan 5 ilədək azadlıqdan məhrumetmə və ya cərimə cəzası nəzərdə tutulmuşdur [180].

Fransanın qüvvədə olan qanunvericiliyinə görə narkotiklərin ictimai yerlərdə istehlakı 2 aydan 1 ilədək müddətə azadlıqdan məhrum etmə və ya cərimə ilə cəzalandırılır. Fransa qanunvericiliyində «şəxsi istehlak üçün saxlama» anlayışı olmadığından şəxsdə istənilən miqdarda qadağan edilmiş narkotik maddələri saxlama ya istehlak, ya da satma kimi nəzərdən keçirilir. CM-nin 222-235-ci maddəsində narkotikləri istehsal etmə və ya hazırlama cinayət məsuliyyəti doğuran əməl hesab edilmiş və buna görə 20 ilədək müddətə azadlıqdan məhrum etmə və cərimə müəyyən edilmişdir. Narkotik vasitələri idxal və ixrac etməyə görə isə 10 ilədək müddətə azadlıqdan məhrum və cərimə nəzərdə tutulmuşdur (maddə 222-236). Bu zaman eyni əməllər mütəşəkkil banda tərəfindən törədildiyi halda sanksiyalar sərtləşdirilmiş və azadlıqdan məhrum etmə cəzası 30 ilə çatdırılmış-

[180] Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə: real vəziyyət və həlli yolları. Azərbaycan Respublikasının Baş Prokurorluğunun Elmi-Tədris Mərkəzi. Bakı: 2021, s.49-50

dır. CM-nin 222-237-ci maddəsində narkotik vasitələri qanunsuz daşıma, saxlama, təklif etmə, vermə, əldə etmə əməllərinə görə cinayət məsuliyyəti müəyyən edilmiş və bu maddənin sanksiyasında 10 ilədək müddətə azadlıqdan məhrum etmə və cərimə göstərilmişdir[181].

Fransanın CM-də (1992) narkotik cinayətlərə görə məsuliyyt «Şəxsə qarşı cinayətlər və xətalar haqqında» İkinci Kitabın «İnsan şəxsinə toxunma haqqında» II bölməsinin «Şəxsiyyətin fiziki və ya psixi toxunulmazlığına qəsd haqqında II fəslinin «Narkotiklərin qeyri-qanuni ticarəti haqqında» 4-cü hissəsinin 222-34-dən 222-51-ə qədər maddələrində nəzərdə tutulub. Fransanın səhiyyə haqqında qanunlar Məcəlləsində nəzərdə tutulmuşdur ki, hər hansı bir şəxs narkotik vasitə və ya maddələrə, yaxud narkotik xüsusiyyətlərə malik maddələrin qanunsuz istehlakına hər hansı bir şəkildə həvəs oyadırsa yaxud belə istehlakı təbliğ edirsə, beş ilə qədər həbslə və (və ya) 75 000 avroya qədər cərimə ilə cəzaya layiq cinayət törətmiş sayılır.

ÇXR-nın CM-də narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşıdurmaya yönəlmiş xeyli sayda normalar vardır: narkotiklərin qaçaqmalçılığı, narkotikləri daşıma, satma (maddə 347); külli miqdarda narkotikləri qanunsuz saxlama (maddə 348); narkotiklərin reallaşdırılmasından əldə edilən pul vəsaitlərini gizlətmə (maddə 349); dövlətin ərazisində narkotik vasitələrin dövriyyəsi qaydalarını pozma (maddə 350); narkotik tərkibli bitkiləri kultivasiya etmə (maddə 351); narkotik xassəli bitkilərin toxumlarını və ya şitillərini daşıma, saxlama, satma (maddə 352); digər şəxsləri narkotik istehlakına cəlb etmə və ya təhrik etmə (maddə 353); narkotiklərin istehlakı üçün şəraitlərin yara-

---

[181] Алейник И.Н. К вопросу об уголовной ответственности за незаконный оборот наркотических средств, психотропныъ веществ, их прекурсоров или аналогов по законодательству зарубежных стран//Актуальгные проблемы российского права. 2015. №4 (15), с.177

dılması və ya bunun üçün xüsusi binaların (mənzillərin) və digər yerlərin təqdim edilməsi (maddə 354); apteklərdə və digər tibb müəssisələrində narkotik vasitələrin satışı və reallaşdırılması qaydalarını pozma (355); narkocinayətləri təkrar törətmə (maddə 356).

ÇXR-nın CM-də narkotik vasitələrin və psixotrop maddələrin qaçaqmalçılığına görə cinayət məsuliyyəti məsələləri daha detal şəkildə tənzimlənmişdir (151-157-ci maddələr). CM-də yetkinlik yaşına çatmayanların narkotik vasitələrin qaçaqmalçılığına cəlb edilməsinə görə daha sərt cəza tədbirləri nəzərdə tutulmuşdur: 15 ilədək müddətə azadlıqdan məhrum etmə, ömürlük azadlıqdan məhrum və ya ölüm hökmü CM-ni n 347-ci maddəsi). Qeyd edək ki, bu maddədə həmçinin 1000 qramdan artıq tiryəkin, 50 qramdan artıq heroin və ya metamfetaminin, həmçinin külli miqdarda digər narkotiklərin qaçaqmalçılığı, ticarəti, daşınması və istehsalı; beynəlxalq mütəşəkkil narkobiznesdə iştirak etmə, narkotiklərin qaçaqmalçılığını, daşınmasını, istehsalını həyata keçirən cinayətkar dəstəyə rəhbərlik etmə kimi əməllər cinayət tərkibinin tövsifedici əlamətləri kimi müəyyən edilmişdir[182].

ÇXR-da ümumən cinayət məsuliyyəti 16 yaşdan başlayır, lakin narkotiklərin yayılması ilə bağlı bağlı əməllərə görə cinayət məsuliyyəti yaradan yaş həddi aşağı salınaraq 14 yaş müəyyən edilmişdir (CM-nin 17-cü maddəsi) [183].

Türkiyədə də cinayət-hüquqi vasitələrlə narkotiklərin qanunsuz dövriyyəsi ilə mübarizə məsələlərinə xüsusi önəm veri-

---

[182] Савчишкина О.Г., Степанов Г.И. Зарубежное законодательство об ответственности за контрабанду наркотических средств, психотропных веществ или их аналогов//Вестник Челябинского государственного университета. 2013. №17 (308), с.76.

[183] Семенова В.В. Российский и зарубежный опыт уголовного законодательства в сфере склонения к потреблению средств и веществ, представляющих угрозу здоровью населения//Вестник Санкт-Птербургского университета МВД России. 2017, с.114

lir. İlk öncə qeyd edək ki, Türkiyədə narkotik vasitələrin və psixotrop maddələrin icazəsiz və ya lisenziyasız istehsalı, emalı, idxalı, ixracı, onların qanunsuz dövriyyəsinə və satışına yönəlmiş bütün hərəkətlər Türkiyə Cəza Qanunu ilə hələ 1926-cı ildən cinayət məsuliyyəti doğuran əməllər kateqoriyasına aid edilmişdi.

6 iyun 1991-ci il tarixli 765 saylı Türk Cəza Qanunda narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı əməllərə, o cümlədən narkotik vasitələri və psixotrop maddələri satış məqsədi olmadan əldə etmə, saxlama, daşıma, hazırlama kimi əməllərə, narkotik vasitələri satış məqsədilə emal, idxal, ixrac etmə, əldə etmə, saxlama, daşıma və göndərmə, həmçinin satma əməllərinə görə cinayət məsuliyyəti Qanunun 403-cü maddəsində nəzərdə tutulmuşdu. Bu maddəyə 12 cinayət tərkibi daxil edilmiş, cinayətin predmeti qismində heroin, kokain, morfin və ya həşiş çıxış etdikdə (maddə 403.6), mütəşəkkil dəstə və ya cinayətkar təşkilat tərəfindən törədildikdə (maddə 403.7), iki və ya daha artıq şəxs tərəfindən törədildikdə və ya narkotiklərin qanunsuz dövriyyəsini qazanc vasitəsinə və ya peşəyə çevirən şəxs tərəfindən törədildikdə (maddə 403.8), yetkinlik yaşına çatmayan şəxsdən istifadə etməklə törədildikdə (maddə 403.9), narkotiklərin satışını həyata keçirmək üçün cinayətkar dəstə və ya cinayətkar təşkilat yaratma (maddə 403.10), saxta reseptlərlə narkotik vasitələr və psixotrop maddələr əldə etmə (maddə 403.12), cinayətin tövsifedici əlamətlərinə aid edilmişdir[184]. Göründüyü kimi, Qanunda ictimai təhlükəlilik dərəcəsi olduqca fərqli olan müxtəlif əməllərə görə ci-

---

184 Кобец П.Н., Краснова К.А. Ключевые компоненты национальной антинаркотической стратегии Турецкой Республики // Тюмень: Юридическая наука и правоохранительная практика. 2018, № 4 (46), с. 154; Алтунин Т.В. Уголовная ответственность за нарушение правил обороpта наркотик средств и психотропных веществ. Диссертация на соискание ученой степени кандидата юридических наук. М., 2021, с.61-62

nayət məsuliyyəti müəyyən edən müddəalar bir maddəyə daxil edilmişdir. Qeyd edək ki, ölkə qanunvericisi yeni qəbul edilmiş Cəza Qanunda bu nöqsanı aradan qaldırmışdır.

Yeni minilliyin ilk illərində Türkiyədə cinayət qanunvericiliyi əsaslı şəkildə təkmilləşdirilmiş və modernləşdirilmiş, praktiki olaraq Avropa İttifaqına üzv-dövlətlərinin cinayət qanunvericiliyinin standartları səviyyəsinə çatmışdır. Türkiyədə 26 sentyabr 2004-cü il tarixli Qanunla yeni Cinayət qanunvericiliyi (Cəza Qanunu) qəbul edilmiş və bu Qanun 8 iyul 2005-ci ildə qüvvəyə minmişdir.

Belə ki, 26 sentyabr 2004-cü il tarixli 5237 saylı Türkiyə Cəza Qanunun 188-ci maddəsində narkotik vasitələrin və stimullaşdırıcı maddələrin istehsalı və ticarətinə, Cəza Qanunun 190-cı maddəsində narkotik vasitələrdən və stimullaşdırıcı maddələrdən istifadə məqsədilə tiryəkxanaların təşkilinə, Cəza Qanunun 191-ci maddəsində isə narkotik vasitələrin və stimullaşdırıcı maddələrin istehlakı məqsədilə onların alınması, istehlakı və ya saxlanmasına görə cinayət məsuliyyəti nəzərdə tutulmuşdur.

Türkiyə Cəza Qanunun 188.1-ci maddəsinə əsasən narkotik və ya stimullaşdırıcı maddələri icazəsiz və ya lisenziyasız istehsal, idxal və ya ixrac edən şəxs 10 ildən az olmayan müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır. 188.4-cü maddədə narkotik vasitənin növünün heroin, kokain, morfin olması, 188.5-ci maddədə isə bu cinayətlərin mütəşəkkil cinayətkar qrupun və ya təşkilatın üzvü tərəfindən törədilməsi cinayət məsuliyyətini ağırlaşdıran hallara aid edilmiş və bu halda sanksiyaların yarıya qədər artırılması nəzərdə tutulmuşdur[185].

Türkiyə Cəza Qanunun 190-cı maddəsi «Narkotik və ya stimullaşdırıcı maddələrin istifadəsinə şərait yaratma» adlanır. Qa-

---

[185] Öner M.Z. Türk Ceza Kanunda uyuşturucu madde emal, ithal ve ihrac suçları // Ankara: Türkiye Barolar Birliği Dergisi. 2010, № 88, s. 125

nunun 190.1-ci maddəsində narkotik vasitələrin və stimullaşdırıcı maddələrin istifadəsi üçün xüsusi yer, avadanlıq və ya material təqdim edən, habelə narkotiklərin istifadə və hazırlanma üsulları barədə başqalarına məlumat verən şəxsin 5 ildən 10 ilədək müddətə cəzalandırılması nəzərdə tutulmuşdur. Qanunun 190.2-ci maddəsində narkotik vasitələrdən və stimullaşdırıcı maddələrdən istifadəni açıq şəkildə təbliğ və təşviq edən və ya bu xarakterli hərəkətləri sosial şəbəkələr, internet saytları vasitəsilə həyata keçirən şəxslərin 5 ildən 10 ilədək azadlıqdan məhrum etmə ilə cəzalandırılması müəyyən edilmişdir. Türk Cəza Qanununun 190.3-cü maddəsinə isə qeyd olunan əməllərin həkim, əczaçı, kimyaçı, baytar, laborant, tibb bacısı, digər səhiyyə işçisi tərəfindən törədilməsi halında sanksyaların yarıya qədər artırılması nəzərdə tutulmuşdur[186].

Cəza Qanunun 191-ci maddəsinə uyğun olaraq, narkotik vasitələri və stimullaşdırıcı maddələri satış məqsədi olmadan əldə etmə, saxlama, daşıma, ictimai yerlərdə onları istehlak etmə kimi əməllərə görə cərimə və ya 1 ildən 2 ilədək müddətə azadlıqdan məhrum etmə cəzası müəyyən olunmuşdur.

İran İslam Respublikasında (İİR) 1990-cı ilin əvvəllərində cinayət hüququnda aparılan islahat nəticəsində vahid məcəlləşdirilmiş akt-İİR-nın CM-i (islam cinayət cəzaları qanunu) qəbul olunaraq qüvəyə mindi. Eyni zamanda bu ölkədə narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə mübarizənin cinayət-hüquqi vasitələri CM-i ilə deyil, ayrıca qanunla tənzimlənir. Qeyd edək ki, İİR-da narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə mübarizə haqqında Qanun 1988-ci ildə qəbul edilmiş, 1997-ci ildə isə bu qanunda bir sıra əlavə və dəyişiklər aparılmışdır.

---

[186] Çakmut Ö.Y. Uyuştutucu ve ya uyarıcı madde kullanılmasını kolaylaştırma suçu // İzmir: D.E.Ü. Hukuk Fakultesi Dergisi, 2019. c.19, özel cilt. s. 3117 – 3120; Yılmaz E. Uyuşturucu veya uyarıcı madde kullanılmasını kolaylaştırma ve özendirme suçları (TCK m.190) // Ankara: Türkiye Adalet Akademisi Dergisi. 2018, № 35, s. 345-374

Qanunun 1-ci maddəsinə əsasən, narkotik maddə istehsal etmək məqsədilə xaş-xaş, koka və çətənə əkini; müxtəlif narkotik maddələrin idxalı, ixracı, göndərilməsi və istehsalı, narkotik maddələrin saxlanılması, daşınması, alınması, yayılması, gizlədilməsi, tranziti və satılması; narkotik maddələrin istifadəsi üçün xüsusi yerlərin, yəni tiryəkxanaların təşkili və saxlanması; qeyri-tibbi məqsədlərlə narkotik vasitələrin istehlakı; narkotik vasitələrin hazırlanması və istehsalı məqsədləri üçün prekursorların hazırlanması, alınması, satılması, saxlanması, bu məqsədlərlə xüsusi cihaz və avadanlıqların əldə edilməsi; narkotik vasitələrin qanunsuz dövriyyəsinin əlamətlərini, izlərini gizlətmək və yaxud məhv etmə və sair kimi əməllərə görə cinayət məsuliyyəti müəyyən olunmuşdur.

Qeyd edək ki, İİR-nın Məsləhət Şurasının 31 iyul 2010-cu il tarixli qərarı ilə bu qanuna dəyişiklik edilmiş, Qanunun 18-ci maddəsinə cinayətin iştirakçılıqla törədilməsinə görə daha sərt məsuliyyət nəzərdə tutan müddəalar əlavə edilmişdir. İİR qnunvericiliyində həmçinin narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı cinayətlərin törədilməsi məqsədilə hər hansı şəxsi işə götürmüş və ya onun fəaliyyətini təşkil etmiş, bu şəxslərə rəhbərlik etmiş, onlara maddi yardım göstərmiş və ya bu fəaliyyətə sərmayə yatırmış şəxslər, həmin cinayətlərə görə əmlakın müsadirə edilməsi ilə ömürlük azadlıqdan məhrum etmə və ya edam cəzası nəzərdə tutulmuşdur. Cinayətkar narkoşəbəkənin rəhbəri edam cəzasına məruz qalır.

İİR-da psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə mübarizə məsələləri ayrıca bir qanunla-«Ruhi təsir edən maddələr haqqında» 1975-ci il tarixli Qanunla tənzimlənir. Bu Qanunun 1-ci maddəsitnə uyğun olaraq, Səhiyyə Nazirliyi BMT-nin tövsiyəsinə uyğun olaraq ruhi təsir edən psixotrop maddələrin 4 siyahısını müəyyən etmişdir[187].

---

[187]Bənaiyan S.A. AR və İİR-nın qüvvədə olan cinayət qanunvericiliyinə görə yetkinlik yaşına çatmayanların narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz

S.A.Bənaiyan İİR-da narkotiklərlə bağlı kriminal əməllərin törədilməsinə yetkinlik yaşına çatmayanların cəlb edilməsinə, yeniyetmələri narkotik istehlakına zorla vadar ediliməsinə görə daha sərt sanksiyaların nəzərdə tutulduğunu göstərərək qeyd edir ki, «18 yaşı tamam olmamış uşaqları və yeniyetmələri və ağıl çatışmazlığı olan şəxsləri narkotik maddələr qəbul etməyə və ya bununla bağlı cinayətlər törətməyə məcbur edən şəxs, həmçinin başqa şəxsləri narkotik və psixotrop maddə qəbul etməyə məcbur edən şəxs və ya həmin maddələri hər hansı bir vasitə ilə başqasının vücüduna daxil edən şəxs qanunda nəzərdə tutulan maksimum cəzanın 1.5-i səviyyəsində cəzalandırılır. Ömürlük azadlıqdan məhrum edilmə cəzası isə edam və bütün əmlakının müsadirə edilməsi cəzası ilə dəyişdirilir» [188].

ABŞ-da federal səviyyədə narkocinayətlərə görə məsuliyyət məsələləri ABŞ-nın Qanunlar Külliyatının 21-ci kitabının 13-cü fəslinin 1 və 2-ci hissələrində əks olunmuşdur. Narkotik vasitələrin və psixotrop maddələrin leqal dövriyyəsi qaydalarını pozma ilə bağlı cinayət məsuliyyəti 841-843-cü maddələrdə nəzərdə tutulmuşdur. Məsələn, 842-ci maddəyə əsasən nəzarət altında olan maddələrin istehsalı, saxlanması, paylanması və reallaşdırılması qaydalarını bu qaydalara əməl etməli olan səlahiyyətli şəxs tərəfindən pozma cinayət məsuliyyəti doğurur[189].

ABŞ Qanunlar Külliyyatının 841-ci paraqrafı üç hissədən ibarətdir və bu normada dövriyyəsi tənzimlənən maddənin istehsalı, yayılması, daşınmasına görə cinayət məsuliyyəti nəzər-

---

dövriyyəsində iştirak etməsinə görə cinayət məsuliyyəti. Hüquq üzrə fəlsəfə doktoru elmi dərəcəsini almaq üçün təqdim olunmuş dissertasiyanın avtoreferatı. Bakı: 2016, s.27-29

[188] Bənaiyan S.A. AR və İİR-nın qüvvədə olan cinayət qanunvericiliyinə görə yetkinlik yaşına çatmayanların narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsində iştirak etməsinə görə cinayət məsuliyyəti. Hüquq üzrə fəlsəfə doktoru elmi dərəcəsini almaq üçün təqdim olunmuş dissertasiyanın avtoreferatı. Bakı: 2016, s.29

[189] Алтунин Т.В. Уголовная ответственность за нарушение правил обороpта наркотик средств и психотропных веществ. Диссертация на соискание ученой степени кандидата юридических наук. М., 2021, с.65

də tutulur. Bu paraqrafda həmçinin İnternet şəbəkəsi vasitəsilə dövriyyəsi tənzimlənən maddələrin qanunsuz çatdırılması və yayılması cinayət məsuliyyəti doğuran əməllər kateqoriyasına aid edilmişdir. ABŞ Qanunlar külliyyatının 860-cı maddəsində «məktəb zonaları» hesab edilən ərazilərdə narkotik vasitələrin yayılmasına görə cinayət məsuliyyəti nəzərdə tutulmuşdur. 860-cı paraqrafda həmçinin 21 yaşına çatmış şəxs tərəfindən 18 yaşına çatmayan şəxsi narkotik vasitələrin qanunsuz dövriyyəsinə cəlb etmə əməllərinə görə məsuliyyət müəyyən edən müddəalar əks olunmuşdur. Qanunlar Kulliyatının 860a paraqrafında 18 yaşına çatmayan şəxsin iştirakı ilə və ya onun olduğu və ya yaşadığı yerdə metamfetamin və onun duzlarının istehsalı, yayılması ilə məşğul olan şəxslərə münasibətdə daha sərt cəzalar müəyyən edilmişdir. Öz növbəsində Külliyatın 861-ci paraqrafında 860a paraqrafında sadalanan, lakin artıq 21 yaşına çatmayan şəxslərin və hamilə qadınların yanında narkotikləri hazırlama, satma və yayma əməllərinə görə cəzalar müəyyən edilmişdir[190].

ABŞ-da narkotik vasitələrin ticarəti ilə məşğul olanlara münasibətdə ölüm hökmünün nəzərdə tutulduğu bir sıra qanunlar vardır. Ölkənin Federal qanunvericiliyində yeniyetmə və gənclər mühitində (məktəblərdə, universitetlərdə və s.) narkotik vasitələrin yayılmasına istiqamətlənmiş əməllər ictimai təhlükəliliyi yüksək olan cinayətlər kateqoriyasına aid edilmişdir[191]. Narkotik vasitələrlə bağlı qanunsuz hərəkətlərə görə məsuliyyət ölkənin bir sıra ştatlarının cinayət məcəllələri ilə də nəzərdə tutulmuşdur[192].

---

[190] Семенова В.В. Российский и зарубежный опыт уголовного законодательства в сфере склонения к потреблению средств и веществ, представляющих угрозу здоровью населения//Вестник Санкт-Птербургского университета МВД России. 2017, с.114

[191] Шелли Д.Ф. Криминология. Пер. с англ. СПб, 2003, с.311

[192] Дьяченко А., Четвертакова Е. Ответственность за незаконный оброт наркотиков по УК зарубежных стран//Уголовное право. 2011. №1, с.9-10,

Bolqarıstan CM-nə narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı cinayətkar əməllər haqqında kifayət qədər geniş normalar sistemi daxil edilmişdir. Məsələn, Bolqarıstan CM-nin 354a maddəsinədə uyğun icazə olmadan satış məqsədilə narkotik vasitəni istehsal, emal, əldə etmə, yayma, saxlama, daşıma və ya göndərmə əməllərinə görə cərimə edilməklə 10 ildən 15 ilədək müddətə azadlıqdan məhrum etmə cəzası müəyyən edilmişdir.

Almaniya tarixində «narkohüquqpozmalar» anlayışını hüquqi terminologiyaya gətirən ilk qanunvercilik aktı 1929-cu il tarixli «Tiryəkin yayılmasının qadağan edilməsi haqqında» Qanun olmuşdur. Bu qanunla Almaniyada tiryək, kokain və marixuna ilə ticarət cinayət məsuliyyəti doğuran əməllər kateqoriyasına aid edilmişdir. Qanunda xüsusi olaraq qeyd olunurdu ki, şəxsin narkotik qəbul etmək məqsədilə narkotik vasitəni saxlamaq və əldə etmək cinayət hesab olunmur.

XX əsrin 60-cı illərin sonundan başlayaraq narkocinayətkarlığın artması «Tiryəkin qadağan edilməsi haqqında» Qanunun bir sıra müddəalarının müasir reallıqlara uyğun olmadığını göstərdi. Nəticədə 1971-ci ildə bu Qanun ləğv edildi və onun yerinə hazırda da qüvvədə olan «Narkotik vasitələr haqqında» Qanun qəbul edildi. Bu qanunvericilik aktı ilə dövlətin narkotik vasitələrin qanunsuz dövriyyəsinə münasibəti sərtləşdirilmiş, LSD, meskalin, marixuana və s. kimi narkotik vasitələrin dövriyyəsi qadağan olunmuşdur. Bir çox narkotik vasitələrin isə hətta tibbi məqsədlərlə də istifadəsi qadağan edilmiş, narkotiklərin ticarəti ilə bağlı əməllərə görə cəzalar daha da sərtləşdirilmişdir.

Almaniyada narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı bütün cinayətləri üç qrup üzrə təsnifləşdirmək olar:

1)1971-ci il tarixli «Narkotik vasitələr haqqında» Qanunun ümumi pozuntuları (bu qrup cinayətlərə şəxsi istehlak üçün narkotiklərin əldə edilməsi və saxlanması ilə bağlı əməllər daxildir);

2)narkotik vasitələrin qanunsuz ticarəti və qaçaqmalçılığı;

3)narkotik vasitələrin qanunsuz olaraq ölkəyə gətirilməsi[193].

Almaniya qanunvericisi tərəfindən narkotiklərin qanunsuz dövriyyəsinə görə cinayət məsuliyyəti yaradan yaş həddi 14 yaş müəyyən edilmişdir. 28 iyul 1981-ci il tarixli «Narkotik vasitələrin dövriyyəsi haqqında» Almaniya Federal Qanunun 6-cı bölməsinə narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə bağlı cinayətlərə görə məsuliyyət müəyyən edən 29, 29a, 30, 30a, 30b kimi beş paraqraf daxil edilmişdir.

Belə ki, Almaniya Federal Qanunun 29-cu paraqrafında narkotik tərkibli bitkini qanunsuz becərmə, satma, satış məqsədi olmadan idxal və ixrac etmə, digər şəxsə qanunsuz olaraq narkotik vasitə əldə etmək üçün şərait yaratma, digər şəxsi narkotik istehlakına təhrik etmə, ictimai yerlərdə narkotikləri yayma kimi əməllərə görə cinayət məsuliyyəti müəyyən edilmişdir. Qeyd edək ki, Almaniya Federal Qanunun 29-cı paraqrafının 8-ci hissəsində narkotik vasitələrin reklamına görə də cinayət məsuliyyəti nəzərdə tutulmuşdur.

Federal Qanunun 29a paraqrafında 21 yaşına çatmış şəxs tərəfindən 18 yaşına çatmayan şəxsə narkotik vasitəni istehlak və ya saxlama üçün vermə və ya xeyli miqdarda narkotik vasitəni satma əməllərinə görə cinayət məsuliyyəti nəzərdə tutulmuşdur.

Federal Qanunun 30-cu paraqrafı banda və ya mütəşəkkil dəstənin üzvü tərəfindən narkotik vasitələri qanunsuz yetişdirmə, istehsal etmə və ya satma əməllərinə görə cinayət məsuliyyəti təyin edir[194].

---

[193] Шумов В.А. История противодействия преступности в сфере незаконного оборота наркотиков в Германии//Труды Института государства и права Российской академии наук 2010. №5 с.57-60

[194] Семенова В.В. Российский и зарубежный опыт уголовного законодательства в сфере склонения к потреблению средств и веществ, представляющих угрозу здоровью населения//Вестник Санкт-Птербургского университета МВД России. 2017, с.112-113

Böyük Britaniya qanunvericiliyində narkotik vasitənin digər şəxslərə verilməsi istisna edilməklə narkotiklərin saxlanmasına görə cinayət məsuliyyəti nəzərdə tutulsa da təyin edilən cəza narkotik vasitənin növünə görə fərqləndirilir. Belə ki, A kateqoriyasına aid edilən metadon, morfin, kokain, heroin, ekstazi, LSD və tiryək kimi narkotikləri (xüsusilə təhlükəli narkotiklər) saxlamaya görə ümumi qaydada 6 ayadək azadlıqdan məhrumetmə və ya cərimə cəzası, ittiham aktı üzrə 7 ilədək azadlıqdan məhrumetmə cəzası və ya cərimə cəzası; B kateqoriyasına aid edilən kodein, kannabis və amfetaminlərin (təhlükəli narkotiklər) saxlanmasına görə ümumi icraat qaydasında 3 ayadək azadlıqdan məhrumetmə və ya cərimə cəzası, ittiham aktı üzrə 5 ilədək azadlıqdan məhrumetmə və ya cərimə cəzası; C kateqoriyasına aid edilən bəzi amfetamin, sedativ vasitələr və benpodiazepinlərin (az təhlükəli) saxlanması üçün ümumi icraat qaydasında 3 ayadək azadlıqdan məhrumetmə və ya cərimə, ittiham aktı əsasında 2 ilədək azadlıqdan məhrumetmə və ya cərimə cəzası nəzərdə tutulmuşdur [195].

Belçikada 18 yaşı tamam olmuş şəxsin 5 qrama qədər marixuana, Kolumbiyada 20 qrama qədər marixuna (2010-cu ildən); Meksikada (2009-cu ildən) 5 qrama qədər marixuana; Çex Respublikasında 15 qram marixuana, 5 qram həşiş, 1,5 qram heroin, 2 qram kokain, 2 qram pervitin (2010-cu ildən) saxlama cinayət əməli hesab edilmir və buna görə cinayət məsuliyyəti yaranmır[196].

Qeyd edək ki, 2015-ci ildə BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsi narkotiklərin istehlakına qarşı cinayət mə-

---

[195] Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə: real vəziyyət və həlli yolları. Azərbaycan Respublikasının Baş Prokurorluğunun Elmi-Tədris Mərkəzi. Bakı: 2021, s.50

[196] Ковалева О.Н. Генезис становления уголовной ответственности за преступления в сфере незаконного оборота наркотических средств и психотропных веществ (в РФ и зарубежном)//Евразийский Союз Ученых. 2016. №3(24), с.23-24

suliyyətinin müəyyən olunmasının əleyhinə çıxış etmiş və bildirmişdir ki, qeyri-tibbi məqsədlərlə narkotiklərdən istifadə etmənin və şəxsi məqsədlər üçün onları saxlamanın cinayət kimi nəzərdən keçirilməsi ictimai təhlükəsizlik və insan hüquqları sahəsində mənfi nəticələrə gətirib çıxarır» [197].

Y.İ.Qilinski hesab edir ki, dünya birliyi tez və ya gec bütün narkotik vasitələrin leqallaşdırılmasının zəruriliyi ideyasına gələcəkdir. Çünki narkotikdən qeyri-tibbi istifadə etmə hər bir insanın şəxsi işidir, problemin sərt sankiyaların müəyyən edilməsi, ciddi cinayət-hüquqi tədbirlərin qəbulu yolu ilə həll etməyə cəhd edilməsi isə hər hansı bir ciddi nəticələrə və irəliləyişə gətirməyəcəkdir[198].

Belçika və Böyük Britaniyada kannabisdən (çətənədən) qeyri-tibbi istifadə ilə bağlı cəzalar xeyli yüngülləşdirilmişdir. Belçikada 2001-ci ildə qəbul edilmiş qanunvericiliyə uyğun olaraq, müəyyən şəraitlərdə kannabisdən sui-istifadəyə görə inzibati cərimə müəyyən olunub, 2005-ci ilin fevralında qəbul edilmiş direktiv isə bu yüngülləşdirilmiş cəzada istisna müəyyən edərək, məktəbdə və ya onun həndəvərində, parklarda, ictimai nəqliyyat dayanacaqlarında olarkən üzərində kannabis gəzdirən şəxslərə münasibətdə daha sərt cəzalar nəzərdə tutulmuşdur.

Belçika parlamenti 2003-cü ildə yüngül narkotiklərin leqallaşdırılması haqqında qanun qəbul etmişdir[199].

Təhlil göstərir ki, xarici ölkələrdə bu sahədə cinayət qanunvericiliyinin inkişafında satış məqsədi olmadan narkotik vasitələri əldə etmə, saxlama və daşımaya görə cinayət məsuliyyətinin yün-

---

[197] Идрисов Н.Т. Зарубежный опыт борьбы с незаконным оборотом наркотических средств и возможность его применения в России//Законность и правопорядок в современном обществе. 2016, с.111-112

[198] Гилинский Я.И. Наркотизм: социальные и криминальные проблемы//Наркотизм. Наркомания. Наркополитика: сб.статей//Под ред.А.Г.Софронова. СПб., 2006, с.28.

[199] Корнеева Г.К., толоконникова С.И. Легализация наркотиков как социально-психологическая проблема//Вестник общественной научно-исследовательской лаборатории. 2016. с.139-140

güllәşdirilmәsi, bәzi hallarda hәtta inzibati xәtalarla әvәz edilmәsi, narkoticarәtә görә mәsuliyyәt müәyyәn edәn normaların sanksiyalarının isә daha da sәrtlәşdirilmәsi kimi xarakterik meyillәr müşahidә olunur.

Mәsәlәn, Danimarkada 2007-ci ildә narkotiklәrin ticarәtinә görә azadlıqdan mәhrum etmә cәzası artırılmış, 2004-cü ilin әvvәlindә Estoniyada eyni cinayәtlәrә görә daha ağır cәzalar müәyyәn edilmiş, Böyük Britaniyada narkotiklәrin ticarәtinә görә azadlıqdan mәhrum etmә cәzası 5 ildәn 14 ilә qәdәr artırılmışdır. Qeyd edәk ki, Böyük Britaniyada mәktәbdә vә ya onun hәndәvәrindә, gәnclәrin yığışdığı klublarda, oyun meydançalarında olarkәn üzәrindә kannabis olan şәxslәrә münasibәtdә cәzalar ağırlaşdırılmışdır.

Azәrbaycan Respublikasının cinayәt qanunvericiliyi ilә müәyyәn dәrәcәdә uyğunluq tәşkil etdiklәrinә görә bir sıra postsovet ölkәlәrinin hazırda qüvvәdә olan CM-nin narkotik vasitәlәrin vә psixotrop maddәlәrin qanunsuz dövriyyәsinә görә mәsuliyyәt nәzәrdә tutan normaların tәhlili dә mәqsәdәuyğun hesab edilmәlidir.

Qeyd edәk ki, postsovet ölkәlәrindә narkocinayәtlәrә görә mәsuliyyәt nәzәrdә tutan normaların daxil olduğu fәsillәrin adlarında da müәyyәn uyğunluq müşahidә edilir. Mәsәlәn, Ukrayna CM-dә narkotiklәrin qanunsuz dövriyyәsi ilә bağlı cinayәtlәr «Narkotik vasitәlәrin, psixotrop maddәlәrin, onların analoqlarının dövriyyәsi sahәsindә cinayәtlәr vә әhalinin sağlamlığı әleyhinә digәr cinayәtlәr» adlanan 13-cü fәslә daxil edilmişdir (305-320-ci maddәlәr). Özbәkistan CM-dә narkotik vasitәlәrin vә psixotrop maddәlәrinin qanunsuz dövriyyәsi ilә bağlı cinayәtlәr «narkotik vasitәlәrin vә psixotrop maddәlәrin qanunsuz dövriyyәsini tәşkil edәn cinayәtlәr» adlanan müstәqil 19-cu fәslә daxil edilmişdir [200].

[200] Шалагин А.Е. Зарубежное законодательство в сфере противодействия незаконному обороту наркотиков//Атуальные проблемы экономики и права. 2011. №4, с.

5 aprel 2001-ci il tarixli Ukrayna CM-nin 13-cü bölməsi «Narkotik vasitələrin, psixotrop maddələrin, onların analoqlarının və ya prekursorarın qanunsuz dövriyyəsi sahəsində cinayətlər və əhalinin sağlamlığını əleyhinə digər cinayətlər» adlanır və bu bölməyə aşağıdakı maddələr daxil edilmişdir:

- Narkotik vasitələrin, psixotrop maddələrin, onların analoqlarının və ya prekursorlarının və ya saxtalaşdırılmış dərman vasitələrinin qaçaqmalçılığı (maddə 305);
- Narkotik vasitələrin, psixotrop maddələrin, onların analoqlarının, prekursorarın, zəhərli və ya güclü təsir edən maddaların və ya zəhərli və ya güclü təsir edən dərman vasitələrinin qanunsuz dövriyyəsində əldə edilən vəsaitlərdən istifadə etmə (306);
- Satış məqsədilə narkotik vasitləri, psixotrop maddələri və ya onların analoqlarını qanunsuz istehsal etmə, hazırlama, əldə etmə, saxlama, daşıma və ya göndərmə, habelə onları qanunsuz satma (maddə 307);
- Narkotik vasitələri, psixotrop maddələri və ya onların analoqlarını talama, mənimsəmə, hədə-qorxu ilə tələb etmə və ya dələduzluq yolu ilə və ya vəzifə səlahiyyətlərindən sui-istifadə etməklə ələ keçirmə (maddə 308);
- Satış məqsədi olmadan narkotik vasitələri, psixotrop maddələri və ya onların analoqlarını qanunsuz istehsal etmə, hazırlama, saxlama, daşıma və ya göndərmə (maddə 309);
- tiryək xaş-xaşı və ya kənaf (çətənə) əkmə və ya becərmə (maddə 310);
- Prekursorları qanunsuz istehsal etmə, hazırlama, əldə etmə, saxlama, daşıma və ya göndərmə (maddə 311);
- Prekursorları talama, mənimsəmə, hədə qorxu ilə tələb etmə və ya onların dələduzluq və ya vəzifə səlahiyyətlərindən sui-istifadə etmək yolu ilə ələ keçirmə (maddə 312);
- Narkotik vasitələrin, psixotrop maddələrin və ya onların analoqlarının hazırlanması üçün nəzərdə tutulan avadanlığı ta-

lama, mənimsəmə, hədə-qorxu ilə tələb etmə və ya dələduzluq və ya vəziyyə səlahiyyətlərindən sui-istifadə etmək yolu ilə onları ələ keçirmə (maddə 313);

- Narkotik vasitələrin, psixotrop maddələrin və ya onların analoqlarının orqanizmə qanunsuz daxil edilməsi (maddə 314);

- Narkotik vasitələrin, psixotrop maddələrin və ya onların analoqlarının istehlakına təhrik etmə (maddə 315);

- İctimai yerlərdə narkotik vasitələrinin qanunsuz istehlakı (maddə 316);

- Narkotik vasitələrin, psixotrop maddələrin və ya onların analoqlarının qanunsuz istehlakı, istehsalı və ya hazırlanması üçün yerlərin təşkili və saxlanması (maddə 317);

- Narkotik vasitələri, psixotrop maddələri və ya prekursorları əldə etmək üçün saxta sənədləri hazırlama, sənədləri saxtalaşdırma, saxta sənədlərdən istifadə etmə və ya saxta sənədləri satma (maddə 318);

- Narkotik vasitələrin, psixotrop maddələrin, onların analoqlarının və ya prekursorlarının dövriyyəsi sahəsində müəyyən olunan qaydaları pozma (maddə 319).

3 iyul 2014-cü il tarixli Qazaxıstan Respublikasının Cinayət Məcəlləsində narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı cinayətlər «əhalinin sağlamlığı və mənəviyyat əleyhinə cinayətlər» adlanan 11-ci fəslə daxil edilmişdir.

- Satış məqsədi olmadan narkotik vasitələr, psixotrop maddələrin, onların analoqlarının qanunsuz dövriyyəsi (maddə 296);

- Narkotik vasitələri, psixotrop maddələri, onların analoqlarını satış məqsədilə qanunsuz hazırlama, emal etmə, əldə etmə, saxlama, daşıma və ya göndərmə və ya satma (maddə 297);

- Narkotik vasitələri, psixotrop maddələri, onların analoqlarını talama və ya hədə-qorxu ilə tələb etmə (maddə 298);

- Narkotik vasitələrin, psixotrop maddələrin, onların analoqlarının istehlakına təhrik etmə (maddə 299);

- Narkotik vasitələri, psixotrop maddələri və ya onların analoqlarını, prekursorları təbliğ və ya qanunsuz reklam etmə (maddə 299-1);

- Tərkibində narkotik maddələr olan bitkilərin qanunsuz kultivasiyası (maddə 300);

- Zəhərli maddələrin qanunsuz dövriyyəsi, həmçinin narkotik vasitələrin, psixotrop maddələrin, onların analoqlarının və ya zəhərli maddələrin hazırlanması və ya emalı üçün istifadə olunan maddələrin, alətlərin və ya avadanlıqların qanunsuz dövriyyəsi (maddə 301);

- Narkotik vasitələrin, psixotrop maddələrin, onların analoqlarının istehlakı üçün tiryəkxanaları təşkil etmə və ya saxlama və eyni məqsədlər üçün bina (mənzil) təqdim etmə (maddə 302);

- Narkotik vasitələrin, psixotrop maddələrin və ya zəhərli maddələrin dövriyyəsi qaydalarını pozma (maddə 303).

22 Sentyabar 1999-cu il tarixli Gürcüstan CM-nin 33-cü fəsli «Narkotiklərlə bağlı cinayətlər adlanır. Bu fəsildə narkotik vasitələri, onların analoqlarını, prekursorları və ya yeni psixoaktiv maddələri qanunsuz hazırlama, istehsal etmə, əldə etmə, saxlama, daşıma, göndərmə və ya satma (maddə 260); psixotrop maddələri, onların analoqlarını və ya güclü təsir edən maddələri qanunsuz hazırlama, istehsal etmə, əldə etmə, saxlama, daşıma, göndərmə və ya satma (maddə 261); narkotik vasitələri, onların analoqlarını, prekursorları və ya yeni psixoaktiv maddələri Gürcüstana qanunsuz gətirmə, Gürcüstandan qanunsuz çıxarma və ya onların beynəlxalq tranzit daşınması (maddə 262); psixotrop maddələri, onların analoqlarını və ya güclü təsir edən maddələri külli miqdarda Gürcüstana qanunsuz gətirmə, Gürcüstandan qanunsuz çıxarma və ya onların beynəlxalq tranzit daşınması

(maddə 263); narkotik vasitələri, onların analoqlarını, prekursorları, yeni psixoaktiv maddələri, psixotrop maddələri, onların analoqlarını və ya güclü təsir edən maddələri qanunsuz ələ keçirmə (mənimsəmə) və ya hədə-qorxu ilə tələb etmə (maddə 264); narkotik vasitələri, onların analoqlarını, prekursorları, yeni psixoaktiv maddləri, psixotrop maddələri və ya onların analoqlarını qanunsuz istehsal etmək üçün gizli laboratoriya təşkil etmə və ya saxlama (maddə 266); narkotik vasitələri əldə etmək hüququ verən saxta reseptləri və ya digər sənədləri satış məqsədi üçün hazırlama və ya satma (maddə 267); psixotrop maddələri və ya güclü təsir edən maddələri əldə etmək hüququ verən saxta reseptləri və ya digər sənədləri satış məqsədi üçün hazırlama və ya satma (maddə 268); narkotik vasitələrin və ya prekursorların hazırlanması, istehsalı, əldə edilməsi, uçotu, buraxılması, saxlanması, daşınması, göndərilməsi və ya gətirilməsi qaydalarını pozma (maddə 269); psixotrop maddələrin və ya güclü təsir edən maddələrin hazırlanması, istehsalı, əldə edilməsi, uçotu, buraxılması, saxlanması, daşınması, göndərilməsi və ya gətirilməsi qaydalarını pozma (maddə 270); narkotik vasitələrin, onların analoqlarının, yeni psixoaktiv maddələrin, psixotrop maddələrin və ya onların analoqlarının qanunsuz istehlakı üçün mənzillər və ya digər yerlər (pomeşenie) təqdim etmə (maddə 271); narkotik vasitələrin, onların analoqlarının, yeni psixoaktiv maddələrin, psixotrop maddələrin və ya onların analoqlarının istehlakına təhrik etmə (maddə 272); narkotik vasitələrin, onların analoqlarının və ya prekursorları kiçik ölçülərdə qanunsuz hazırlama, əldə etmə, saxlama, daşıma, göndərmə və ya (və) həkim təyinatı olmadan onları qanunsuz istehlak etmə (maddə 273) və məcbiri müalicədən yayınma (maddə 274) kimi əməllərə görə cinayət məsuliyyəti müəyyən olunmuşdur.

Qeyd edək ki, CM-nin 260-cı maddəsində nəzərdə tutulan əməllər narkotik vasitələri, onların analoqlarını və ya yeni psi-

xoaktiv maddələri qanunsuz satma ilə bağlı əməllər külli miqdarda, qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən, vəzifə səlahiyyətləindən istifadə etməklə, təkrar törədildikdə 12 ildən 18 ilədək müddətə; xüsusilə külli miqdarda və ya mütəşəkkil dəstə tərəfindən törədildikdə 14 ildən 20 ilədək müddətə və ya ömürlük azadlıqdan məhrum etmə ilə cəzalandırılır. Eynilə də CM-nin 262-ci maddəsi ilə nəzərdə tutulan əməllər xüsusilə külli miqdarda, mütəşəkkil dəstə tərəfindən törədildikdə-15 ildən 20 ilədək müddətə və ya ömürlük azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

1 dekabr 2021-ci ildə qüvvəyə minmiş 28 oktyabr 2021-ci il tarixli Qırğızıstan Respublikasının CM-də narkotik vasitələrin, psixotrop maddələrin və onların analoqlarının, habelə prekursorların qanunsuz dövriyyəsi ilə bağlı cinayətlər «Narkotik vasitələrin, psixotrop maddələrin, onların analoqlarının və prekursorların dövriyyəsi sahəsində cinayətlər» adlanan 36-cı fəslə daxil edilmiş və bu fəsildə bu kateqoriyalı aşağıdakı kriminal əməllərə görə cinayət məsuliyyəti müəyyən olunmuşdur:

- satış məqsədilə qanunsuz olaraq narkotik vasitələri, psixotrop maddələri və onların analoqlarını hazırlama (maddə 282);
- narkotik vasitələri, psixotrop maddələri və onların analoqlarını satış məqsədi olmadan qanunsuz hazırlama (maddə 283);
- prekursorları qanunsuz hazırlama (maddə 284);
- narkotik vasitələri və ya psixotrop maddələri talama və ya hədə-qorxu ilə tələb etmə (maddə 286);
- narkotik vasitələrin və psixotrop maddələrin istehlakına təhrik etmə (maddə 287);
- narkotik tərkibli bitkiləri əkmə və becərmə (maddə 288);
- narkotik vasitələrin, psixotrop maddələrin, onların analoqlarının və prekursorarın qanuni dövriyyəsi qaydalarını pozma (maddə 289);

- narkotik vasitələri, psixotrop maddələri, onların analoqlarını istehlakı üçün tiryəkxanaların təşkil etmə və ya saxlama (maddə 290);

- narkotik vasitələri, psixotrop maddələri və onların analoqlarını əldə etmək üçün sənədləri qanunsuz olaraq vermə və ya saxtalaşdırma (maddə 291).

Qeyd edək ki, Qırğızıstan CM-də də bir sıra əməllərə, məsələn, narkotik vasitələri, psixotrop maddələri və onların analoqlarını satış məqsədi ilə qanunsuz hazırlama, əldə etmə, saxlama, daşıma, habelə onların qanunsuz istehsalı və satışına (maddə 282) görə azadlıqdan məhrum etmə ilə yanaşı, əmlakın müsadirə olunması kimi cəza növü də nəzərdə tutulmuşdur.

Rusiya Federasiyasının 1996-cı il tarixli CM-nin 25-ci fəsli «əhalinin sağlamlığı və ictimai mənəviyyat əleyhinə cinayətlər» adlanır və bu fəslin 228-234-cü maddələri narkotik vasitələrin, psixotrop maddələrin və ya onların analoqlarının qanunsuz dövriyyəsi ilə bağlı cinayətlərə görə məsuliyyət müəyyən edən normalardır.

RF CM-nin 228-ci maddəsində narkotik vasitələri, psixotrop maddələri və ya onların analoqlarını qanunsuz əldə etmə, saxlama, daşıma, hazırlama, emal etmə, həmçinin tərkibində narkotik vasitələr olan bitkiləri və ya tərkibində narkotik vasitələr və ya psixotrop maddələr olan psixotrop maddələri və ya onların hissələrini qanunsuz əldə etmə, saxlama, daşıma kimi əməllərə görə məsuliyyət nəzərdə tutan müddəalar daxil edilmişdir.

RF CM-nin 228-1-ci maddəsi isə narkotik vasitələrin, psixotrop maddələri və ya onların analoqlarını qanunsuz istehsal etmə, satma və ya göndərmə, həmçinin tərkibində narkotik vasitələr və ya psixotrop maddələr olan bitkiləri və ya onların hissələrini qanunsuz satma və ya göndərmə kimi əməllərə görə cinayət məsuliyyəti müəyyən edir. Narkotik vasitələri, psixotrop

maddələri və ya onların analoqlarını: a)istintaq təcridxanasında, islah müəssisəsində, inzibati təyinatlı binada, təhsil müəssisəsində, idman obyektlərində, dəmir yolu, hava, dəniz nəqliyyatında, metropolitendə, hərbi hissənin ərazisində, ictimai nəqliyyatda və ya əyləncə və ya asudə vaxt üçün istifadə edilən yerlərdə satma; b)kütləvi informasiya vasitələrindən və ya elektron və ya informasiya-telekommunikasiya şəbəkələrindən («İnternet» şəbəkəsi daxil olmaqla) istifadə etməklə satma cinayətin tövsifedici əlamətləri; eyni əməllərin qabaqcadan əlbir olan bir qrup şəxs və ya xeyli miqdarda törədilməsi, həmçinin mütəşəkkil dəstə, vəzifə səlahiyyətindən istifadə etməklə, 18 yaşına çatmış şəxs tərəfindən yetkinlik yaşına çatmayana münasibətdə törədilməsi, külli miqdarda və xüsusilə külli miqdarda törədilməsi cinayətin xüsusilə tövsifedici əlamətləri kimi müəyyən edilmişdir.

CM-nin 228-2-ci maddəsində narkotik vasitələrin və ya psixotrop maddələrin və ya prekursorların, xüsusi nəzarət altında olan narkotik vasitələrin və ya psixotrop maddələrin hazırlanması üçün istifadə edilən alətlərin və ya avadanlıqların istehsalı, hazırlanması, emalı, saxlanması, uçotu, buraxılışı, reallaşdırılması, satışı, paylanması, daşınması, göndərilməsi, əldə edilməsi, istifadə edilməsi, ixracı və idxalı qaydalarını pozma ilə bağlı əməllərə görə, 228-3-cü maddədə isə külli miqdarda narkotik vasitələrin və ya psixotrop maddələrin prekursorlarını qanunsuz əldə etmə, saxlama və ya daşıma, həmçinin tərkibində narkotik vasitələr və ya psixotrop maddələr olan bitkiləri qanunsuz əldə etmə, saxlama və ya daşıma əməllərinə görə məsuliyyət nəzərdə tutulmuşdur.

Külli miqdarda narkotik vasitələrin və ya psixotrop maddələrin prekursorlarını qanunsuz istehsal etmə, satma və ya göndərmə, həmçinin tərkibində narkotik vasitələrin və ya psixotrop maddələrin prekursorları olan bitkiləri qanunsuz satma və ya göndərmə ilə bağlı hərəkətlər RF CM-nin 228-4-cü maddəsi ilə

cinayət məsuliyyətinin yaranmasına səbəb olur. Qeyd edək 228-1-228-4-cü maddələr RF CM-nə RF-nın 1 mart 2012-ci il tarixli Federal Qanunu ilə daxil edilmişdir

RF CM-nin 229-cu maddəsində narkotik vasitələri və ya psixotrop maddələri, həmçinin tərkibində narkotik vasitələr və ya psixotrop maddələr olan bitkiləri və ya onların hissələrini talama və ya hədə-qorxu ilə tələb etmə; 229-1-ci maddədə isə narkotik vasitələrin, psixotrop maddələrin, onların prekursorlarının və ya analoqlarının, tərkibində narkotik vasitələr, psixotrop maddələr və ya onların prekursorları olan bitkilərin, xüsusi nəzarət altında olmaqla narkotik vasitələrin və ya psixotrop maddələrin hazırlanması üçün istifadə olunan alətlərin və ya avadanlığın qaçaqmalçılığına görə cinayət məsuliyyəti müəyyən olunmuşdur. CM-nin 229-1-ci maddəsinin xüsusilə tövsifedici tərkibində eyni əməllərin mütəşəkkil dəstə tərəfindən, xüsusilə külli miqdarda, gömrıük və sərhəd nəzarətini həyata keçirən şəxsə zor tətbiq etməklə törədilməsinə görə məsuliyyət nəzərdə tutulmuşdur. Bu maddə RF CM-nə 7 dekabr 2011-ci il tarixli Federal Qanunla daxil edilmişdir.

RF CM-nin 230-cu maddəsi narkotik vasitələrin, psixotrop maddələrin və ya onların analoqlarının istehlakına təhrik etmə adlanır və bu maddənin tövsifedici və xüsusilə tövsifedici əlamətləri eyni əməlləri qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən, iki və ya daha artıq şəxsə münasibətdə, zor tətbiq etməklə və ya zor tətbiq etmə hədəsi ilə, informasiya-telekommunikasiya şəbəkələrindən («İnternet» şəbəkəsi daxil olmaqla) istfadə etəklə törədildilməsi, habelə yetkinlik yaşına çatmayanlara münasibətdə törədilməsi və ya ehtiyatsızlıqdan zərərçəkənin ölümünə və ya digər ağır nəticələrə gətirməsi müəyyən edilmişdir. Qeyd edək ki, «informasiya-telekommunikasiya şəbəkələrindən («İnternet» şəbəkəsi daxil olmaqla) istfadə etəklə törədildikdə» kimi tövsifedici əlamət RF-nın CM-nə 1 yanvar 2010-cu il tarixli Federal Qanunla daxil edilmişdir.

CM-nin 231-ci maddəsində tərkibində narkotik vasitələr və ya psixotrop maddələr və ya onların prekursorları olan bitkiləri qanunsuz kultivasiya etməyə; 232-ci maddəsində narkotik vasitələrin, psixotrop maddələrin və ya onların analoqlarının istehlakı üçün tiryəkxanaları təşkil etmə və ya saxlama və ya bunun üçün mütəmadi olan yerlər təqdim etməyə; 233-cü maddədə narkotik vasitələri və ya psixotrop maddələri əldə etmək hüququ verən reseptləri və ya digər sənədləri saxtalaşdırma və ya qanunsuz olaraq verməyə; 234-1-ci maddədə isə satış məqsədilə yeni potensial təhlükəli psixoaktiv maddələri qanunsuz istehsal etmə, hazırlama, emal etmə, saxlama, daşıma, göndərmə, əldə etmə, ölkə ərazisinə gətirmə, ölkə ərazisindən çıxarma, həmçinin onları qanunsuz satma əməllərinə görə cinayət məsuliyyəti müəyyən edilmişdir.

MDB ölkələrində nəzərdən keçirilən cinayətlərin predmeti qismində əsasən narkotik vasitələr və psixotrop maddələr çıxış edir. Prekursorların dövriyyəsi qaydalarını pozmaya görə cinayət məsuliyyəti yalnız Belarus, Ukrayna, Tacikistan, Azərbaycan və Türkmənistan cinayət qanunvericiliyində nəzərdə tutulmuşdur. Digər MDB ölkələrindən fərqli olaraq Belarus, Tacikistan, Azərbaycan və Türkmənistan cinayət məcəllələrində xüsusi nəzarət altında olan narkotik vasitələrin və psixotrop maddələrin hazırlanması üçün nəzərdə tutulan alətlər və avadanlıqlar da cinayətin predmetinə aid edilmişdir. Qeyd olunanlarla yanaşı Ukrayna, Qazaxıstan, Rusiya Fedarasiyası və bir sıra digər possovet ölkələrinin cinayət qanunvericiliyində narkotik vasitələrin və psixotrop maddələrin analoqlarının qanunsuz dövriyyəsinə görə cinayət məsuliyyəti müəyyən edilmişdir[201]. Həmçinin Rusiya Fedarasiyası və Qazaxıstan Respublikasının CM-də azadlıqdan məhrum etmə ilə yanaşı əmlak müsadirəsi kimi cəza növü də vardır.

[201] Алтунин Т.В. Уголовная ответственность за нарушение правил обороpта наркотик средств и психотропных веществ. Диссертация на соискание ученой степени кандидата юридических наук. М., 2021, с.52-53

# FƏSİL 7. XARİCİ ÖLKƏLƏRDƏ NARKOTİK VASİTƏLƏRİN VƏ PSİXOTROP MADDƏLƏRİN QANUNSUZ DÖVRİYYƏSİNİN QARŞISININ ALINMASI, NARKOMANLIĞIN PROFİLAKTİKASI

Xüsusi ədəbiyyatın təhlili göstərir ki, XX əsrin 80-cı illərindən başlayaraq dünyanın bir sıra ölkələrində, xüsusən də Böyük Britaniya, Almaniya, Fransa və s. kimi Qərbi Avropa ölkələrində, habelə ABŞ, Kanada və digər Şimali Amerika ölkələrində cinayətkarlıqla, o cümlədən narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə mübarizəyə istiqamətlənmiş xüsusi proqramların qəbulu və həyata keçirilməsi üzrə müəyyən təcrübə toplanmışdır. Hesab edirik ki, belə bir praktikanın təhlili və qiymətləndirilməsi məqsədəuyğundur. Prof. İ.M.Rəhimov və digərləri də düzgün olaraq qeyd edirlər ki, «bütün bu qabaqcıl təcrübəni öyrənmək və bizim ictimai praktikada istifadə etmək müsbət nəticələr verə bilərdi»[202].

Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinin, narkomanlığın hər bir ölkə üçün olduqca böyük təhlükə kəsb edən mürəkkəb sosial-hüquqi problem olduğu nəzərə alınaraq bir sıra dövlətlər artıq XX əsrin 80-90-cı illərindən başlayaraq dövlət səviyyəsində  ümummilli və regional proqramlar qəbul edrək həyata keçirməyə başlamışlar.

Məsələn, ABŞ-da 1983-cü ildə prezident fərmanı ilə yaradılmış mütəşəkkil cinayətkarlıq üzrə Komissiyası tərəfindən narkomanlığın profilaktikası, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə mübarizə üzrə Proqram hazırlanmış və bu proqramda digər tədbirlərlə yanaşı, aşağıdakılar da nəzərdə tutulmuşdur: 1)narkotiklərın qanunsuz dövriyyəsinin və narkomanlığın  daha geniş vüsət aldığı regionlarda narkotik

---

[202] Rəhimov İ.M., Həsənov E.E., Abdullayev Y.S., Cavadova İ.A. Cinayətkarlıq və kibernetika. Bakı: 1995, s.25-26

vasitələrin və psixotrop maddələrin qanunsuz ticarətinin vəziyyətinin öyrənilməsi və monitorinqi üzrə 12 problem qrupunun təsis edilməsi; 2)narkoticarətlə mübarizə üzrə federal qurumların yaradılması; 3)narkomafiyaya qarşı mübarizə üçün xüsusi əhəmiyyət kəsb edən bir sıra qanunvericilik aktlarının lahiyələrinin işlənib hazırlanması və s. Komissiya tərəfindən təklif edilmiş cinayətkarlıq üzərində hərtərəfli nəzarət haqqında Qanun layihəsi və onu tamamlayan digər qanunverici aktlar Konqress tərəfindən 1984-cü ildə qəbul edildi. Qeyd edək ki, bu Qanunun bir sıra müddəaları məhz narkomafiyaya qarşı mübarizəyə istiqamətlənmişdi: mütəşkkil narkocinayətkar qurumların aktiv və gəlirlərinin müsadirə edilməsi; qanunsuz narkoticarətə görə cəzanın sərtləşdirilməsi və s.[203].

ABŞ-da regional səviyyədə də narkotiklərin qanunsuz dövriyyəsi ilə mübarizə, məktəblilər arasında narkomaniyanın profilaktikası üzrə də çoxsaylı müxtəlif proqramlar hazırlanaraq həyata keçirilir.

Ölkədə həmçinin narkomanlığın qarşısının alınması üzrə sistemli maarifləndirmə və təbliğat işi həyata keçirilir və bu işə məşhur aktyorlar, müəllimlər, ümumdünya şöhrətli idmançılar, həkimlər, media nümayəndələri cəlb edilir, anti-narkotik məzmunlu çoxsaylı kitab və plakatlar, bükletlər, sosial çarxlar buraxılır. ABŞ-da bu sahədə ixtisaslaşmış tibbi müəssisələri təşəbəkəsi də mövcuddur.

Narkomanlığın yayılmasına qarşı xəbərdarlıq tədbirlərinin böyük hissəsi məktəb proqramları çərçivəsində həyata keçirilir. ABŞ-da bu istiqamətli proqramların bir neçə növü məlumdur: narkotik maddələrin qəbulunun zərərli olması haqqında ictimai rəyin formalaşdırılması və bu məlumatların gənclər və yeniyetmələr mühitində yayılmasının təşkili; narkotiklərdən istifadənin mənəvi və dini dəyərlərlə ziddiyyət təşkil etmsi barədə təbliğa-

---

[203] Əliyev Q.H. Narkomaniya və narkotizmlə mübarizə prolemləri. Bakı: 1999, s.60

tın aparılması və s. Bu növ xəbərdarlıq proqramları bir qayda olaraq tərbiyə və maarifləndirmə işlərinə əsaslanmışdır. Proqramların əsas məqsədi şəxsiyyətlərarası münasibətlərin inkişafı, özünüdərketmə, dostların dəstəyi və digər bu kimi vasitələrdən istifadə etməklə məktəblilərin həyatını mənəvi-əxlaqi cəhətdən daha dolğun etmək, zənginləşdirməkdən cəhdlərindən ibarətdir [204].

Reabilitasiya və resosializasiya proqramları narkotik istehlakçılarının aşkar edilməsinə, narkoasılılıqdan əziyyət çəkən şəxslərə ilkin tibbi yardımın göstərilməsinə, onların orqanizminin təzimlənməsinə, yəni deintoksikasiyasına, daha sonra isə onlara münasibətdə sosial-psixoloji tədbirlər kompleksinin həyata keçirilməsinə istiqamətlənmişdir.

ABŞ da antinarkotik təbliğat və maarifləndirmə siyasəti çərçivəsində məktəblilər və tələbələr arasında narkotestlərin aparılması təcrübəsi də kifayət qədər geniş yayılmışdır. Ölkə mediasında antinarkotik kampaniyalar keçirilir, anonim etimad məntəqələri, reabilitasiya mərkəzləri fəaliyyət göstərir. ABŞ-da həyat bacarıqlarının formalaşması proqramları daha geniş yayılmışdır [205].

XX əsrin 80-cı illərindən başlayaraq proqramm çərçivəsində narkomanlığın profilaktikasını, narkotiklərlə mübarizəni kompleks şəkildə həyata keçirən daha bir Şimali Amerika ölkəsi Kanadadır.

1987-ci ildə Kanada hökuməti tərəfindən yerli idarəetmə orqanları, müxtəlif dövlət qurumları, qeyri-hökumət təşkilatları və ayrı-ayrı mütəxəssislərlə uzun məsləhətləşmələr nəticəsində

---

204 Cavadov F.M., Abdullayev Y.S. Narkomaniya və narkotizm (Dünya ölkələrinin və beynəlxalq təşkilatların narkotiklərin qanunsuz dövriyyəsi ilə mübarizə təcrübəsi). Bakı: 2004, s.84-85

205 Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə: real vəziyyət və həlli yolları. Azərbaycan Respublikasının Baş Prokurorluğunun Elmi-Tədris Mərkəzi. Bakı: 2021, s.34

işlənib hazırlanmış narkotiklərlə mübarizə üzrə milli strategiya qəbul edildi. Strategiyanın əsas məqsədi Kanadada narkotiklərdən sui-istifadəyə qarşı mübarizənin təşkilinə vahid mərkəzləşdirilmiş strateji yanaşmanın təmin edilməsindən ibarətdir.

Strategiya ölkənin bütün əhalisinin ehtiyaclarına cavab verən tarazlaşdırılmış yanaşma yolu ilə narkotik vasitələrin və psixotrop maddələrin ayrı-ayrı şəxslərə, ailələrə və bütöv icmalara təsirinin azaldılmasına yönəldilmişdir. Strategiyanın məzmununu maarifləndirmə və xəbərdarlıq; qanunçuluğa riayət edilməsinə nəzarət və müşahidə; müalicə və reabilitasiya; məlumat və araşdırmalar; beynəlxalq əməkdaşlıq və milli aspekt kimi altı fəaliyyət istiqamətləri təşkil edir. Strategiyanın reallaşdırılmasına ayrılan maliyyə vəsaitləri əsasən təhsil, preventiv və müalicə proqramlarının işlənib hazırlanmasına və həyata keçirilməsinə sərf olumur ki, bu proqramların da əsas məqsədi qadağan edilmiş vasitələrə tələbatın azaldılmasıdır.

Strategiya çərçivəsində həmçinin narkotiklərin qaçaqmalçılığı və satışı ilə mübarizə; narkotiklər, narkomanlar və narkocinayətkarlar haqqında məlumatlar toplanması və təhlili; təhsil proqramlarının işlənib hazırlanması və reallaşdırılmasına da böyük önəm verilir.

ABŞ və Kanadadan fərqli olaraq Meksikada narkomanlığın və narkotik vasitələrin qanunsuz dövriyyəsinin qarşısının alınması istiqamətində həyata keçirilən əsas tədbirlər narkotiklərin qanunsuz əkini və becərilməsi, narkotiklərin topdan və pərakəndə satışı, onların qaçaqmalçılığı ilə mübarizəyə yönəlmişdir. Bu istiqamətdə həyata keçirilən bir sıra tədbirlər ABŞ ilə əlaqələndirilmiş şəkildə həyata keçirilir. Bir sözlə, ABŞ-a tiryək, heroin və marixuananın əsas tədarükçülərindən biri, kokain gətirilməsinin əsas tranzit məntəqəsi olan Meksikada həyata keçirilən narkotiklərlə mübarizə proqramları bir qədər başqa xarakterlidir.

Ölkənin bir sıra ştatları ənənəvi olaraq tiryək xaş-xaşı, marixuana və hind çətənəsi becərirlər. Ölkənin mürəkkəb iqtisadi vəziyyəti fermerləri narkobiznes işbazları ilə sövdələşməyə və gəliri leqal biznesdən xeyli yüksək olan qadağan edilmiş bitkilər yetişdirməyə məcbur edir. Buna görə də Meksikada qəbul edilərək həyata keçirilən proqramlarda əsas diqqət narkotik tərkibli bitkilərin kütləvi surətdə məhv edilməsi tədbirlərinə; bu tədbirlərə ordu hissələrinin cəlb olunmasına; narkotik tərkibli bitkilərin əkilib-becərilməsi, narkotiklərin istehsalı və satışı ilə bağlı əməllərə görə sanksiyaların sərtləşdirilməsinə; qaçaqmalçılığın, narkotiklərin daşınmasının əsas kanallarının üzə çıxarılması üzrə həyata keçirilən tədbirlərin səmərəliliyinin yüksəldilməsinə, əhali arasında anti-narkotik təbliğatın təşkilinə yönəlmişdir.

Ölkədə ikitərəfli razılaşmalar və qarşılıqlı hüquqi yardım haqqında müqavilələr imzalanması əsasında ABŞ ilə əlaqələrin genişləndirilməsi məsələlərinə xüsusi əhəmiyyət verilir. Bu, maliyyə və kommersiya strukturlarında narkodollarların leqallaşdırılması, yəni «təmizə çıxarılması» kanallarının müəyyənləşdirilməsi üzrə birgə fəaliyyət göstərməyə; narkotik tərkibli bitki əkinlərinin aşkarlanıb məhv edilməsinə imkan verir. XX əsrin 80-90-cı illərindən başlayaraq Meksikanın ordu hissələri və ABŞ sahil mühafizəsi müntəzəm olaraq Meksikanın ərazi sularında narkotik vasitələrin və psixotrop maddələrin daşınmasını həyata keçirən cinayətkarların yaxalanması; sərhəd zonasında təyyarələrin uçuşuna nəzarətin sərtləşdirilməsi üzrə əməliyyatlar aparırlar.

İsrail narkotik maddələrin qeyri-qanuni dövriyyəsinə qarşı süni intellekt, biometrik tanıma sistemləri, alqoritmlər və profil müəyyən etmə kimi müasir texnologiyalardan istifadə edir. İsrailin yüksək texnologiya ölkəsi olaraq innovativ yanaşmaları və güclü texnologiya sektoru, narkotiklərə qarşı mübarizədə effektiv tətbiq olunur. Biometrik sistemlər sərhədlərdə identifika-

siya prosesini daha dəqiq və sürətli aparmağa kömək edir. Xüsusi alqoritmlər vasitəsilə məlumat axını analiz edilərək narkotik vasitələrin və psixotrop maddələrin gizli daşınma yolları və şəbəkələri ortaya çıxarılır.

Süni intellekt əsaslı sistemlər və profil tanıma texnologiyaları sərhəd keçid məntəqələrində potensial təhlükələri aşkar etmək üçün şübhəli şəxsləri müəyyən etmək və hərəkətlərini izləmək üçün geniş istifadə edilir.

Misal üçün İsrail polisi tərəfindən Təl-Əvivin Ben-Qurion Beynəlxalq Hava Limanında tətbiq olunan «profil tanıma» sistemi müxtəlif mənbələrdən və məlumat bazalarından əldə olunan məlumatlardan istifadə edir və narkotik daşıyıcısı olmaq ehtimalı yüksək olan şəxslərin ilikn siyahəsını çıxarır. Həmin siyahı əsasında ölkəyə gələn sərnişinlərin üzərində axtarış aparılır.

Mövcud qabaqcıl təcrübələrin öyrənilməsi və bu sahədə mümkün əməkdaşlığın qurulması istiqamətində İsrail Dövlətinin aidiyyəti dövlət qurumu ilə Səfirliyimiz tərəfindən müvafiq iş aparılır.

Narkomanlığın, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinin qarşısının alınması və profilaktikası istiqamətində mövcud problemlərin həllində Böyük Britaniya yanaşma tərzi də maraqlı hesab edilə bilər. Britaniyada 1994-cü ildə qəbul edilmiş narkotiklərə həddən artıq aludəçiliyə qarşı çoxplanlı strategiya həyata keçirilir.

Strategiyada narkomanlığın və narkotiklərin qanunsuz dövriyyəsinin qarşısının alınmasının əsas istiqamətləri qismində nəzərdə tutulmuşdur: narkotik vasitələrin və psixotrop maddələrin ölkəyə daxil olması kanallarının müəyyən edilərək ləğvi; hüquq mühafizə orqanlarının bu sahədə səmərəli fəaliyyətinə optimal şəraitin yaradılması; effektiv profilaktik tədbirlərin keçirilməsi və ölkə daxilində narkotiklərin qanunsuz dövriyyəsinə

sərt nəzarətin təşkili; preventiv tədbirlərin həyata keçirilməsi; narkoasılıqdan əziyyət çəkən şəxslərin müalicəsi və tibbi-sosial reabilitasiyasının keyfiyyət səviyyəsinin yüksəldilməsi.

Hökumət strategiyası narkomanlıq, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı bütün problemlərin qarşılıqlı əlaqəsindən çıxış edir və bununla bağlı eyni zamanda həm narkobiznesə, həm də narkotiklərə olan tələbata qarşı tədbirlər görülməsini nəzərdə tutur. Bu məqsədlə narkotiklərin istehsalı və topdan ticarətinə qarşı beynəlxalq səylərin dəstəklənməsi; gömrük xidməti və polis qüvvələlərinin maddi-texniki, təşkilati və informasiya təminatı səviyyəsinin yüksəldilməsi; narkotiklərin tibbi məqsədlərlə leqal istehsalı və istifadəsinə nəzarətin daha da ciddiləşdirilməsi; yüksək cərimələr müəyyənləşdirmək yolu ilə pərakəndə narkoticarətçiləri və narkotik işbazlarını cinayətkar fəaliyyətdən qazandıqları gəlirlərdən məhrum etməklə bu cür fəaliyyətin qarşısının alınması ilə bağlı kompleks tədbirlərin sistemli şəkildə həyata keçirilməsinə böyük önəm verilir. Bu strategiyanı həyata keçirmək və bu işdə iştirak edən bütün idarə və təşkilatlar ilə Böyük Britaniya hökuməti arasında zəruri qarşılıqlı əlaqə və fəaliyyəti təmin etmək üçün Daxili İşlər nazirinin parlament üzrə müavinin rəhbərlik etdiyi və tərkibində nazirlər və yüksək rütbəli məmurlar olan idarələrarası işçi qrupu yaradılmışdır[206].

Böyük Britaniyada profilaktik tədbirlər qismində təklif olunan və «tibbi», bəzən də «profilaktik» və ya «məlumatlandırıcı» adlandırılan model məktəblilərə narkotik vasitələrin və psixotrop maddələrin istifadəsitnin sağlamlıq üçün təhlükə yaratdığı barədə məlumat verməyə, “təlimləşdirici” adlandırılan model məktəblilərdə həyat bacarıqlarının formalaşdırılmasına və məktəblilərə məsuliyyətli qərar qəbul etmək bacarıqlarını öyrədilməsinə əsaslanır. Bu profilaktik proqramlar «Sağlam həyat

---

[206] Əliyev Q.H. Narkomaniya və narkotizmlə mübarizə prolemləri. Bakı: 1999, s.68-70

tərzi təlimi» tədris fənni çərçivəsində məktəblərin tədris planına daxil edilir[207].

Malayziyada narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizə məsələləri ölkənin Daxili İşlər Nazirliyinin nəzdində fəaliyyət göstərən Milli Narkotiklərlə Mübarizə Agentliyinin (The National Anti-Drugs Agency-NADA) məsuliyyətindədir.

Qeyd olunan səlahiyyətli qurumun fəaliyyətinin hüquqi əsaslarını ölkənin aşağıdakı qanunvericilik aktları təşkil edir:

- 1983-cü ildə qəbul olunmuş Narkotikdən Asılı olanlar (Müalicə və Reabilitasiya) haqqında Qanun (283 saylı Qanun);
- 1985-ci ildə qəbul olunmuş Təhlükəli Narkotiklər haqqında Qanun (Xüsusi Profilaktik Tədbirlər) haqqında Qanun (316 saylı Qanun);
- 1988-ci ildə qəbul olunmuş Təhlükəli Narkotiklər (Əmlakın Müsadirəsi) haqqında Qanun (340 saylı Qanun);
- 2004-cü ildə qəbul edilmiş Milli Narkotiklərlə Mübarizə Agentliyinin təsis olunması haqqında Qanun (638 saylı Qanun).

NADA ABŞ-nin Narkomaniya üzrə Milli İnstitutu (National Institute on Drug Abuse-NIDA), Sinqapur, İndoneziya və Filippin müvafiq dövlət qurumları ilə birlikdə Birləşmiş Millətlər Təşkilatının Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsi (BMTNCİ), ASEAN-ın Narktiklərlə bağlı Profilaktik Təhsil üzrə Tədris Mərkəzi (ASEAN Training Center for Preventive Drug Education ATCPDE), Beynəlxalq Narkotiklərə Nəzarət Şurası (International Narcotics Control Board), Narkotiklər və Narkomaniya üzrə Avropa Monitorinq Mərkəzi (European Monitoring Centre for Drugs and Drug Addiction) və ASEAN Par-

---

[207] Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə: real vəziyyət və həlli yolları. Azərbaycan Respublikasının Baş Prokurorluğunun Elmi-Tədris Mərkəzi. Bakı: 2021, s.33-34

lamentlərarası Assamebleyası (ASEAN Inter-Parliamentary Assembly) kimi beynəlxalq təşkilatlarla əməkdaşlıq edir.

İspaniyada narkomanlığın profilaktikası, narkotiklərin qanunsuz dövriyyəsi ilə mübarizə üzrə Milli proqram da maraq kəsb edir. Məlumdur ki, bu ölkədə «yüngül» narkotik vasitələrdən istifadəyə icazə verilir. Qeyd etmək lazımdır ki, narkotiklərin leqallaşdırılması tərəfdarlarının dəlillərinə, arqumentlərinə baxmayaraq narkomanlıq alazmaq əvəzinə artır, narkocinayətkarlığın səviyyəsi isə heç də aşağı düşmür. F.M.Cavadov və Y.S.Abdullayevin qeyd etdikləri kimi, İspaniyada «narkotiklərin küçə ticarətçiləri sırasına son illər uşaqlar və yeniyetmələrin də cəlb edilməsi halları çoxalmışdır. Bundan başqa, əgər əvvələr narkomanlıq əsasən ölkənin böyük şəhərləri üçün xarakterik bir hal idisə, hazırda kiçik əyalət şəhərlərində və hətta kənd yerlərində də narkomanlar peyda olmuşdur» [208].

İspaniyada 2004-cü il tarixli Kral Fərmanında narkotiklər üzrə Milli Proqram qəbul edilmiş və bu proqramda narkomanlığın qarşısının alınması sahəsində fəaliyyətin əsas istiqamətləri olaraq, aşağıdakılar nəzərdə tutulmuşdur: Heroin, kokain və s. kimi təhlükəli narkotiklərin yayılmasının qarşısının alınması; gənclər və yeniyetmələr arasında profilaktik işin təşkili; narkotiklərin insan orqanizminə zərəri ilə bağlı tibbi biliklərin yayılması praktikasının, anti-narkotik təbliğatın təkmilləşdirilməsi; narkomanların müalicəsi və reabilitasiya işinin səmərəliliyinin artırılması, bu sahədə ictimai təşkilatların fəaliyyətinin canlandırılması və s. İspaniyada narkotiklərlə mübarizə proqramının əsas məqsədi narkotiklərin daha təhlükəli növlərinin (heroin, kokain) yayılmasının qarşısının alınmasından; yeniyetmə və gənclər arasında anti-narkotik profilaktikanın təşkilindən; nar-

---

[208] Cavadov F.M., Abdullayev Y.S. Narkomaniya və narkotizm (Dünya ölkələrinin və beynəlxalq təşkilatların narkotiklərin qanunsuz dövriyyəsi ilə mübarizə təcrübəsi). Bakı: 2004, s.98

komanların müalicəsi, reabilitasiya və reinteqrasiyası sahəsində sistemli fəaliyyətin təkmilləşdirilməsindən; ictimai təşkilatların bu istiqamətdə fəaliyyətlərinin aktivləşdirilməsindən ibarətdir.

Bolqarıstan Respublikasında narkomanlığın yayılmasının qarşısının alınması ilə bağlı məsələlərə bu ölkənin Səhiyyə Nazirliyinin rəhbərlik etdiyi qurumlararası komitə məsuldur. Bununla yanaşı, Səhiyyə Nazirliyinin nəzdində fəaliyyət göstərən İctimai Səhiyyə və Analiz Milli Mərkəzi (ISAMM) Narkotiklər və Narkotik Asıllılıq üzrə Milli Əlaqələndirici Qurum qismində müxtəlif beynəlxalq əməkdaşlıq platformalarında (o cümlədən, Avropa Monitorinq Mərkəzi, Avropa İnformasiya Şəbəkəsi, Avropa Şurasının Pompidu Qrupu) Bolqarıstanı təmsil edir.

ISAMM əsasən elmi-araşdırma İnstitutu kimi fəaliyyət göstərir, Avropa İttifaqı çərçivəsində müsbət təcrübələr, bu standartların öyrənilməsi və tətbiqinin təşviqində fəal iş aparır.

ISAMM tərəfindən Azərbaycan Respublikasından müvafiq İnstitutlarla əməkdaşlığa, o cümlədən birgə araşdırmalar aparmağa, məqalələr hazırlayaraq çap etməyə, elmi-praktik konfranslar təşkil etməyə hazır olduğu bildirilmişdir.

Bolqarıstan Səhiyyə Nazirliyi tərəfindən 2005-ci ildə imzalanmış Azərbaycan və Bolqarıstan Hökümətləri arasında ictimai səhiyyə və tibb elmi sahəsində əməkdaşlıq haqqında saziş çərçivəsində əməkdaşlığın canlandırılmasının məqsədəmüvafiq olacağı bildirilmişdir.

İsveçdə narkomanlığın qarşısının alınması, narkotiklərin qanunsuz dövriyyəsinə qarşı kompleks mübarizə hökumət tərəfindən yaradılmış və tərkibinə sosial xidmət və hüquq-mühafizə orqanlarının rəhbərləri, ictimai təşkilatların nümayəndələrinin daxil olduğu Birləşmiş Komitə tərəfindən əlaqələndirilir[209].

Qeyd edək ki, İsveçdə narkotiklərdən sui-istifadənin, onların qanunsuz dövriyyəsinin qarşısının alınması məqsədilə qa-

---

[209] Əliyev Q.H. Narkomaniya və narkotizmlə mübarizə prolemləri. Bakı: 1999, s.77

nunvericilik bazası təkmilləşdirilmiş, müasir reallıqlara uyğunlaşdırılmış Milli Strategiya, fəaliyyət planları və proqramları hazırlanmışdır. Bu ölkədə narkomanlığın profilaktikası, narkotiklərin qanunsuz dövriyyəsinin qarşısının alınmasına istiqamətlənmiş kompleks proqram çərçivəsində aşağıdakı tədbirlər nəzərdə tutulmuşdur: 1)Polis və gömrük idarələrinin narkotiklərin qanunsuz dövriyyəsi ilə mübarizə sahəsində fəaliyyətlərinin effekivliyinin yüksəldilməsi məqsədilə onlara ayrılan maliyyə vəsaitlərinin artırılması; 2)xarici ölkələrin polis və gömrük strukturları ilə daha sıx əməkdaşlığa nail olunması; 3)narkotiklərlə bağlı olan ağır tamah-zorakı cinayətlərə görə nəzərdə tutulan azadlıqdan məhrum etmə cəzasının yuxarı həddinin artırılması, yəni sanksiyaların sərtləşdirilməsi; 4)sosial-təminat, səhiyyə, təhsil, bir sözlə narkoasılılıqdan əziyyət çəkən şəxslərin müalicəsi, resosializasiyası və readaptasiyası ilə məşğul olan orqanların fəaliyyətində sistemlilik və əlaqələndirmə səviyyəsinin yüksəldilməsi; 5)narkotiklərə həddən artıq aludəçiliyin insanların həyatına və yaxınlarına ciddi təhlükə törətdiyi barədə geniş əhali kütləsini zəruri iformasiya ilə mütəmadi olaraq təmin edilməsi; 8)narkomaniya və narkobizneslə mübarizə aparan beynəlxalq təşkilatlarla, dünyanın müxtəlif dövlətlərinin müvafiq orqanları ilə İsveç hökuməti arasında əlaqələrin gücləndirilməsi və s.

İsveç təcrübəsinin maraqlı aspekti məhz ondadır ki, polis tədbirləri kompleksinin həyata keçirilməsində «aşkarlıq» yolu seçilmiş, geniş əhali kütləsinin vəziyyətin ciddiliyi, polis tərəfindən bu sahədə hansı işlərin həyata keçirildiyi barədə məlumatlandırılmasına böyük əhəmiyyət verilir[210].

İsveçdə anti-narkotik profilaktikada ən mühüm aspekt narkoasılılıqdan əziyyət çəkən şəxsi əhatə edən yaxın mühitin-valideynlərin, müəllimlərin, dostların bu işə cəlb edilməsidir. Məktəb isə bu işdə mühüm vasitəçidir. Hər bir təhsil müəssisəsi

[210] Əliyev Q.H. Narkomaniya və narkotizmlə mübarizə prolemləri. Bakı: 1999, s.79

alkoqol, narkotik və siqaret çəkmənin zərərləri haqqında əsas bilik verən fənnin tədrisi üçün iş planı hazırlayır. Gənclər və ictimai narkotik əleyhinə hərəkatlar və təşkilatlar bu sahədə mühüm rol oynayır» [211].

Çin Xalq Respublikasının (ÇXR) "Narkotiklərə Nəzarət" Qanununa əsasən, Narkotiklərə Nazərət Milli Komissiyası (National Narcotics Control Commission-NNCC) Dövlət Şurasının nəzdində narkotik vasitələrə nəzarət işinin təşkili, əlaqələndirilməsi və idarə edilməsindən məsul olan əlaqələndirici orqandır. Onun strukturuna İctimai Təhlükəsizlik Nazirliyi, Milli Səhiyyə Komissiyası, Təhsil Nazirliyi və digər qurumların məsul şəxsləri daxildir. Narkotiklərə Nəzarət Milli Komissiyasının mərkəzi İctimai Təhlükəsizlik Nazirliyinin Narkotiklərə Nəzarət Bürosunda yerləşir. ÇXR-nin ictimai təhlükəsizlik naziri Vanq Siahon eyni zamanda NNCC-nin direktoru vəzifəsini icra edir.

NNCC profilaktika və təhsil, narkotik araşdırmaları, narkotik vasitələrin becərilməsi və istifadəsinin qadağan edilməsi və beynəlxalq əməkdaşlıq daxil olmaqla ümumilikdə 13 şöbədən ibarətdir. Hazırda ictimai təhlükəsizlik sistemində narkotiklərlə mübarizə ilə məşğul olan 26 min polis əməkdaşı çalışır. İctimai Təhlükəsizlik Nazirliyində narkotiklərə nəzarət, narkotik testi, təhlili və identifikasiyası ilə bağlı təqdiqatlara məsul olan Narkotiklərlə Mübarizə üzrə Kəşfiyyat Texnologiya Mərkəzi də mövcuddur.

Fransada XX əsrin 80-cı illərində, daha dəqiqi 1982-ci ildə narkomanlığın profilaktikasında, narkotiklərin qanunsuz dövriyyəsi ilə mübarizədə ayrı-ayrı dövlət idarələrinin səylərinin əlaqələndirilməs məqsədilə idarələrarası Komitə və onun nəzdində komitənin qərarlarını hazırlayan işçi orqan qismində dai-

---

[211] Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə: real vəziyyət və həlli yolları. Azərbaycan Respublikasının Baş Prokurorluğunun Elmi-Tədris Mərkəzi. Bakı: 2021, s.33

mi Komissiya yaradılmışdır. Komitə profilaktik tədbirlərin keçirilməsi və əlaqələndirilməsi işini aparır, maraqlı təşkilatların sorğuları əsasında məlumatlar verir, ictimai rəyi öyrənir, ictimai rəyə təsir vasitələrini işləyib hazırlayaraq həyata keçirir, narkomanların müalicəyə cəlb olunmaları və resosializasiyası üzrə tədbirləri təşkil edir və qeyri-leqal narkoticarətə qarşı həyata keçirilən tədbirləri əlaqələndirir.

Daxili İşlər və İctimai Təhlükəsizlik Nazirliyinin ekspertləri tərəfundən işlənib hazırlanan Narkobizneslə mübarizə üzrə Fransa Milli proqramı narkotiklərin qanunsuz ticarətinə, narkoticarəti həyata keçirən  küçə alverçilərinə və yayıcılarına qarşı mübarizə məsələlərinə xüsusi diqqət yetirilir. Proqramda  həmçinin xüsusi polis bölmlərinin formalaşması, narkobizneslə mübarizə sahəsində fəaliyyətin əlaqələndirilməsi və sistemliyin təmini məqsədilə Milli Mərkəzin yaradılması, narkobizneslə mübarizə sahəsində ixtisaslaşan polis və digər orqanların əməkdaşları üçün xüsusi hazırlıq kurslarının təşkili, həmçinin böyük şəhərlərin polis komissarlıqlarında nakromaniya xəstəliyinə tutulmuş şəxslərlə iş üzrə xüsusi xidmətin yaradılmasını nəzərdə tutulmuşdur.

Almaniya narkotik vasitələrin və psixotrop maddələrin istehlakı səviyyəsinin yüksək olan Avropa ölkələrindən biridir. Məhz buna görə də bu ölkədə narkomanlığın profilaktikası, narkobizneslə mübarizə məsələlərinə xüsusi diqqət yetirilir[212].

2012-ci ildə qəbul edilmiş Milli Strategiya hazırda da Almaniyanın  narkomanlığa qarşı mübarizə siyasətinin əsasını təşkil edir. 2021-ci il koalisiya sazişi ilə narkomanlığa qarşı mübarizə siyasəti daha da təkmilləşdirilmiş və gücləndirilmişdir. Milli Strategiyanın dörd sütununu (narkomanlığın qarşısının alın-

[212] Cavadov F.M., Abdullayev Y.S. Narkomaniya və narkotizm (Dünya ölkələrinin və beynəlxalq təşkilatların narkotiklərin qanunsuz dövriyyəsi ilə mübarizə təcrübəsi). Bakı: 2004, s.109-114

ması, məsləhət və müalicə, zərərin azaldılması, təchizatın azaldılması və cəza tədbirlərinin tətbiqi) qısaca aşağıdakı kimi xarakterizə etmək olar:

- **Narkomanlığın qarşısının alınması**: Narkomanlığın qarşısının alınması tədbirləri, asılılıq yaradan maddələrin və ya narkotik vasitələrdən istifadənin təhlükələri haqqında məlumat verməklə ilk növbədə narkotik vasitələrdən istifadənin və ya asılılığın baş verməməsinə xidmət edir. Narkomanlığın qarşısının alınması tədbirlərində əsas hədəf uşaqlar, yeniyetmələr və gənclərdir. Belə ki, uşaqların və gənclərin profilaktika və sağlamlığın möhkəmləndirilməsi tədbirləri ilə bağlı vaxtında məlumatlandırılması narkotik maddələrin istehlakının qarşısının alınmasına öz töhfəsini verir. Sağlamlıq Təhsili Federal Mərkəzinin internet səhifəsində (www.bzga.de) profilaktik proqramlar barədə məlumat əldə etmək mümkündür;

- **Məsləhət və müalicə**: Məsləhət və müalicə xidmətləri narkomanların asılılıq dövründən çıxmasına yardım üçün nəzərdə tutulmuşdur. Hazırda Almaniyada geniş çeşiddə ambulator və rezident dəstək xidmətləri mövcuddur.Məsləhət xidmətlərindən biri narkomaniyaya qarşı mübarizə sahəsində təcrübəli mütəxəssislərdən ibarət, telefonla məsləhət xidməti təklif edən Narkotiklər və Narkomaniya üzrə Qaynar Xəttdir (www.sucht-und-drogen-hotline.de );

- **Zərərlərin azaldılması tədbirləri**: Sağalma vasitələri və ya şpris dəyişdirmə xidmətləri və narkotiklərin istehlak otaqları kimi zərərin azaldılması tədbirləri narkomanların sağlamlıq və sosial vəziyyətini sabitləşdirir. Bu, sonrakı mərhələdə asılılıqdan qurtulmaq üçün vacib şərtdir. Məsələn, www.drogenkonsumraum.net internet səhifəsi Almaniyada narkotik istehlak otaqlarının yerlərini və məlumatlarını göstərir. Federal Səhiyyə Təhsili Mərkəzinin "Quit the Shit" proqramı (daha ətraflı məlumat www.quit-the-shit.net internet ünvanından əldə oluna bilər)

narkotik maddələrin istehlakını azaltmaq və ya mümkünsə, onu tamamilə dayandırmaq məqsədi daşıyır;

- **Təchizatın azaldılması və cəza tədbirlərinin tətbiqi**: Narkomaniya ilə mübarizə siyasətinin digər elementi təchizatın azaldılması və ümumi qadağaların tətbiqinə yönəlmiş hüquqi tənzimləmələrdir. Bunlara misal olaraq siqaret çəkməyənlərin müdafiəsi haqqında qanunlar, Gənclərin Müdafiəsi Aktı və Narkotiklər haqqında Qanun və digərlər göstərilə bilər.

Almaniyada narkomanlığın ilkin profilaktikasının ən geniş yayılmış modeli həyat bacarıqlarının formalaşması texnologiyası əsasında hazırlanmış «Şəxsiyyətin sosial keyfiyyətlərinin hərtərəfli inkişafı» proqramıdır. Proqram çərçivəsində nəzərdə tutulmuş tədbirlər əsasən məktəblərdə, məktəb tipli təhsil müəssisələrində və ya xüsusi «əmək düşərgələrində» həyata keçirilir. Bu işə qeyri-hökumət təşkilatları, dövlət qurumlarının səlahiyyətli nümayəndələri cəlb olunur[213].

Türkiyədə narkoasılılığın qarşısının alınmasının əsas proqramları əhali, xüsusən də yeniyetmə və gənclər arasında narkotiklərin insan orqanizminə olduqca zərərli təsiri barəsində maarifləndirmənin artırılmasına və informasiyanın yayılmasına, fərdi və sosial bacarıqların formalaşmasına yönəlmişdir. Profilaktik proqramlar əsasən seminarlar, müzakirə qrupları, konfranslar, teatr tamaşaları, idman yarışları vasitəsilə risk qrupuna aid olan məktəblilər və tələbələr arasında həyata keçirilir. Ölkədə anti-narkotik təbliğata din xadimləri də qoşulur. Sosial yönümlü proqramlar televiziya və radiolarda da mövcuddur. Ölkədə polis orqanlarının xüsusi hazırlıq keçmiş əməkdaşları tərəfindən də müxtəlif informasiya-maarifləndirici tədbirlər aparılır[214].

---

[213] Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə: real vəziyyət və həlli yolları. Azərbaycan Respublikasının Baş Prokurorluğunun Elmi-Tədris Mərkəzi. Bakı: 2021, s.32-33

[214] Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə: real vəziyyət və həlli yolları. Azərbaycan Respublikasının Baş Prokurorluğunun Elmi-Tədris Mərkəzi. Bakı: 2021, s.32-33

Türkiyədə narkocinayətkarlığa qarşıdurma sahəsində idarələrarası əlaqələndirmə fəaliyyətini narkotiklərlə mübarizə üzrə Ali Şura həyata keçirir. Şuranın əsas vəzifələri narkomaniya ilə mübarizə strategiyalarının işlənib hazırlanması və idarələrarası əlaqələndirmənin inkişaf etdirilməsi, həmçinin bu strategiyaların reallaşdırılması səviyyəsinin qiymətləndirilməsi və bununla bağlı monitorinqlərin həyata keçirilməsindən ibarətdir[215].

Ölkədə "Milli Anti-narkotik Strategiya" 2015-ci ildə qəbul olunmuşdur. Milli anti-narkotik siyasət strategiyası narkotiklərin əlçatanlığının aradan qaldırılmasına, təhsil müəssisələrində narkoistehlakının qarşısının alınması üzrə kompleks və sistemli tədbirlərin, risk qrupuna daxil olan yeniyetmələr arasında qabaqlayıcı profilaktik tədbirlərin görülməsinə, əhaliyə göstərilən narkoloji yardımın və xidmətin təkmilləşdirilməsinə, narkoasılılıqda olan şəxslərin sosial reinteqrasiyasına köməklik göstərilməsinə, bu sahədə fəaliyyəti tənzimləyən qanunvericiliyin təkmilləşdirilməsinə, ailə və cəmiyyət institutlarından istifadə etməklə narkoasılılığın doğurduğu sosial və tibbi problemlərin həllinə istiqamətlənmiş fəaliyyətin həyata keçirilməsinə, ailə və məktəb mühitində profilaktik işin aparılması məqsədilə xüsusi proqramların işlənib hazırlanmasına və reallaşdırılmasına istiqamətlənmişdir[216].

Son illərdə Türkiyədə narkotiklərə olan tələbatın azaldılmasına, narkoasılılıqdan əziyyət çəkən yeniyetmə və gənclərin müalicəsinə, narkomaniyanın profilaktikasına, sosial məsuliyyət çərçivəsində dövlət strukturları ilə yanaşı, özəl sektorun da iştirakı imkanlarının genişləndirilməsinə istiqamətlənən və kompleks xarak-

---

[215] Türkiye uyuşturucu raporu. Ankara:2023. https://www.narkotik.pol.tr/2023-turkiye-uyusturucu-raporu-yayinlanmistir; Кобец П.Н., Краснова К.А. Ключевые компоненты национальной антинаркотической стратегии Турецкой Республики // Тюмень: Юридическая наука и правоохранительная практика. 2018, № 4 (46), с. 154

[216] Кобец П.Н., Ильин И.В. Опыт Турецкой Республики по предупреждению преступности в сфере незаконного оборота наркотиков // Нижний Новгород: Вестник Нижегородской академии МВД России. 2018, №1 (41), с. 156

ter daşıyan profilaktik tədbirlərə, İnternetdə, sosial şəbəkələrdə narkotiklərin təbliği  və yayılması hallarının qarşısının alınması məqsədilə təbliğat və maarifləndirmə xarakterli tədbirlərə, bütün səviyyələrdə sosial qayğı və dəstəyin gücləndirilməsinə, habelə narkomaniyanın doğurduğu sosial zərərlərin aşağı salınması məqsədilə ictimai iştirakçılığın inkişaf etdirilməsinə  xüsusi önəm verilir.

Hazırda Türkiyədə narkomanlığa qarşı profilaktik fəaliyyət əsasən məlumat və təlim işləri, bukletlərin hazırlanması və yayılması, seminarların, konfransların və simpoziumların təşkili əsasına ictimai məlumatlılığın artırılmasına yönəlmiş fəaliyytlərdən ibarətdir[217].

Narkotiklərin qanunsuz dövriyyəsi sahəsində yaranan problemlərin çevik həllinin, dövlət xidmətlərinə asan çıxışın təmini, vətəndaşların bu sahədə müraciətlərinin tez və nöqsansız yekunlaşdırılması və dövlət xidmətlərinin göstərilməsindən məmnunluğunun artırılması məqsədilə Daxili İşlər Nazirliyi tərəfindən 15 dekabr 2017-ci il tarixdən «Açıq qapı» layihəsinə start verilmişdir.

Daha bir müsbət hal kimi, Türkiyədə bilavasitə uşaqlar və yetkinlik yaşına çatmayanlar üçün nəzərdə tutulmuş Müalicə Mərkəzləri şəbəkəsinin yaradılaraq fəaliyyət göstərməsi qeyd oluna bilər.

Türkiyədə narkotiklərlə mübarizə sahəsində ixtisaslaşan dövlət və özəl qurumların əməkdaşlarının innovativ texnologiyalar əsasında hazırlanması və ixtisas artırmalarının təşkili, təlim prosesinə yeni baxış və yanaşmanın formalaşdırılıması məqsədilə Narkotiklərlə Mübarizə üzrə Təlim Akademiyası (NEA) yaradılmışdır.

Sosial və İqtisadi dəstək Proqramları çətin vəziyyətdə olan narkotik istifadəçilərinə və onların ailələrinə göstərilən sosial və iqtisadi xarakterli xidmətlərin effektivliyinin artırılmasına, vali-

---

[217] Kutlu Ö., Örselli E., Babahanoğlu V. Türkiyede gençlerin uyuşdurucu ile mücadele politikaları hakkında düşünceleri // Ankara: Gençlik Araştırmaları Dergisi. 2017, №5 (1), s. 141

deynlərin öz uşaqları barədə məlumatlılığının artırılmasına, uşaqların məktəbdənkənar vaxt keçirmələri üçün şərait və imkanların təmin edilməsinə istiqamətlənmişdir.

2015-ci ildə İstanbul İnkişaf Agentliyi tərəfindən hazırlanmış və bilavasitə orta məktəblərin yuxarı sinif şagirdlərinə unvanlanmış «Hədəf olmayın» Layihəsinin mahiyyəti 9-cu sinifdən başlayaraq şagirdlərin narkotik vasitələrdən və psixotrop maddələrdən sui-istifadənin zərərləri barədə məlumatlılığının artırılmasından, bu məqsədlə xüsusi maarifləndirici və məlumatlandırıcı tədbirlərin təşkil edilərək keçirilməsindən ibarətdir. 2015-ci ildə Səhiyyə Nazirliyinin nəzdində narkomaniyaya qarşı mübarizədə xüsusi məsləhət xidmətini həyata keçirən və Narkotiklərlə Mübarizədə Məsləhət və Dəstək Xətti adlandırılan «ALO 191» xətti yaradılmışdır. 7/24 rejimində açıq olan və pulsuz fəaliyyət göstərən «ALO 191» xəttindən narkotikdən istifadə edən şəxslərin özləri, ailələri və ya ətraflarında narkotikdən istifadə edən şəxslər yararlana bilərlər[218].

İran İslam Respublikasında narkotik vasitələr və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə məqsədilə Prezidentin rəhbərliyi altında xüsusi qərargah fəaliyyət göstərir. Qeyd edək ki, bu Qərargahın tərkibinə hökumətin bir sıra vəzifəli şəxsləri daxildir: baş prokuror, informasiya naziri; səhiyyə, dərman və tibbi təlimlər naziri; təhsil naziri; tele-radio təşkilatının rəisi; pols qüvvələrinin baş komandanı; zindanlar təşkilatı və təlim-tərbiyə məsulu; mədəniyyət naziri və s. Bir qayda olaraq ölkə Prezidenti Qərargahın iclaslarını idarə etmək üçün xüsusi nümayəndə təyin edir[219].

---

[218] Kutlu Ö., Örselli E., Babahanoğlu V. Türkiyede gençlerin uyuşdurucu ile mücadele politikaları hakkında düşünceleri // Ankara: Gençlik Araştırmaları Dergisi. 2017, №5 (1), s. 139

[219] Bənaiyan S.A. AR və İİR-nın qüvvədə olan cinayət qanunvericiliyinə görə yetkinlik yaşına çatmayanların narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsində iştirak etməsinə görə cinayət məsuliyyəti. Hüqukq üzrə fəlsəfə doktoru elmi dərəcəsini almaq üçün təqdim olunmuş dissertasiyanın avtoreferatı. Bakı: 2016, s.28-29

Göründüyü kimi, narkomanlığın, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinın qarşısının alınması istiqamətində xarici ölkələrdə həyata keçirilən tədbirlər, qəbul edilən proqramlar olduqca müxtəlifdir.

Narkotiklərin qanunsuz dövriyyəsi ilə mübarizənin hüquqi tənzimlənməsi də bütün dövlətlərdə eyni deyildir. Belə tənzimləmənin məzmunu, həcmi, istiqamətləri də fərqlənir. Bu fərqlər aşağıda göstərilən bir sıra amillərdən asılıdır: 1)dövlətlərin hüquq sistemlərinin tarixi-milli xüsusiyyətləri; 2)konkret ölkənin əhalisi arasında narkomanlığın və narkobiznesin yayılma səviyyəsi; 3)narkotiklərin qanunsuz dövriyyəsinin ayrı-ayrı təzahürlərinin ictimai təhlükəsizliliyinin qanunverici tərəfindən çevik reaksiyası; 4)beynəlxalq konvensiyalarda əks olunmuş müddəaların milli qanunvericilikdə təsbiti səviyyəsi və s.

Narkomaniya, narkotiklərin qanunsuz dövriyyəsi problemləri ilə xüsusi olaraq məşğul narkotiklərəı nəzarət üzrə beynəlxalq Komitə belə bir mövqedən çıxış edir ki, hər bir ölkə beynəlxalq-hüquqi standartlar, üzərlərinə götürdükləri beynəlxalq öhdəliklər nəzərə alınmaqla narkomaniyanın və narkobiznesin yayılması ilə bağlı problemlərin həllində öz ölkəsi üçün daha uyğun olan metod, üsul və vasitələrin seçimində sərbəstdir. Belə ki, ümumdünya miqyasında problemi tam şəkildə və birdəfəlik olaraq həll edəcək vahid tədbirlər sistemi, planlar və proqramlar mövcud deyilidir və mövcud ola da bilməz. Bu sahədə mövcud olan vəziyyət haqqında BMT-nin İqtisadi və Sosial Şurasına məruzə edərkən NNBK xüsusi olaraq qeyd etmişdir ki, narkotiklərin yayılması ilə mübarizə ilə bağlı istənilən milli proqram uğurla nəticələnməsi üçün müəyyən dərəcədə mütəhərrik və çevik olmalıdır. Əks təqdirdə «köhnə və dar hüquqi tərif və anlayışlar və ya köhnəlmiş ölkədaxili standartlar özləri belə cinayətkarlıq amilinə çevrilə bilərlər».

Azərbaycan Respublikası Baş Prokurorluğunun Elmi-Tədris Mərkəzinin əməkdaşlarının hazırladıqları vəsaitdə qeyd olunduğu kimi, “ayrı-ayrı dövlətlər narkotiklərin qanunsuz dövriyyəsi ilə səmərəli mübarizə üsullarını və narkomanlığın müalicə metodlarını təkmilləşdirmək sahəsində səylərini artırmaqla insanları sağalmaz xəstəliklərə düçar edərək onları son nəticədə aqressivliyə, cinayətkarlığa və ölüm hallarına sürükləyən bu faciə sindromuna qarşı istər fərdi şəkildə, istərsə də beynəlxalq əməkdaşlıq çərçivəsində mübarizə aparırlar[220]. Bu məsələyə B.S.Zahidov da toxunur və yazır ki, narkomanlıq və narkobiznеslə mübarizədə regional və beynəlxalq əlaqələrin genişləndirilməsi, qarşılıqlı təcrübə mübadiləsi və elmi-texniki əməkdaşlığın inkişaf etdirilməsi səmərəli addımlardan biri hesab edilməlidir. Belə əlaqələrin və əməkdaşlığın qloballaşması ilk növbədə müvafiq ölkənin özünün bilavasitə milli təhlükəsizliyinin təmin edilməsi baxımından əhəmiyyətlidir[221].

Hesab edirik ki, narkomanlığın profilaktikası, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinin qarşısının alınması məqsədilə dövlət və cəmiyyətin bütün imkanları səfərbər edilməli, beynəlxalq-hüquqi standartlara, bu sahədə xarici ölkələrin müsbət təcrübəsinə istinad edilərək narkomanlığın profilaktikasının ən effektiv metod və üsulları, antinarkotik profilaktikanın reallaşdırılma mexanizmləri işlənib hazırlanmalıdır[222].

---

[220] Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə: real vəziyyət və həlli yolları. Azərbaycan Respublikasının Baş Prokurorluğunun Elmi-Tədris Mərkəzi. Bakı: 2021, s.30

[221] Zahidov B.S. Azərbacanda narkotizmlə və narkobizenslə mübarizənin aktual problemləri. Bakı: 2007, s.329

[222] Cavadov F.M., Abdullayev Y.S. Narkomaniya və narkotizm (Dünya ölkələrinin və beynəlxalq təşkilatların narkotiklərin qanunsuz dövriyyəsi ilə mübarizə təcrübəsi). Bakı: 2004, s.228

# ƏDƏBİYYAT

1. Qasımov S.Y. Narkotik vasitələrlə bağlı cinayətlərin kriminalistik xarakteristikası// Qanunçuluq. 1998, №8.

2. Qədirova S., Məmmədova Z. Narkomaniya insanın mənəviyyatını məhv edir, «canlı ölü»yə çevirir // www.nmdk.gov.az

3. Qənizadə Ç.A. Mütəşəkkil cinayətkarlıq və onunla mübarizə (Azərbaycan Respublikasında). Hüquq elmləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın avtoreferatı. Bakı: 2004.

4. Cavadov F., Abdullayev Y. Qloballaşan dünyada transmilli cinayətkarlıqla mübarizənin beynəlxalq və regional problemləri: kriminoloji aspektlər //«Regional cinayətkarlığın kriminoloji tədqiqinin aktual polemləri» 3-cü beynəlxalq elmi-praktik konfransın materialları. Bakı: 2015, s.85.

5. Cavadov F., Abdullayev Y., Vəliyev H. Narkomanlıqla və narkobizneslə mübarizə: Problemlər və onların həlli yolları //Məhkəmə ekspertizası, kriminalistika və kriminologiyanın aktual məsələləri. Elmi əsərlər məcmuəsi. Bakı: 2014, №62.

6. Cavadov F.M., Abdullayev Y.S. Narkomaniya və narkotizm (Dünya ölkələrinin və beynəlxalq təşkilatların narkotiklərin qanunsuz dövriyyəsi ilə mübarizə təcrübəsi). Bakı: Çaşıoğlu, 2004, 325s.

7. Zahidov B.S. Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar əməllərin törədilməsinə təsir göstərən əsas amillər// Məhkəmə ekspertizası, kriminalistika və kriminologiyanın aktual məsələləri. Bakı: 2007, №46, s.303-304.

8. Zahidov B.S. Azərbaycanda narkotizmlə və narkobizneslə mübarizənin aktual problemləri. Bakı: Təknur, 2007, 594s.

9. Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə: real vəziyyət və həlli yolları. Azərbaycan Respublikasının Baş Prokurorluğunun Elmi-Tədris Mərkəzi. Bakı: 2021.

10. Şahverdiyev. F.İ. Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirləri səmərəli və uğurla həyata keçirilir.Bakı:2025.

11. Narkotik vasitələrin qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizənin nəticəsinə dair illik hesabat. Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu tərəfindən hazırlanmışdır. Bakı: 2021.

12. Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında Azərbaycan Respublikası Qanunu. 2005-ci il.

13. Məmmədli G. Narkotik vasitələr, psixotrop maddələr və onların prekursorları. Bakı: 2017,

14. Səmədova Ş.T. Azərbaycan Respublikasının cinayət hüququnda narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə görə məsuliyyətin problem məsələləri // Bakı universitetinin xəbərləri. Sosial-siyasi elmlər seriyası. 2021, №1.

15. Hüseynova İ. Narkomaniya müasir dövrün qlobal problemidir //www.nmdk.gov.az

16. Əliyev Q.H. Narkomaniya və narkotizmlə mübarizə problemləri. Bakı: 1999.

17. Əliyev N.T. Qloballaşma dövründə cinayətkarlığın müasir vəziyyəti, səciyyəvi cəhətləri və meyilləri // Polis Akademiyasının Elmi Xəbərləri. 2019, №3(23).

18. Абрамова И., Фитуни Л. Наркотрафик через Африканский континент -новый вызов европейской безопасности // Современная Европа. 2018, №6, с.40-50.

19. Абдыкаримова А.С. К вопросу борьбы против незаконного оборота наркотических средств и психотропных веществ в Республике Казахстан//Вестник Института законодательства Республики Казахстан. 2013, №4(32), с.174-179.

20. Акрамов М.И. Меры по искоренению наркотизма в суверенном Таджикистане//с.71-76.

21. Акрамов М.И. Стратегия борьбы с незаконным оборотом наркотиков в Республики Таджикистан // с.42-49.

22. Александров Р.А. О месте наркобизнеса в уголовном праве России//Вестник Санкт-Петербургского университета МВД России. 2006, №3(31), с.194-197.

23. Александров Р.А. Правовые аспекты противодействия наркобизнесу транснациональных организованных преступных сообществ//Вестник Санкт-Петербургского университета МВД России. 2006, №3 (31), с.79-84

24. Алейников А.В., Суннами А.Н. Политические стратегии антинаркотического управления: кейс ФСКН России. // Вестник Томского государственного университета. 2020, №58, с.206-213.

25. Арская М.А. Антинаркотическая воспитания в школах Канады//Вестник Сибирского юридического института ФСКН России. 2014, №1(14), с.98-102.

26. Арская М.А. Из опыта антинаркотической работы: Обзор образовательных проектов национального института по проблемам злоупотребления наркотиками (США) // Вестник Сибирского юридического института ФСКН России. 2016, №3 (24), с.37-40.

27. Арский А.А. К вопросу об актуальных антинаркотических проектах Германии // Вестник Сибирского юридического института ФСКН России. 2014,

№1(14), с.89-96. Бакаева Е.К. Приоритетные направления борьбы с наркопреступностью в Великобритании // Вестник Краснодарского университета МВД России. 2009, №4, с.66-70

28. Арсланов А.Ф., Мустафина Г.М. Подрыв экономических основ наркобизнеса в России: Исторический аспект, правоприменительная практика, перспективы//Вестник Сибирского юридического института ФСКН России. 2014, №2(15), с.105-110

29. Артюшенко А.Б. Международное нормативно-правовое регулирование и сотрудничество в сфере контроля над оборотом наркотических средств и психотропных веществ // Научный портал МВД России. 2009, №1, с.119-123

30. Афамгатов Э.М. Уголовная ответственность за незаконный оборот наркотиков в странах ближнего и дальнего зарубежья // Общество и право. 2007, №4(18), с.268-271

31. Афамгатов Э.М. История развития антинаркотического законодательства: международно-правовой и отечественный опыт // Общество и право. 2009. №1(23), с.41-43

32. Ашин А.А., Михайлов А.Е. Рябчиков В.В. Международно-правовой механизм профилактики незаконного оборота наркотиков: на примере ООН // с.85-88.

33. Барановский Н.А. Наркотизация населения Беларуси в дискурсе социальной девиантологии //с.201-212.

34. Батурин Е.В. Политические и экономические факторы расширения глобальной наркоугрозы //с.109-116.

35. Батурин Е.В. Политические инструменты противодействия международному наркобизнесу // Бизнес в законе. 2011, №4, с.184-188.

36. Батурин Е.В. Противодействие международному наркобизнесу // Социально-политические науки. 2012, №1, с.188-192

37. Батурин Е.В. Формирование антинаркотической политики стран-участниц СНГ в XXI в. // Власть 2011, «1, с.101-104.

38. Бахур О.И. Гармонизация норм уголовного законодательства стран Евразийского экономического союза об ответственности за незаконный оборот наркотических средств, психотропных веществ, их прекурсоров и аналогов // Вестник Академии МВД Республики Беларусь: 2016, №1(31), с.91-97.

39. Белоусова И.С. Влияние социально-экономического положения стран Европейского Союза на наркоситуацию и Европейскую антинаркотическую политику// Вестник ВГУ. Серия: История. Политология. Социология. 2018, №2, с.37-40.

40. Бокерия С.А. Международно-правовые основы и принципы сотрудничества государств в сфере незаконного оборота наркотических средств и психотропных веществ // Вестник РУДН. Сер.Международные отношения. 2004, №1(4), с.72-81.

41. Ботобаев А.А. Характеристика наркоситуации в Кыргзыстане на современном этапе//с..79-84

42. Бочко П.К. О сотрудничестве Ирана и УНП ООН в борьбе с незаконным оборотом наркотиков//Вестник НГУ. 2015, Том 14, вып.10, с.131-134.

43. Бражалович Ф.Л. География наркотрафика в Латинской Америке //с.32-47.

44. Бражников Д.А., Кийко А.Ю., Маликов С.В. Криминологическая оценка наркоситуации в РФ// Юридическая наука и правоохранительная практика. 2017, №4(42), с.112-116

45. Бычкова А.М. Новые потенциально опасные психоактивные вещества: неадекватность правового реагирования на вызовы наркорынка // Известия Иркутской государственной экономической академии. 2016, Т.26, №3, с.484-492

46. Буйтекулы К.Б. К вопросу о международном сотрудничестве республики Казахстан в сфере борьбы с незаконным оборотом наркотиков //с.56-58.

47. Валькова У.В. История наркотизма от древних времен до современности (социологический анализ) //с.271-275.

48. Василевич О.А. Профилактика наркозависимости у обучающихся в Эстонии// Психология человека и образовании. 2019, Т.1, №1, с.53-60.

49. Власов В.А. Государственная антинаркотическая политика: понятие, этапы, приоритетные направления // Вестник Сибирского юридического института ФСКН России. 2016, №2(23), с.9-15.

50. Виноградов М.А., Кряжев В.С. Проблемы и особенности взаимодействия правоохранительных органов РФ и стран СНГ в целях противодействия незаконному обороту наркотических средств //с.171-176

51. Волощук А.Н. Борьба с незаконным оборотом наркотических средств на международном уровне//Вестник Сибирского юридического института ФСКН России. 2012, №2(11), с.88-94.

52. Воробьев С.В., Неймарк М.А. История борьбы с наркобизнесом в Латинской Америке // Вестник МГЛУ. Общественные науки. 2020, Вып.4(841), с.197- 212

53. Глушков З.А. Незаконный оборот наркотиков как социально-правовая проблема//Вестник магистратуры. 2021, №3-1 (114), с.32-34.

54. Голованова А.Е. Политика Турции и Болгарии по противодействию наркотрафику на «Балканском маршруте» //….с.101-103.

55. Гольденберг Б. Демократические основы антинаркотического законодательства Израиля: состояние и пути совершенствования // Юридическая техника. 2014, №8, с.532-541.

56. Гордеев А.Ю. Современное состояние, тенденции наркотизма в России и система мер по его противодействию //с.115-126.

57. Горюнов С.А. Совершенствование уголовного законодательства в преступлениях, связанных с незаконным оборотом наркотических средств в РФ и на примере некоторых стран//Электронный научный журнал «Наука. Общество. Государство». 2018, Том 6. №1(21).

58. Готчина Л.В. О сути международного спора вокруг отказа от контроля над наркотиками/с.15-20.

59. Готчина Л.В. Криминологическая характеристика Российской наркопреступности: структура, динамика и прогноз//Всероссийский криминологический журнал. 2017, Т.11. №4, с.767-775.

60. Гришина А.Е. Американская стратегия борьбы с наркотрафиком из Мексики // Актуальные проблемы современных международных отношений с.33-40.

61. Гритенко О.А. Некоторые уголовно-правовые аспекты борьбы с незаконным оборотом наркотических средств, пстихотропных веществ, их аналогов и прекурсоров по законодательству Украины // с.20-24.

62. Грудинин Н.С. Статистические показатели преступности в сфере незаконного оборота наркотических средств и психотропных веществу // Вестник МГЛУ. Образование и педагогические науки. 2021, Вып.1(838), с.266-278.

63. Гутиева И.Г. Взаимосвязь наркобизнеса и организованной преступности // с.135-138.

64. Дворецкий М.Ю. Направления уголовно-правовой политики в отношении организованной преступности, занимающейся наркотрафиком//

65. Думов С.Б. О некоторых аспектах организации профилактики и преодоления наркозависимости среди молодежи в Германии // Вестник ВолГМУ. 2005, №2(15), с.34-37.

66. Емельянов В.А. Противодействие незаконному обороту наркотических средств и психотропных веществ в России: историко-правовые и международно-правовые аспекты//Вестник Санкт-Петербургского университета МВД России. 2019, №2(82), с.138-145.

67. Еремин А.А., Еремина М.С., Абдурашитова Э.А. Роль резолюции A/RES/S-30/ в формировании новых подходов ООН к противодействию незаконному обороту наркотиков на глобальном уровне//Вестник РУДН. Серия: международные отношения. 2017, Том 17, №1, 95-110.

68. Еременко В. Транснациональный наркобизнес как глобальная угроза современности. Власть 2008, №5, с.46-49.

69. Ермякина Н.А., Арская М.А., Куприянчик Т.В., Шинкевич В.Е. Модели реабилитации наркозависимых (по материалам зарубежных источников)//Вестник Сибирского юридического института МВД России. 2018, №1(30), с.48-55

70. Железняк Н.С. О состоянии наркопреступности и некоторых особенностях противодействия ей в странах Латинской Америки // Вестник Сибирского юридического института ФСКН России: 2014, №1(14), с.69-74.

71. Жилина Н.Ю. Влияние стран Афро-Азиатского региона на развитее незаконного оборота психоактивных веществ//Криминологический журнал ОГУЭП. 2011, №2(16), с.25-28.

72. Жилина Н.Ю. Особенности международно-правового предупреждения и борьбы с наркопреступностью, наркотизмом и наркоманией // Научные ведомости. Серия Философия. Социология. Право. 2010, №2(73). Вып.11, с.110-118.

73. Зазулин Г.В. Глобализация, наркотики и конфликт // Вестник Санкт-Петербургского университета. 2014, Сер.17. Вып.2, с.74-84.

74. Зазулин Г.В. Антинаркотическая деятельность в РФ: криминологические проблемы и пути их решения // Криминология. Вчера. Сегодня. Завтра. 2014, №4(35), с.48-56.

75. Зелик В.А. Основные тенденции влияния незаконного потребления наркотических средств и психотропных веществ на преступность // Научный журнал КубГАУ. 2014, №104(10).

76. Золотов Я.А. Наркотики: историческая ретроспектива // Экономика и образования. 20103, №1, с.174-177.

77. Ибрагимов А.М., Алиев А.Э. Предупреждение правонарушений в сфере оборота наркотических средств, психотропных веществ и их аналогов//Закон и право. 2018, №7, с.15-19.

78. Иванов С.А. Принятие международных правовых актов как средство достижения правовой определенности: на примере противодействия незаконному обороту наркотиков // Государственно-правовые исследования. 2021, Вып.4., с.161-165.

79. Иванцова Н.В. Хисматова З.Г. Наркоторговля и борьба с ней//Марийский юридический вестник. 2017, №1(20), с.64-66.

80. Иващенко А.С. Производство и распространение наркотиков в странах Азии во второй половине XX-начале XXI вв.: Причины интенсификации и противодействие // Вестник АГУ. 2019, выпуск 3(244), с.37-47.

81. Исмаилова С.Р., Халилова Л.Э. Защита прав человека в условиях наркотического оборота в Италии//Океанский менеджмент. 2023, №1(19), с.80-82.

82. Казакевич Г.А., Казакевич С.М. Предупреждение преступности, связанной с незаконным оборотом наркотиков, в контексте реализации антинаркотической политики Республики Беларусь // 2021, №1, с.60-67.

83. Казакевич С.М. Установление латентной части наркомании и связанной с ней наркопреступности как фактор, влияющий на формирование стратегии антинаркотической политики (на примере Республики Беларусь) // 2020, №3, с.67-72.

84. Казанкова Т.Н., Реуф В.М., Фадеева А.А. История появления наркотических и психотропных веществ в жизни человека и их влияние на общество//Вестник Волжского университета имени В.Н.Татищева. 2019, Том 2, №4, с.23-31.

85. Кириченко А. Состояние и тенденции совершения контрабанды наркотических средств в Украине // с.111-114.

86. Кирсанов А.И. Исторические корни, социально-политические причины и факторы развития наркобизнеса в мире //….

87. Кирсанов А.И. Мировые производители и поставщики наркотиков //…с.199-203.

88. Клим А.М., Санкович С.В. Состояние, структура и динамика наркопреступности в Республике Беларусь //

Вопросы криминологии, криминалистики и судебной экспертизы. Минск: 2019, №1(45), с.13-23.

89. Кобец П.Н. Государственная политика королевства Испания в сфере противодействия наркопреступности //…с.21-26.

90. Кобец П.Н. Государственная политика Французской Республики в сфере противодействия незаконному обороту наркотических средств и психотропных веществ // …..с.29-36.

91. Кобец П.Н. Законодательные основы Финляндской Республики, способствующие снижению спроса на наркотики и противодействию их незаконному обороту//Российский журнал правовых исследований. 2019, Том 6, №1(18), с.132-139.

92. Кобец П.Н. Основные направления борьбы с наркопреступностью в Испании//Научный портал МВД России. 2018, №1, с.126-131.

93. Кобец П.Н. Основы государственной политики в сфере борьбы с незаконным оборотом наркотических средств и психотропных веществ во Франции // Наука. Мысль: электронный периодический журнал. 2017, №6, с.83-93.

94. Кобец П.Н. Особенности стратегии организации американских государств в сфере противодействия незаконному обороту наркотиков//Международное публичное и частное право. 2019, №2(107), с.20-23.

95. Кобец П.Н., Краснова К.А. Противодействие незаконному обороту наркотиков и организованной преступности в Финляндской Республики: Проблемы и достижения // Вестник Восточно-Сибирского института МВД России. 2019, №2(89), с.62-68.

96. Кобец П.Н. Совершенствование борьбы с незаконным оборотом наркотических средств на территории государств-участников содружества независимых государств-одно из условий обеспечения национальной безопасности РФ // Национальная безопасность и стратегическое планирование. 2017, №4(20), С.22-27.

97. Кобец П.Н. Особенности противодействия наркопреступности на территории государств- участников содружества независимых государств // Научная пусль. 2017, №4, с.74-82

98. Кондратьев М.В. Зарубежные организованные преступные группировки, действующие в сфере незаконного оборота наркотиков: исторический аспект // Вестник Сибирского юридического института ФСКН России. 2015, №2(19), с.42-51.

99. Коробеев А.И., Лобач Д.В. Мексиканская организованная наркопреступность в XXI веке: Состояние, структура, тенденции развития // Криминологический журнал Байкальского государственного университета экономики и права. 2014, №2, с.177-184.

100. Корчагина Г.А. Международный комитет по контролю над наркотиками: мировой опыт в борьбе с наркоугрозой//Российский психиатрический журнал. 2015, №1, с.34-38.

101. Кочетков Д.С. «Золотой треугольник»: Краткая история и наши дни // Юго-Восточная Азия: Актуальные проблемы развития. 2019, Том 1. №2(43), с.215-232.

102. Крупнов Ю., Левинсон Л. Война с наркотиками-проиграна? // Индекс безопссности. №3(98), т.17, с.85-98.

103. Кудаяров К.А. Ситуация в области незаконного оборота наркотиков в Киргизии // с.55-64.

104. Кузьмин Н.Т. Государственная стратегия противодействия незаконному обороту наркотиков и организованной преступности Республики Никарагуа: «Стена сдерживания» // ….2019, №4(4), с.26-31

105. Култасов А.А. Некоторые вопросы стратегии борьбы с наркоманией и наркобизнесом в Республике Казахстан // с.279-284

106. Куприянчик Т.В., Ермякина Н.А. Из материалов информационного бюллетеня «DRUGNET EUROPE" (№89, 2015) Европейского Центра Мониторинга наркотиков и наркозависимости // Вестник Сибирского юридического института ФСКН России. 2015, №2(19), с. 147-152.

107. Куприянчик Т.В., Ермякина Н.А. Из материалов информационного бюллетеня «DRUGNET EUROPE" (№90-914, 2015) Европейского Центра Мониторинга наркотиков и наркозависимости // Вестник Сибирского юридического института ФСКН России. 2015, №4(21), с.152-161.

108. Кучина Я.О. Правовая система противодействия наркопреступности в республике Сингапур //Азиатско-Тихоокеанский регион: экономика, политика, право. 2015, №4, с.104-114.

109. Кушхов А.А., Кульбаев А.Р. К вопросу о зарубежном опыте профилактики наркомании среди молодежи // Вестник Сибирского юридического института ФСКН России: 2012, «1(10), с.92-99

110. Ларченко А.В., Суворов М.А., Андрюхин В.И., Кауров Я.В., Суворов А.В. Синтетические катиноны и каннабиноиды-новые психоактивные вещества (обзор) // Нижегородская государственная медицинская академия. 2017, Том 9. №1, с.185-194.

111. Мальков С.М. Стратегия государственной антинаркотической политики РФ на период до 2030 года:

характеристика и тенденции // Вестник Сибирского юридического института МВД России: 2021, №1(42), с.51-56.

112. Мальцагов И.Д. Легализация легких наркотиков: путь в никуда?//Закон и право. 2018, №11, с.59-62

113. Меликов Т.М. Анализ современной наркоситуации в мире и основные меры по ее улучшению // Закон и право. 2019, №3, с.77-79.

114. Милешина Н.А., Потапова Л.А., Кильмяшкина Т.С. Отечественный опыт борьбы с наркопреступностью: от древней руси до имперской России // Манскрипт. 2019, Том 12. Выпуск 1, с.44-47

115. Милова И.Е. Заметки об истории борьбы с наркотизмом//Вестник Волжского университета имени В.Н.Татищеа. 2016, Том 1, №4.

116. Митрофаненкова О.Е. Афганский наркотрафик и борьба Ирана с незаконным оборотом наркотиков //….с.91-99.

117. Михайлов Ю.В., Абрамов А.Ю., Косолапова Н.В. Международно-правовое регулирование оборота наркотических средств и психотропных веществ // Электронный научный журнал «Социальные аспекты здоровья населения.

118. Михайлова Ю.В., Абрамов А.Ю. Международные подходы к борьбе с распространением наркотических средств и психотропных веществ // Медицинский вестник Северного Кавказа. 2013, Т.8. №3, с.61-65.

119. Морозов Н.А. Япония-новое поколение без наркотиков // Пробелы в российской законодательстве. 2013, №2, с.107-109.

120. Мукашев А.К. Причины возникновения наркотизма и современное состояние наркоситуации в Казахстане // с.66-71

121. Навроцкая И.Н. Польза и недостатки превентивных мер британской полиции в борьбе с наркопреступностью //….

122. Никитина Л.А. Анализ зарубежного опыта профилактики употребления психоактивных веществ в подростковой среде // Педагогика. Психология. Социальная работа. Ювенология. Социокинетика. 2011, №3, с.247-251.

123. Новикова Е.В. О контроле за наркотиками: История и современность // с.213-221

124. Однолько И.В. Исторические и современные аспекты противодействия незаконному обороту наркотиков среди несовершеннолетних // Проблемы правоохранительной деятельности. 2011, №1, с.66-70.

125. Организованная преступность-вызов безопасности Латинской Америки // Отв.ред. Б.Ф.Мартынов. 2014,-96с.

126. Омарова Б.К., Байгелов М.К. Казахстан как «транзитный корридо» при транспортировке наркотических средств между Европой и Азией // Вестник Института законодательства Республики Казахстан. 2008, №3(11), с.73-77.

127. Петров М.В., Бушуев И.В. Историко-правовые аспекты развития международного и отечественного законодательства в области противодействия незаконному обороту наркотических средств и психотропных веществ // Вестник Волжского университета имени В.Н.Татищева. 2020, №3. Том 1, с.270-279.

128. Пейруз С. Наркотрафик в Центральной Азии плохо продуманная борьба? // ПОНАРС Евразия. Аналитическая записка №218.

129. Пинтус С.А., Шитова Т.В. Правоаая основа деятельности правоохранительных органов содружества

независимых государств по противодействию незаконному обороту наркотиков // Вестник Сибирского юридического института ФСКН России: 2014, №3(16), с.62-71.

130. Позднякова М.Е., Брюно В.В. «Контролируемое» потребление наркотиков как фактор изменения наркоситуации в современной России//Вестник ЗабГУ. 2018, Т.24. №7, с.88-100.

131. Примаков Д.Я. Борьба с наркоманией: законодательство Великобритании и Израиля // Наркоконтроль. 2014, №3(36), с.35-39.

132. Раднаева Э.Л., Доржиева А.Г.Законодательный опыт в области борьбы с незаконным оборотом наркотических средств и психотропных веществ отдельных государства Азиатско-Тихоокеанского региона // Современные проблемы теории и практики права глазами молодых исследователей. 2016, с.218-221.

133. Ролик А.И. Международно-правовое регулирование оборота наркотических средств, психотропных веществ и их прекурсоров //…с.135-144.

134. Рустамзода Э.Р. Незаконный оборот наркотических средств и психотропных веществ в Республике Таджикистан: проблемы и пути решения // Труды Академии управления МВД России. 2019, №2(50), с.97-104.

135. Рувинский В.В. Развитие наркоэкономики Колумбии в политико-экономических условиях конца XX века//Вестник ТГПУ. 2000, Выпуск 3(19), с.52-56

136. Саидалиев С.С. Борьба с наркоторговле. Выпуск народный опыт//www.scientificcprogresss.uz

137. Саладовников А.В. Наркоситуация в Республике Беларусь. Опыт борьбы с новыми видами психоактивных веществ//Вестник Сибирского юридического института ФСКН России // 2016, №2(23), с.74-77.

138. Сарсембаев И.Ж. Создание «антинаркотической разведки» как важный элемент обеспечения национальной безопасности РФ // Государственное и муниципальное управление. Ученые записки. 2021, №1, с.36-46.

139. Смирнов К.Ю. О законе Китайской Народной Республики «О борьбе с наркотиками» // Электронное приложение к «Российскому юридическому журналу». 2017, №6, с.63-75.

140. Соловьева С.И. О профилактике наркомании во Франции//Ярославский педагогический вестник. 2003, №1(34).

141. Страунинг Ю.А., Селихова О.Г. Состояние, тенденции развития и противодействия преступлениям в сфере незаконного оборота наркотических средств, психотропных веществ и их прекурсоров в некоторых странах Европы // Криминологический журнал. 2022, №3, ,с.159-164

142. Струкова К. Проблемы борьбы с преступлениями в сфере оборота наркотических средств и психотропных веществ, их аналогов и прекурсоров в международном уголовном праве//с.209-211.

143. Тарасов К.С. «Божий дар», ставший проклятием: История наркотиков и наркобизнеса в Латинской Америке. М., 2000,- 179с.

144. Тепляшин П.В., Федорова Е.А. Транснациональная наркопреступность: понятие, признаки, детерминанты и отдельные направления противодействия//Криминология: Вчера. Сегодня. Завтра. 2017, №3(46), с.68-79.

145. Тепляшин П.В. Состояние наркопреступности в РФ: основные криминологические показатели и тенденции // LEX ROSSICA. 2017, №10(131), с.147-156.

146. Тишин А.А. О некоторых аспектах современного кокаинового бизнеса и трафика в странах Латинской Америки//Электронное научное издание «Альманах Пространство и Время. 2019, Т.17. Вып.1.

147. Тлюстангелов Б.К. Международный опыт предупреждения правонарушений в сфере оборота наркотических средств, психотропных веществ и их аналогов // Пробелы в российском законодательстве. 2013, №5, с.246-250.

148. Тонков Е.Е. Антинаркотическая политика в России: неутешительные итоги или двадцать лет спустя // Научные ведомости. Серия Философия. Социология. Право. 2015. №14(211). Вып.33, с.129-136

149. Федоров А.В. Наркотики в России и США//Наркоконтроль. 2016, №4(45), с.39-42.

150. Федорова Е.А. Особенности противодействия транснациональной наркопреступности//Вестник Сибирского юридического института ФСКН России. 2014, №3(16), с.97-108.

151. Филатова М.В. Как Опиум открыл Китай всему миру: Причины и последствия Опиумных войн // Вопросы студенческой науки. 2020, №6(46), с.176-180.

152. Хакимов Р.М. Современное состояние наркопреступности в Кыргызстане и законодательные меры борьбы с ней // Вестник КРСУ. 2009, Том 9, №1, с.17-22

153. Ханов Т.А., Бакишев К.А., Феткулов А.Х., Нурпеисова А.К. Общая характеристика законодательных новелл в сфере борьбы с незаконным оборотом наркотиков в Республике Казахстан // Всероссийский криминологический журнал. 2017, Т.11. №3, с.623-632.

154. Хохлов Е.Е. Роль международных структур в

борьбе с незаконным оборотом наркотиков // Научный портал МВД России: 2020, №2(50), с.111-120.

155. Хутыз Р.А. Регламентация уголовной ответственности за незаконный оборот наркотиков в законодательстве государств мусульманской системы прав // Общество и право. 2009, №4(26), с.151-155

156. Цуканов Н.Н., Куприянчик Т.В., Цуканов Д.Н. Ответственность за правонарушения в Японии // Вестник Могилевского института МВД России. 2022, №2(6), с.20-24.

157. Цуканов Н.Н., Куцкель М.В., Цуканов Д.Н. Ответственность за наркоправонарушения в Финляндии // Юридическая наука. 2022, №8, с.75-80

158. Эркабоев А.А. Совершенствование механизмов контроля за наркотическими средствами, психотропными веществами и прекурсорами в Узбекистане // www.oriens.uz. 2021.

159. Шалагин А.Е. Зарубежное законодательство в сфере противодействия незаконному обороту наркотиков //Актуальные проблемы экономики и права. 2011, №4, с.291-295.

160. Шашин Д.Г., Левошин С.А. Наркоситуация в республике Перу и Российско-Перуанское сотрудничество в борьбе с незаконным оборотом наркотиков//Вестник Сибирского юридического института МВД России. 2019, №4(37), с.96-101.

161. Шестаков Д.А. Почему бы не ликвидировать наркобизнес? Теоретико-криминологический подход//Криминологический журнал ОГУЭП. 2010, с.30-33.

162. Швецова Ю.Б. О борьбе с наркотиками и о заместительной метадоновой терапии в Китае и Гонконге // Российский психиатрический журнал. 2009, №6, с.33-37.

163. Шинкевич В.Е., Куприянчик Т.В. Организация реабилитации и ресоциализации наркозависимых в контексте обеспечения наркобезопасности современного общества: отечественный и зарубежный опыт // Социальные исследования и безопасность. 2018, №3, с.172-182.

164. Шишков Ю.Наркобизнес-специфическая глобальная проблема. Мировая экономика и международные отношения. 2011, №2, с.3-12.

165. Шульгина Е.В. Сравнительный анализ феномена «контролируемого потребления» наркотиков на западе и в России // Вестник ЗабГУ. 2019, Т.25. №1, с.72-77.

166. Шумилов М.М., Исаев А.П., Гуркин А.Б. Афганская наркоугроза и меры противодействия ей в контексте реализации Стратегии госудурственной антинаркотической политики РФ до 2020г. // Управленческое консультирование. 2015, №3, с.26- 36.

167. Шумов В.А. История противодействия преступности в сфере незаконного оборота наркотиков в Германии // Труды Института государства и права Российской академии наук. 2010, №5, с.56-65.

168. Щербаков А.Д. Вид наркотика как обстоятельство, увеличивающее вида и размер наказания в федеральном антинаркотическом уголовном законодательстве США// Социально-экономические явления и процессы. 2017, Т.12, №2, с.202-207.

169. Щербаков А.Д. Система федерального антинаркотического уголовного законодательства в США (краткая заметка) // Социально-экономические явления и процессы. 2016, Т.11, №5, с.93-98.

170. Щербаков А.Д. Становление антинаркотического законодательства в США // Социально-экономические явления и процессы. 2015, Т.10, №10, с.219-225.

171. Яшин А.В., Шикшиев В.Р. Стратегии противодействия преступности в сфере незаконного оборота наркотиков: отечественный и зарубежный опыт // Вестник Пензенского государственного университета. 2021, №1, с.3-8.

172. Чевтаева Н.Г., Никитина А.С., Скаво К., Усова О.В. Трансформация употребления наркотиков в России и США: инновационные формы профилактической работы среди молодежи // с.210-223.

# ƏLAVƏ 1

## AZƏRBAYCAN RESPUBLİKASININ CİNAYƏT MƏCƏLLƏSİ (çıxarış)

26-cı fəsil Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar cinayətlər

**Maddə 234. Qanunsuz olaraq narkotik vasitələri, psixotrop maddələri və ya onların prekursorlarını hazırlama, istehsal etmə, əldə etmə, saxlama, daşıma, göndərmə və ya satma**

234.1. Satış məqsədi olmadan qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri şəxsi istehlak miqdarından artıq miqdarda əldə etmə, saxlama, hazırlama, emal etmə, daşıma-

(20 oktyabr 2017-ci il tarixli 816-VQD nömrəli Azərbaycan Respublikasının Qanunu ilə 234.1-ci maddənin dispozisiyasında «əldə etmə və ya saxlama» sözləri «əldə etmə, saxlama, hazırlama, emal etmə, daşıma» sözləri ilə əvəz edilmişdir).

Bir ildən üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır

(20 oktyabr 2017-ci il tarixli 816-VQD nömrəli Azərbaycan Respublikasının Qanunu ilə 234.1-ci maddənin sanksiyasında «üç» sözündən əvvəl «bir ildən üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya» sözləri əlavə edilmişdir).

234.1-1.Bu Məcəllənin 234.1-ci maddəsində nəzərdə tutulmuş əməllər külli miqdarda törədildikdə-

Üç ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır

(26 aprel 2022-ci il tarixli 516-VİQD nömrəli Azərbaycan Respublikasının Qanunu ilə yeni məzmunda 234.1-1-ci maddə əlavə edilmişdir)

234.2.Satış məqsədi ilə qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri əldə etmə və ya saxlama hazırlama, istehsal etmə, emal etmə, daşıma, göndərmə, yaxud qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri satma-

Üç ildən yeddi ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

234.3.Narkotik vasitələrin və ya psixotrop maddələrin qanunsuz hazırlanmasında və emalında istifadə etmək məqsədi ilə prekursorları satma, yaxud prekursorları eyni məqsədlə xeyli miqdarda hazırlama, əldə etmə, saxlama, göndərmə və ya daşıma-

(17 noyabr 2017-ci il tarixli 875-VQD nömrəli Azərbaycan Respublikasırnın Qanunu ilə 234.3-cü maddənin dispozisiyasında «hazırlama, əldə etmə, saxlama, göndərmə, daşıma və ya satma» sözləri «satma, yaxud prekursorları eyni məqsədlə xeyli miqdarda hazırlama, əldə etmə, saxlama, göndərmə və ya daşıma» sözləri ilə əvəz edilmişdir).

Üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

234.3-1.Yetkinlik yaşına çatmayanlara qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri satma, habelə bu Məcəllənin 234.2-ci və 234.3-cü maddələrində nəzərdə tutulmuş əməlləri təhsil və ya tibb müəssisələrində, eləcə də cəzaçəkmə müəssisələrində yaxud həbs yerlərində törətmə-

Dörd ildən səkkitz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

(20 oktyabr 2017-ci il tarixli 816-VQD nömrəli Azərbaycan Respublikasının Qanunu ilə yeni məzmunda 234.3-1-ci maddə əlavə edilmişdir.

23 aprel 2021-ci il tarixli 301-VİQD nömrəli Azərbaycan Respublikasının Qanunu ilə 234.3-1-ci maddədə «səhiyyə» sözü «tibb» sözü ilə əvəz edilmişdir).

234.4.Bu Məcəllənin 234.2, 234.3 və 234.3-1-ci maddəsində nəzərdə tutulmuş əməllər:

(9 iyul 2019-cu il tarixli 1639-VQD nömrəli Azərbaycan Respublikasının Qanunu ilə 234.4-cu maddədə «və 234.3-cü sözləri», «234.3 və 234.3-1-ci» sözləri ilə əvəz edilmişdir)

234.4.1.qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən və ya mütəşəkkil dəstə tərəfindən törədildikdə;

234.4.2.təkrar törədildikdə;

234.4.4.külli miqdarda törədildikdə;

234.4.4.*mediadan*, o cümlədən internet informasiya ehtiyatlarından və ya informasiya-telekommunikasiya şəbəkələrindən istifadə etməklə törədildikdə-

(26 aprel 2022-ci il tarixli 516-VİQD nömrəli Azərbaycan Respublikasının Qanunu ilə 234.4.3-cü maddənin sonunda tire işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilmişdir və yeni məzmunda 234.4.4-cü maddə əlavə edilmişdir.

17 fevral 2023-cu il tarixli 807-VİQD nömrəli Azərbaycan Respublikasının Qanunu ilə 234.4.4-cü və 283.1-ci maddələrdə «kütləvi informasiya vasitələrindən» sözləri «mediadan» sözləri ilə əvəz edilmişdir).

Beş ildən on iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

234.5.Narkotik vasitələri və ya psixotrop maddələri hazırlamaq üçün istifadə edilən və xüsusi nəzarət altında olan xammalın, alətlərin və ya avadanlıqların, habelə narkotik vasitələrin, psixotrop maddələri və ya onların prekursorlarını istehsalı, hazırlanması, emalı, saxlanması, buraxılması, satılması, bölüşdürülməsi, verilməsi, daşınması, göndərilməsi, əldə edilməsi, istifadə edilməsi, idxalı, ixracı, tranzit nəql edilməsi və ya məhv edilməsi qaydalarının, bu qaydalara riayət etməli olan şəxs tərəfindən pozulması.

(17 aprel 2007-ci il tarixli 313-İİİYD nömrəli Azərbaycan Respublikasının Qanunu ilə 234.5-ci maddəyə «bölüşdürülməsi» sözündən sonra «verilməsi» sözü, «ixracı» sözündən sonra «tranzit nəql edilməsi» sözləri əlavə edilmişdir, «prekursorların» sözü çıxarılmışdır, «və ya psixotrop maddələrin» sözləri «psixotrop maddələri və ya onların prekursorlarını» sözləri ilə əvəz edilmişdir).

Min manatdan iki min beş yüz manatadək cərimə və ya *üç* ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə bir ildən üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

(16 may 2008-ci il tarixli 607-İİİQD nömrəli Azərbaycan Respublikasının Qanunu ilə 234.5-ci maddənin sanksiyasında «şərti maliyə vahidi məbləğinin iki yüz mislindən min mislinədək» sözləri «iki yüz manatdan min manatadək» sözləri ilə əvəz edilmişdir.

31 may 2017-ci il tarixli 707-VQD nömrəli Azərbaycan Respublikasının Qanunu ilə 234.5-ci maddənin sanksiyasında «iki yüz manatdan min» sözləri «min manatdan iki min beş yüz» sözləri ilə əvəz edilmişdir.

20 oktyabr 2017-ci il tarixli 816-VQD nömrəli Azərbaycan Respublikasının Qanunu ilə 234.5-ci maddənin sanksiyasında «edilməklə» sözündən sonra «bir ildən üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya» sözləri əlavə edilmişdir)

Qeyd:

1.Narkotik vasitələri, psixotrop maddələri və ya onların prekursorlarını könüllü surətdə təhvil verən və ya narkotik vasitələrin, psixotrop maddələrin və ya onların prekursorlarının qanunsuz dövriyyəsi ilə bağlı cinayətlərin açılmasında və ya qarşısının alınmasında, bu əməlləri törətmiş şəxslərin aşkar edilməsində, cinayət yolu ilə əldə edilmiş əmlakın tapılmasında fəal iştirak etmiş şəxs cinayət məsuliyyətindən azad edilir.

(17 aprel 2007-ci il tarixli 313-İİİQD nömrəli Azərbaycan Respublikasının Qanunu ilə 234.5-ci maddənin Qeydin 1-ci bəndində «prekursorları» sözü «onların prekursorlarını» sözləri ilə, «prekursorların» sözü «onların prekursorlarının» sözləri ilə əvəz edilmişdir).

2.Bu fəsildə göstərilən narkotik vasitələrin və ya psixotrop maddələrin şəxsi istehlak miqdarından artıq (????) və ya külli miqdarı, habelə prekursorların və qanunsuz kultivasiya edilən tərkibində narkotik maddələr olan bitkilərin (onların hissələrinin xeyli və külli miqdarı müvafiq qanunlarla müəyyən edilir.

(30 dekabr 2005-ci il tarixli 46-İİİQD nömrəli Azərbaycan Respublikasının Qanunu ilə 234-cü maddənin «Qeyd» hissəsinin 2-ci bəndində «şəxsi istehlak» sözlərindən sonra «miqdarından artıq» sözləri əlavə edilmiş, «normativ-hüquqi aktlar ilə» sözləri «qanunla» sözü ilə əvəz edilmişdir.

17 noyabr 2017-ci il tarixli 875-VQD nömrəli Azərbaycan Respublikasının Qanunu ilə 234.3-cü maddənin «Qeyd hissəsinin ikinci bəndi yeni redaksiyada verilmişdir).

**Maddə 235. Narkotik vasitələri, psixotrop maddələri və ya onların prekursorlarını talama və ya hədə-qorxu ilə tələb etmə**

235.1.Narkotik vasitələri və ya psixotrop maddələri talama və ya hədə-qorxu ilə tələb etmə-

(17 noyabr 2007-ci il tarixli 313-İİİQD nömrəli Azərbaycan Respublikasının Qanunu ilə 235.-ci maddənin adında «prekursorları» sözü «onların prekursorlarını» sözləri ilə əvəz edilmişdir)

Üç ildən yeddi ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

235.2.Narkotik vasitələrin və ya psixotrop maddələrin qanunsuz hazırlanmasında və emalında istifadə etmək məqsədi ilə prekursorları talama və ya hədə qorxu ilə tələb etmə-

İki ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

235.3.Bu Məcəllənin 235.1 və 235.2-ci maddələrində nəzərdə tutulmuş əməllər:

235.3.1.qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə;

235.3.2.təkrar törədildikdə;

235.3.3.şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədildikdə;

235.3.4.həyat və ya sağlamlıq üçün təhlükəli olmayan zor tətbiq etməklə və ya belə zor tətbiq etmək hədəsi ilə törədildikdə-

Altı ildən on ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

235.4.Bu Məcəllənin 235.1-235.3-cü maddələrində nəzərdə tutulmuş əməllər:

235.4.1.mütəşəkkil dəstə tərəfindən törədildikdə;

235.4.2.külli miqdarda törədildikdə;

235.4.3.həyat və ya sağlamlıq üçün təhlükəli olan zor tətbiq etməklə və ya belə zor tətbiq etmək hədəsi ilə törədildikdə-

(20 oktyabr 2017-ci il tarixli 816-VQD nömrəli Azərbaycan Respublikasının Qanunu ilə 235.4.4-cü maddə ləğv edilmişdir və müvafiq olaraq 235.4.3-cü maddənin sonundakı nöqtəli vergül işarəsi tire işarəsi ilə əvəz edilmişdir)

Səkkiz ildən on beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**Maddə 236. Narkotik vasitələrin və ya psixotrop maddələrin istehlakına təhrik etmə**

236.1.Narkotik vasitələrin və ya psixotrop maddələrin istehlakına təhrik etmə-

İki ildən beş ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

(20 oktyabr 2017-ci il tarixli 816-VQD nömrəli Azərbaycan Respublikasının Qanunu ilə 236.1-ci maddənin sanksiyasında «iki» sözündən əvvəl «iki ildən beş ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya» sözləri əlavə edilmişdir).

236.2.Eyni hərəkətlər:

236.2.1.qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən törədildikdə;

236.2.2.təkrar törədildikdə;

236.2.3.bilə-bilə yetkinlik yaşına çatmayan, iki və ya daha çox şəxs barəsində törədildikdə;

236.2.4.zor tətbiq etməklə və ya belə zor tətbiq etmək hədəsi ilə törədildikdə-

Beş ildən on ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

236.3.Bu Məcəllənin 236.1 və 236.2-ci maddələrində nəzərdə tutulmuş əməllər ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya başqa ağır nəticələrə səbəb olduqda-

Yeddi ildən on iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**Maddə 237.Qanunsuz olaraq tərkibində narkotik maddələr olan bitkiləri kultivasiya etmə**

(17 aprel 2007-ci il tarixli 313-İIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ilə 237-ci maddənin adında və 237.1-ci maddədə «narkotik xassəli» sözləri «tərkibində narkotik maddələr olan» sözləri ilə əvəz edilmişdir).

237.1.Qanununsuz olaraq tərkibində narkotik maddələr olan bitkiləri xeyli miqdarda kultivasiya etmə (əkmə, yetişdirmə və ya onları (onların hissələrini) toplama)-

(1 fevral 2017-ci il tarixli 523-VQD nömrəli Azərbaycan Res-

publikasının Qanunu ilə 237.1-ci maddəsinin dispozisiyası yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

«237.1.Qanunsuz olaraq tərkibində narkotik maddələr olan bitkiləri əkmə, yetişdirmə, onları (onların hissələrini) toplama, habelə çətənə, xaş-xaş növlərini və ya tərkibində narkotik maddələr olan digər bitkiləri kultivasiya etmə»

Üç min manatdan altı min manatədək miqdarda cərimə və ya bir ildən üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

(163 may 2008-ci il tarixli 607-İİİQD nömrəli Azərbaycan Respublikasının Qanunu ilə ilə 237.1-ci maddənin sanksiyasında «şərti maliyyə vahidi məbləğinin iki yüz mislindən min mislinədək» sözləri «iki yüz manatdan min manatadək» sözləri ilə əvəz edilmişdir.

31 may 2017-ci il tarixli 707-VQD nömrəli Azərbaycan Respublikasının Qanunu ilə 237.1-ci maddənin sanksiyasında «iki yüz manatdan min» sözləri «üç min manatdan altı min» sözləri ilə əvəz edilmişdir.

20 oktyabr 2017-ci il tarixli 816-VQD nömrəli Azərbaycan Respublikasının Qanunu ilə 237.1-ci maddənin sanksiyasında «və ya» sözlərindən sonra «bir ildən üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya» sözləri əlavə edilmişdir).

237.2.Eyni hərəkətlər:

237.2.1.qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən törədildikdə;

237.2.2.təkrar törədildikdə;

237.2.3.külli miqdarda törədildikdə-

Üç ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**Maddə 238.Narkotik vasitələrin və ya psixotrop maddələrin istehlakı üçün tiryəkxanalar təşkil etmə və ya saxlama**

238.1.Narkotik vasitələrin və ya psixotrop maddələrin istehlakı üçün tiryəkxanalar təşkil etmə, saxlama və ya bu məqsədlər üçün binalar vermə-

Dörd ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

238.2.Eyni hərəkətlər:

238.2.1.Qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən törədildikdə;

238.2.2.təkrar törədildikdə-

Üç ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**Maddə 239.Narkotik vasitələri və psixotrop maddələri əldə etmək hüququ verən reseptləri tibbi göstəricilər olmadan qanunsuz vermə və ya saxtalaşdırma**

Narkotik vasitələri və psixotrop maddələri əldə etmək hüququ verən reseptləri tibbi göstəricilər olmadan qanunsuz vermə və ya saxtalaşdırma-

Üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

(20 oktyabr 2017-ci il tarixli 816-VQD nömrəli Azərbaycan Respublikasının Qanunu ilə 239-cu maddənin sanksiyasında «edilməməklə» sözündən sonra «iki ilədək müddətə azadlığın məhdudlaşdıırlması və ya» sözləri əlavə edilmişdir.)

**Maddə 240. Güclü təsir edən və ya zəhərli maddələrin satış məqsədilə qanunsuz dövriyyəsi**

240.1.Narkotik vasitələrə və ya psixotrop maddələrə aid olmayan güclü təsir edən maddələri satış məqsədi ilə qanunsuz

hazırlama, emal etmə, əldə etmə, saxlama, daşıma və ya göndərmə, habelə bu maddələri və ya onları hazırlamaq yaxud emal etmək üçün avadanlığı qanunsuz satma-

Üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

240.1-1.Narkotik vasitələrə və ya psixotrop maddələrə aid olmayan zəhərli maddələri satış məqsədi ilə qanunsuz hazırlama, emal etmə, əldə etmə, saxlama, daşıma və ya göndərmə, habelə bu maddələri və ya onları hazırlamaq, yaxud emal etmək üçün avadanlığı qanunsuz satma-

Beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

240.2.Bu Məcəllənin 240.1 və 240.1-1-ci maddələrində nəzərdə tutulmuş əməllər:

240.2.1.qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə;

240.2.2.təkrar törədildikdə-

İki ildən *altı* ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

240.3.Bu Məcəllənin 240.1, 240.1-1 və 240.2-ci maddələrində nəzərdə tutulmuş əməllər:

240.3.1.mütəşəkkil dəstə tərəfindən törədildikdə;

240.3.2.güclü təsir edən maddələrə münasibətdə külli miqdarda törədildikdə-

Dörd ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

240.4.Güclü təsir edən və ya zəhərli maddələrin istehsalı, əldə edilməsi, uçotu, saxlanması, buraxılması, daşınması və ya göndərilməsi qaydalarının pozulması ehtiyatsızlıqdan onların talanmasına və ya başqa mühüm ziyan vurulmasına səbəb olduqda-

Min manatdan iki min beş yüz manatadək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya iki ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Qeyd:

1.Bu Məcəllədə göstərilən, narkotik vasitələrə və ya psixotrop maddələrə aid olmayan güclü təsir edən və zəhərli maddələr, habelə güclü təsir edən maddələrin külli miqdarı qanunla müəyyən edilir.

2.Narkotik vasitələrə və ya psixotrop maddələrə aid olmayan güclü təsir edən və ya zəhərli maddələri könüllü surətdə təhvil verən, yaxud güclü təsir edən və ya zəhərli maddələrin qanunsuz dövriyyəsi ilə bağlı cinayətlərin açılmasında və ya qarşısının alınmasında, bu əməlləri törətmiş şəxslərin aşkar edilməsində, cinayət yolu ilə əldə edilmiş əmlakın tapılmasında fəal iştirak etmiş şəxs cinayət məsuliyyətindən azad edilir.

## ƏLAVƏ 2

## AZƏRBAYCAN RESPUBLİKASININ İNZİBATİ XƏTALAR MƏCƏLLƏSİ
**(çıxarış)**

(Bu Məcəllə Azərbaycan Respublikasının
2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanunu
ilə təsdiq edilmişdir)
ÇIXARIŞ

### FƏSİL 22

**Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar inzibati xətalar**

**Maddə 206. Qanunsuz olaraq narkotik vasitələrin, psixotrop maddələrin istehlakı, satış məqsədi olmadan şəxsi istehlak miqdarında hazırlanması, əldə edilməsi, saxlanılması, daşınması və ya göndərilməsi**

Qanunsuz olaraq narkotik vasitələrin, psixotrop maddələrin istehlakına, satış məqsədi olmadan şəxsi istehlak miqdarında hazırlanmasına, əldə edilməsinə, saxlanılmasına, daşınmasına və ya göndərilməsinə görə-üç yüz manatdan dörd yüz manatadək məbləğdə cərimə edilir, işin hallarına görə və xətanı törədənin şəxsiyyəti nəzərə alınmaqla, bu tədbirlərin tətbiqi kifayət sayılmadıqda isə iki ayadək müddətə inzibati həbs tətbiq edilir.

**Qeyd:** Satış məqsədi olmadan hazırladığı, əldə etdiyi, saxladığı, daşıdığı və ya göndərdiyi şəxsi istehlak miqdarında narkotik vasitələri, psixotrop maddələri könüllü surətdə təhvil verən şəxs bu maddədə nəzərdə tutulan hərəkətlərə görə inzibati məsuliyyətdən azad edilir.

**Maddə 206-1. Narkotik vasitələrin və ya psixotrop maddələrin qanunsuz hazırlanmasında və emalında istifadə**

**etmək məqsədi ilə prekursorların hazırlanması, əldə edilməsi, saxlanılması, göndərilməsi və ya daşınması**

Narkotik vasitələrin və ya psixotrop maddələrin qanunsuz hazırlanmasında və emalında istifadə etmək məqsədi ilə prekursorların az miqdarda hazırlanmasına, əldə edilməsinə, saxlanılmasına, göndərilməsinə və ya daşınmasına görə -

iki yüz manatdan üç yüz manatadək məbləğdə cərimə edilir.

**Qeyd:**

1. Bu maddədə "az miqdarda" dedikdə, müvafiq qanunla müəyyən edilmiş prekursorların xeyli miqdarından aşağı miqdar başa düşülür.

2. Narkotik vasitələrin və ya psixotrop maddələrin qanunsuz hazırlanmasında və emalında istifadə etmək məqsədi ilə hazırladığı, əldə etdiyi, saxladığı, göndərdiyi və ya daşıdığı prekursorları könüllü surətdə təhvil verən şəxs bu maddədə nəzərdə tutulan hərəkətlərə görə inzibati məsuliyyətdən azad edilir.

**Maddə 207. Narkotik vasitələrin, psixotrop maddələrin istehlakı və ya daşınması hallarının, həmçinin belə istehlak nəticəsində yaranmış sərxoşluq vəziyyətinin müəyyən edilməsi məqsədi ilə keçirilən tibbi müayinədən boyun qaçırmaq**

Narkotik vasitələrin, psixotrop maddələrin istehlakı və ya daşınması hallarının, həmçinin belə istehlak nəticəsində yaranmış sərxoşluq vəziyyətinin müəyyən edilməsi məqsədi ilə keçirilən tibbi müayinədən boyun qaçırmağa görə-

üç yüz manatdan dörd yüz manatadək məbləğdə cərimə edilir.

**Maddə 208. Qanunsuz olaraq tərkibində narkotik maddələr olan bitkilərin az miqdarda kultivasiyası**

Qanunsuz olaraq tərkibində narkotik maddələr olan bitkilərin az miqdarda kultivasiyasına (əkilməsinə, yetişdirilməsinə və ya onların (onların hissələrinin) toplanılmasına) görə -

iki yüz manatdan üç yüz manatadək məbləğdə cərimə edilir, işin hallarına görə və xətanı törədənin şəxsiyyəti nəzərə alınmaqla, bu tədbirlərin tətbiqi kifayət sayılmadıqda isə iki ayadək müddətə inzibati həbs tətbiq edilir.

**Qeyd:** Bu maddədə "az miqdarda" dedikdə, tərkibində narkotik maddələr olan bitkilərin müvafiq qanunla müəyyən edilmiş xeyli miqdarından aşağı miqdar başa düşülür.

**Maddə 209. Tərkibində narkotik maddələr olan yabanı bitkilərin məhv edilməsi üzrə tədbirlər görülməməsi**

Yerli özünüidarəetmə orqanlarının mülkiyyətində, bitkiçilik üzrə kənd təsərrüfatı fəaliyyəti ilə məşğul olan fiziki və ya hüquqi şəxslərin icarəsində, istifadəsində və ya mülkiyyətində olan torpaq sahələrində aşkar edilmiş, tərkibində narkotik maddələr olan yabanı bitkilərin məhv edilməsi üzrə tədbirlər görülməməsinə görə-

fiziki şəxslər yüz əlli manat məbləğində, vəzifəli şəxslər dörd yüz manat məbləğində, hüquqi şəxslər min manat məbləğində cərimə edilir.

# ƏLAVƏ 3

## «Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında Azərbaycan Respublikası Qanunu 28 iyun 2005-ci il

### I Fəsil ÜMUMİ MÜDDƏALAR

**Maddə 1. Əsas anlayışlar**

1.0.1.narkotik vasitələr-BMT-nin 1961-ci il tarixli «Narkotik vasitələr haqqında» Vahid Konvensiyasında, 1971-ci il tarixli «Psixotrop maddələr haqqında» Konvensiyasında, 1988-ci il tarixli «Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında» Konvensiyasında, habelə Azərbaycan Respublikasının Qanunu ilə təsdiq olunmuş siyahılarda belə təsnif edilmiş sintetik və ya təbii mənşəli maddələr, onların preparatları, o cümlədən tərkibində narkotik maddələr olan bitkilərdir;

1.0.2. psixotrop maddələr-BMT-nin 1971-ci il tarixli «Psixotrop maddələr haqqında» Konvensiyasında, 1988-ci il tarixli «Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında» Konvensiyasında, habelə Azərbaycan Respublikasının Qanunu ilə təsdiq olunmuş siyahılarda belə təsnif edilmiş sintetik və ya təbii mənşəli maddələr, onların preparatlarıdır.

1.0.3. prekursorlar-narkotik vasitələrin və psixotrop maddələrin hazırlanması məqsədilə istifadə edilən kimyəvi maddələr və onların duzları, habelə Azərbaycan Respublikasının qanunvericiliyi ilə yuxarıda göstərilən kateqoriyalara aid edilmiş və idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına lisenziya (xüsusi razılıq) tələb olunan kimyəvi maddələr və onların duzlarıdır.

1.0.4.narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi-Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada dövriyyəsi nəzarət edilən, məhdudlaşdırılmış və ya qadağan edilmiş (bundan sonra-nəzarət edilən) narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının Azərbaycan Respublikasının ərazisinə gətirilməsi (idxalı), Azərbaycan Respublikasının ərazisindən çıxarılması (ixracı) və ya onların tranzit nəql edilməsi, habelə həmin narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının saxlanılması, alınması, daşınması, göndərilməsi, məhv edilməsi, istifadə edilməsi və onlar barəsində Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş digər əməliyyatların aparılmasıdır;

1.0.5.narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi-Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydaları pozmaqla narkotik vasitələr, psixotrop maddələr və onların prekursorları ilə bağlı törədilən hər hansı hərəkətlərdir;

1.0.6.tərkibində narkotik maddələr olan bitkilərin qanunsuz kultivasiyası - Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydaları pozmaqla tərkibində narkotik maddələr olan bitkilərin əkilməsi, yetişdirilmsi və ya *onların (onların hissələrinin)* toplanmasıdır;

1.0.7.narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz hazırlanması-həyata keçirilməsi üsulundan asılı olmayaraq AR-nın qanunvericiliyi ilə müəyyən edilmiş qaydaları pozmaqla istehlaka yarayan və ya yaramayan narkotik vasitələrin və psixotrop maddələrin bilavasitə hazırlanmasına, yəni narkotik vasitələrin və psixotrop maddələrin istehsalına, emalına, saflaşdırılmasına və ya bir narkotik vasitənin, yaxud psixotrop maddənin digər narkotik vasitəyə və ya psixotrop maddəyə çevrilməsi yolu ilə narkotik vasitələrin və psixotrop maddələrin alınmasına, yaxud onların təsirinin gücləndirilməsinə, tərkibində narkotik

maddələr olan bitkilərin kultivasiyasına, narkotik vasitələrin və psixotrop maddələrin alınmasına yönəldilmiş hərəkətlərdir.

1.0.8.narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz daşınması və ya göndərilməsi-həyata keçirilməsi üsulundan asılı olmayaraq AR-nın qanunvericiliyi ilə müəyyən edilmiş qaydaları pozmaqla narkotik vasitələrin və psixotrop maddələrin şəxsin özündə, poçtla, nəqliyyat vasitələri ilə, daşınan predmetin narkotik vasitələr və psixotrop maddələr olması haqqında məlumatı olmayan şəxsin vasitəsilə və digər yollarla yerinin dəyişdirilməsinə yönəldilmiş bütün hərəkətlərdir.

1.0.9.narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz əldə edilməsi-həyata keçirilməsi üsulundan asılı olmayaraq AR-nın qanunvericiliyi ilə müəyyən edilmiş qaydaları pozmaqla narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının alınmasına, hədiyyə və ya qarşılıqlı hesablaşma vasitəsi kimi qəbul edilməsinə, başqa mallara və əşyalara dəyişdirilməsinə, mənimsənilməsinə və ya hər hansı digər üsulla onlara yiyələnməyə yönəldilmiş bütün hərəkətlərdir;

1.0.10.narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz saxlanması-məqsədindən asılı olmayaraq AR-nın qanunvericiliyi ilə müəyyən edilmiş qaydaları pozmaqla şəxsin idarəçiliyində olan narkotik vasitələrin və psixotrop maddələrin öz sərənjamında saxlanmasına yönəldilmiş bütün yönəldilmiş bütün hərəkətlərdir;

1.0.11.narkotik vasitələrin və psixotrop maddələrin satılmasının mahiyyəti açıqlanır və göstərilir ki, narkotik vasitələrin və psixotrop maddələrin satılması-miqdarından asılı olmayaraq AR-nın qanunvericiliyi ilə müəyyən edilmiş qaydaları pozmaqla narkotik vasitələrin və psixotrop maddələrin əvəzli və ya qazanc əldə etmək, yaxud digər şəxsi maraq məqsədilə yayılmasına yönəldilmiş bütün hərəkətlərdir;

1.0.12. narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz olaraq orqanizmə yeridilməsi-narkotik vasitələrin və psixotrop maddələrin  başqa şəxsin orqanizminə onun iradəsinə zidd olaraq hər hansı üsulla yeridilməsidir;

1.0.13. narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz əlavə edilməsi-narkotik vasitələrin və psixotrop maddələrin ərzaq məhsullarnına, içkilərə və ya qidayə istehlakçının xəbəri olmadan əlavə edilməsidir;

1.0.14. narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz istehlakı-Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydaları pozmaqla tibbi göstəriş əsasında həkimin təyinatı olmadan Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzarət edilən narkotik vasitələrin və psixotrop maddələrin qəbul edilməsidir;

1.0.15. narkotik vasitələrin və psixotrop maddələrin başqa şəxs tərəfindən qanunsuz istehlakına yardım edilməsi-narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz istehlakı üçün başqa şəxslərə hər hansı bir şəxs tərəfindən vəsait, avadanlıq və ya yer verilməsi, yaxud da belə istehlaka bilavasitə köməklik göstərilməsidir;

1.0.16.narkotik vasitələrin, psixotrop maddələrin istehlakına təhrik etmə-bədii, audio, video və sair materialların, o cümlədən kompüterləşdirilmiş  informasiya və digər vasitələr ilə düzünə və ya dolayı yolla narkotik vasitələrin və psixotrop maddələrin istehlakına təhriketmədir;

1.0.17.narkotik vasitələrin, psixotrop maddələrin istehlakına cəlb etmə-nəticəsindən asılı olmayaraq düzünə və ya dolayı yolla digər şəxslərin  narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz istehlakına cəlb edilməsidir (təklif etmə, qonaq etmə və sair);

1.0.18. narkotik vasitələrdən və psixotrop maddələrdən suiistifadə-Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəy-

yən edilmiş qaydaları pozmaqla tibbi göstəriş əsasında həkim təyinatı olmadan narkotik vasitələrdən və psixotrop maddələrdən asılılığa gətirə biləcək şəkildə onların qəbul edilməsidir;

1.0.19.narkomanlıq-xroniki intoksikasiya doğuran, narkotik vasitələrin və psixotrop maddələrin sui-istifadəsi nəticəsində yaranmış narkotik vasitələrdən və psixotrop maddələrdən psixi və (və ya) fiziki asılılıqla, o cumlədən psixi və davranış pozuntuları ilə ifadə olunan xəstəlik vəziyyətidir;

1.0.20.narkomanlıq xəstəliyinə düçar olan şəxs-narkotik vasitələrin və psixotrop maddələrin sui-istifadəsi nəticəsində onlardan psixi və (və ya) fiziki asılılıq vəziyyətinə düşən, o cümlədən psixi və davranış pozuntuları ilə müşahidə olunan və barəsində Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada narkoloji-tibb müəssisəsi tərəfindən «narkomanlıq» diaqnozu təyin edilmiş şəxsdir;

1.0.21.könüllü müalicə-özünün və ya onun qanuni numayəndəsinin razılığı ilə xəstənin narkomanlıqdan narkoloji-tibb müəssisəsində müalicəsidir;

1.0.22.məcburi müalicə-Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş hallarda və qaydada həyata keçirilən narkomanlıq xəstəliyinə düçar olan şəxsin ixtisaslaşdırılmış tibb müəssisəsində məcburi müalicəsidir.

**Maddə 2. Narkotik vasitələrin və psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında qanunvericilik**

2.1. Narkotik vasitələrin və psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında qanunvericilik Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən, bu Qanundan və Azərbaycan Respublikasının digər qanunvericilik aktlarından ibarətdir.

2.2.Bu Qanunla Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr arasında ziddiyyət müəyyən edil-

dikdə, həmin beynəlxalq müqavilələrin müddəaları tətbiq olunur.

II Fəsil NARKOTİK VASİTƏLƏRİN, PSİXOTROP MADDƏLƏRİN VƏ ONLARIN PREKURSORLARININ DÖVRİYYƏSİ İLƏ ƏLAQƏDAR FƏALİYYƏT

**Maddə 3. Narkotik vasitələrin və psixotrop maddələrin dövriyyəsi ilə əlaqədar fəaliyyətin məqsədi**

Azərbaycan Respublikasının ərazisində narkotik vasitələrin və psixotrop maddələrin dövriyyəsinə yalnız onların tibbi praktikada, elmi-tədqiqat işlərində tətbiqi və cinayətkar fəaliyyətin qarşısının alınması məqsədilə yol verilir.

**Maddə 4. Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsinin əsasları və qaydaları**

Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsinə bu Qanunla və ona uyğun olaraq qəbul edilmiş digər qanunvericilik aktları ilə müəyyən edilmiş əsaslarla və qaydada yol verilir.

**Maddə 5. Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının lövriyyəsi**

5.1.Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı Azərbaycan Respublikasının ərazisində Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsinin tənzimlənməsi məqsədilə narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsinə dair siyahıların layihəsini tərtib edir və qərarlar qəbul edir.

5.2.Dərman vasitələrinin təcrübəvi nümunələrinin işlənib hazırlanması halları istisna olmaqla, Azərbaycan Respublikasının ərazisində narkotik vasitələrin istehsalı və tərkibində narkotik maddələr olan bitkilərin kultivasiyası qadağandır.

5.3.Tibbi məqsədlərlə istifadə edilən narkotik vasitələrin

Azərbaycan Respublikasının ərazisinə gətirilməsi yalnız dövlət orqanları tərəfindən həyata keçirilir Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı ölkə daxilində narkotik vasitələrə olan illik tələbatı müəyyən edir və narkotik vasitələrin dövriyyəsi yalnız həmin tələbat həcmində həyata keçirilir. Azərbaycan Respublikasının ərazisinə göstərilən miqdardan artıq narkotik vasitələrin gətirilməsinə yalnız müharibə, fövqəladə vəziyyət və ya təbii fəlakət şəraitində yol verilir.

5.4.Narkotik vasitələrin və psixotrop maddələrin reklamına yol verilmir.

**Maddə 6. Narkotik vasitələrin və psixotrop maddələrin dövriyyəsi, onların prekursorlarının idxalı, ixracı, tranzit nəql edilməsi və istehsalı ilə əlaqədar fəaliyyət növlərinə *icazənin və ya* lisenziyanın (xüsusi razılığın) verilməsi**

6.1. Narkotik vasitələrin və psixotrop maddələrin dövriyyəsində, onların prekursorlarının idxalında, ixracında, tranzit nəql edilməsində və istehsalında iştirak edən şəxslərin fəaliyyəti AR-nın qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada AR-nın müvafiq icra hakimiyyəti orqanı tərəfindən verilən icazə və ya lisenziya (xüsusi razılıq) əsasında həyata keçirilir.

6.2. narkotik vasitələrin və psixotrop maddələrin dövriyyəsində, onların prekursorlarının idxalında, ixracında, tranzit nəql edilməsində və istehsalında iştirak edən şəxslərə verilmiş hər bir *icazı və ya* lisenziya (xüsusi razılıq) barədə bildiriş dərhal narkotik vasitələrin və psixotrop maddələrin dövriyyəsinə, onların prekursorlarının idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına dair ümummilli məlumat bankına daxil edilməsi üçün AR-nın müvafiq icra hakimiyyəti orqanına göndərilir. Həmin bildirişdə hüquqi və fiziki şəxsin tam adı, fəaliyyət növü, ünvanı, onlar barədə məlumatlar, icazənin və ya lisenziyanın (xüsusi razılığın) müddəti, istifadə olunan narkotik vasitələrin və psixotrop maddənin, onların prekursorlarının adı (azərbaycanca və

latınca), saxlanılma yeri, istifadə üçün yararlıq müddəti və AR-nın qanunvericiliyi ilə müəyyən olunmuş digər məlumatlar əks olunur.

6.3.Narkotik vasitələrin və psixotrop maddələrin dövriyyəsində, onların prekursorlarının idxalında, ixracında, tranzit nəql edilməsində və istehsalında iştirak etmək səlahiyyətinə malik olan şəxslər həmin dövriyyə çərçivəsində hər hansı əməliyyatları yalnız müvafiq fəaliyyət növü ilə məşğul olmaq *icazəsi və ya* lisenziyası (xüsusi razılığı) olan əks tərəflə aparmalıdırlar. Bu tələbin pozulması AR-nın qanunvericiliyi ilə müəyyən edilmiş qaydada məsuliyyətə səbəb olur.

6.4. Narkotik vasitələrin və psixotrop maddələrin təcrübəvi hazırlanması yalnız dövlət orqanları tərəfindən həyata keçirilir. Alınmış hər bir yeni narkotik vasitə və psixotrop maddə barədə AR-nın müvafiq icra hakimiyyəti orqanına dərhal məlumat verilir. Həmin məlumat 10 gün müddətində AR-nın müvafiq icra hakimiyyəti orqanı tərəfindən müvafiq beynəlxalq təşkilatlara göndərilir.

**7. Narkotik vasitələrin və psixotrop maddələrin və onların prekursorlarının idxalı, ixracı, tranzit nəql edilməsi və istehsalı sahəsində dövlət orqanlarının vəzifələri**

7.1. Narkotik vasitələrin və psixotrop maddələrin dövriyyəsinin və onların prekursorlarının idxalının, ixracının, tranzit nəql edilməsinin və istehsalının tənzimlənməsi məqsədilə AR-nın müvafiq icra hakimiyyəti orqanı:

7.1.1.AR-nın ərazisində dövriyyəsi qadağan edilmiş, məhdudlaşdırılmış və nəzarət edilən narkotik vasitələrin və psixotrop maddələrin, habelə AR-nın ərazisində idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına lisenziya (xüsusi razılıq) tələb olunan prekursorlarının siyahılarının layihələrini tərtib edir;

7.1.2.bu Qanuna əsasən narkotik vasitələrin və psixotrop maddələrin alınması, saxlanılması, satılması, əldə edilməsi, paylaşdırılması, buraxılması, daşınması, göndərilməsi, onlardan istifadə edilməsi, habelə narkotik vasitələrin və psixotrop maddələrin dövriyyəsinə dair sənədlərin tərtib edilməsi, saxlanılması və onların dövriyyəsi ilə əlaqədar AR-nın qanunvericiliyi ilə nəzərdə tutulmuş digər əməliyyatların həyata keçirilməsi qaydasını müəyyən edir;

7.1.3.AR-nın ərazisində idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına lisenziya tələb olunan prekursorların alınması, saxlanılması, satılması, əldə edilməsi, paylaşdırılması, buraxılması, daşınması, göndərilməsi və onlardan istifadə edilməsi qaydalarını müəyyən edir;

7.1.3. narkotik vasitələrin və psixotrop maddələrin təcrübəvi hazırlanması qaydasını və bu fəaliyyətlə məşğul olan dövlətr orqanlarının dairəsini müəyyən edir;

7.1.4.AR-nın qanunvericiliyinə uyğun olaraq müsadirə edilmiş narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının məhv edilməsi, habelə məhv edilməsi nəzərdə tutulan narkotik vasitələrdən müvafiq icra hakimiyyəti orqanlarının kinoloji xidmətləri tərəfindən narkotik vasitələrin axtarışı üzrə aparılan təlimlərdə istifadə olunması qaydasını müəyyən edir;

7.1.5. narkotik vasitələrin və psixotrop maddələrin dövriyyəsinə dair Milli İnformasiya Mərkəzini yaradır;

7.1.6. narkotik vasitələrin, psixotrop maddələrin dövriyyəsinə və onların prekursorlarının idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına, habelə narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsində iştirak edən, o cümlədən narkomanlıq xəstəliyinə düçar olan şəxslərə dair ümummilli məlumat bankını təşkil edir, həmin məlumat bankına məlumatların göndərilməsi və oradan məlumatların alınması qaydasını müəyyən edir;

7.1.7. narkotik vasitələrin və psixotrop maddələrin tibbi məqsədlərlə istifadə edilməsi qaydasını və şərtlərini, habelə narkomanlıq xəstəliyinə düçar olan şəxslər barəsində tibbi tədbirlərin tətbiq edilməsi qaydasını müəyyən edir;

7.1.8. qanunsuz dövriyyədən AR-nın qanunvericiliyinə uyğun olaraq müsadirə edilmiş, lakin dərman preparatları şəklində olduğuna və tibbi məqsədlərlə istifadə oluna biləcəyinə görə məhv edilməsi məqsədəuyğun olmayan narkotik vasitələrin və psixotrop maddələrin tibbi məqsədlərlə istifadə edilməsi üçün təhvil verilməsi qaydasını müəyyən edir;

7.1.9. narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsi, onların prekursorlarının qanunsuz idxalı, ixracı, tranzit nəql edilməsi və istehsalı, habelə narkomanlığın yayılması ilə mübarizə üzrə məqsədləri, vəzifələri və fəaliyyət istiqamətləri, o cümlədən tələb olunan maliyyə vəsaitləri və onların mənbələri göstərilməklə dövlət proqramının layihəsini hazırlayır;

7.2.Bu Qanunun 7.1.1-ci maddəsində göstərilən siyahılar AR-nın qanunu ilə təsdiq edilir.

**Maddə 8. Narkotik vasitələrin və psixotrop maddələrin dövriyyəsinə, onların prekursorlarının idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına dair ümumilli məlumat bankının yaradılması**

8.1.Azərbaycan Respublikasında narkotik vasitələrin və psixotrop maddələrin dövriyyəsinə, onların prekursorlarının idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına, o cümlədən narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə, onların prekursorlarının qanunsuz idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına dair ümummilli məlumat bankı yaradılır və bununla bağlı məlumatlar daxil edilir.

8.2.Ümummilli məlumat bankı *dörd* bölmədən ibarətdir:

8.2.1. narkotik vasitələrin və psixotrop maddələrin dövriy-

yəsinə və onların prekursorlarının idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına dair, habelə belə dövriyyədə iştirak edən şəxslərə dair məlumat bölməsi;

8.2.2. narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə, onların prekursorlarının qanunsuz idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına dair, habelə belə dövriyyədə iştirak edən şəxslərə dair məlumat bölməsi;

8.2.3.narkomanlıq xəstəliyinə düçar olan və narkotik vasitələrdən və psixotrop maddələrdən sui-istifadə edən şəxslərə dair məlumat bölməsi;

*8*.2.4.qanunsuz dövriyyədən aşkar olunan narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının mənbəyinə dair məlumat bölməsi.

8.3.Narkomanlıq xəstələyinə düçar olan şəxslərin qeydiyyatını aparan narkoloji-tibb müəssisəsi həmin şəxslər, habelə narkotik vasitələrdən və psixotrop maddələrdən sui-istifadə edən digər şəxslər barəsində yalnız kəmiyyət göstəricilərini əks etdirən məlumatları ümummilli məlumat bankına daxil *edir*.

**Maddə 9. Narkotik vasitələrin və psixotrop maddələrin sui-istifadəsinə dair Milli İnformasiya Mərkəzinin yaradılması**

9.1.Azərbaycan Respublikasında narkotik vasitələrin və psixotrop maddələrin dövriyyəsinə dair Milli İnformasiya Mərkəzi yaradılır.

9.2.Milli İnformasiya Mərkəzinin əsas məqsədi narkotik vasitələrin və psixotrop maddələrin dövriyyəsinə dair şəxsi həyat sirri olmayan və obyektiv məlumatların məcmusunu təşkil etməkdir.

9.3.Milli İnformasiya Mərkəzi aşağıdakı məlumatları özündə əks etdirir:

9.3.1.narkotik vasitələrin və psixotrop maddələrin qeyri-tibbi və tibbi istifadəsi, onların tibbi, iqtisadi və digər nəticələri haqqında;

9.3.2.narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi və onun nətijələri haqqında;

9.3.3. narkotik vasitələrə və psixotrop maddələrə olan tibbi və qeyri-tibbi tələbat haqqında;

9.3.4.narkotik vasitələrin və psixotrop maddələrin insanlara və cəmiyyətə vura biləcəyi zərərin və onlara olan qeyri-tibbi məqsədlərlə təklifin azaldılmasına yönəlmiş tədbirlər haqqında;

9.3.5.narkomanlıq xəstəliyinə düçar olan şəxslərin müalicəsi və reabilitasiyası ilə bağlı şəxsi həyat sirri olmayan məlumatlar;

9.3.6.narkotik vasitələrin və psixotrop maddələrin yayılmasına qarşı mübarizə sahəsində qeyri-hökumət təşkilatlarının həyata keçirdikləri tədbirlər haqqında;

9.3.7.narkotik vasitələrə və psixotrop maddələrə dair ölkədə aparılan epidemioloji tədqiqatların yekunları və ölkədə mövcud epidemioloji vəziyyətin qiymətləndirilməsi haqqında;

9.3.8.narkotik vasitələrə dair dövlət siyasətini və normativ hüquqi *tənzimlənmə məsələləri* əhatə edən məlumatlar.

III Fəsil NARKOTİK VASİTƏLƏRDƏN, PSİXOTROP MADDƏLƏRDƏN VƏ ONLARIN PREKURSORLARINDAN İSTİFADƏ

**Maddə 10.Narkotik vasitələrdən, psixotrop maddələrdən və onların prekursorlarından tibbi məqsədlərlə istifadə**

10.1.Narkomanlıq xəstəliyinə düçar olan şəxslərin müalicəsində tibbi məqsədlərlə istifadə olunan narkotik vasitələrin və dövriyyəsi məhdudlaşdırılan və nəzarət edilən psixotrop maddələrin yalnız dövlət narkoloji-tibb müəssisələrində tətbiqinə icazə verilir.

10.2.Bir yaşayış məntəqəsində iki paralel əvəzedici proqramların tətbiqinə və stasionar bölməsi olmayan narkoloji-tibb müəssisələrində əvəzedici müalicə proqramlarının tətbiqinə yol verilmir.

10.3.Əvəzedici müalicə proqramlarına qəbul olunmuş hər bir şəxs barəsində 3 gün müddətində AR-nın müvafiq icra hakimiyyəti orqanına məlumat verilir.

10.4.Narkomanlıq xəstəliyinə düçar olan şəxslərin müalicəsində istifadə olunan əvəzedici müalicə proqramlarının tətbiqinin şərtləri və qaydaları AR-nın müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

**Maddə 11.Tranzit sərnişinlərin müalicəsi məqsədilə narkotik vasitələrdən və psixotrop maddələrdən istifadə**

11.1.AR-nın ərazisindən tranzit keçən xəstə müalicə məqsədilə AR-nın müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada və istifadə miqdarı həddində narkotik vasitələr və psixotrop maddələr apara bilər.

11.2.Əgər müalicəsini davam etdirmək üçün bu Qanunun 11.1-ci maddəsində nəzərdə tutulmuş şəxsin narkotik vasitələrə və psixotrop maddələrə əlavə tələbatı yaranarsa, həmin tələbatın ödənilməsi AR-nın müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada həyata keçirilir

Maddə 12.Baytarlıq məqsədləri ilə narkotik vasitələrdə, psixotrop maddələrdən və onların prekursorlarından istifadə

Baytarlıq məqsədləri üçün lazım olan narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının siyahısı və onlardan istifadə qaydaları AR-nın müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

**Maddə 13.Elmi məqsədlərlə, tədris və təlim məqsədləri ilə narkotik vasitələrdən və psixotrop maddələrdən istifadə**

13.1.Elmi məqsədlərlə və tədris məqsədləri ilə narkotik vasitələrdən və psixotrop maddələrdən istifadə hüquqi şəxslər tərəfindən yalnız icazə əsasında AR-nın müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada həyata keçirilir.

13.2.AR-nın qanunvericiliyinə uyğun olaraq məhv edilməsi

nəzərdə tutulan narkotik vasitələrdən müvafiq icra hakimiyyəti orqanlarının kinoloji xidmətləri tərəfindən narkotik vasitələrin axtarışı üzrə aparılan təlimlərdə istifadə olunması AR-nın müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada həyata keçirilir.

**Maddə 14.Narkotik vasitələrdən, psixotrop maddələrdən və onların prekursorlarından ekspert fəaliyyətində istifadə**

Ekspertizanın aparılması məqsədilə narkotik vasitələrdən, psixotrop maddələrdən və onların prekursorlarından istifadə yalnız AR-nın qanunvericiliyi ilə müəyyən edilmiş qaydada həyata keçirilir.

**Maddə 15.Əməliyyat-axtarış fəaliyyətində narkotik vasitələrdən, psixotrop maddələrdən və onların prekursorlarından istifadə**

Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi üçün narkotik vasitələrdən, psixotrop maddələrdən və onların prekursorlarından istifadə *«Əməliyyat-axtarış fəaliyyəti haqqında» AR-nın Qanunu* ilə müyyən edilmiş qaydada həyata keçirilir.

**Maddə 16.Fiziki şəxslərə narkotik vasitələrin və psixotrop maddələrin buraxılması**

Tibb müəssisələrində fiziki şəxslərə narkotik vasitələrin və psixotrop maddələrin buraxılması belə fəaliyyət növünə lisenziyası (xüsusi razılığı) olan apteklərdən və müalicə-profilaktika müəssisələri tərəfindən həyata keçirilir.

**Maddə 17. Narkotik vasitələrin, psixotrop maddələrin dövriyyəsi və onların prekursorlarının idxalı, ixracı, tranzit nəql edilməsi və istehsalı ilə bağlı fəaliyyət haqqında hesabat**

Narkotik vasitələrin, psixotrop maddələrin dövriyyəsi və onların prekursorlarının idxalı, ixracı, tranzit nəql edilməsi və istehsalı ilə bağlı fəaliyyət növünə *icazə və ya* lisenziya (xüsusi

razılıq) almış şəxslər AR-nın qanunvericiliyi ilə müəyyən edilmiş qaydada buna səlahiyyəti olan AR-nın müvafiq icra hakimiyyəti orqanına öz fəaliyyəti haqqında hesabat verirlər.

**Maddə 18.Narkotik vasitələrin və psixotrop maddələrin inventarlaşdırılması**

18.1. Narkotik vasitələrin və psixotrop maddələrin dövriyyəsinə icazə almış şəxslər hər ay onların sərəncamında olan narkotik vasitələrin və psixotrop maddələrin inventarlaşdırılmasını aparmalı, malların və digər maddi dəyərlərin balansını tərtib etməlidirlər.

18.2.Balansda üzə çıxan fərqlər, yaxud balansda olan rəqəmlərlə aparılan inventarlaşdırılmanın nəticələri arasında uyğunsuzluqlar aşkar edildikdə, bu barədə 3 gün müddətində icazə almış şəxslər tərəfindən AR-nın müvafiq icra hakimiyyəti orqanına məlumat verilir.

18.3.Narkotik vasitələrin və psixotrop maddələrin sayı və vəziyyəti haqqında bütün dəyişikliklər operativ şəkildə xüsusi jurnalda qeyd olunur. Belə jurnalların aparılması və saxlanılması qaydası AR-nın müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunur.

IV Fəsil NARKOTİK VASİTƏLƏRİN, PSİXOTROP MADDƏLƏRİN QANUNSUZ DÖVRİYYƏSİ VƏ ONLARIN PREKURSORLARININ QANUNSUZ İDXALI, İXRACI TRANZİT NƏQL EDİLMƏSİ VƏ İSTEHSALI İLƏ ƏLAQƏDAR MÜBARİZƏ TƏDBİRLƏRİ

**Maddə 19.Narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsi və onların prekursorlarının qanunsuz idxalı, ixracı, tranzit nəql edilməsi və istehsalı ilə əlaqədar mübarizə tədbirləri**

19.1 Narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsinə və onların prekeursorlarının qanunsuz idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına qarşı mübarizə təd-

birlərinin həyata keçirilməsi zamanı narkomanlığın əleyhinə təbliğata və narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsi və onların prekursorlarının qanunsuz idxalı, ixracı, tranzit nəql edilməsi və istehsalı ilə bağlı hüquq pozuntularının profilaktikasına yönəlmiş fəaliyyətə üstünlük verilir.

19.2. Narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsinin və onların prekursorlarının qanunsuz idxalının, ixracının, tranzit nəql edilməsinin və istehsalının qarşısının alınması məqsədilə:

19.2.1. Narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsi və onların prekursorlarının qanunsuz idxalı, ixracı, tranzit nəql edilməsi və istehsalı yolları və üsulları aşkar edilir və onların qarşısı alınır;

19.2.2. Narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsində və onların prekursorlarının qanunsuz idxalında, ixracında, tranzit nəql edilməsində və istehsalında iştirak edən şəxslər aşkar edilir və məsuliyyətə cəlb olunur;

19.2.3. Narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsi və onların prekursorlarının qanunsuz idxalı, ixracı, tranzit nəql edilməsi və istehsalı ilə mübarizə üzrə AR-nın müvafiq icra hakimiyyəti orqanı tərəfindən ixtisaslaşdırılmış bölmələr yaradıla bilər (**ÇIXARILIB);**

19.2.4.Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz hazırlanması, təchiz edilməsi və saxlanılması faktları aşkar edilir və bununla əlaqədar Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş tədbirlər həyata keçirilir;

19.2.5.tərkibində narkotik maddələr olan bitkilərin qanunsuz əkinləri aşkar və məhv edilir;

19.2.6.narkomanlığın profilaktikası, narkomanlıq xəstəliyinə düçar olan şəxslərin müalicəsi və onların reabilitasiyası, narkomanlığın yayılmasına təkan verən səbəblərin aradan qaldırılması üçün zəruri olan tədbirlər həyata keçirilir;

19.2.7.narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsi və onların prekursorlarının qanunsuz idxalı, ixracı, tranzit nəql edilməsi və istehsalı ilə mübarizə sahəsində görülən tədbirlər və onların nəticələri barədə məlumatlar dərc edilməsi üçün *media subyektlərinə* verilir;

19.2.8.narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsi və onların prekursorlarının qanunsuz idxalı, ixracı, tranzit nəql edilməsi və istehsalı ilə mübarizə sahəsində beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsinə dair tədbirlər həyata keçirilir.

**Maddə 20. Narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsində və onların prekursorlarının qanunsuz idxalında, ixracında, tranzit nəql edilməsində və istehsalında iştirak etmiş şəxslər barəsində tətbiq olunan məhdudiyyətlər**

20.1. Narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsi və onların prekursorlarının qanunsuz idxalı, ixracı, tranzit nəql edilməsi və istehsalı ilə bağlı məhdudiyyətlərin tətbiq edilməsinə aşağıdakı hallarda yol verilir:

20.1.1.şəxs narkomanlıq xəstəliyinə düçar olduqda;

20.1.2.şəxs narkotik vasitələrdən, psixotrop maddələrdən və onların prekursorlarından sui-istifadəyə yol verdikdə;

20.1.3.şəxs narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsində və onların prekursorlarının qanunsuz idxalında, ixracında, tranzit nəql edilməsində və istehsalında iştirak etdikdə.

20.2. Narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsində və onların prekursorlarının qanunsuz idxalında, ixracında, tranzit nəql edilməsində və istehsalında iştirak etmiş və bununla əlaqədar məhkum olunmuş şəxslər, Narkotik vasitələrin, psixotrop maddələrin dövriyyəsi və onların prekursorlarının idxalı, ixracı, tranzit nəql edilməsi və istehsalı ilə bağlı

peşə növlərinə buraxılmırlar və mülkiyyət formasından asılı olmayaraq narkotik vasitələrin, psixotrop maddələrin dövriyyəsində və onların prekursorlarının idxalında, ixracında, tranzit nəql edilməsində və istehsalında iştirak edən idarə, müəssisə və təşkilatlarda işə qəbul edilə bilməzlər.

20.3.Vətəndaşların hüquqlarının, qanuni mənafelərinin və dövlətin təhlükəsizliyinin müdafiəsi məqsədilə narkomanlıq xəstəliyinə düçar olan şəxslər, o cümlədən narkotik vasitələrin, psixotrop maddələrin istehlakı ilə məşğul olan və ya onlardan sui-istifadə edən şəxslər üçün AR-nın qanunvericiliyi ilə müəyyən edilmiş qaydada peşə fəaliyyətinin ayrı-ayrı növləri və yüksək təhlükə mənbəyi ilə bağlı olan fəaliyyətlə məşğul olmağa məhdudiyyətlər qoyulur. Belə peşə növlərinin və vəzifələrinin siyahısı AR-nın müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

20.4.Peşə fəaliyyətinin ayrı-ayrı növləri və yüksək təhlükə mənbəyi ilə bağlı olan fəaliyyətlə məşğul olan şəxslər, habelə müddətli həqiqi hərbi xidmətə çağırılan, həqiqi hərbi xidmətə daxil olan və həqiqi hərbi xidmət keçən şəxslər «Narkoloji xidmət haqqında» AR-nın Qanununa uyğun olaraq icbari narkoloji müayinədən keçirilərlər.

Maddə 21. **Narkotik vasitələrin, psixotrop maddələrin, habelə onların prekursorlarının və qanunsuz kultivasiya edilən tərkibində narkotik maddələr olan bitkilərin (onların hissələrinin) miqdarı**

21.1. Narkotik vasitələrin və psixotrop maddələrin şəxsi istehlak üçün nəzərdə tutulan miqdarı şəxsi istehlak üçün mümkün, hər bir narkotik vasitənin və ya psixotrop maddənin ayrı-ayrılıqda birdəfəlik istehlakı həcminə əsasən müəyyən edilir. Şəxsi istehlak üçün nəzərdə tutulan narkotik vasitələrin və psixotrop maddələrin miqdarı onların təmiz və qarışıq vəziyyətində ayrılıqda müəyyən olunur.

21.2.Qazanc əldə etmək məqsədilə narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə məşğul olan şəxslərin müəyyən edilməsi, belə şəxslərin AR-nın qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada cinayət məsuliyyətinə cəlb edilməsi üçün kifayət edən narkotik vasitələrin və psixotrop maddələrin miqdarı, habelə onların külli miqdarı müəyyən edilir.

21.3.Şəxsin cinayət məsuliyyətinə cəlb edilməsi üçün kifayət edən narkotik vasitələrin və psixotrop maddələrin şəxsi istehlak miqdaorından artıq və külli miqdarı, habelə onların prekursorlarının və qanunsuz kultivasiya edilən tərkibində narkotik maddələr olan bitkilərin (onların hissələrinin) xeyli və külli miqdarı müvafiq qanunla müəyyən edilir.

Maddə 22. **Narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsi və onların prekursorlarının qanunsuz idxalı, ixracı, tranzit nəql edilməsi və istehsalı ilə əlaqədar qanun pozuntularına qarşı inzibati-hüquq tədbirləri**

22.1. Narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsi və onların prekursorlarının qanunsuz idxalı, ixracı, tranzit nəql edilməsi və istehsalı ilə əlaqədar inzibati məsuliyyət AR-nın inzibati xətalar qanunvericiliyi ilə nəzərdə tutulmuş hallarda yaranır.

22.2.Prekursorlarla və onların hazırlanması üçün nəzərdə tutulmuş avadanlıqla bağlı törədilən hüquq pozuntularına görə inzibati məsuliyyət yalnız onların narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyəsində istifadə edildiyi və ya belə istifadə üçün nəzərdə tutulduğu hallarda yaranır **(ÇIXARILIB)**

22.3.Narkotik vasitələrin və psixotrop maddələrin sui-istifadəsi və ya narkomanlıq xəstəliyinə düçar olması ilə əlaqədar müalicə olunmuş şəxs narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsi və prekursorlar qanunsuz idxalı, ixracı, tranzit nəql edilməsi və istehsalı ilə əlaqədar inzibati məsuliyyə-

tə cəlb edildikdə onun müalicə olunduğu narkoloji-tibb müəssisəsi bu barədə məlumatlandırılır.

**Maddə 23. Narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsi və onların prekursorlarının qanunsuz idxalı, ixracı, tranzit nəql edilməsi və istehsalı ilə əlaqədar cinayət-hüquq tədbirləri**

23.1.Narkotik vasitələrin və ya psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar cinayət məsuliyyəti AR-nın cinayət qanunvericiliyi ilə nəzərdə tutulduğu hallarda yaranır

23.2.Narkotik vasitələrin və psixotrop maddələrin sui-istifadəsi və ya narkomanlıq xəstəliyinə düçar olması ilə əlaqədar müalicə olunmuş şəxs narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsi və onların prekursorlarının qanunsuz idxalı, ixracı, tranzit nəql edilməsi və istehsalı ilə əlaqədar cinayət məsuliyyətinə cəlb edildikdə onun müalicə olunduğu narkoloji-tibb müəssisəsi bu barədə məlumatlandırılır.

V Fəsil NARKOTİK VASİTƏLƏRİN, PSİXOTROP MADDƏLƏRİN QANUNSUZ DÖVRİYYƏSİ VƏ ONLARIN PREKURSORLARININ QANUNSUZ İDXALI, İXRACI, TRANZİT NƏQL EDİLMƏSİ VƏ İSTEHSALI İLƏ ƏLAQƏDAR HƏYATA KEÇİRİLƏN TƏDBİRLƏR

**Maddə 24. Narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsi və onların prekursorlarının qanunsuz idxalı, ixracı, tranzit nəql edilməsi və istehsalı ilə əlaqədar həyata keçirilən tədbirlər**

Narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsinə və onların prekursorlarının qanunsuz idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına qarşı mübarizəni həyata keçirən AR-nın müvafiq icra hakimiyyəti orqanları «Əməliyyat-axtarış fəaliyyəti haqqında» AR-nın Qanunu ilə müəyyən edilmiş qaydada nəzarətli göndərişi həyata keçirmək, göndərilən yükləri, poçt göndərişlərini yoxlamaq,  nəzarət qaydasında

narkotik vasitələri və psixotrop maddələri almaq və qanunla nəzərdə tutulmuş digər əməliyyat-axtarış tədbirlərindən istifadə etmək hüququna malikdirlər.

**Maddə 25.Tibbi müayinə**

25.1. Tibbi müayinə yalnız narkotik sərxoşluq vəziyyətinin, narkotik vasitələrin və psixotrop maddələrin istehlakı və insan bədəni daxilində narkotik vasitələrin və psixotrop maddələrin gizlədilməsi hallarının müəyyən edilməsi məqsədilə *keçirilir*. Narkotik sərxoşluq vəziyyətində olması və ya öz bədəni daxilində narkotik vasitələr və psixotrop maddələr daşıması haqqında əsaslı şübhələr olan, habelə özündə narkotik vasitələr və psixotrop maddələr aşkar edilmiş şəxs AR-nın qanunvericiliyi ilə müəyyən edilmiş qaydada tibbi müayinədən *keçirilir*. Tibbi müayinə dövlət narkoloji-tibb müəssisələrində həyata keçirilir.

25.2.Tibbi müayinə həkim-narkoloq, həkim olmadıqda isə feldşer-narkoloq tərəfindən AR-nın qanunvericiliyi ilə müəyyən edilmiş qaydada həyata *keçirilir*. Şəxsin tibbi müayinədən keçməsi haqqında tərtib edilən rəydə onun narkotik sərxoşluq vəziyyətində olub-olmaması, orqanizmində insanın bioloji mühitlərinin tədqiqatı nəticəsindlə aşkarlanan narkotik vasitələrin və psixotrop maddələrin növü, ehtiyac olduqda miqdarı və təxmini istehlak etmə vaxtı əks etdirilməlidir.

25.3.Şəxsin tibbi müayinədən keçməsi qaydaları AR-nın müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunur.

**Maddə 26.Narkomanlıq xəstəliyinə düçar olan şəxslər barəsində tibbi tədbirlərin tətbiq edilməsi**

26.1. Cinayət törətmiş narkomanlıq xəstəliyinə düçar olan şəxslər AR-nın qanunvericiliyi ilə müəyyən edilmiş qaydada məcburi müalicə olunurlar. Narkomanlıq xəstəliyinə düçar olan şəxslər barəsində bu xəstəliklə əlaqədar məcburi müalicə tədbirləri, həmin şəxsə cinayət törətdiyinə görə cəza verməklə yanaşı, AR-nın qanunvericiliyi ilə müəyyən edilmiş qaydada məhkəmə tərəfindən tətbiq edilir. Məcburi tədbirlərin tətbiqi zamanı isti-

fadə olunan tibbi üsullar könüllü müalicəyə müraciət etmiş xəstələrə tətbiq edilən üsullardan fərqlənmir və tibb elminin son nailiyyətlərinə əsaslanır. Məcburi müalicəyə cəlb edilmiş xəstələrin cəzaçəkmə yerlərində saxlama və müalicə rejimləri AR-nın qanunvericiliyinə uyğun olaraq müəyyən olunur.

26.2.Azadlıqdan məhrumetmə ilə əlaqədar cəzaya məhkum edilməklə yanaşı, barəsində məcburi müalicə tədbirləri tətbiq edilmiş şəxslər cəza çəkdikləri müddət ərzində AR-nın qanunvericiliyi ilə müəyyən edilmiş qaydada müalicə olunurlar.

26.3.Azadlıqdan məhrumetmə ilə əlaqədar olmayan cəzaya məhkum edilməklə yanaşı, barəsində məcburi müalicə tədbirləri tətbiq edilmiş şəxslər AR-nın müvafiq icra hakimiyyəti orqanı yanında təşkil edilmiş ixtisaslaşdırılmış tibbi müəssisəsində stasionar və ya ambulator müalicə olunurlar. İxtisaslaşdırılmış tibb müəssisəsində məcburi müalicənin şərtləri və qaydaları AR-nın müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir. Azadlıqdan məhrum etmə ilə əlaqədar olmayan cəzaya məhkum edilməklə yanaşı, alkoqolizm və ya narkomaniyadan müalicə məqsədi ilə barəsində tibbi xarakterli məcburi tədbirlər təyin edilmiş şəxslərin ixtisaslaşdırılmış tibb müəssisəsində məcburi müalicəsi barədə məhkəmə qərarının tələblərinin yerinə yetirilməsinə icra məmuru tərəfindən nəzarət edilir.

26.3-1. İnzibati həbs nəzərdə tutan inzibati xəta törətmiş, narkomaniyadan müalicəyə ehtiyacı olan şəxslərə inzibati həbs tənbeh növü tətbiq edilərkən AR-nın İnzibati Xətalar Məcəlləsi ilə müəyyən edilmiş qaydada məhkəmə tərəfindən məcburi müalicə təyin edilir.

26.4. Cinayət və ya inzibati həbs nəzərdə tutan inzibati xəta törətməmiş, lakin öz davranış və hərəkətləri nəticəsində dəfələrlə yaxın qohumlarına maddi və mənəvi zərər yetirmiş, uşaqların tərbiyəsinə mənfi təsir göstərmiş, onların hüquqlarını kobudcasına pozmuş, təklif olunmuş könüllü müalicədən dəfələrlə imtina etmiş narkomanlıq xəstələyinə düçar olan şəxslər barəsində

AR-nın *Mülki Prosessual Məcəlləsinə* uyğun olaraq məcburi tibbi tədbirlər tətbiq *edilir*.

26.5.Əlilliyi olan şəxslər, (o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar- çıxarılmışdır), hamilə qadınlar və südəmər uşaqları olan analar, 60 yaşından yuxarı olan kişilər və 55 yaşından yuxarı olan qadınlar, eləcə də siyahısı AR-nın müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq olunmuş xəstəlikləri olan şəxslər barəsində müalicə AR-nın qanunvericiliyi ilə müəyyən edilmiş qaydalara əsasən təsdiq olunur

26.6.Narkomanlıq xəstəliyinə düçar olan şəxslərin məcburi müalicəyə göndərilməsi AR-nın Mülki Prosessual Məcəlləsi, AR-nın İnzibati Xətalar Məcəlləsi, AR-nın Cinayət Məcəlləsi, AR-nın Cinayət-Prosessual Məcəlləsi və AR-nın Cəzaların İcrası Məcəlləsi ilə müəyyən edilmiş qaydada həyata keçirilir.

Maddə 27.**Narkoloji-tibb müəssisəsində məcburi müalicədə olan narkomanlıq xəstəliyinə düçar olan şəxslərin məcburi müalicədən vaxtından əvvəl azad edilməsi**

27.1.Narkoloji-tibb müəssisəsində məcburi müalicədə olan narkomanlıq xəstələyinə düçar olan şəxslər aşağıdakı hallarda məcburi müalicədən vaxtından əvvəl azad edilirlər:

27.1.1.narkoloji-tibb müəssisəsində qalmasına maneçilik törədən ağır xəstəliyə düçar olduqda;

27.1.2.narkomanlıq xəstələyindən müalicənin başlanması vaxtından azı 6 ay keçdikdən sonra müalicənin davam etdirilməsinə olan zərurət aradan qalxdıqda.

27.2.Məcburi müalicədə olan narkomanlıq xəstəliyinə düçar olan şəxslərin narkoloji-tibb müəssisəsindən vaxtından əvvəl azad edilməsi həmin müəssisənin müdiriyyətinin təqdimatı və həkim-məsləhət komissiyasının rəyi nəzərə alınmaqla yerli məhkəmənin qərarı əsasında həyata keçirilir.

Maddə 28.**Narkoloji-tibb müəssisəsində məcburi müalicədə olan narkomanlıq xəstəliyinə düçar olan şəxslərin məcburi müalicə müddətinin uzadılması**

Narkoloji-tibb müəssisəsində məcburi müalicədə olan narkomanlıq xəstəliyinə düçar olan şəxslər mütəmadi olaraq müalicə rejimini pozduqda və bununla əlaqədar həyata keçirilən müalicə tədbirləri müsbət nəticə vermədikdə, AR-nın *Mülki Prosessual Məcəlləsinə, AR-nın İnzibati Xətalar Məcəlləsinə, AR.-nın Cinayət-Prosessual Məcəlləsinə uyğun olaraq* məhkəmənin qərarı əsasında belə şəxsləin məcburi müalicə müddəti uzadıla bilər.

Maddə 29. **Narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsi və onların prekursorlarının qanunsuz idxalı, ixracı, tranzit nəql edilməsi və istehsalı ilə əlaqədar əməliyyat-axtarış fəaliyyəti**

Narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsi və onların prekursorlarının qanunsuz idxalı, ixracı, tranzit nəql edilməsi və istehsalı ilə əlaqədar hüquq pozuntularının aşkar edilməsi məqsədilə bu Qanunun 24-cü maddəsində nəzərdə tutulmuş əməliyyat-axtarış tədbirləri həyata keçirilir.

Maddə 30.Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının nəzarətli göndərişi

30.1. Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının nəzarətli göndərişi-narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsi və onların prekursorlarının qanunsuz idxalı, ixracı, tranzit nəql edilməsi və istehsalı ilə mübarizə sahəsində ibtidai araşdırma aparmaq səlahiyyətinə malik olan AR-nın müvafiq icra hakimiyyəti orqanlarının nəzarəti altında AR-nın qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada AR-nın ərazisində qanunsuz hesab edilən və ya şübhə doğuran narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının daşınması, göndərilməsi və ya digər üsulla yerinin dəyişdirilməsidir.

30.2.Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının nəzarətli göndərişinin həyata keçirilməsinə yalnız mütəşəkkil dəstə və ya cinayətkar birlik (cinayətkar təşkilat)

tərəfindən narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsi və onların prekursorlarının qanunsuz idxalı, ixracı, tranzit nəql edilməsi və istehsalı sahəsində törədilən və ya hazırlanan cinayətlərin qarşısının alınması, açılması, həmin cinayətləri törədən şəxslərin vaxtında aşkar edilməsi və onların cinayət məsuliyyətinə cəlb edilməsi məqsədilə yol verilir.

30.3.Nəzarətli göndərişin keçirilməsinə dair qərar yalnız narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsi və onların prekursorlarının qanunsuz idxalı, ixracı, tranzit nəql edilməsi və istehsalı ilə mübarizə sahəsində ibtidai araşdırma aparmaq səlahiyyətinə malik olan AR-nın müvafiq icra hakimiyyəti orqanları tərəfindən qəbul *edilir.*

Həmin qərarda istifadə edilən narkotik vasitənin, psixotrop maddənin və ya onların prekursorlarının əldə edilməsinin mənbəyi və miqdarı barədə məlumatlar mütləq göstərilməlidir.

30.4.Nəzarətli göndərişin həyata keçirilməsinə dair qərarı qəbul etmək səlahiyyətinə malik olan AR-nın müvafiq icra hakimiyyəti orqanları həmin əməliyyatın AR-nın ərazisində aparılmasına bilavasitə rəhbərlik edirlər.

Maddə 31.**Nəzarət qaydasında qanunsuz hesab edilən narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının alınması**

Narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsi və onların prekursorlarının qanunsuz idxalı, ixracı, tranzit nəql edilməsi və istehsalı ilə əlaqədar cinayətkar fəaliyyət haqqında sübut əldə etmək məqsədilə AR-nın müvafiq icra hakimiyyəti orqanlarının əməkdaşları «Əməliyyat-axtarış fəaliyyəti haqqında» AR-nın Qanununa uyğun olaraq nəzarət qaydasında narkotik vasitələr, psixotrop maddələr və onların prekursorlarını almaq hüququna malikdirlər.

Maddə 32.**Müsadirə**

32.1.Qanunsuz dövriyyədə olan narkotik vasitələr, psixotrop maddələr və onların prekursorları, eləcə də onların qanunsuz

hazırlanması üçün istifadə edilən alət və avadanlıq, habelə narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsi və onların prekursorlarının qanunsuz idxalında, ixracında, tranzit nəql edilməsində və istehsalında istifadə edilən və bunun nəticəsində əldə olunan əmlak və maliyyə vəsaitləri aşkar edildikdə onlar barəsində AR-nın qanunvericiliyi ilə nəzərdə tutulmuş tədbirlər görülür.

32.2.Qanunsuz dövriyyədən çıxarılmış və ya müsadirə olunmuş narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının məhv edilməsi yalnız AR-nın məhkəmə, prokurorluq və AR-nın müvafiq icra hakimiyyəti orqanlarının nümayəndələrindən ibarət tərkibdə yaradılmış komisssiya tərəfindən AR-nın qanunvericiliyi ilə müəyyən edilmiş qaydada həyata keçirilir.

32.3.Narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsi və onların prekursorlarının qanunsuz idxalı, ixracı, tranzit nəql edilməsi və istehsalı ilə əlaqədar cinayət-hüquq tədbirlərinin tətbiq edilməsi nəticəsində müsadirə olunmuş və dövlət hesabına yönəldilmiş əmlak, yalnız narkomanlığın profilaktikasına və narkomanlıq xəstəliyinə düçar olan şəxslərin müalicəsinə və sosial reabilitasiyasına sərf edilir.

## VI Fəsil ÜMUMİ MÜDDƏALAR

Maddə 33.**Qanunun qüvvəyə minmə qaydası**

33.1.Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

33.2.Bu Qanun qüvvəyə mindiyi gündən «Narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi ilə mübarizə haqqında» 1999-cu il 18 iyun tarixli AR-nın Qanununu qüvvədən düşmüş hesab edilsin.

İlham Əliyev-AR-nın Prezidenti,
28 iyun 2005-ci il №959-IIQ

**“Şəxsin cinayət məsuliyyətinə cəlb edilməsi üçün kifayət edən narkotik vasitələrin və psixotrop maddələrin miqdarına, habelə onların külli miqdarına görə siyahılarının təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə**

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

“Şəxsin cinayət məsuliyyətinə cəlb edilməsi üçün kifayət edən narkotik vasitələrin və psixotrop maddələrin miqdarına, habelə onların külli miqdarına görə siyahılarının təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 8, maddə 697, № 12, maddə 1085; 2010, № 5, maddə 382; 2016, № 6, maddə 996; 2017, № 2, maddə 163, № 5, maddə 731, № 11, maddə 1981; 2021, № 4, maddə 304) aşağıdakı dəyişikliklər edilsin:

1. Adında və I maddədə “edilməsi üçün kifayət edən” sözləri “edilməsinə əsas verən” sözləri ilə, “miqdarına, habelə onların külli miqdarına” sözləri “xeyli, külli və xüsusilə külli miqdarlarına” sözləri ilə əvəz edilsin.

2. Həmin Qanunla təsdiq edilmiş “Şəxsin cinayət məsuliyyətinə cəlb edilməsi üçün kifayət edən narkotik vasitələrin və psixotrop maddələrin miqdarına, habelə onların külli miqdarına görə siyahıları” aşağıdakı redaksiyada verilsin:

## Şəxsin cinayət məsuliyyətinə cəlb edilməsinə əsas verən narkotik vasitələrin və psixotrop maddələrin xeyli, külli və xüsusilə külli miqdarlarına görə SİYAHILARI

## I SİYAHI

### Narkotik vasitələr

| Sıra №-si | Dərman preparatlarının beynəlxalq adı | Xeyli miqdar (təmiz halda qramlarla) daxil olmaqla, aşağı hədləri | Külli miqdar (təmiz halda qramlarla) daxil olmaqla, aşağı hədləri | Xüsusilə külli miqdar (təmiz halda qramlarla) daxil olmaqla, aşağı hədləri |
|---|---|---|---|---|
| 1. | (1-Karboksipropil)-1-pentil-1H-indazol-3-karboksilat | 0,05 | 0,25 | 500 |
| 2. | (1-Pentil-1H-indazol-3-il)(pirrolidin-1-il)metanon | 0,05 | 0,25 | 500 |
| 3. | (1-Pentil-1H-indol-3-il)(pirrolidin-1-il)metanon | 0,05 | 0,25 | 500 |
| 4. | (1S,5R,13R,17R)-10,14-dimetoksi-4-metil-12-oksa-4-azapentasiklo[9.6.1.01,13.05,17.07,18]oktadeka-7,9,11(18),14-tetraen (dihidrotebain) | 0,5 | 2,5 | 500 |
| 5. | (6S,6aR,9R,10aR)-9-hidroksi-6-metil-3-{[(2R)-5-fenilpentan-2-il]oksi}- | 0,05 | 0,25 | 500 |

| | | | | |
|---|---|---|---|---|
| | 5,6,6a,7,8,9,10,10a-oktahidrofenantridin-1-il asetat(CP 50,5561) | | | |
| 6. | 1-(1H-indol-3-il)-3,3,4-trimetil-pent-4-en-1-on | 0,05 | 0,25 | 500 |
| 7. | 1-(1-Metil-3-metoksi-sikloheksil)piperidin (3-MeO-MPC) | 0,05 | 0,25 | 500 |
| 8. | 1-(Benzofuran-2-il)-propan-2-amin(2-APB) və törəmələri | 0,6 | 3 | 600 |
| 9. | 1-(Benzofuran-5-il)-N-(2-metoksibenzil)propan-2-amin (5-APB-NBOMe) | 0,2 | 1 | 200 |
| 10. | 1-Etilpiperidin-3-il 2-hidroksi-2,2-difenilasetat (JB-318) | 0,05 | 0,25 | 500 |
| 11. | 1-Metilpiperidin-3-il 2-hidroksi-2,2-difenilasetat (JB-336) | 0,05 | 0,25 | 500 |
| 12. | 2-(1H-indol-3-il)-1-morfolinoetanon | 0,05 | 0,25 | 500 |
| 13. | 2-(Difenilmetil)-1-metilpiperidin-3-ol(SCH-5472) | 0,05 | 0,25 | 500 |
| 14. | 3-(2,2,3,3-Tetrametil-siklopropankarbonil)indol | 0,05 | 0,25 | 500 |
| 15. | 3-[2-(2-Metoksibenzilamino)etil]-1H-xinazolin-2,4-dion (RH-34) | 0,05 | 0,25 | 500 |
| 16. | 3-metilfentanil | 0,0002 | 0,001 | 0,2 |
| 17. | 3-metiltiofentanil | 0,0002 | 0,001 | 0,2 |
| 18. | 4-(Di(benzo[1,3]dioksol-5-il)(hidroksi)metil)piperidin-1-karbon turşusu | 0,05 | 0,25 | 500 |
| 19. | 4-Flüorizobutirilfenta- | 0,0002 | 0,001 | 0,2 |

| | | | | |
|---|---|---|---|---|
| | nil (4-FİBF, p-FİBF) | | | |
| 20. | 4-Xlor-N-(1-fenetilpiperidin-2-iliden) benzolsulfonamid | 0,002 | 0,01 | 2 |
| 21. | 5-Fenil-N-(piperidin-1-il)-1H-pirazol-3-karboksamid | 0,05 | 0,25 | 500 |
| 22. | 5-Metoksi-3-(2-metoksibenzil)-7-pentil-2H-xromen-2-on (PSB-SB-1202) | 0,05 | 0,25 | 500 |
| 23. | AH-7921 | 0,05 | 2,5 | 500 |
| 24. | Akriloilfentanil (akrilfentanil) | 0,0002 | 0,001 | 0,2 |
| 25. | Alfameprodin | 0,5 | 2,5 | 500 |
| 26. | Alfametadol | 0,5 | 2,5 | 500 |
| 27. | Alfa-metilfentanil | 0,0002 | 0,001 | 0,2 |
| 28. | Alfa-metiltiofentanil | 0,0002 | 0,001 | 0,2 |
| 29. | Alfaprodin | 0,5 | 2,5 | 500 |
| 30. | Alfasetilmetadol | 0,5 | 2,5 | 500 |
| 31. | Alfentanil | 0,002 | 0,15 | 2 |
| 32. | Allilprodin | 0,5 | 2,5 | 500 |
| 33. | Anileridin | 0,01 | 0,05 | 10 |
| 34. | Asetil-alfa-metilfentanil | 0,0002 | 0,001 | 0,2 |
| 35. | Asetilə edilən tiryək | 0,5 | 50 | 5000 |
| 36. | Asetilfentanil | 0,0002 | 0,001 | 0,2 |
| 37. | Asetilmetadol | 0,5 | 2,5 | 500 |
| 38. | Asetorfin | 0,0001 | 0,0005 | 0,1 |
| 39. | BDB (əsası və duzları) | 0,2 | 1 | 200 |
| 40. | Benosiklidin | 0,02 | 0,1 | 200 |
| 41. | Benzetidin | 0,05 | 0,25 | 50 |
| 42. | Benzilmorfin | 0,5 | 2,5 | 500 |
| 43. | Beta-hidroksi-3-metilfentanil | 0,002 | 0,01 | 2 |
| 44. | Beta-hidroksifentanil | 0,002 | 0,01 | 2 |
| 45. | Betameprodin | 0,5 | 2,5 | 500 |
| 46. | Betametadol | 0,5 | 2,5 | 500 |
| 47. | Betaprodin | 0,5 | 2,5 | 500 |

| | | | | |
|---|---|---|---|---|
| 48. | Betasetilmetadol | 0,5 | 2,5 | 500 |
| 49. | Bezitramid | 0,1 | 0,5 | 100 |
| 50. | Butirfentanil | 0,0002 | 0,001 | 0,2 |
| 51. | Dekstromoramid | 0,01 | 0,05 | 10 |
| 52. | Dekstropropoksifen | 0,6 | 3 | 600 |
| 53. | Dezomorfin | 0,05 | 0,25 | 10 |
| 54. | Diampromid | 0,5 | 2,5 | 500 |
| 55. | Dietiltiambuten | 0,5 | 2,5 | 500 |
| 56. | Difenil(pirrolidin-2-il)metanol (D2PM) | 0,05 | 0,25 | 500 |
| 57. | Difenoksilat | 0,1 | 0,5 | 100 |
| 58. | Difenoksin | 0,1 | 0,5 | 100 |
| 59. | Dihidroetorfin | 0,0001 | 0,0005 | 0,1 |
| 60. | Dihidrokodein | 0,5 | 2,5 | 500 |
| 61. | Dihidromorfin | 0,5 | 2,5 | 500 |
| 62. | Dimefeptanol | 0,5 | 2,5 | 500 |
| 63. | Dimenoksadol | 0,5 | 2,5 | 500 |
| 64. | Dimetiltiambuten | 0,5 | 2,5 | 500 |
| 65. | Dioksafetil-butirat | 0,1 | 0,5 | 100 |
| 66. | Dipipanon | 0,01 | 0,05 | 10 |
| 67. | Drotebanol | 0,5 | 2,5 | 500 |
| 68. | Ekqonin | 0,2 | 1 | 200 |
| 69. | Etilmetiltiambuten | 0,5 | 2,5 | 500 |
| 70. | Etilmorfin | 0,2 | 10 | 500 |
| 71. | Etokseridin | 0,5 | 2,5 | 500 |
| 72. | Etonitazen | 0,0001 | 0,001 | 0,1 |
| 73. | Etorfin | 0,0001 | 0,001 | 0,1 |
| 74. | Fenadokson | 0,5 | 2,5 | 500 |
| 75. | Fenampromid | 0,5 | 2,5 | 500 |
| 76. | Fenazosin | 2 | 10 | 2000 |
| 77. | Fenomorfan | 0,5 | 2,5 | 500 |
| 78. | Fenoperidin | 0,5 | 2,5 | 500 |
| 79. | Fentanil | 0,0004 | 0,002 | 2 |
| 80. | Folkodin | 0,5 | 2,5 | 500 |
| 81. | Furanilfentanil | 0,5 | 2,5 | 500 |
| 82. | Furetidin | 0,5 | 2,5 | 500 |
| 83. | Heroin | 0,15 | 2 | 800 |
| 84. | Həşiş | 1 | 100 | 10000 |
| 85. | Həşiş yağı | 0,5 | 50 | 5000 |

| | | | | |
|---|---|---|---|---|
| 86. | Həşiş qatranı | 0,4 | 40 | 4000 |
| 87. | Hidrokodon | 0,5 | 2,5 | 500 |
| 88. | Hidroksipetidin | 0,5 | 2,5 | 500 |
| 89. | Hidromorfinol | 0,5 | 2,5 | 500 |
| 90. | Hidromorfon | 0,5 | 2,5 | 500 |
| 91. | Xaşxaş kütləsinin konsentratı | 5 | 500 | 50000 |
| 92. | Xaşxaş kütləsi: | | | |
| 92.1. | qurudulmuş | 10 | 1000 | 100000 |
| 92.2. | qurudulmayan | 50 | 5000 | 500000 |
| 93. | Xinolin-8-il-1-pentil-1H-pirrolo[2,3-c]piridin-3-karboksilat | 0,01 | 0,05 | 100 |
| 94. | İzometadon | 0,5 | 2,5 | 500 |
| 95. | JWH-015 | 0,05 | 0,25 | 500 |
| 96. | JWH-122 | 0,05 | 0,25 | 500 |
| 97. | JWH-210 | 0,05 | 0,25 | 500 |
| 98. | Karfentanil | 0,002 | 0,01 | 2 |
| 99. | Ketobemidon | 0,01 | 0,5 | 10 |
| 100. | Klonitazen | 0,0002 | 0,001 | 0,2 |
| 101. | Kodein (əsası və duzları) | 0,2 | 10 | 2000 |
| 102. | Kodoksim | 0,5 | 2,5 | 500 |
| 103. | Koka yarpağı | 20 | 250 | 20000 |
| 104. | Kokain | 0,02 | 1 | 300 |
| 105. | Levofenasilmorfan | 0,5 | 2,5 | 500 |
| 106. | Levometorfan | 0,5 | 2,5 | 500 |
| 107. | Levomoramid | 0,5 | 2,5 | 500 |
| 108. | Levorfanol | 0,5 | 2,5 | 500 |
| 109. | Marixuana (kannabis): | | | |
| 109.1. | qurudulmuş | 5 | 500 | 50000 |
| 109.2. | qurudulmayan | 25 | 2500 | 250000 |
| 110. | MBDB (əsası və duzları) | 0,2 | 1 | 200 |
| 111. | Metadon | 0,02 | 1,6 | 160 |
| 112. | Metadonun aralıq məhsulu | 0,5 | 2,5 | 1000 |

| | | | | |
|---|---|---|---|---|
| 113. | Metazosin | 2 | 10 | 2000 |
| 114. | Metil 2-{[9-(siklohek-silmetil)-9H-karbazol-3-il]formamido}-3,3-dimetilbutanoat (MDMB-CHMCZCA) | 0,05 | 0,25 | 500 |
| 115. | Metildezorfin | 0,5 | 2,5 | 500 |
| 116. | Metildihidromorfin | 0,5 | 2,5 | 500 |
| 117. | Metoksiasetilfentanil | 0,0002 | 0,001 | 1 |
| 118. | Metoksiketamin | 0,02 | 0,1 | 200 |
| 119. | Metopon | 0,5 | 2,5 | 500 |
| 120. | MFPP (MPPP, 1-metil-4-fenil-4-piperidinol propionat (efir)) | 0,5 | 2,5 | 500 |
| 121. | Mirofin | 0,5 | 2,5 | 500 |
| 122. | Moramidin aralıq məh-sulu | 0,5 | 2,5 | 500 |
| 123. | Morferidin | 0,5 | 2,5 | 500 |
| 124. | Morfin (əsası və duzla-rı) | 0,05 | 2,5 | 500 |
| 125. | Morfin metilbromid | 0,5 | 2,5 | 500 |
| 126. | Morfinmetobromid | 0,5 | 2,5 | 500 |
| 127. | Morfin-N-oksid | 0,5 | 2,5 | 500 |
| 128. | MT-45 (IC-6) | 0,5 | 2,5 | 1000 |
| 129. | N-(1-benzilpiperidin-4-il)-N-fenilpropanamid (benzilfentanil) | 0,0002 | 0,001 | 0,2 |
| 130. | N-(1-Karbamoil-2-me-tilpropil)-1-pentil-5-fe-nil-1H-pirazol-3-kar-boksamid | 0,05 | 0,25 | 500 |
| 131. | N-(2-adamantil)-1-[(tetrahidropiran-4-il)metil]indazol-3-kar-boksamid (Adamantyl-THPINACA) | 0,05 | 0,25 | 500 |
| 132. | N-(2-fenilpropan-2-il)-1-pentil-1H-pirro-lo[2,3-b]piridin-3-kar- | 0,05 | 0,25 | 500 |

| | | | | |
|---|---|---|---|---|
| | boksamid | | | |
| 133. | N-(3,3-dimetilbutan-2-il)-1,3-benzodioksol-5-karboksamid | 0,6 | 3 | 600 |
| 134. | N-[(1S)-1-karbamoil-2,2-dimetilpropil]-3-(3-hidroksi-3-metilbutil)-2-oksobenzimidazol-1-karboksamid (PF-03550096) | 0,05 | 0,25 | 500 |
| 135. | N-[1-(2H-1,3-benzodi-oksol-5-il)-propan-2-il]-N-metilhidroksila-min (FLEA) | 0,5 | 2,5 | 500 |
| 136. | N-[2-(dimetilami-no)sikloheksil]-N-me-til-3,4-dixlorbenzamid (U-47700) | 0,5 | 2,5 | 1000 |
| 137. | Naftalin-2-il-1-(2-ftor-fenil)-1H-indazol-3-karboksilat (3-CAF) | 0,05 | 0,25 | 500 |
| 138. | N-fenil-1-pentil-1H-in-dol-3-karboksamid | 0,05 | 0,25 | 500 |
| 139. | N-fenil-N-[1-(tiofen-2-ilmetil)piperidin-4-il]propanamid (tenil-fentanil) | 0,0002 | 0,001 | 0,2 |
| 140. | N-hidroksi-2-[2,5-di-metoksi-4-(propilsulfa-nil)fenil]etanamin (HOT-7) | 0,05 | 0,25 | 500 |
| 141. | Nikodikodin | 0,5 | 2,5 | 500 |
| 142. | Nikokodin | 0,5 | 2,5 | 500 |
| 143. | Nikomorfin | 0,5 | 2,5 | 500 |
| 144. | N-metil-1,2-difenileti-lamin | 0,02 | 0,1 | 200 |
| 145. | Norasimetadol | 0,5 | 2,5 | 500 |
| 146. | Norkodein | 0,5 | 2,5 | 500 |
| 147. | Norlevorfanol | 0,5 | 2,5 | 500 |
| 148. | Normetadon | 0,5 | 2,5 | 500 |

| | | | | |
|---|---|---|---|---|
| 149. | Normorfin | 0,5 | 2,5 | 500 |
| 150. | Norpipanon | 0,5 | 2,5 | 500 |
| 151. | O-(adamantan-1-il)-1-pentil-1H-indazol-3-karboksilat | 0,05 | 0,25 | 500 |
| 152. | Okfentanil | 0,0002 | 0,001 | 1 |
| 153. | Oksikodon | 0,5 | 2,5 | 500 |
| 154. | Oksimorfon | 0,5 | 2,5 | 500 |
| 155. | Oripavin (3-O-dimetil-tebain) | 0,2 | 1 | 200 |
| 156. | Ortoflüorofentanil | 0,0002 | 0,001 | 1 |
| 157. | Papaveratum (pantapon, omnopon) | 0,05 | 2,5 | 500 |
| 158. | Paraflüorbutirilfentanil | 0,0002 | 0,001 | 0,2 |
| 159. | Para-flüorofentanil | 0,0002 | 0,001 | 0,2 |
| 160. | PEPAP | 0,5 | 2,5 | 500 |
| 161. | Petidin | 0,5 | 2,5 | 500 |
| 162. | Petidinin aralıq məhsulu A | 0,5 | 2,5 | 500 |
| 163. | Petidinin aralıq məhsulu B | 0,5 | 2,5 | 500 |
| 164. | Petidinin aralıq məhsulu C | 0,5 | 2,5 | 500 |
| 165. | Piminodin | 0,5 | 2,5 | 500 |
| 166. | Piritramid | 0,05 | 2,5 | 500 |
| 167. | Proheptazin | 0,5 | 2,5 | 500 |
| 168. | Propanidid | 0,5 | 3 | 600 |
| 169. | Propiram (N-(1-metil-2-piperidinoetil)-N-2-piridilpropionamid) | 0,5 | 2,5 | 500 |
| 170. | Rasemetorfan | 0,5 | 2,5 | 500 |
| 171. | Rasemoramid | 0,5 | 2,5 | 500 |
| 172. | Rasemorfan | 0,5 | 2,5 | 500 |
| 173. | Remifentanil | 0,002 | 0,01 | 2 |
| 174. | Sikloheksil-[1,1'-bifenil]-3-ilkarbamat (URB602) | 0,05 | 0,25 | 500 |
| 175. | Siklopropilfentanil | 0,0002 | 0,001 | 0,2 |
| 176. | Sufentanil | 0,0002 | 0,001 | 0,2 |

| | | | | |
|---|---|---|---|---|
| 177. | Tebain | 0,2 | 1 | 200 |
| 178. | Tebakon (asetildihidro-kodeinon) | 0,5 | 2,5 | 500 |
| 179. | Tetrahidrofuranilfenta-nil (THF-F) | 0,0002 | 0,001 | 0,2 |
| 180. | Tilidin | 0,5 | 2,5 | 500 |
| 181. | Tiofentanil | 0,0002 | 0,001 | 0,2 |
| 182. | Tiryək (o cümlədən ekstrasiya edilən) | 0,5 | 50 | 5000 |
| 183. | Trimeperidin | 0,05 | 2 | 80 |

# II SİYAHI
## Psixotrop maddələr

| Sıra №-si | Dərman preparatları-nın beynəlxalq adı | Xeyli miq-dar (təmiz halda qramlarla) daxil ol-maqla, aşa-ğı hədləri | Külli miq-dar (təmiz halda qramlarla) daxil ol-maqla, aşa-ğı hədləri | Xüsusilə külli miq-dar (təmiz halda qramlarla) daxil ol-maqla, aşa-ğı hədləri |
|---|---|---|---|---|
| 1. | (2-Morfolin-4-iletil)-1-fenilsikloheksan-1-kar-boksilat (PRE-084) | 0,5 | 5 | 1000 |
| 2. | 2 C-B | 0,01 | 0,05 | 10 |
| 3. | 25B-NBOMe (2C-B-NBOMe) | 0,0005 | 0,0015 | 0,3 |
| 4. | 25C-NBOMe (2C-C-NBOMe) | 0,0005 | 0,0015 | 0,3 |
| 5. | 25I-NBOMe (2C-I-NBOMe) | 0,0005 | 0,0015 | 0,3 |
| 6. | 2-Metil-3-(2-metoksi-4-nitrofenil)-3,4-dihidroxi-nazolin-4-on (nitrome-takvalon) | 1 | 5 | 1000 |
| 7. | 3-(2,6-Dixlorfenil)-2-etil-3,4-dihidroxinazo-lin-4-on (xlorokvalon) | 1 | 5 | 1000 |
| 8. | 3-(2-Etilfenil)-2-metil-3,4-dihidroxinazolin-4-on (etakvalon) | 1 | 5 | 1000 |
| 9. | 4-Flüoramfetamin (4-FA, 4-FMP, PAL-303, para-flüoramfetamin (PFA)) | 0,01 | 0,05 | 10 |
| 10. | 4-metilaminoreks | 0,01 | 0,05 | 10 |
| 11. | 4-MTA (4-metiltioamfe-tamin) | 0,02 | 1 | 200 |
| 12. | 5F-APİNACA (5F- | 0,05 | 0,25 | 500 |

| | | | | |
|---|---|---|---|---|
| | AKB-48) | | | |
| 13. | 5F-MDMB-PİNACA (5F-ADB) | 0,05 | 0,25 | 500 |
| 14. | 5F-PB-22 (5F-QUPIC, Xinolin-8-il-1-(5-flüor-pentil)-1H-indol-3-karboksilat) | 0,05 | 0,25 | 500 |
| 15. | AB-CHMİNACA | 0,05 | 0,25 | 500 |
| 16. | AB-PİNACA | 0,015 | 0,15 | 300 |
| 17. | ADB-CHMİNACA (MAB-CHMİNACA) | 0,05 | 0,25 | 500 |
| 18. | ADB-FUBİNACA | 0,05 | 0,25 | 500 |
| 19. | alfa-pirrolidinovalerofenon (a-PVP) | 0,3 | 3 | 600 |
| 20. | Allobarbital | 1 | 10 | 2000 |
| 21. | Alprazolam | 0,03 | 0,1 | 20 |
| 22. | AM-2201 (JWH 2201) | 0,01 | 0,05 | 10 |
| 23. | Amfepramon (dietilpropion, fepranon) | 0,2 | 1,6 | 320 |
| 24. | Amfetamin | 0,15 | 2 | 400 |
| 25. | Amineptin | 5 | 25 | 5000 |
| 26. | Aminoreks | 0,01 | 0,1 | 20 |
| 27. | Amobarbital | 0,6 | 3 | 600 |
| 28. | Aprobarbital | 2 | 10 | 2000 |
| 29. | Asetildihidrokodein | 0,01 | 1 | 200 |
| 30. | Barbital | 0,6 | 15 | 3000 |
| 31. | Benzfetamin | 0,75 | 7,5 | 1500 |
| 32. | Brallobarbital | 2 | 10 | 2000 |
| 33. | Brolamfetamin (DOB) | 0,001 | 1,002 | 200,04 |
| 34. | Bromazepam | 1 | 10 | 2000 |
| 35. | Brotizolam | 2 | 10 | 2000 |
| 36. | Buprenorfin | 0,005 | 0,025 | 5 |
| 37. | Butalbital | 0,75 | 7,5 | 1500 |
| 38. | Butobarbital | 1,5 | 7,5 | 1500 |
| 39. | BZP, N-benzilpiperazin | 0,3 | 1,5 | 300 |
| 40. | CUMYL-4CN-BİNACA | 0,05 | 0,25 | 500 |
| 41. | Deksamfetamin | 0,15 | 1,5 | 300 |
| 42. | Dekstrometorfan | 0,5 | 3 | 600 |
| 43. | Delorazepam | 0,03 | 0,5 | 100 |

| | | | | |
|---|---|---|---|---|
| 44. | DET | 0,02 | 1 | 200 |
| 45. | Dezxloretizolam | 1 | 5 | 1000 |
| 46. | Diazepam | 2 | 50 | 10000 |
| 47. | Diklazepam | 1 | 5 | 1000 |
| 48. | DMA | 0,02 | 1 | 200 |
| 49. | DMQP | 0,05 | 5 | 1000 |
| 50. | DMT (dimetiltriptamin) | 0,5 | 2,5 | 500 |
| 51. | DOET | 0,001 | 0,01 | 2 |
| 52. | Dronabinol (delta-9- tetrahidrokannabinol) | 0,05 | 0,25 | 25 |
| 53. | Efedrindən kustar yolla alınan preparatlar | 1 | 100 | 5000 |
| 54. | Efedron | 0,3 | 3 | 600 |
| 55. | Estazolam | 0,2 | 0,5 | 100 |
| 56. | Etil Loflazepat | 0,02 | 0,2 | 40 |
| 57. | Etilamfetamin-N-etilamfetamin | 0,3 | 3 | 600 |
| 58. | Etilfenidat | 0,2 | 1 | 200 |
| 59. | Etilon | 0,2 | 2,5 | 500 |
| 60. | Etinamat | 5 | 50 | 10000 |
| 61. | Etisiklidin FSH | 0,01 | 0,02 | 4 |
| 62. | Etizolam | 1 | 5 | 1000 |
| 63. | Etriptamin | 0,5 | 2,5 | 500 |
| 64. | Etxlorvinol | 5 | 50 | 10000 |
| 65. | Fenazepam | 2 | 50 | 10000 |
| 66. | Fendimetrazin | 0,7 | 7 | 1400 |
| 67. | Fenetillin | 0,5 | 5 | 1000 |
| 68. | Fenkamfamin | 0,8 | 8 | 1600 |
| 69. | Fenmetrazin | 0,5 | 5 | 1000 |
| 70. | Fenobarbital | 2,5 | 15 | 3000 |
| 71. | Fenproporeks | 0,2 | 2 | 400 |
| 72. | Fensiklidin (FSP) | 0,02 | 0,1 | 200 |
| 73. | Fentermin | 0,15 | 1,5 | 300 |
| 74. | Fludiazepam | 0,05 | 0,5 | 100 |
| 75. | Flunitrazepam | 0,1 | 0,5 | 100 |
| 76. | Flurazepam | 0,3 | 3 | 600 |
| 77. | Fonazepam | 1 | 5 | 1000 |
| 78. | Ftorbromazepam | 1 | 5 | 1000 |
| 79. | Ftorbromazolam | 1 | 5 | 1000 |

| | | | | |
|---|---|---|---|---|
| 80. | FUB-AMB (MMB-FU-BİNACA, AMB- FUBİ-NACA) | 0,05 | 0,25 | 500 |
| 81. | Heptabarbital | 2 | 10 | 2000 |
| 82. | Xlordiazepoksid | 1 | 10 | 2000 |
| 83. | XLR-11 | 0,05 | 0,25 | 500 |
| 84. | JWH-018 | 0,01 | 0,05 | 100 |
| 85. | Kamazepam | 0,3 | 3 | 600 |
| 86. | Katin (+) - Norpsevdoe-fedrin | 0,2 | 2 | 400 |
| 87. | Katinon | 0,02 | 1 | 200 |
| 88. | Ketazolam | 0,3 | 3 | 600 |
| 89. | Klobazam | 0,2 | 2 | 400 |
| 90. | Kloksazolam | 0,1 | 1 | 200 |
| 91. | Klonazepam | 0,1 | 1 | 200 |
| 92. | Klonazolam | 1 | 5 | 1000 |
| 93. | Kloniprazepam | 1 | 5 | 1000 |
| 94. | Klorazepat | 0,2 | 2 | 400 |
| 95. | Klotiazepam | 0,15 | 1,5 | 300 |
| 96. | Kvazepam | 0,2 | 1 | 200 |
| 97. | Lefetamin (SPA) | 0,75 | 7,5 | 1500 |
| 98. | Levamfetamin | 0,15 | 1,5 | 300 |
| 99. | Levometamfetamin | 0,15 | 1,5 | 300 |
| 100. | Lizerqid (LSD, LSD-25) | 0,0001 | 0,005 | 0,1 |
| 101. | Loprazolam | 0,2 | 2 | 400 |
| 102. | Lorazepam | 0,15 | 1 | 200 |
| 103. | Lormetazepam | 0,1 | 0,5 | 100 |
| 104. | Mazindol | 0,1 | 1 | 200 |
| 105. | MDE, N-etil MDA | 0,02 | 1 | 200 |
| 106. | MDMA | 0,03 | 5 | 1000 |
| 107. | MDMB-CHMİCA | 0,05 | 0,25 | 500 |
| 108. | MDPV-3,4-metilendiok-sipirovaleron | 0,6 | 3 | 600 |
| 109. | Medazepam | 0,2 | 2 | 400 |
| 110. | Mefedron (4-metilmet-katinon) | 0,2 | 2,5 | 500 |
| 111. | Mefedron (4-metilmet-kation) | 0,2 | 2,5 | 500 |
| 112. | Mefenoreks | 0,6 | 6 | 1200 |

| | | | | |
|---|---|---|---|---|
| 113. | Meklokvalon | 0,5 | 2,5 | 500 |
| 114. | Meklonazepam | 1 | 5 | 1000 |
| 115. | Meprobamat | 5 | 25 | 5000 |
| 116. | Meskalin | 0,03 | 5 | 1000 |
| 117. | Metakvalon | 0,05 | 1 | 200 |
| 118. | Metamfetamin | 0,15 | 2 | 400 |
| 119. | Metamfetamin rasemat | 0,15 | 1,5 | 300 |
| 120. | Metilfenidat | 0,2 | 1 | 200 |
| 121. | Metilfenobarbital | 1 | 10 | 2000 |
| 122. | Metilon (beta-keto-MDMA) | 0,2 | 2,5 | 500 |
| 123. | Metiopropamin (MPA) | 0,2 | 1 | 200 |
| 124. | Metiprilon | 2 | 20 | 4000 |
| 125. | Metkatinon | 0,15 | 1,5 | 300 |
| 126. | Metoksetamin (MXE) | 0,2 | 1 | 500 |
| 127. | Midazolam | 1,5 | 10 | 2000 |
| 128. | MMDA | 0,02 | 1 | 200 |
| 129. | N-etilnorpentilon (efilon) | 0,05 | 0,25 | 50 |
| 130. | N-hidroksi MDA | 0,02 | 1 | 200 |
| 131. | N-hidroksi-2-(difenilmetilsulfinil)asetamid (adrafinil) | 0,5 | 5 | 1000 |
| 132. | Nifoksipam | 1 | 5 | 1000 |
| 133. | Nimetazepam | 1,5 | 10 | 2000 |
| 134. | Nitrazepam | 1 | 5 | 1000 |
| 135. | Nordazepam | 2 | 10 | 2000 |
| 136. | Oksazepam | 1,5 | 10 | 2000 |
| 137. | Oksazolam | 1 | 10 | 2000 |
| 138. | Paraheksil | 0,05 | 5 | 1000 |
| 139. | Para-metil-4-metilaminoreks (4,4'- DMAR, 4.4' Dimetilaminoreks) | 0,5 | 2,5 | 500 |
| 140. | Para-metoksimetilamfetamin (PMMA) | 0,5 | 2,5 | 500 |
| 141. | Pemolin | 0,4 | 4 | 800 |
| 142. | Pentazosin | 2 | 10 | 2000 |
| 143. | Pentedron | 0,0002 | 0,001 | 0,2 |
| 144. | Pentobarbital | 0,6 | 30 | 6000 |

| | | | | |
|---|---|---|---|---|
| 145. | Pentozosin | 0,03 | 1,5 | 300 |
| 146. | Pinazepam | 0,15 | 1,5 | 300 |
| 147. | Pipradrol | 0,3 | 13 | 2600 |
| 148. | Pirazolam | 1 | 5 | 1000 |
| 149. | Pirovaleron | 0,4 | 4 | 800 |
| 150. | PMA | 0,02 | 1 | 100 |
| 151. | Prazepam | 0,3 | 3 | 600 |
| 152. | Psilosibin | 0,01 | 0,1 | 20 |
| 153. | Psilosin, psilotsin | 0,01 | 0,1 | 20 |
| 154. | Qalazepam | 1 | 10 | 2000 |
| 155. | Qaloksazolam | 0,5 | 5 | 1000 |
| 156. | Qlütetimid | 2,5 | 25 | 2000 |
| 157. | QOMK | 40 | 300 | 60000 |
| 158. | Rolisiklidin (FHP, FSPİ) | 0,01 | 0,05 | 10 |
| 159. | Sekbutabarbital | 2 | 10 | 2000 |
| 160. | Sekobarbital | 0,75 | 7,5 | 1500 |
| 161. | Siklobarbital | 0,2 | 20 | 4000 |
| 162. | Sinazepam | 1 | 5 | 1000 |
| 163. | STP, DOM | 0,002 | 0,01 | 2 |
| 164. | Temazepam | 0,2 | 2 | 400 |
| 165. | Tenamfetamin | 0,002 | 1 | 200 |
| 166. | Tenosiklidin (TSP) | 0,01 | 0,05 | 10 |
| 167. | Tetrahidrokannabinol (bütün izomerləri) | 0,05 | 0,25 | 50 |
| 168. | Tetrazepam | 1 | 10 | 2000 |
| 169. | TMA (alfa-metilmeska-lin) | 0,01 | 0,05 | 10 |
| 170. | Triazolam | 0,015 | 0,02 | 4 |
| 171. | UR-144 | 0,05 | 0,25 | 500 |
| 172. | Vinbarbital | 2 | 10 | 2000 |
| 173. | Vinilbital | 1,5 | 15 | 3000 |
| 174. | Zipeprol | 0,5 | 3 | 600 |
| 175. | Zolpidem | 1 | 10 | 2000 |

# III SİYAHI
## Tərkibində narkotik maddələr olan bitkilər

| Bitkilərin adı | Tərkibində narkotik maddələr olan bitkilərin (onların hissələrinin) miqdarları | | |
|---|---|---|---|
| | **Xeyli miqdar** | **külli miqdar** | **xüsusilə külli miqdar (daxil olmaqla, aşağı hədləri)** |
| 1. Azərbaycan Respublikasında bitən, tərkibində narkotik maddələr olan bitkilər: | | | |
| 1.1. tiryək xaşxaşı, yağlı xaşxaşın digər növləri | 2-10 ədəd (4-20 hissə) | 11-550 ədəd (21-1050 hissə) | 551 ədəd (1051 hissə) |
| 1.2. çətənə növlü bitkilər | 3-15 ədəd (6-30 hissə) | 16-800 ədəd (31-1550 hissə) | 801 ədəd (1551 hissə) |
| 2. çoxillik xaşxaşın və yabanı bitmiş çətənənin kol-kosları | 3-50 ədəd (6-100 hissə) | 51-2550 ədəd (101-5050 hissə) | 2551 ədəd (5051 hissə) |
| 3. Azərbaycan Respublikasının ərazisində iqlim şəraitinə görə bitməyən bitkilər: | | | |
| 3.1. kokain kolu | 1 ədəd (2 hissə) | 2-100 ədəd (3-150 hissə) | 101 ədəd (151 hissə) |
| 3.2. kat | 2 ədəd (4 hissə) | 3-150 ədəd (5-250 hissə) | 151 ədəd (251 hissə) |
| 3.3. mimoza hostilis (Mimosa tenuiflora) | 1 ədəd (2 hissə) | 2-100 ədəd (3-150 hissə) | 101 ədəd (151 hissə) |

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 21 noyabr 2023-cü il
№ 1025-VIQD

**VASİF SALMAN OĞLU QULİYEV**

# NARKOMANLIĞA, NARKOTİK VASİTƏLƏRİN VƏ PSİXOTROP MADDƏLƏRİN QANUNSUZ DÖVRİYYƏSİNƏ QARŞI MÜBARİZƏ: KOMPARATİV - TƏHLİL

Naşir: Ceyhun Əliyev
Texniki redaktor: Yeganə Rəfiyeva

Yığılmağa verilib: 27.01.2026
Çapa imzalanıb: 20.02.2026
Tiraj 500, şərti çap vərəqi 19
"Ecoprint" nəşriyyatının mətbəəsində çap olunmuşdur.
Tel: +994 55 216 09 91